EMİN KƏRİMOV

# İnsan, Sivilizasiya, Yaxın Şərq

Bakı - 2017

Kitab neoliberal dövrdə Yaxın və Orta Şərqlə bağlı imperialist layihələrin təhlilini özündə əks etdirir. Eyni zamanda kitabda sinifli sivilizasiyanın yaranması və inkişafı ilə bağlı müxtəlif maraqlı fikirlərlə tanış ola bilərsiniz. Kitabda əsasən freudomarksist konsepsiyalara istinadla verilmiş izahlar və eləcə də sakral mövqedən baxışların obyektiv inkişaf şərtləri sekulyar düşüncədən təhlil edilmişdir. Xilas dini kimi ortaya çıxmış Yaxın Şərq monoteizminin sonralar ətalətə çevrilməsi və bu kimi digər cəlbedici mövzular tədqiq edilmişdir.



## Ön söz əvəzi

XX əsrin 90-cı illəri beynəlxalq münasibətlər tarixinin spesifik dövrü hesab edilməklə bərabər, həm də siyasi proseslərin sürətli inkişafı ilə yadda qaldı. Belə ki, "soyuq müharibə"nin bitməsi ilə beynəlxalq münasibətlər tarixinin "Yalta - Potsdam sistemi" öz əhəmiyyətini itirmiş, yeni tipli təkqütblü dünya nizamı formalaşmağa başlamışdır. Doğrudur, bəzi neomarksistlərin (İmmanuil Vallerştayn) iddiasına görə "soyuq müharibə" heç də ABŞ-ın qələbəsi ilə bitməmişdir. Onlar bunu 1990-cı illərin ortalarında Şərqi Avropa və Post – Sovet ölkələrində kommunistlərin legitim şəkildə hakimiyyətə gəlməsi ilə izah edirdilər. Lakin 2000-ci illərdən sonra ABŞ rəsmiləri dünyada təkqütblü sistemin möhkəm əsaslara söykənməsi üçün konkret istiqamətlərdə fəaliyyətə keçdilər. Bu fəaliyyət ayrı – ayrı rəsmi sənədlərdə, hesabatlarda, elmi dərgilərdə və xüsusiylə hakimiyyətə yaxın təşkilatların müxtəlif rəsmi açıqlamalarında ümumi konsepsiya kimi təqdim edilmişdir. Belə ki, ABŞ siyasi elminin nüfuzlu nümayəndələrinin, məşhur politoloqların "Böyük Orta Şərq" kimi adlandırdıqları strategiya müasir beynəlxalq münasibətlərin inkişaf parametrlərini müəyyənləşdirən ən iri miqyaslı hərbi – siyasi ekspansiya planıdır.

Məhz bu plan ABŞ-ın dünya dövlətlərinə münasibətini aydın göstərməklə, rəsmi Vaşinqtonun həm müttəfiqlərini, həm də rəqiblərini müəyyən edir. Doğrudur müasir siyasi proseslər olduqca dəyişkən olduğu üçün dünya dövlətlərininmövqelərində də tez – tez dəyişikliklər müşahidə olunur. ABŞ-ın yeni strategiyasına uyğun neokolonializm siyasətinə qarşı region ölkələrinin münasibəti politologiya elmində maraq doğuran faktorlardandır. Region dövlətlərinin bir – birinə qarşı tutduqları mövqelər və bu şəraitdən rəsmi Vaşinqtonun müxtəlif üsullarla yararlanması siyasi elmdə aktual məsələlərdəndir.

Kitabda Yaxın və Orta Şərq ölkələrinin ABŞ-a münasibəti və bu münasibətlər sisteminin siyasi, iqtisadi, sosial əsaslarının tədqiq olunması xüsusi aktuallıq kəsb edir. Xüsusiylə qeyd etmək lazımdır ki, Yaxın və Orta Şərqin ayrı – ayrı ölkələrinin "Böyük Orta Şərq" layihəsinə münasibəti kompleks formada təhlil edilmişdir. Belə ki, bu regionda baş verən hər bir ciddi hadisə ümumdünya əhəmiyyətli böhrana səbəb

ola biləcək çəkiyə malikdir. Dünya neft ehtiyatının 3/1-nin və əsas dəniz boğazlarının bu regionda yerləşməsi bu ərazilərin geosiyasi əhəmiyyətini artırır. Regionda baş verə biləcək hadisələrin təsir imkanlarını qabaqcadan dəqiq ölçə bilmək üçün ciddi araşdırmalara ehtiyac vardır. Bu mənada Yaxın və Orta Şərqdə mövcud olan əsas hərəkətverici qüvvələrin sosial – iqtisadi, ictimai – siyasi bazasının dissertasiya çərçivəsində tədqiq edilməsi elmi işin aktuallığından xəbər verir.

Nəhayət qeyd etmək lazımdır ki, ABŞ-ın Qafqazla, o cümlədən Azərbaycanla bağlı planlarının "Böyük Orta Şərq" layihəsində yer aldığını da nəzərə alsaq, əsər elmi – siyasi əhəmiyyət kəsb edir.Tədqiqat işi hər şeydən qabaq Yaxın və Orta Şərqdə ABŞ üçün kabusa çevrilmiş bir dövlətin – İran İslam Respublikasının ABŞ-ın planlarındakı yerini müəyyənləşdirmək məqsədi daşıyır. Regionun ən ciddi fiquru səviyyəsinə çatmış İran özünün rıçaqları vasitəsiylə qonşu dövlətlərə təsir edir, onların ABŞ-la münasibətlərində gərginlik yaratmağa, vəziyyəti kəskin şəkildə rəsmi Tehranın xeyrinə dəyişməyə çalışır. İran özünün şiələr(cəfəri) üçün dini mərkəz olmasından yararlanaraq, digər ölkələrdəki şiələri (cəfəri) təşkilatlandırmaqla öz təhlükəsizliyini təmin etməyə çalışır. Belə ki, İraqda ABŞ üçün əsl baş ağrısı olan İran eyni zamanda Suriyada rəsmi Vaşinqtonun öz hədəflərinə çatmasına ciddi şəkildə mane oldu. Eyni zamanda Səudiyyə Ərəbistanının öz siyasi nüfuzunu Fars körfəzi rayonunda artırmaq cəhdlərinin qarşısını da məhz İran aldı. Həm Suriyada, həm də İraqda döyüşən tərəflərin İran, Səudiyyə Ərəbistanı, Türkiyə və ABŞ tərəfindən dəstəklənməsini nəzərə alaraq, siyasi proseslərin hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirmək xüsusi əhəmiyyət kəsb edir. Adı çəkilən dövlətlərin mövqelərini formalaşdıran prinsipial parametrləri araşdırmaq baxımından – dissertasiya xüsusi aktuallığa malikdir.

İranın geoiqtisadi, geopolitik və konfessional əhəmiyyətini araşdırmaqla, rəsmi Tehranın müxtəlif siyasi hadisələrə münasibətini qabaqcadan öyrənmək mümkündür. Belə ki, İran ərazisində tarix boyu mövcud olmuş bütün dövlətlərin xarici siyasətinin formalaşmasında İranın yerləşdiyi coğrafi ərazisi, relyefi əhəmiyyətli təsirə malik olmuşdur. Nəzərə alsaq ki, region ölkələrinin ciddi şəkildə ehtiyatlandığı İran siyasi hadisələrin axarını dəyişməkdə əhəmiyyətli təsirə malikdir, deməli onun siyasi

qərarlarını da qabaqcadan proqnozlaşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Kitabda İranın həm relyefi, həm ətraf ərazilərdəki fiziki – coğrafi hədlərinin araşdırılması prioritet məsələlərdəndir. İran İslam Respublikasının Azərbaycan Respublikası ilə tarixi – mədəni əlaqələrə malik olması, ölkəmizin güclü qonşusu olduğunu nəzərə alaraq, onun rəsmi Bakının xarici siyasətindəki yerini bilmək vacibdir. İranın ABŞ üçün "şər dövləti" olması, Azərbaycanın isə dünya bazarlarına öz korbohidrogen ehtiyatlarını çıxarmaqda rəsmi Vaşinqtondan həm siyasi, həm də iqtisadi dəstək alması olduqca həssas vəziyyət yaratmış olur. Belə hallarda müxtəlif siyasi tədqiqat mərkəzlərində strateji qərarların və proqnozların verilməsi zamanı ciddi informasiya tələbatının ödənilməsi ciddi əhəmiyyət kəsb edir.

İranın Qafqazla bağlı strateji məqsədlərinin formalaşmasına Tehranda fəaliyyət göstərən "Arran" mədəniyyət mərkəzi və "Qafqaz" tədqiqatlar mərkəzi tərəfindən hazırlanan hesabatlar xüsusi rola malikdir. Məhz bu hesabatların hansı ölçüdə təsir imkanlarına malik olması və bu məqsədlərin istiqamətini araşdırmaq dissertasiyanı aktuallaşdıran problemlərdəndir.

Nüvə enerjisi bəşəriyyətin elmi nailiyyətləri sırasında xüsusi əhəmiyyətə malikdir. Lakin bu enerjinin istilik – nüvə (termo – nuklear) silahı kimi istifadə edilməsi dünya ictimaiyyətini narahat edən ən vacib faktorlardandır. Məhz bu faktor dünya ölkələrini nüvə enerjisindən sülh məqsədləri üçün istifadə edərkən, maksimum həssaslıq nümayiş etdirməyə vadar edir. Çünki, nüvə enerjisinin əldə olunması elm tutumlu xüsusi infrastruktur yaradılmasını tələb edir. Bu infrastruktur isə öz növbəsində nüvə texnologiyası sahəsində fəaliyyətin genişləndirilməsini təmin edir. Bu fəaliyyətin genişləndirilməsi isə nüvə silahının istehsalı riskini yaradır. Nüvə enerjisindən istifadə etmək üçün bütün imkanlarını səfərbər etmiş, İran İslam Respublikası bütün dünya ictimaiyyətinin diqqətini özüzərinə çəkmişdir. İİR-in rəsmi dairələri nüvə enerjisindən hərbi məqsədlər üçün istifadə etməyəcəyini rəsmi şəkildə bildirsələr də, bu məsələdə qaranlıq qalan məqamlar hələ də mövcuddur. İran İslam Respublikasının məhz Azərbaycan Respublikasının cənub qonşusu olması, rəsmi Tehranla münasibətlərin həssaslığı kitabda öz əksini tapmışdı.

“Böyük Orta Şərq” layihəsində İran faktoru ayrıca tədqiq edilməmişdir. Tədqiqatçıların böyük əksəriyyəti “Böyük Orta Şərq” layihəsini ümumi kontekstdə tədqiq etmiş, digər qismi ABŞ – İran münasibətlərindəki mürəkkəb prosesləri araşdırmış, hətta sırf İranın sosial – siyasi özünəməxsusluğunu və qanunauyğunluğunu tədqiqat işlərində işıqlandırmışlar.

Azərbaycan dilli tədqiqatçılar əsasən İranın tarixi, geosiyasi xarakteri, siyasi – ictimai strukturu istiqamətində geniş tədqiqatlar aparmışlar. Eləcə də Yaxın və Orta Şərq ölkələrinin demoqrafik, etnoqrafik özünəməxsusluğunu araşdırmış Azərbaycan dilli tədqiqatçılar da vardır ki, bu tədqiqatçılardan Ağacan H.A., Altınbay O.A., Babayev Y.M., Fətişoğlu R.F., Əfəndiyev O.Ə, Əjdəri D.B., Əlibəyli H.C., Əzğədi H.R., Hüseynov H.B., Hüseynov T.B., Hüseyni S.C., İsmayılov R.İ. və s. adlarını çəkmək olar. Həsən Hüseynov özünün “Şərq – Qərb münasibətlərində qloballaşma: ideya – siyasi mübarizə anlamında” kitabında İslam dünyasında İranın mənəvi yerini dəqiqliklə göstərmiş, Qərb ölkələrinin müsəlmanlara qarşı qərəzli mövqeyinin köklərini araşdırmışdır. Kitab 2005-ci ildə Bakıda nəşr olunmuşdur.

Türkiyə əsilli tədqiqatçıların elmi araşdırmaları kifayət qədər samballı mənbə olsa da, bu tədqiqat işlərinin əksəriyyətində Türkiyə Respublikasının “Böyük Orta Şərq” layihəsinə baxışı ya tam işıqlandırılmır, ya da ümumiyyətlə bu haqda heç nə qeyd edilmir. Halbuki, Türkiyənin müasir siyasi böhranlarının kökündə məhz ABŞ-ın, rəsmi Ankaraya açıq şəkildə etdiyi təzyiqlər dayanır. Suat Parların 2002-ci ilin mayında işıq üzü görmüş “Orta Şərq vəd edilmiş torpaqlar” (“Ortadoğu vaat edilmiş topraklar”) adlı tədqiqat işində ABŞ-ın “Böyük Orta Şərq” layihəsi müxtəlif prizmalardan tədqiq edilmişdir. Tükiyənin Milli İstihbarat Təşkilatının (MİT) əməkdaşı olmuş Mahir Kaynak özünün 2005-ci ilin martında nəşr olunmuş, “Böyük Orta Şərq layihəsi və Türkiyəyə dair strateji analizlər” (“Büyük Ortadogu Projesi ve Türkiye uzerine stratejik analizler”) kitabında Yaxın və Orta Şərqdə demokratiyanın yaşaya bilməməsinin əsas səbəblərini göstərmişdir. Kemal Evcioğlu özünün 2005-ci ildə Baykəntdə çap etdirdiyi “ABŞ-ın Böyük Orta Şərq layihəsi” (“ABD-nin Büyük Ortadoğu Projesi”) kitabında ABŞ-ın atacağı addımları ayrı – ayrılıqda təhlil etmişdir. K.Evcioğluna görə ABŞ-ın monopolyar dünya nizamı yaratmaq istəyi onu

hətta böyük bir coğrafiyada açıq konfrantasiyaya girməyə sürükləyir. 2007-ci ildə Türkiyənin Kocaeli şəhərində Mustafa Erceylanın müəllifi olduğu "Böyük Orta Şərq layihəsində İranın önəmi"("Büyük Orta Doğu Projesində İranın önemi" adlı kitab çap olmuşdur. Bu kitabda dissetasiya ilə birbaşa bağlı olan çox ciddi əhəmiyyətə malik faktlar qeyd edilmişdir. Müəllif İranın nəzarət altına alınmasını ABŞ üçün ən vacib hədəflərdən hesab edir. ABŞ-ın gələcəkdə Yaxın və Orta Şərqə nəzarət etmədiyi təqdirdə nəinki dünyaya nəzarət edə bilməyəcəyini, hətta özünün beynəlxalq arenada malik olduğu mövqelərini də itirəcəyini elmi faktlarla əsaslandırılmışdır. Bu kitabda müəllifin bir qədər məzhəb (xüsusiylə sünni məzhəbinin təəssübkeşliyi hiss olunur) ayrıseçkiliyinə meyl etməsi hiss olunur.

Beyza Tangülü özünün "Böyük Orta Şərq layihəsi" ("Büyük Orta Doğu Projesi") kitabında region ölkələrini ayrı – ayrılıqda nəzərdən keçirmişdir. Müəllif ABŞ-ın Yaxın və Orta Şərq siyasətini müxtəlif variantlarda ehtimal olunan fəaliyyət istiqamətlərini və nəticələrini təhlil etmişdir. Kitab 2006-cı ildə Sivas şəhərində Cümhuriyyət Universitetinin nəzdindəki Sosial Elmlər Tədqiqat İnstitutunda çap olunmuşdur.

Yaxın və Orta Şərq üzrə tədqiqatçılardan biri də Tayyar Arıdır. Onun "Keçmişdən günümüzə Orta Şərq: siyasət, döyüş və diplomatiya" (Geçmişten Günümüze Orta Doğu: Siyaset, Savaş ve Diploması) kitabında ABŞ-ın strateji planlarının Yaxın və Orta Şərqlə bağlı qərarları təhlil olunmuşdur. Sözü gedən kitab 2008-ci ildə Bursada çap olunmuşdur. Tayyar Arı öz kitabında sosial şəbəkələrin siyasi həyata əhəmiyyətli təsirini qeyd edərək, "ərəb baharı" hadisələrində KİV-in rolunu araşdırmışdır.

Rusiya tədqiqatçılarının ümumi fikri bundan ibarətdir ki, ABŞ bütün hallarda İrana yalnız merkantil maraqlarından yanaşmışdır. Rus tədqiqatçılara görə rəsmi Vaşinqtonun təkrar – təkrar söylədiyi "demokratiya, insan hüquq və azadlıqları" və s. kimi ibarələr yalnız maskalanmaq üçün lazımdır.

İran İslam İnqilabının baş verməsi və onun qələbə ilə başa çatmasının səbəbləri S.L.Aqayev tərəfindən qələmə alınmış və 1984-cü ildə dərc edilmiş "İran: respublikanın doğulması" ("Иран: рождение республики") kitabında geniş təhlil

edilmişdir. Belə ki, bu kitabda inqilabın əsas hərəkətverici qüvvələri, onların sosial mənşəyi geniş şəkildə araşdırılmışdır. İnqilabi şəraitin yüksəliş illəri və inqilab baş verdikdən sonrakı kütləvi passionar şərait, başıpozuqluq geniş təsvir edilmiş və real faktlara əsaslanaraq şərh edilmişdir. M.S.İvanovun 1977-ci ildə Moskvada çap olunmuş "İran tarixi" ("История Ирана") kitabında şah hakimiyyətini ABŞ-a yaxınlaşdıran, onu Amerikanın müttəfiqi olmasına gətirib çıxaran tarixi səbəblər araşdırılmışdır. Kitabın müəllifi nə qədər tərəfsiz dayanmağa çalışsa da, 1970-ci illərdə baş vermiş fəhlə hərəkatlarından bəhs edərkən obyektivlikdən çıxdığı müəyyən qədər sezilir. Rus dilli müəlliflərdən bu problemlə bağlı araşdırma aparmış tədqiqatçıların adlarını sadalasaq Duqin A.G., Vereşagin V.V., Lukayanov A.K., Nartov N.A., Primakov Y.M., Turson A.N. və s. adlarını çəkmək olar.

İngilis dilli tədqiqatçılardan "Stratfor" Global İntelligence ("Strategic Forecasting") Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru, politoloq Corc Fridmanın (Chairmann of the "Stratfor" George Fridman) 2009-cu ildə elə həmin mərkəzin rəsmi saytında yayımladığı "İran geopolitikası – bir dağ qalasınm mərkəzi" ("The Geopolitics of İran Holding the Center of a Mountain")[76] geniş elmi məqaləsində İranın nəinki, geopolitik üstünlükləri sadalanmış, hətta bu üstünlüklər tarixin dərin qatlarında baş vermiş hadisələrin məzmunu ilə uzlaşdırılmış və elmi dəlillərlə təhlil edilmişdir. C.Fridmanın məqaləsində düzgün olaraq, İranın özünəməxsusluğunun siyasi rejimin mahiyyətindən asılı olmadığı xüsusiylə qeyd edilmişdir. Məqalədə İran geopolitikasmın mahiyyəti çox aydın və sadə dildə izah edilmişdir. İngilis tədqiqatçılarından bu problemlə məşğul olmuş Angel R., Stephen L., Friedman L., Firer R., Adwan S., Kamen A., Lesser I., Lewis B., Mansfield P., Stephen F., Stockbauer B. və s.

Alman dilli tədqiqat işləri arasında 2004-cü ildə Münhendə çap olunmuş "Yaxın Şərq münaqişəsi" ("Der Nahost Konflikt") kitabı xüsusi əhəmiyyətə malikdir. Kitabın müəllifi Margret Yohansen əsasən İranın Yaxın Şərq münaqişəsinə müdaxilə etməsinin obyektiv səbəblərini və İranın bu münaqişədə tərəf kimi çıxış etdiyi son onilliklərin siyasi dinamikasını araşdırmışdır. Kitab 2001-ci ildə Almaniyanın Visbaden şəhərində çap olunmuşdur. M.Yohansen İranı birtərəfli şəkildə Yaxın Şərq

münaqişəsində sülhün pozulmasında maraqlı olduğunu yazır. Digər alman dilli araşdırmalardan olan 2008-ci ildə Şvalbaxda (Schwalbach std.) çap olunmuş "İsrail – Fələstin münaqişəsinin qısa tarixi" ("Kleine Geschichte des israelisch – palästinensischen Konflikts") kitabıdır. Kitabın müəllifi J.Böhme bu münaqişədə İranın təsir rıçaqlarını araşdırmış və bu mənada Hizbullahı İranın milli mənafeyi kontekstindən tədqiq etmişdir. Bu problemlə bağlı tədqiqatlar aparmış alman müəlliflərdən Dietmar H., Fröhlich M.,Klein U., Thränhardt D., Mathias R., Ulrich J. , Simcha F., Pott M. və s. adlarını saladalamaq olar.

# Sivilizaiyanın yaranması Freydo – Marksist konsepsiya

*Birləşin ey dünya proletarları*

Engelsin "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyinə dair" kitabında ilk ailələrin qrup ailəsi şəklində olması sübut edilmiş, daha sonra insestlə bağlı qadağaların yaranmasına uyğun olaraq ekzoqamiya (kənar qızlarla cinsi əlaqə) ailələrinə üstünlük verilmiş, daha sonra əkinçiliyin, ictimai əmək bölgüsünün gətirdiyi üstünlüklərdən faydalanmaq, metalın kəşfi ilə məhsuldarlığın artması evdə oturub uşağa baxan ananın deyil, evdən kənarda əmək aləti düzəldən kişinin üstünlüyünün sürətlə artması qadınlarda uşağın gələcəyi ilə bağlı yeni fikirlər yaratdı. Belə ki, monoqam ailə anlayışı məhz həmin qadınların doğduğu uşaqların kişilərin bu artan sərvətindən pay alması uğrunda ortaya atdığı ideyadır. Əlbəttə bu ideya qadınları elə bir zəncirə bağlayacaq ki, üç min illik qadın hüquqları mübarizəsi və ümidsiz qadınların məğlubiyyəti yaranacaq. Monoqam ailə qadınların öz doğduğu uşaqlara vərəsə istəklərindən doğmuşdur. Bu da kişilərdə cavab reaksiyası yaratmışdır. Bu reaksiya qadının digər kişilərlə cinsi əlaqəsini qadağan etmək yolunda uzun bir döv keçmiş və nəhayət möhtərəm cənab "namus" anlayışını ortaya atmışdır. Çünki kişi bilməli idi ki, onun vərəsə verəcəyi varis oğul onun öz belindən gəlmiş, qadını başqa heç bir kişiylə cinsi əlaqədə olmamışdır. Məhz bu monoqamiya əslində qadınların monoqamiyasına çevrilmişdir. Çünki kişilər özləri öz poligamiyasını saxlamaqda davam edirdilər. Hətta kişinin sərvətinin artması onun poligamiya meyllərinin güclənməsi ilə müşayiət olunurdu. Qadın isə getdikcə daha çox basdırılırdı. Beləliklə meydana gələn monoqamiya eyni zamanda xüsusi mülkiyyətin güclənməsinə bərabərsizliyin yaranmasına gətirib çıxardı. Bu bərabərsizlik qadınlar arasında ərə gedə bilənlər (sözün həqiqi mənasında bəxti açılmış), ərə gedə bilməyənlər arasında daha qabarıq görünürdü. İkincilər əsasən fahişəlik institutunun subyektlərinə çevrildilər. Çünki kişilərin artan sərvətlərinin onlara çatmayan hissəsindən məhrum olduqları üçün ən azı kiçik bir hissəsini götürmək şansı ola bilərdi. Bu da sonralar "müqəddəs fahişələrin" (Şumer zikkuratları), getaraların (Afina), geiyşaların (Yaponiya), vedma yaxud vedayuşaya mat (slavyanlar, bir qədər xüsusilik təşkil etməsinə baxmayaraq, vedimaların fahişə

olması məhz universal qanunlarla yəni kişilərin artan sərvəti, xüsusi mülkiyyət və monoqamiya ilə bağlıdır) meydana gəlməsinə zəmin yaratdı. Kişilər arasında xüsusi mülkiyyətin əmlak bərabərsizliyi isə dövlət oqanlarını siyasi institutu bütöv bir siyasi orqanizmi tarix səhnəsinə gətirdi.

Budur dövlətin yanarmasının bəsit ardıcıl mənşəyinin etapları. Politologiyaya dair Azərbaycan dilli ədəbiyyatlarda isə dövlətin mənşəyinə dair həm ictimai əmək bölgüsü, həm də insestlə bağlı konsepsiyalar ayrı-ayrılıqda dövlətin mənşəyini təşkil edirmiş kimi verilmişdir. Həm də guya insanlar insestin "ziyan" olduğunu xəstəliklərə gətirib çıxardığını bilmiş olduqlarından dolayı insestlə bağlı tabular yaratmışlar. Böyük yalan.

Bilindiyi kimi bu cür öncəgörmə həmin insanlarda mövcud ola bilməzdi çünki, əvvəla bu cür hadisənin baş verməsini onlar yalnız heyvanlar üzərində obyektv olaraq baxdıqları zaman anlaya bilərdilər. Bilindiyi kimi insestlə bağlı qadağalar heyvanların əhliləşdirilməsindən öncə yaranmışdır bu cür öncəgörmə heç müasir insanların bacarıqları sırasına daxil deyil. Əgər bu mümkün olsaydı heç elmi təcrübə aparmağa ehtiyac qalmazdı. Məlum olduğu kimi Engels bütün bunları yalnızca bərabərsizliyin yaranması ilə fraksiyalar və qəbilələr yəni orta barbarlıq dövrü kimi vermiş təxminən İbtidai və hərbi demokratiya periodlarını əhatə etmişdir. (Hərbi demokratiyanın başlanğıcı) Bundan əlavə insanların ilk qruplaşmasının qrup ailələri olduğunu qeyd edən Engels məhz bu xüsusiyyətinə görə sağ qalmağı bacaran insanın insest qadağalarına necə gəlib çıxdığını izah etməmişdir. Bu məqamda bizim köməyimizə əlahəzrət Freud çatır. Belə ki, öz ruhu etibarı ilə insest münasibətlərindən imtina etməyən Homo-sapiens hansısa qanunun qarşılığında bundan imtina etməli idi. Deməli bu qanun ona görə mövcuddur ki, Homo sapiens bunu edə bilər lakin etməsi üçün şərait yoxdur və ya qadağandır. Yəni oğul ilk gözü düşdüyü qadının anası olmasını inkar etməklə təbiət qanunlarını dəyişə bilməz. Bu onun instinktidir. Yalnız ata qorxusu onda həm ataya nifrət eyni zamanda atanın gücünə və böyük cinsiyyət orqanlarına sayqı yaradır. Bu qorxu eyni zamanda oğulun ata tərəfindən xədim olunma qorxusudur. Bu qorxu ataya qarşı yaranmış nifrət hissinin başqa bir heyvana keçirilməsi ilə uzaqlaşdırılma meyli yaradır. Eyni ilə

həmin heyvana sayqı hissi meydana çıxır. İlk ailələr bir erkəyin gücü çatdığı qədər qadınlarla yaşadığı icmalardır. Bu icmanın başçısı qüdrətli bir kişi idi. Onun bir neçə həyat yoldaşı var idi. Ata öz xanımlarını oğlanlarından qoruyurdu. Oğullar onların cinsi istəkləri yolunda əngəl olan ataya nifrət edir, eyni zamanda onu sevirdilər. Bir gün oğlanlar əlbir olub atanı qətlə yetirir, sonra onu yeyirlər. Freud ata ətinin yeyilməsi səbəbini açıqlayır və deyir: "Onlar güman edirlər ki, bu yolla atanın qüvvəsini əldə etmək olar".

Bir müddət keçdikdən sonra oğlanlar tutduqları əməldən peşiman olur və öz günahlarını yumaq üçün iki qadağa icad edirlər. Əvvəlcə, onlar atanın yerinə bir heyvanı simvol seçirlər. Bu simvol totem adlanırdı. Qardaşlar totemi yeməyi haram iş elan edirlər. Sonra onlar qəbilə arası nigahı özlərinə qadağan edirlər. Freud oğlanların öz atalarını öldürməsini "tarixin ilk cinayəti" adlandırır və totemizm dininin həmin cinayət nəticəsində yarandığını bildirir. Qardaşlar totem dinini yaratdılar ki, yenidən cinayətə əl bulaşdırmasınlar. Bəli, ibtidai və ilkin totemizm inanclardakı günah hissini yumaq üçün ərsəyə gəlir. Freud əlavə edir ki, bütün bəşəri dinlərdə bu amil mühüm rol oynayıb, hərçənd günah müxtəlif dinlərdə müxtəlif ayinlərlə yuyulur.

Freyd son əsəri olan "Musa və təkallahlılıq" kitabında təkallahçı dinlərin kökünü təbii amillərlə izah etməyə çalışır. Onun bu kitabı həm xristianlar, həm yəhudilərin geniş etirazına səbəb olur. Freyd bu kitabda dinlərin tarixini araşdırır, yəhudilik və onun yaranış tarixi haqqında deyir: "Musa rəsmi yəhudilik dinində təbliğ olunduğu kimi yəhud qövmündən deyildi. O, Misir şahzadələrindən idi. Misir fironlarından birinin davamçısı olan Axnaton belə bir qərara gəldi ki, Günəş tanrısı olan Ateni Misirin çoxsaylı tanrıları ilə əvəz etsin. O, bu məqsədlə insanları Atenə sitayişə dəvət edirdi. Lakin Axnaton bu ideyasını həyata keçirə bilmədi. Onun ölümündən sonra Musa yəhud qövmündən olan qulları ətrafına toplayıb bu vəzifəni üzərinə götürdü. Musa onun əleyhinə çıxan insanları ölümə məhkum edirdi. Musa vahid Allaha sitayiş etməyi Bəni-İsrail qövmünə məcbur qəbul etdirdi. Musadan sonra yəhud qövmü Musanın təbliğ etdiyi dini dəyişdi və bu din bütün dinlərə müxalifətdə dayandı.

Beləliklə biz gördük ki, yuxarıda verilmiş üç ayrı-ayrı konsepsiya dövlətin mənşəyinə dair müxtəlif istiqamətlər deyil, eyni istiqamətin ardıcıl düzülüşüdür. Belə ki:

1. Totem daha sonra tabu
2. İctimai əmək bölgüsü,
3. xüsusi mülkiyyətin inkişafı,
4. monoqam ailə,
5. fahişəlik,
6. sosial bərabərsizlik
7. Sosial bərabərsizliyin dərinləşməsi və dövlət.

## Əmək bölgüsü və ticarətin yaranması xalqları formalaşdırdı

Hələ miladdan öncə IV əsrdə Aleksandrın yürüşləri ilə böyük bir hissəsi bir dövlətdə birləşdirilmiş "İpək Yolu" sivilizasiyaya çatmış xalqların yaşadığı ərazilərdən keçməklə Şərqlə Qərbin mədəni, iqtisadi sərvətlərinin mübadiləsində əhəmiyyətli vasitəyə çevrildi. Lakin "İpək Yolu"nun bütün dövrlər üçün stabil işlək vəziyyətdə olduğunu demək çətindir. Belə ki, məhz bu yolun nəzarətə götürülməsi uğrunda gedən mübarizə eyni zamanda "İpək Yolu" üzərindən aparılan ticarətin həcminin azalmasına səbəb olurdu. Bununla belə bu mübarizənin özü də "İpək Yolu"nun əhəmiyyətini sübut edir. Hələ Əhəməni (Haxa-Manaş) şahənşahı I Daranın Kiçik Asiyanın mərkəzindən İranın mərkəzinə qədər uzanan yolu çəkməsi və bu yolda təhlükəsizliyin, rabitə postlarının tam gücüylə işləməsinə nəzarət edirdi. "İpək Yolu"nun hələ ayrı-ayrı hissələrinin formalaşdığı dövrdə bu yolun siyasi əhəmiyyəti regionda yaranmış dövlətlər tərəfindən dərk edilirdi.

Erkən feodal dövrünə gəlib çatarkən, artıq Xinqan dağlarının yüksək yamaclarında məskunlaşmış xalqlar öz inkişaflarında yüksək barbarlıq dövrünə gəlib, çatmış eləcə də sivilizasiyalı mərhələyə keçmişdilər. K.Marksın və Engelsin klasifikasiya etdiyi tarixi periodlara uyğun olaraq, "İpək Yolu"nun hər iki ucunda yaşayan xalqlar məhz bu ticarət yolunun əhəmiyyətli təsiri ilə özlərinin üçüncü əmək bölgüsünə qədər sürətlə inkişaf etdirlər. Bu mənada Aleksandrın yürüşlərinin xüsusi rolunu bir daha xatırlamaq yerinə düşər. K.Marksın və Engelsin klsaifikasiyasına uyğun olaraq, üç vəhşilik(aşağı, orta, yüksək) və üç barbarlıq(aşağı, orta, yüksək) dövründən sonra xalqlarda xüsusi mülkiyyətin yaranması ilə başlayan sivilizasiyalı period özü ilə istehsalçılardan fərqlənən mübadiləçi bir sinif – tacirlər sinfini yaradır. Bu da üçüncü əmək bölgüsü kimi Marks və Engels tərəfindən qeyd edilir. Bu prosesə təsir edən obyektiv faktorlar sırasında həm də "İpək Yolu"nun mərkəzində yerləşmiş xalqların artıq neolitik inqilabdan sonrakı dövrə yəni sivilizasiyalı dövrə keçidi reallaşdırması, bu yolun ticari-mədəni mənada yaranmasına və sonralar əhəmiyyətinin artmasına gətirib çıxardı. Əhəmiyyətinin artması ilə "İpək Yolu"nun hər iki başlanğıcında sivilizasiyalı dövrə keçid sürətləndi. Bu da "İpək Yolu"nun

mərkəzindəki xalqların mədəni ekspansiyası ilə bağlı idi. "İpək Yolu"nun əhəmiyyətinin artması ilə onun siyasi proseslərin inkişafına təsiri gücləndi. Nəhayət Aleksandr "İpək Yolu"nun tam işlək vəziyyətdə bütöv bir iqtisadi-coğrafi eksistensiya halına gətirdi. "İpək Yolu"nun xalqlarda inkişafın sürətlənməsinə təsirini bir qədər izah etməyə ehtiyac var. Belə ki, yüksək barbarlıqda mövqe tutmuş xalqlar kənar təsir olmadan daha bir addım ata bilməzdilər. İndi biz sivilizasiyanın kandarına gəlib çatdıq. Sivilizasiya əmək bölgüsündə irəliyə doğru yeni bir addımla başlanır. Aşağı pillədə adamlar yalnız bilavasitə öz istehlakı üçün istehsal edirdilər. Ara-sıra baş verən mübadilə tək-tək hallarda olurdu, yalnız təsadüfən artıq qalan məhsula aid idi. Barbarlığın orta pilləsində biz çoban xalqlarda mal-qara şəklində əmlak olduğunu görürük, bu da sürü müəyyən dərəcəyə çatmış olduqda, müntəzəm surətdə şəxsi istehlakdan bir qədər artıq verir. Eyni zamanda biz çoban xalqlarla sürüləri olmayan geri qalmış tayfalar arasında da əmək bölgüsü olduğunu, beləliklə, bir-biri ilə yanaşı iki müxtəlif istehsal pilləsi olduğunu və deməli, müntəzəm mübadilə üçün şərait olduğunu görürük. Barbarlığın yüksək pilləsində əkinçiliklə sənət arasında əmək bölgüsü daha da irəliləyir. Deməli, əmək məhsullarının getdikcə daha artıq hissəsi bilavasitə mübadilə üçün istehsal edilir, beləliklə, ayrı-ayrı istehsalçılar arasındakı mübadilə cəmiyyət üçün həyati bir zərurətə çevrilir. Sivilizasiya özündən əvvəl yaranmış olan bütün bu əmək bölgüsü növlərini, xüsusən şəhərlə kənd arasındakı əksliyin kəskinləşdirilməsi yolu ilə möhkəmləndirib gücləndirir (həm də qədim dövrdə olduğu kimi, iqtisadi cəhətdən şəhər kənd üzərində hökmranlıq edə bilər, yaxud orta əsrlərdə olduğu kimi kənd şəhər üzərində hökmranlıq edə bilər), həm də buna həlledici əhəmiyyətə malik olan, yalnız özünə xas olan üçüncü bir əmək bölgüsünü əlavə edir–daha istehsalla deyil, yalnız məhsul mübadiləsi ilə məşğul olan bir sinif, yə'ni tacirləri yaradır. Bu vaxta qədər siniflərin yaranması səbəbləri hələ yalnız istehsalla bağlı idi; bu səbəblər istehsalda məşğul olan adamları rəhbərlərə və icraçılara, yaxud daha çox və daha az miqyaslı istehsalçılara bölürdü. Burada ilk dəfə elə bir sinif meydana çıxır ki, o, istehsalda əsla iştirak etmədiyi halda, ümumiyyətlə və bütövlükdə istehsalın rəhbərliyini öz əlinə keçirir və istehsalçıları iqtisadi cəhətdən

özünə tabe edir, hər iki istehsalçı arasında aradan qaldırılmaz bir vasitəçi olur və onların hər ikisini istismar edir:

1. İstehsalçıları, mübadilə ilə əlaqədar olan zəhmət və təhlükədən azad etmək, onların məhsullarının satışını genişləndirib ən uzaq bazarlara qədər aparıb çıxarmaq və beləliklə, guya əhalinin ən faydalı sinfini yaratmaq bəhanəsi ilə tüfeylilər sinfi, əsl "ictimai müftəxorlar" sinfi meydana gəlir(ifadə K.Marksa məxsusdur).

2. Bu sinif özünün həqiqətdə çox cüzi olan xidmətlərinin əvəzində istər vətəndəki istehsalın, istərsə əcnəbi istehsalın gülünü dərir, tez bir zamanda böyük sərvət və cəmiyyətdə buna müvafiq nüfuz sahibi olur, məhz buna görə də sivilizasiya dövründə getdikcə daha fəxri mövqe tutur və istehsalı getdikcə daha artıq dərəcədə özünə tabe edir, nəhayət, özü öz məhsulunu–vaxtaşırı ticarət böhranlarını yaradır. Nəzərdən keçirdiyimiz inkişaf pilləsində gənc tacirlər onların qarşısına çıxacaq böyük işlər haqqında hələ heç bir şey bilmirlər. Lakin tacirlər təşəkkül tapır və zəruri olurlar, bu isə kifayətdir. Onlarla birlikdə metal pul, kəsilmiş sikkə meydana gəlir və metal pulla da bərabər qeyri-istehsalçının istehsalçı və onun istehsalı üzərində hökmranlığı üçün yeni vasitə yaranır.

3. Gizli şəkildə bütün başqa əmtəələri özündə ehtiva edən əmtəələr əmtəəsi, istədikdə hər bir cəlbedici və istənilən şeyə çevrilə bilən e'cazkar bir vasitə kəşf edilmiş olur. Kim bu əmtəəyə sahib idisə, o, istehsal aləminə hökmran olurdu. Bəs buna ən əvvəl kim sahib idi? Tacir. "Pul səcdəgahı"nı (ifadə Engelsə məxsusdur) o öz əlində möhkəm saxlayırdı. O zəhmət çəkib belə elan etmişdi ki, bütün əmtəələr və bunlarla birlikdə bütün əmtəə istehsalçıları pulun qarşısında diz çökməlidirlər. O, praktikada sübut etdi ki, bütün başqa sərvət formaları bu ümumiyyətlə sərvət təcəssümü qarşısında yalnız bir kölgədir. Pulun hökmranlığı sonralar heç zaman onun bu gənclik dövründəki qədər ibtidai kobud və zorakı formada meydana çıxmamışdır. Pula əmtəə alınmasının ardınca borc pul verilməsi, bununla da birlikdə faiz və sələmçilik meydana gəldi. Həm də sonrakı vaxtlarda heç bir qanunvericilik borclunu, borc verən sələmçinin ayaqları altına Qədim Afina və Roma qanunvericiliyi qədər rəhmsizlik və amansızlıqla atmır, bunların hər ikisi isə öz-özünə adi hüquq kimi, yalnız iqtisadi zərurət üzündən meydana gəlmişdi.

Əmtəələrdə və qullarda ehtiva olunan sərvətlə yanaşı, pul sərvəti ilə yanaşı indi torpaq sərvəti də meydana gəldi. Əvvəllər qəbilə və ya tayfa tərəfindən ayrı-ayrı şəxslərə verilmiş torpaq parsellərinə onların sahib olmaq hüququ indi o qədər möhkəmlənmişdi ki, bu parsellər irsi mülkiyyət hüquqları əsasında onların ixtiyarına keçmişdi1. Axı son zamanlar onlar ən çox məhz buna çalışırdılar ki, qəbilə icmasının parselə olan hüquqlarından, onlar üçün bir buxov olmuş bu hüquqlardan parseli azad etsinlər. Onlar bu buxovlardan xilas oldular, lakin bundan az sonra öz yeni torpaq mülkiyyətindən də xilas oldular. Torpaq üzərində tam, azad mülkiyyət nəinki torpağa maneəsiz və qeyri-məhdud sahib olmaq imkanı demək idi, habelə onu özkəninkiləşdirmək imkanı demək idi. Torpaq qəbilənin mülkiyyəti olaraq qaldıqca, bu imkan yox idi. Lakin yeni torpaq sahibi qəbilə və tayfanın ali mülkiyyəti buxovunu öz üzərindən qəti olaraq atdıqda, bu vaxta qədər onu torpağa qırılmaz tellərlə bağlayan əlaqələri də qırdı. Bunun nə demək olduğunu ona torpaq üzərində xüsusi mülkiyyətlə bir zamanda ixtira edilən pul izah etdi. İndi torpaq satılan və girov qoyulan bir əmtəə ola bilərdi. Torpaq üzərində mülkiyyət yarandıqda, dərhal hipotek də icad edildi (Afina). Monoqamiyanın ardınca heterizm və fahişəlik gəldiyi kimi, bu zamandan etibarən torpaq mülkiyyətinin də ardınca daim hipotek gəlir.

Beləliklə, ticarətin genişlənməsi ilə birlikdə, pulla və sələmçiliklə, torpaq mülkiyyəti və hipotek ilə birlikdə sərvət sayca kiçik olan bir sinfin əlində sür'ətlə təmərküzləşir və mərkəzləşir, bununla yanaşı isə kütlələrin yoxsullaşması artır və yoxsullar kütləsi çoxalırdı. Yeni sərvət aristokratiyası köhnə qəbilə ə'yanlarını (Afinada, Romada, germanlar arasında), əgər onlar lap əvvəldən bu aristokratiyaya uyğun gəlmirdilərsə, tamamilə sıxışdırıb arxa sıraya keçirirdi.

Beləliklə aristokratiyadan daha irəliyə gedərək sərvət toplayan tacirlər siyasi hakimiyyətə səslərini eşitdirə bilmək imkanı əldə etdilər. Aleksandrdan sonra yenidən ayrı-ayrı dövlətlərin nəzarətinə keçmiş “İpək Yolu” erkən orta əsrlərdə hətta Qıpçaq çöllərində yaşayan və sivilizasiyanın kəndarında olan xalqların da siyasi həyatına təsir edirdi. Bu xalqların ən görkəmli nümayəndələri juanjuanlar, tyurkutlar (Göytürk), avarlar (Bizans qaynaqlarının səhvi ucbatından tamamiylə başqa-başqa xalqlar olan “abriqlər” “avarlar” adı ilə kimi tanınır), soqdlar və s.

Beləliklə Qıpçaq çöllərində və Xinqan, Turfan, Yedisu ətrafındakı yüksək dağ zirvələrində yaşayan xalqalrın ictimai inkişafına təsir edən əsas faktor "İpək Yolu" ilə axıb gələn mədəni təsirlər idi. Bu yol Çin Xan imperiyasının hökmdarı U-di-nin (e.ə. 140-86) fəaliyyəti ilə bağlıdır. İlk dəfə hələ e.ə. 138-ci ildə Orta Asiyada, o dövrün ən qüdrətli imperiyalarından olan Kuşanda olmuş çinli elçi Hindistan, Orta Asiya dövlətləri və bu dövlətlərin ərazilərindən keçən ticarət yolları haqqında məlumat vermişdir. Çin imperiyasına tez-tez hücum edən hun-lara qarşı müttəfiq tapmaq məqsədilə Kuşana ticarət karvanı-səfirlik göndərilmişdir. Elə bu zamandan etibarən Çindən qərbdə yerləşən dövlətlərin ərazisinə ticarət karvanları yola düşmüşdür. Britaniya adalarından tutmuş Sakit okean sahillərinədək olan ərazilərdə məskunlaşmış bütün xalqlar və dövlətlər qədim dünya siyasi sisteminin mühüm halqaları olan 4 qüdrətli imperiyanın – Romanın, Parfiyanın, Kuşanın və Çinin tabeliliyi altında olmuşdu. Çin malları, xüsusilə bu dövrdə yalnız orada istehsal edilən Çin ipəyi xarici bazarlara yol tapmışdı. Çindən ixrac olunan əsas mal ipək olduğu üçün bu yol "İpək Yolu" adlanmağa başlanmışdı.

V-VII əsrlərə aid Çin yazılı mənbələrinə görə "Böyük İpək yolu" Xinqan silsiləsinin şimal ətəklərindən artıq üç istiqamətdə uzanırdı. Şimal istiqamətdə-İssık Kul gölündən Tyurkyutlar yurduna və Xəzərin şimalından Qara dəniz sahilinə enirdi. Orta yol – Səmərqənd, Bəlx, Mərv İranın mərkəzi şəhərləri və Qərb dənizi (Aralıq dənizi) istiqamətində inkişaf edirdi. Üçüncü yol- Xilat, Urfa Suriyanın cənubuna doğru və İsgəndəriyyə şəhəri xətti boyunca istiqamət götürürdü.

Bu yol müxtəlif dövrlərdə mübadilə edilən malların əhəmiyyətinə uyğun olaraq müxtəlif cür adlandırılmışdır. "Böyük ipək yolu" Bədəxşandan gələn lacivərdin şərəfinə "Lacivərd yolu", Soqdianadan və Baktriyadan gələn əqiq daşının şərəfinə "Əqiq yolu", Xarəzmdən gələn firuzənin şərəfinə "Firuzə yolu" , Xotandan və Yarkənddən gələn nefritin şərəfinə "Nefrit yolu", Yaxın Şərqdən gələn şüşənin şərəfinə "Şüşə yolu" adlandırılmışdır.

Bu yolla təkcə ipək deyil, ədviyyat, xalça, çini qablar, qiymətli daşlar, zinət əşyaları, pambıq, silah, civə, kompas və s. danşınırdı ki, o zamanlar qərb dövlətləri bunlardan xəbərsiz idilər. Beləliklə, tədricən ticarət yolları əmələ gəlirdi. Məhz ipəyin

dəyərinə görə "İpək Yolu" adlandırılmağa başlandı. İpək yolu insan əliylə yaranmış bir yol deyil, bu yol təbii dərələr və təpələrdən ibarət olub. Daha sonra isə bu güzəndah üzərində şəhərlər salınmağa başlanmışdır. Möhtəşəm İpək Yolu termin olaraq ilk dəfə 1877-ci ildə alman coğrafiyaşünası Ferdinand for Rixhofen tərəfindən işlədilmişdir.

Ticarət karvanları Çinin Şinan şəhərindən hərəkətə başlayırdı. Dunxuandan karvanlar iki istiqamətə ayrılırdı (Dunxuan xan sülaləsi tərəfindən Çinin qərbində ucaldılmış qala idi). Yolun şimal qolu Turfan çökəkliyindən ötərək Orta Asiyaya - Səmərqənd və Buxara şəhərlərinə daxil olurdu. Buradan qərbə - Mərv şəhərinə daxil olaraq əsas terminalla birləşirdi. Bu istiqamətin yaranması baramaçılığın inkişafı üçün əlverişli təbii şəraitə malik olan Orta Asiya ölkələrində ipək istehsalına zəmin yaratdı.

Şinan şəhərindən başlanan İpək yolu Lançjondan keçərək Donxuana gəlirdi. Dunxuandan ayrılan yolun ikincisi cənub istiqamətində Təklə-Məkan səhrasının yanı ilə Pamir dağlarının vadilərini keçərək Kopet dağının şimal ətəkləri ilə Xəzərin cənub sahilinə, Mərv şəhərinə gəlirdi. Həm şimal, həm də cənub arsında keçid yollar da mövcud olmağa başladı, Yarkənd-Qaşqar belə keçidlərdən idi. Cənub qolu üzərindəki Balx şəhərindən də Hindistana yol uzanırdı. Özbəkistanın Kaşğar şəhərinə gələn yol bir tərəfdən Əfqanıstanı keçərək Xəzər dənizi limanlarına, digər tərəfdən də İran üzərindən Anadoluya çatırdı. Anadoludan dəniz limanlari ilə (Aralıq və Qara dəniz) Avropaya çıxırdı. Bu yollarla Şərqdən Qərbə və Qərdən Şərqə dil, din, mədəniyyət, sivilizasiya daşınırdı və qitələr arasında nəinki ticarət, həmçinin mədəniyyət əlaqələri də daşınır və inkişaf etdirilirdi. Beləliklə, elmi və texnoloji naliyyətlər Şərqdən Qərbə bu yollarla ötürülməyə başlandı.

Silah və qəddarlıq gücünə Orta Asiyada hegemonluğu ələ alan eftalitlər fəth etdikləri ölkələrdə populyarlıq qazana bilməmişdilər.VI əsr Orta Asiya üçün iqtisadi və mədəni yüksəliş dövrü idi. Şəhərlər böyüyür və zənginləşir, əkinçilik, sənətkarlıq və ticarət tərəqqi edirdi. Soqdiyalılar həmin dövrdə təcrübəli və bacarıqlı tacir-dəllallar kimi tanınmışdılar. Onlar qədim karvan yollarından istifadə edərək İranla Aralıq dənizi arasında daimi əlaqə yaratmışdılar. Lakin jujanların yolkəsənliyi və

eftalitlərin arasıkəsilməz müharibələri ticarət əlaqələrinə mane olurdular. Çölü və Soqdiananı birləşdirən türkyutlar ticarət üçün geniş imkanlar açmışdılar. Bunun müqabilində Soqdiya tacirləri türkyut xanlarının təbəəliyini qəbul etmişdi. Belə loyal təbəələr onlara sərfəli idi. Bu yolla Orta Asiya xaqanlığın ayrılmaz tərkib hissəsinə çevrilirdi.Yaranmış vəziyyət eftalitlərin qisas cəhdlərinin qarşısını kəsdi və onları dağlara çəkilməyə məcbur etdi. Eftalitlərin qalıqları bizim zəmanəyə qədər həmin yerlərdə yaşamaqdadırlar.

Eftalitləri (565)və Şimali Çin(579) hökmdarlıqlarını darmadağın etdikdən sonra türkyutlar yalnız siyasi deyil, həm də iqtisadi qüdrətə nail oldular. Çünki Qərblə Şərqi birləşdirən böyük karvan yolu onların əlinə keçdi. Bu yol Çanyandan başlanır və Nanşyanın ətəkləri ilə zirvələrdən gələn sellərin suvardığı çoxsaylı vadilərdən keçirdi. Yolun bu hissəsi asan idi. Lakin bunun ardınca səhradan Xami vadisinə qədər, oradan isə Turfandakı Lyukçun çökəyinə qədər davam edən çətin keçid başlanırdı. Hər iki vadi və yaxınlıqdakı ərazilər müstəqil Qaoçan knyazlığının tərkibinə daxil idi4. Burada çinli hərbi köçkünlərin ailələri yaşayırdılar. Onlar özlərinin yeni vətənlərinə tamamilə uyğunlaşmışdılar. Qaoçanda karvan yolu iki yerə ayrılırdı. Onun bir qolu Tyan-Şanın cənub yamacı boyunca Qaraşardan, Kuçu və Aksudan keçir, sonra isə Çu və Talas vadiləri ilə gedib İsfara çatırdı. O biri — şimal qol da Qaoçanda başlayır və Urumçudan, Manasdan, Kurkara-usudan və İren-Şabiqan dağlarından keçərək Cənubi Cunqariya ilə İli çayının vadisinə və oradan da cənuba, Orta Asiyaya gedirdi1. Bundan əlavə Tyan-Şanda aşırımlardan keçərək, Qaraşardan Yulduz vadisi vasitəsi ilə İli vadisinə çıxan başqa bir karvan yolu da vardı, lakin çətinliyinə görə ondan nadir hallarda istifadə edirdilər. Orta Asiyada karvanlar dincəlirdilər. Ən böyük düşərgələrdən biri Paykənd şəhəri idi2. Buradan yol Xorasandan keçib Rey və Həmədana, habelə Bizans qalası Neseviyyədən (Nizib) keçib Suriya və Konstantinopola gedirdi. Çin dənizinin sahillərindən İran sərhədlərinə qədər məsafəni qət etmək 150 gün çəkirdi, buradan Roma sərhəddindəki İizibə qədər yolu keçmək üçün isə 80 gün vaxt lazım idi3. Ticarət olduqca gur və gəlirli idi, lakin o, natural təsərrüfat şəraitində yaşayan xalq kütlələrinə deyil, zinət şeylərinə daha çox ehtiyac duyan yuxarı təbəqəyə xidmət edirdi. Çinlilər İrandan

istisnasız olaraq öz imperatriçələri üçün qiyməti çox baha olan məşhur sürmə alırdılar. Babilistan xalıları da nadir mal sayılırdı. Nəhayət, Çinə əsil və süni Suriya daş-qaşları Qırmızı dənizdən çıxarılmış mərcan, mirvari, Suriya və Misirdən parçalar, Kiçik Asiyadan narkotik maddələr gətirilirdi. Lakin ən mühüm ticarət malı ipək idi. O, Avropaya Avqustun hakimiyyəti illərindən gətirilməyə başlamışdı. Bizansın ipəyə ehtiyacı hədsiz idi, sarayın və əsilzadələrin ehtiyaclarından başqa barbarlarla əlaqələrdə, ən başlıcası isə muzdlu qoşun tutulmasında ipəkdən valyuta kimi istifadə olunurdu.

Tyurkutların "İpək Yolu" uğrunda mübarizələrinin əsasında ictimai dəyişikliklərin dərinləşməsi dayanırdı. Lakin kənar təsirlərlə ictimai dəyişikliklərin nəticəsində xüsusi mülkiyyətin və ticarətçilərin meydana gəlməsinə qədər bu mübarizə gecikdi. Buna qədər isə Çin ipəyi uğrunda "İpək Yolu"nun mərkəzində və qərbində artıq yüksəliş dövrünə qədəm basan dövlətlərin mübarizəsi şiddətli xarakter almışdı. Həm İranın, həm də Bizansın bu yolu öz nəzarətində saxlaya bilmək uğrunda apardıqları toqquşmalar "İpək Yolu"nun tarixi əhəmiyyətini təsdiq edir.

Bizans hökumətinə anqlo-saks krallığı da daxil olmaqla bütün Avropa dövlətləri ilə diplomatik əlaqələr saxlamağa, hədiyyə verməyə, lazımi adamları ələ almağa, muzdlu qoşun tutmağa hədsiz miqdarda ipək tələb olunurdu. İpək Bizansda qızıl və bahalı daşlarla eyni səviyyədə qiymətləndirilirdi.

Lakin Bizansı bu son dərəcə qiymətli malla təchiz edən yol Şimali İrandan keçirdi, Sasani hökuməti isə karvan ticarəti üzərində nəzarəti qətiyyən əldən buraxmaq istəmirdi. Xam ipəyin böyük bir hissəsini istehsal üçün özlərində saxlayan iranlılar hazırladıqları məmulatları istədikləri vaxt özləri qoyduqları qiymətə Qərbi Avropa ölkələrinə sata bilirdilər. Bizans imperiyasının tənəzzülünə can atan farslar, təbii ki, onun mal dövriyyəsinin artmasına deyil, ipəyin qiymətinin bahalaşmasına çalışırdılar ki, bu vasitə ilə Bizansdan daha çox pul qoparsınlar, onu siyasi və hərbi baxımdan zəiflətsinlər. Mal dövriyyəsinin artması İran üçün sərfəli deyildi, çünki qiymətlər nə qədər yüksək olsa da Bizans ipəyi Avropa bazarında satmaqla ziyanını ödəyirdi, əldə edilən gəlir isə hərbi potensialı artırmağa imkan verirdi.

Ona görə də farslar ipək ticarətinə ciddi məhdudiyyət qoyur, həm də buna yalnız yüksək qiymətlər vasitəsi ilə deyil, Qərbə aparılan ipəyin miqdarının məhdudlaşdırılması yolu ilə nail olurdu. Təbii ki, Bizans bu şəraitlə barışa bilməzdi, çünki ipəyə dəyərindən artıq pul verməklə o, düşmən İranın güclənməsinə imkan yaradırdı. İqtisadi asılılıqdan qurtulmaq təşəbbüsləri faydasız qalırdı. Təxminən 531-ci ildə Bizans imperatoru Yustinian Afrika tacirlərinin vasitəçi rolunu öz öhdələrinə götürmələri və ipəyin Bizansa Hind okeanından gətirilməsi haqqında Efiopiya kralı ilə razılığa gəlmək istədi. Lakin iranlılar Hindistan limanlarında elə nüfuza malik idilər ki, efiopiyalıların ipək inhisarını onların əllərindən almaq cəhdi səmərəsiz qaldı.

532-ci ildə bağlanan sülh isə ipək ticarətinin əvvəlki qaydalarını bərpa etdi. İranla 540-cı ildə başlanan yeni müharibə Yustinianı xüsusi fərmanla ipəyin qiymətini aşağı salmağa vadar etdi, lakin fars tacirlərindən ipəyi həmin qiymətə almaq qətiyyən mümkün deyildi. Nəticədə xammal olmadığından Suriyadakı ipəktoxuma sexləri iflasa uğradı. 570-ci ildə Yəməni ələ keçirən Xosroy Ənuşirvan bizanslıların Qırmızı dəniz və Hind okeanı vasitəsi ilə şərqə çıxan yollarını qəti olaraq kəsdi.

Elə həmin dövrdə də tarixi oyuna yeni oyundaş — Türkyut (Göytürk) xaqanlığı da qoşuldu. Yuxarıda qeyd olunduğu kimi, türkyutlar Çindən xərac şəklində hər il xeyli ipək qoparırdılar. Çadırlarını bahalı ipəklərlə bəzəmələrinə baxmayaraq xanlar aldıqları parçanın hamısından istifadə edə bilmirdilər. Yuxarıda qeyd edildiyi kimi eftalitlərin darmadağın edilməsindən sonra tyurkyutlar özlərinin inkişafının elə mərhələsinə gəlib çatdılar ki, artıq tayfa birliklərində birləşmiş və xaqan və yaxud xan tərəfindən idarə olunan sinifli cəmiyyətə malik siyasi birlik vəziyyətinə yetişdilər. Sinifli cəmiyyət xüsusi mülkiyyətin və eyni zamanda sərvət toplamağın, qul əməyinin, eləcə də ticarətin, mübadilənin yaranmasını zəruri etdi. Bu zərurət Tyurkyut xanını aktiv xarici siyasətə sövq edirdi.

Eftalitlərin məğlubiyyətindən sonra soqdiyalılar türkyutların təbəəliyinə keçdilər. Onlar ən qədim zamanlardan həm Qərbdə, həm də Şərqdə zirək tacirlər kimi tanınırdılar. Eftalit ağalarını türkyutlarla əvəz etməklə soqdiyalılar yalnız

qazanırdılar, çünki onların qarşısında Asiyanın daxili vilayətlərinə maneəsiz və təhlükəsiz yol açılırdı. İpək ticarətinin maksimum genişlənməsi həm soqdiyalıların, həm də izafi ipək parçaları üçün bazar axtaran türkyutların xeyrinə idi.Beləliklə, soqdiyalı tacirlər tam haqlı olaraq eftalitlərin darmadağın edilməsini öz tərəqqilərinin başlanğıcı sayırdılar. Həqiqətən də, Çinə gedən yol açıq və təhlükəsiz idi, türkyutlar özləri soyub-taladıqları, yaxud xərac kimi aldıqları ipəyi nə edəcəklərini bilmirdilər. Belə şəraitdə vasitəçi görünməmiş şəkildə varlana bilərdi. Məsələ yalnız ipəyi Bizansa çatdırmaqda idi, lakin bunun üçün Sasani şahı ilə razılığa gəlmək lazımdı. İstemi xan öz tərəfindən yeni təbəələrinin arzularına zidd getmirdi, üstəlik tacirlərin istəyi yaxın adamlarının mənafeləri ilə üst-üstə düşürdü. Ona görə də xan soqdiyalılarda toplanmış ipəyi İran ərazisindən daşımaq üçün soqdiyalı Maniaxı səlahiyyətli səfir kimi Sasani şahı ilə danışıqlara göndərməyə həvəslə razı oldu. Səfir hətta İran şahına ticarətə qoşulmaq —yəni ipək alıb Qərbdə baha qiymətə satmaq təklifi ilə müraciət etdi. Belə olduqda soqdiyalılar qiymətdə bir qədər uduzsalar da, mal dövriyyəsini artırmaqla xeyli qazana bilərdilər. Aydın məsələdir ki, İran hökuməti razılıq verə bilməzdi. Çünki o, ipəyin hamısının Bizansa aparılmasına imkan versəydi, bir neçə ildən sonra Dəclə çayının sahillərində bütün İranın qarşısına çıxa bilməyəcəyi güclü muzdlu ordu dayanardı. İran əhalisinin alıcılıq qabiliyyətinin aşağı olması isə ipəyin daxili bazarlarda satılmasına imkan vermirdi. İpək almaqla şah qızıl itirə bilərdi. Bizans imperatoruna ipək lazım olduğu kimi bu qızıl da ona öz Şərq siyasətini həyata keçirmək üçün çox lazım idi.

Belə şəraitdə Tyurkut xanı İstemi xan İrana qarşı yürüşə çıxır. Lakin farsların hələ V əsrdə eftalitlər əleyhinə ucaldılmış sərhəd qalaları türkyutlar üçün alınmaz idi. Hücum dayandı. 569-cu ildə türkyutlar Soqdianaya qayıtdılar. Bununla da hərbi əməliyyatlar başa çatdı, çünki İstemi xan qətiyyən şahənşahın yaxşı təlim görmüş nizami ordusu ilə üzləşmək istəmirdi. İran demək olar ki, tamamiylə “İpək Yolu”na nəzarət imkanlarını genişləndirdi.

Bunun əslində tarixən təcrübədə sübut olunmuş geopolitik əsası da var idi. İran üçün Qərb istiqamətində əsas maneə Zaqros dağlarıdır. Bu dağlar İranın müdafiəçisi olmaqla bərabər ekspansiya etmək üçün ciddi manedir. İran – İraq müharibəsi

göstərdi ki, bu dağlar hər iki tərəfin hücumlarının kəsərini azaldır. İraqda möhkəmlənmədən Aralıq dənizinə qədər genişlənmək mümkün deyildi. Bu mənada İraqın özünün daxilindən və hətta siyasi dairələrdən İrana verilən dəstək olduqca böyük əhəmiyyətə malikdir. Bu dəstək olmadan İran İraqın zənginliyini real gücə çevirə bilməyəcək və yalnız böyük güc hesabına iraqlıların müqavimətini qırmaqla resurslarını səmərəsiz şəkildə itirəcəkdir. Bu bir daha farsların zəbt etdikləri ərazilərdə yerli əhalinin dəstəyini aldıqlarına sübutdur. Farsların yerli əhaliyə qarşı, onların mədəniyyətinə, adət - ənənələrinə qarşı nümayiş etdirdikləri xoş münasibət həm də İran mədəniyyət arealının genişlənməsinə gətirib, çıxarmışdır.

573-cü ildə Xosroy Ənuşirvan bizanslıları Mesopotamiyada ağır məğlubiyyətə uğradaraq İran ərazisini özündən əvvəlki Sasani şahlarının bacarmadığı sərhədlərə qədər genişləndirdi. 553-cü ildə Bizans özünün ipəkçilik sənayesini işə saldı. Kesariyalı Prokopinin yazdığına görə, ipək qurdunun sürfəsini Konstantinopola iki xristian rahib gətirmişdi. Bizanslı Feofan isə sürfələri içi oyulmuş əl ağacında bir nəfər farsın gətirdiyini yazır. N. V. Piqulevskaya sürfələrin Soqdiya şəhərlərinin birindən gətirilməsini ehtimal edir, Feofanın hekayətinə istinad edən Massonun fikrincə isə, sürfələr Cürcandan gətirilmişdi. İpəkçilik Konstantinopolda, Beyrutda, Tirdə və Antioxiyada geniş yayılmağa başladı. VI əsrin sonlarına yaxın artıq ipək idxalı Bizans üçün əvvəlki əhəmiyyətə malik deyildi.Türkyutların ipək inhisarını ələ almaq təşəbbüsü boşa çıxdı. Rəqabət onları ipək məmulatının qiymətlərini aşağı salmağa məcbur etməyə bilməzdi, bu isə ticarətdən əldə olunan gəlirin xeyli azalmasına gətirib çıxardı. 570-571-ci illərdə Bizans-tyurkyut qarşıdurmaları da ikincilərin məğlubiyyəti ilə bitdi. Beləliklə tyurkyutlar ticarət yolu üzərində nəzarət mübarizəsindən tədricən çıxdaş olundular. Bu onların həm də VI əsrin sonlarında tarixdən silinməsiylə nəticələndi. Beləliklə biz görürük ki, “İpək Yolu”nun əhəmiyyəti həm də siyasi qurumların taleyini müəyyən edirdi.

İpəyin vətəni Çinin türkyutlar, soqdiyalılar, farslar və yunanlar üçün belə gəlirli olan ipək ticarətindən nə qazandığına nəzər salsaq görərik ki, ipək istehsalı sanki yarandığı dövrdən artıq xarici ticarət məqsədiylə istehsal edilirdi. Çin kəndliləri ipəyi hazırlayır, özləri isə ondan istifadə etmirdilər, çünki vergilər çox böyük və qeyd-

şərtsiz toplanırdı. İpək satışından əldə edilən zinət şeyləri adətən sarayın tələbatını ödəyir və daxili bazarda heç bir rol oynamırdı1. Bundan əlavə həmin zinət şeyləri Çindən ixrac edilən ipəklə müqayisədə çox ucuz idi və bütövlükdə ticarət ölkəyə yalnız ziyan gətirirdi. Lakin Bey-Çjou hökuməti vəziyyəti dəyişə bilməzdi, daha doğrusu, buna cəsarət etməzdi, çünki onun siyasi uğurları yalnız türkyut xanlarının davranışından asılı idi. Bey-Çjou sülaləsi Çin yox, syanbi mənşəli idi və Şimali Çində iri tornaq sahiblərinə çevrilən çinliləşmiş syanbilərə arxalanırdı. Bey-Çjou hökumətinin xarici siyasət xətti isə çinlilər üçün eyni dərəcədə xoşagəlməz idi. Bu hökümətin əleyhinə formalaşmış müxalifətə isə çin əsilli Yan Tszyan başçılıq edirdi.

578—579-cu illərin toqquşmaları türkyutların hərbi üstünlüyünü bütün aşkarlığı ilə göstərir. Yan Tszyannın ən əhəmiyyətli təklifi türkyutlara hədiyyələr — yəni ipək verməmək barəsində idi. Bu tədbirin həyata keçirilməsi həqiqətən də türkyut xanlarının iqtisadi qüdrətini zəiflədər, eyni zamanda Çinin özündə vergilərin aşağı düşməsinə imkan verərdi. İmperator həmin planı rədd etdi. 581-ci ilin baharında Çin zadəganları hökumət əleyhinə üsyan bayrağı qaldırdılar, xalq kütləri də onlara qoşuldu. Yan Tszyan bu fürsətdən istifadə edərək sonuncu imperatoru — doqquz yaşlı oğlan uşağını taxt-tacdan onun xeyrinə əl çəkməyə məcbur etdi. Bədbəxt oğlan tezliklə öldürüldü. Yuyvın nəslinin bütün nümayəndələri edam edildi. Yeni sülalə Suy adını aldı.Tyurkyutlar isə tamamiylə zəifləmə perioduna girmişdilər.

İpək yolunun mədəniyyət tarixində də əhəmiyyətli yeri var. Şərqdən Qərbə xalçaların, çalğı alətlərinin, memarlıq üslublarının daşınması Qərbdə köklü mədəni innovasiyaların yaranmasına səbəb olmuşdur. Bu yolla daha çox adət-ənənələr, sənət, fəlsəfi düşüncələr, əxlaq mübadilə olunurdu. Kompas və kağızın qərbə gəlməsi Avropa dəniz dövlətlərində güclü inkişaf yaratdı və məhz İpək yolu sayəsində Qərb dövlətləri indiki mədəniyyət və inkişafı qazanmış oldular.

Lakin xristian aləminin Şərqdəki son nümayəndəsi Bizansların Türkiyə tərəfindən fəth edilməsi ilə Möhtəşəm İpək Yolu əvvəlki əhəmiyyətini itirmiş oldu. Avropa dövlətləri ticarətlərini Ümid burnu vastəsilə Çinə və Hindistana gələrək davam etdirirdilər. Sultan Süleyman Qanuni bu yolu yenidən canlandırmağa təşəbbüs

göstərirdi. Lakin gəmiçiliyin inkişafı və zaman – zaman baş verən müharibələr İpək Yolunun işləməməsinə gətirib çıxardı.

1492-ci ildə Amerikanın kəşfi ilə İpək yolu tamamilə əhəmiyyətini itirdi. Bu da Amerikada Çindən və Hindistandan gətirilən malların olması və dəniz yolunun daha ucuz başa gəlməsilə əlaqədar idi.

Yeni dövrə qədər Xilafətin, monqolların və səlibçilərin növbələşdiyi ticarət yoluna nəzarət imkanları artıq kapitalist müstəmləkəçilərin dövründə əhəmiyyəti azalsa da, imperialistlər buradakı koloniyalarını birləşdirmək üçün məhz bu yolun tamamiylə nəzarətə götürülməsinə yenidən diqqət ayırdılar. Beləliklə regional səviyyədə kommunikasiya əhəmiyyətini saxlayan "İpək Yolu" müasir dövrdə üzərində yerləşən milli dövlətlərin xarici siyasətində istiqamətveici amilə çevrilib.

## Monoteizm – Reformator

*La ilahə illallah*

Bütün İslam coğrafiyasında yerləşən ölkələrin ümumi tarixi problemi kimi milli dövlət qurulması istiqamətində durğunluq və ciddi maeələrin olması hesab edilir. Bu durğunluğun əsasında isə xüsusiylə İslam dinin simasında uzun əsrlər formalaşmış dini sakralizasiya və doqmatik ətalətdir.

Bu ətalətin hələ də davam etməsi heç də ayrı-ayrı insanların şəxsi keyfiyyətlərindən, intellektual inkişafının düzgün inkişaf etməməsindən asılı deyildir. Belə ki, Yaxın və Orta Şərqdə Avropadan fərqli olaraq bir renesansa ehtiyac var. Bu renesans məhz religioz baxışın yaranmasını şərtləndirən əlamətlərin sosioloji analizini nəzərdə tutulur. Məhz bu analizdən sonra İslam coğrafiyasında renesansın aparılma istiqamətləri müəyyən olacaqdır. Belə ki, religioz baxışın, xüsusiylə peyğəmbərli dinlərin meydana gəlməsində zəruri şəraitin nədən ibarət olmasını aydınlaşdırmaq lazımdır. Məhz bu aydınlanma öz arxasınca Yaxın və Orta Şərqin renesansını gətirəcəkdir. Peyğəmbərli dinlər digər dinlərdən insandan daha güclü, daha uca, daha böyük, daha geniş imkanlara malik "Allah" anlayışının meydana gəlməsiylə fərqlənir. Bu əlamətdar uyğunsuzluğun isə yaranma səbəbləri məhz bu

gün də dini stereotiplərin mövcudluğunu şərtləndirir. Belə ki, "indi dini radikallıq niyə mövcuddur?" sualına cavab verərsək, məhz həmin cavab peyğəmbərli dinlərin yaranması dövründə mövcud olmuş şərtləri izah edərdi. Peyğəmbərli dinlər əsasən neolitik totemizmlə, Şumer quldar mifologiyasının özünəməxsus birləşməsi kimi meydana çıxmışdır. Belə ki, Şumerin təxminən miladdan 2000 il əvvəl yeni tipli münasibətlərə cavab verməyən mifologiyası, ətraf xalqların zorla qul edilməsi zərurətini yaratdı. Bu da Şumer mədəniyyəti üzərində qurulmuş Akkad krallarının tarixdə ilk soyqırım siyasətinə gətirib çıxardı. Bu amansız münasibəti sonralar Assuriya və Babil davam etdirdi. Məhz bu amansız zorakılıq ilk dəfə əks-düşüncə tərzi, müqavimət ideologiyası yaratmış oldu. Belə ki, Şumer quldarlığının ideoloji tərəfi olan kral-tanrılar kodeksi indi zülmdən cana doymuş xalqların yeni ideologiyası ilə qarşılaşmışdı. İnsandan daha yuxarıda olan bir Allah anlayışı yarandı. ("Allah əkbərdir, daha böyükdür" dedikdə məhz quldar krallardan daha böyük olması nəzərdə tutulmuşdur.) Bu anlayış əslində Akkad-Assur-Babil krallarına qarşı yaradılmış siyasi ideoloji düsturdur ki, sonralar müqavimət hərəkatının ideoloji silahına çevrildi. Belə ki, artıq nəinki, krallar tanrı deyillər, hətta heç bir insan tanrı ola bilməzdi. Məhz bu düstur peyğəmbərli dinlərin yaranışında əsas qayə idi. Monoteist dinlərin İsa Məsihlə davam edən sosial genişlənməsi, Məhəmmədin simasında özünün ən yüksək – siyasi mərhələsinə çatmış oldu. İslam peyğəmbəri özünü sonuncu peyğəmbər adlandıranda heç də sakral düşüncəni nəzərdə tutmamışdı. O məhz din dövrünün sonunun gəldiyini göstərmişdi. Çünki artıq semitik dinlər özünün quldarlığa qarşı mübarizələrində son nöqtəyə-siyasi hakimiyyətə gəlib çatdılar. Siyasi hakimiyyət quldarlığın feodal münasibətləri ilə əvəzlənməsində mövcud olan ən son maneələri də darmadağın etdi. Peyğəmbərli dinlər özlərinin yaranışı etibarı ilə mütərəqqi hadisə olsalar da, sonrakı əsrlərdə bu dinlər də artıq inkişafın qarşısını kəsən, əsası olmayan stereotiplərin doqmatik təzahürünə çevrildi. Belə ki, ilkin məqsədindən uzaqlaşdıqca monoteist dinlər həm Xristian dünyasında, həm İslam coğrafiyasında idbar xarakter aldı. Yarandığı dövrdə anti-quldar mahiyyəti ilə tanrı-krallara qarşı olan monoteist dinlər sonrakı dövrlərdə elə həmin tanrı-kralların ideoloji maskasına çevrildi. Yeni-yeni tanrı-kralları yaratmış monoteizm eyni zamanda inkişafın qarşısında tıxac yaratmış

oldu. Bununla belə, Avropada dəniz ticarətinin, alman macəraçı xarakterinin, böyük coğrafi kəşflərin təsiri altında renesans-reformasiya baş verdi. Yaxın və Orta Şərqdə isə daha çox tanrı-krallar gücləndilər. Bu coğrafiyada tanrı-kralın qəzəbindən Allaha sığınmaq hissi daha dərin kök saldı. Kütlələrin siyasi hakimiyyətdən yadlaşması, nihilizm özünün apogeyasına çatdı. Guşəneşinlik Allah haqqında dərin inam və fanatizm yaratdı. Tanrı-kralların daha çox güclənməsi dini fanatizmin çiçəklənməsinə təminat idi.

XX əsrdə İslam coğrafiyasında az-az meydana gəlmiş milli dövlətlər isə bu fanatizmin dərin kök salması səbəbiylə ciddi konkurentə rast gəldilər. Həm Atatürk, həm də Rza şah yaratdıqları dövlətlərin ərazisində dini fanatizmlə uzun müddət mübarizə aparsalar da, bu sekulyar qüvvələrin tam qələbəsiylə nəticələnmədi. 1978-79-cu illərdə baş vermiş İran İslam İnqilabı buna sübutdur. 2002-ci ildən isə Türkiyədə məhz dindar kütlələrin səsi ilə hakimiyyətə gələn Ərdoğan demək olar ki, Cümhuriyyət dövrünün bütün sekulyar nailiyyətlərinə qarşı müharibəyə başladı. Eyni proses "ərəb baharı"ndan sonra hakimiyyətə gəlmiş siyasi qüvvələrin xarakterində də aydın şəkildə görünür. Belə ki, bütün ərəb ölkələrində seçkilərlə hakimiyyətə gəlmiş siyasi qüvvələr sakral dünyagörüşünün daşıyıcılarıdırlar. Bu ərazilərdə milli dövlətin sekulyar modelini qurmaq ciddi şəkildə müşkülə çevrilmişdir.

Neftin qiymətinin sürətlə düşməsinə baxmayaraq, dünyada ciddi qəbul edilən təşkilatların proqnozları heç də neft idxal edən dövlətlərin xeyrinə deyil. "Bloomberg"in proqnozlarına görə Fransada hakimiyyətə Marin Le Pen gələcəkdi. Sərhədlər bağlanacaq, avro düşəcəkdi. Onlarla bir isə Suriya məsələsinin nizamlanması üçün danışıq ümidləri də məhv olacaqdı. Bu halda, Rusiya yenə də udacaq: artıq vahid Avropa olmayacaq, deməli, Moskvaya qarşı sanksiyalar da olmayacaqdı. ABŞ isə heç nə qazanmırdı. İŞİD-ə qarşı koalisiya yaratmaq mümkün olmayacaq, çünki Avropa öz millət çəkişmələrində batacaqdı. İŞİD ilə ən səmimi müharibəni yenə Rusiya-İran cəbhəsi öz üzərinə götürəcəkdi. Rusiyanın İŞİD-ə zərbələri effekt verəcək. Ciddi şəkildə zəifləyən İŞİD yenidən öz gücünün kuliminasiyasına qayıda bilməyəcək. Bu vəziyyət həm də neftin qiymətində bir qədər

qalxma ilə müşayiət olunacaqdı. Artıq 2021-ci ilin solarına doğru neftin qiymetində yüksəlmə müşayiət olunmuşdu.

Bütün növ mədəniyyət hadisəsi, maddi əsas üzərində yaranaraq, ictimai tələbatın ödənilməsi şərtindən meydana gəlir. Mədəniyyət Karl Marksa görə insan tərəfindən yaradılmış ictimai tələbatı ödəmək məqsədi daşıyan maddi, mənəvi sərvətlərin toplusudur. Bu mənada mədəniyyətin ictimai tələbata uyğun olaraq maddi əsasa söykəndiyi aşkar olur. Mədəniyyətin ilkin forması kimi mifologiya və din sivilizasiyanın yarandığı ilk minillikləri əhatə edir. Tarixin analizi zamanı görə bilərik ki, ilk təfəkkür fomrası kimi totem yaranır ki, bu da qəbilələrin özləri üçün təbiətlə, ətraf aləmlə münasibət qurmaq ehtiyacından doğurdu.

1. E.Ə. 7-4-cü minillikləri əhatə edən neolit inqilabı ayrı-ayrı neolitik qəbilələrin birgəyaşayış formalarını təsbit etdi. Bununla belə bu birgəyaşayış sinfi müxtəlifliyə əsaslanmadığı kimi təfkkür forması olan totemizm də sinfi hakimiyyətə silah kimi yaradılmamışdı. Bu yalnız müxtəlif qəbilələrin təbiətdə gördüyü varlıqlar haqqında təsəvvürləri idi.

2. Daha sonra təfəkkür tərzinin dəyişməsi ilə mifoloji dünyagörüşü yaranır ki, bu da e.ə. 4-cü minillikdən başlayaraq, 3-cü minilliyin sonlarına qədər Şumer neolit əkinçi şəhərlərində mövcud olmuşdur. Bu tipli təfəkkür ilk qul zehni yaratmağa hesablanmış baxışlar sistemi idi. Bu baxışlar sistemi kompleks sakralizasiyanı təmin edirdi. Rahiblər kiçik şəhərin mərkəzində Zikkuratda yaşayırdılar. Oradan isə dünya nizamını göydəki nizama uyğun tənzimlədiklərini deyirdilər. Bu nizam ulduzların nizamı idi. Bu tipli quldarlıq daha çox istehsalın təşkilatlanması ehtiyacından yaranmışdı ki, burada hətta qulun da özünü ağaya bağlı bir hissə hesab etməsi kimi təfəkkür tərzi tarixə məlmdur. Lakin e.ə 3-cü minilliyin sonlarından artıq tunc əkinçiliyi və yeni ərazilərə yayılma labüdləşdikdən sonra Şumerin ilk qul yaradan mifoloji təfəkkürü bu işin öhdəsindən gələ bilmədi. Artıq Zikkurat ətrafında birləşmiş rahiblərin qulları əvəzinə şəhər tipli dövlətlər ortaya çıxırdı. Bu da onunla izah edilir ki, Şumer daha geniş ərazilərə yayılmaq məburiyyəti ilə üz-üzə qalır, lakin yeni ərazilərdəki qəbilələr Şumer istehsalından kənarda olduqları üçün Şumer mifologiyası ilə qul edilə bilmirdilər. Bunlar əsasən Şumeri şimaldan (Toros) və

şərqdən (Zaqros) dövrəyə alan dağlıq ərazilərin xalqları idilər. Bu xalqlara Şumer dilində Hurritlər deyirdilər. Bu xalqlaın belə adlandırılması onların yüksəkliklərdə məskunlaşmaları ilə bağlı idi. Ur, Ar, Uru yüksək mənasını verdiyi halda, Hur sözü yüksəkdə yaşayan insan mənasını verir. Şumerlər Hur sözünü dağlarda olanlara aid edərək, azad olanlar kimi də işlədirdilər. Çünki bu insanlar doğrudan da heç bir mifoloji qaydaya tabe olmaq istəmirdilər. Hürriyyət, hür sözləri də kökünü buradan alırlar. Heç təsadüfi deyil ki, german dillərində əxlaqdan azad olan qadınlara "die Hure" deyirlər. Hurritlər əkinçi xalq olduğu üçün oturaq həyat tərzi keçirirdilər. Əkin yerlərinə isə "Ard" deyirdilər. Sonralar bu söz "Yer" mənasında işlənsə də, ilkin variantda yalnız əkilən yer mənasını verirdi. Həmin əkinçiləri isə Ariyalar adlandırırdılar. Bu xalqların qul olmaq kimi niyyətinin olmaması, onlara qarşı zorakılıq variantını gündəmə gətirdi. Bu işin öhdəsindən isə məhz Akkad-Assur-babil siyasi fəlsəfəsi gəlməyə çalışdı.

3. E.Ə. 3-cü minilliyin sonları amorit-semit qəbilələrin Şumeri işğalı və Akkad dövlətinin yaranması ilə quldarlığın və qul etmənin yalnız zorakı modeli start götürdü. Yalnız güc tətbiq etmək və kütləvi qətliyam siyasəti həm Şumer mədəniyyəti, həm dqonşu mədəniyyətlərin məhvinə hesablanmışdı. Şumer dili tamamiylə məhv edildi. Tarixdə ilk soyqırım siyasəti reallaşdırıldı. Yaxın Şərqin xəritəsinə ilk dəfə siyasi mühacirət, kütləvi qaçın izdihamı, etnosların yerini dəyişməsi baş verdi. Semitlərin bu cür siyasi fəlsəfəsinin kökündə nəyin dayandığını bir qəər sonra izah edəcəyik. Qeyd-şərtsiz zorakılıq üsulu min illik bir dövrü əhatə etdi. Məhz dağlardakı xalqların müqavimət fəlsəfəsi onların siyasi təşkilatlanmasını sürətləndirdi. Minillik mübarizə növbə ilə Akkad, Assur, Babil dövlətlərini dağıtdı.

4. Məhz bu zorakılğa qarşı özünü tanrı elan etmiş krallara müqavimət fəlsəfəsi yarandı. Bu fəlsəfə ilk dəfə peyğəmbərli dinlər kimi ortaya çıxdı. Bu dinlər elə bir tək tanrı təklif etdilər ki, hətta zalım krallar da onun önündə hesabat verməyə borclu olsunlar. İbrahim adında peyğəmbər obrazı heç təsadüfi deyil ki, Mesopotamiyadan çıxmış və öz qəbiləsi il oradan ayrılmışdır. Eyni hadisələr Misirdə də baş verməkdə idi. İbrahimin qarşı çıxdığı "Nemrud" Assur krallarının simvoludur. Kabbala araşdırmaları göstərir ki, İbrahim sözü Abiru sözündəndir ki, bu da üstü-başı

toz –torpaq olan yoxsul deməkdir. Misirə gəldikdə səhralardan keçib gəlmiş bu adama misirlilərin Abiru adlandırmaları başa düşüləndir. Məhz təktanrılı (monoteist) dinlər bu cür kütləvi müqavimət fəlsəfəsindən doğmuşur ki, burada biz sosial qrupların incik salındığının şahidi oluruq. Bu incikliyin yaranması isə geopolitik uyğunsuzluqla izah edilməlidir ki, bu da Akkad fəlsəfəsinin radikallığında gizlənir. Bu radikallığın ontoloji səbəbləri haqqında daha sonra geniş izah veriləcək. E.Ə. 1-ci minilliyin əvvəllərində semit zorakılığının qarşısı qətiyyətlə alınır. Siyasi arenaya çıxan Pers-Medya siyasi dövlət qurumları Yaxın və Orta Şərqdə sabitlik yaratdılar. Müqavimət hərəkatının sonu uğurla nəticələndi. Bu uğurun bir səbəbi də marksizmdə dəmirin kəşfi ilə bağlıdır. Belə ki, az tapılan tuncdan fərqli olaraq, dəmir daha çox olmaqla, bütün xalqların əlinə keçdi. Tunc isə yalnız quldar sivilizasiyaya məlum idi. Artıq insanlar qorxunc allahlara qarşı rasional fəlsəfə yaratmağa başlamışdılar. Peyğəmbərlik dövrü ilə fəlsəfə dövrü arasında keçid period sayılan Zərdüşt, Budda, Konfutsi, Yeddi müdrik (Sokrataqədərki yunan fəlsəfəsi) ilk dəfə insanın sosial varlıq kimi azad düşüncəsini irəli sürürdülər. Bunların hamısı əxlaq kodeksindən yanaşsalar da, sabitlik və yenidən qurmaq, ədaləti təmin etmək, qul faktorunu rədd etmək üçün çalışırılar. Nitşe deyirdi ki, Zərdüşt dağa qalxıb, qayıdandan sonra xalqa varlıq haqqında danışır. Görür ki, izdiham dağılışır. Qəflətən söhbəti dəyişib, yüngül məslələr haqqında danışmağa başlayır. Bunu eşidən insanlar yenidən Zərdüştün başına toplanır və həvəslə dinləməyə can atırlar. Zərdüşt isə başını bulayaraq, yenidən dağa qayıdır. Burada Nitşenin demək istədiyi məsələ Zərdüştün insanı kamilliyə daha doğrusu allahlardan hesab almağa çağırmasıdır. Zərdüştün düsturu belə idi: “mən varam, səndən soruşuram və cavab ver”. Zərdüşt əkinçi tayfaların simvolu idi. Yaşıl rəng müqəddəs hesab edilirdi. Zoraklqları ilə fərqlənən amorit-semitlərdən fərqli olaraq təbiətə, qadın gözəlliyinə yüksək qiymət verirdi. Semitlər canlıları qurban verməsinə qarşı bu adətin ləğvinin leyhinə çıxış edirdi. İnsanlar rasional fəlsəfi baxışlara meyl etdilər. Fəlsəfənin başlanğıc nöqtəsi sayılan Platon ilə artıq quldarlığın mövcudluğu onun səbəbləri allahların qəzəbi ilə deyil, tam məntiqi rasional izahlarla verilirdi. Martin Haydegger onu böyük sonun başlanğıcı sayırdı.

5. Monoteist dinin yaranması özü ilə reaksioner paradiqmaların da yaranmasına gətirib çıxaracaqdı. Belə ki, artıq e.ə. 2-ci minilliyin əvvəllərində Eyyub (Əyyup) pyğəmbər haqqında rəvayətlər yarandı. Bu peyğəmbər dözümü, səbrli olmağı, axirətdə hər kəsin cavab verəcəyini təlqin edən bir obrazıdr. Monoteizmin reaksioner siması onun getdikcə güclənən təsir rıçaqları ilə düz mütənasib idi. Daha geniş ərazilərə yayılan monoteizm daha çox mürtəce xarakter alırdı. Quldarlığın dağılmas ilə qədim dünya tarixi sona çatdı. İstoriyaqrafiyada bunu təxminən bizim eranın 476-cı ilindən hesablayırlar. Məhz bundan sonra traditsional-feodal-aqrar periodun mənəvi təfəkkürü monoteist dinlər oldu. Monoteist dinlər semitlərə qarşı yaransa da, artıq iki min il sonra bu dinlər smitlərin özləri tərəfindən mənimsənildi. Qərbi Avropada katoliklərin simasında Şərdə isə İslamın simasında reaksionerlik kəsb etməyə başladı. İslamın yayılması ilə geopolitik müxtəliflik ayrı-ayrı təriqətlərin yaranmasında özünü göstərdi. Bununla belə məhz səhrada yaranmış təriqətlər Həmbəlilik və Malikilik özünün radikallığı ilə seçilirdi. İslam İraq və İran ərazisinə çatdıqda islamın daxilində yerli şəraitə uyğunlaşdırma məqsədiylə Həfilik cərəyanı baş qaldırdı. Məhz bu cərəyana etiraz olaraq malikilik və Həmbəlilik səhra təfəkkürü forması kimi meydana çıxdı. İslamda hər cür islahatın əleyhinə olmaqla Həmbəli özü əqli nəticə çıxarmanın qəti əleyhinə idi. Rasionalizmin səhra təfəkküründə arzuolunmazlığının səbəbləri haqda geniş izah verəcəyik. Təktanrılı dinlər özlərinin yarandığı dövrdəki, geopolitik, maddi əsasdan uzaqlaşdıqca özlərinin mütərəqqiliyini itirmiş, stereotip formasını almışdır. Doqmalar toplusuna çevrilmişdir.

## Dövlətin cəmiyyətə münasibəti prizmasından iki cür tarixi-siyasi fəlsəfə

Miladdan öncə 4-cü minilliyin sonlarından başlayaraq, Mesopotamiyanın cənub hissəsində məskunlaşmış Şumer əhalisi ilkin sinifli-quldar təfəkkürün yaradılmasında başlanğıc nöqtə kmi əhəmiyyət kəsb edir. Şumer özünün quldar mədəniyyətini möhkəmləndirdikcə bu mədəniyyət artıq inkişafdan daha çox doqmatizmə çevrilirdi. Hər hansı mədəniyyət yarandığı geopolitik şəraitə olduqca adekvat cavab verirsə, nə qədər onun inkişafında uğurlu varinta çevrilirsə, həmin mədəniyyət sonralar yeni mədəniyyətin yaranmasına mane olan mürtəce, idbar bir doqmatizmə çevrilir. Bu doqmalar artıq e.ə. 3-cü minilliyin sonunda ictimai istehsalı tənzimləməkdə kifayət etmədi. Bu isə doqmaların daşıyıcısı olanların quldarlıq təfəkkürünü zorakılıqla yaşatmağa sövq etdi. Şumerin tarixində ilk ciddi təhlükə cənub-qərb səhralarından aldığı zərbə idi ki, bu da səhra təfəkkür tərzinin daşıyıcısı olan amorit-semitlər tərəfindən reallaşdırıldı. Artıq e.ə. 3-cü minilliyin ikinci yarısından Mesopotamiyanın şimalında yerləşməyə başlamış semitlər həmin minilliyin sonları artıq Şumeri səhra düşüncə tərzinə uyğunlaşdırmaq istədilər. Artıq mövcud olduğu min ilk ərzində qul zehni yaratmış Şumer zikkurat ətrafında birləşmiş kiçik məskunlaşma məntəqələrindən daha böyük şəhər dövlətlər çevrilmək astanasında idi. Bunun üçün isə artıq Şumer mifləri istehsalı təşkilatlandırmaqda aciz idilər. Şumeri işğal edib üzərində Akkad dövləti qurmuş semitlər Şumer mədəniyyəti üzərində bərqərar olsalar da, bu mədəniyyəti dağıtmaq, Şumer dilini məhv etmək, maddi-mədəniyyət abidələrini darmadağın etməklə səhra siyasi fəlsəfəsi kontekstindən üsuli-idarə qurdular.

Akkad dövlətində hakim qüvvə kimi amorit-semitlər Şumer mədəniyyətinin üzərində güclü siyasi təsisata çevrilsələr də, Şumer dilinin məhvi ilə müşayiət olunan hami-sami düşüncə tərzinin və dilinin yayılması baş verir. Məhz hami-sami dil daşıyıcısı olan semitlərin dünyaya baxışı tarixdə Akkad kimi alternativ təklif etmədən məhv etmək məqsədi daşıyan dövlətin meydana gəlməsinə səbəb oldu. Hami-Sami dil ailəsinin əsas daşıyıcıları özlərinin geopolitik məkanlarına uyğun olaraq

formalaşdırdıqları düşüncə tərzini bütün relyeflər üçün keçərli hesab edirdilər. Onlar üçün yaşadıqları nəhəng cənub –qərbi səhralar qeyri-məhsuldar olmaqla semit xalqlarda təbiət anlayışına və eyni zamanda qadına təbii olan hər şeyə nifrət etmək kimi negativ təfəkkürün formalaşmasına səbəb olmuşdu. Belə ki, Ərəbistan yarımadası və onun dərhal şimal hissəsi məhsul verməyən susuz səhralardan ibarət olduğu üçün həm təbiət, həm də qadın-ana obrazı semit təxəyyülündə arzuolunmaz substansiya kimi canlanırdı. Bu obraz bütün hallarda semit xalqların digər xalqlara münasibətdə qısqanclıqdan yaranmış siyasi fəlsəfəsini müəyyən etdi. Belə ki, hər yeri susuz boz səhralar şəklində görmək istəyən semitlər əkinçi xalqların yaratmış olduqları sivilizasiyaya “dağıdılmalı olan” ontos (varlıq) kimi baxırdılar. “Müqəddəs torpaqlar” adlanan ərazilərdə susuz səhralarda qızmar günəş altında gəzmək çətin olduğundan, semitlər yalnız gecələr su axtarışına çıxır, əsasən keçi saxlayır, yalnız səmadkı ayın vəziyyətinə görə həyat tərzi yaşayırdılar. Nildən Fərata qədər olan bu torpaqlarda semitlər həm Misirə, həm də Şumerə nə vaxtsa sahib olacaqları haqqında nifrət dolu folklor nümunələri yaradırdılar. Amorit-semitlərin həyatı konkretlik və məhdud düşüncə tərzi ilə əlamətdar idi. Onlar heç bir varlıq haqqında mürəkkəb, dərin fikirlərlə özlərini yormurdular. Bu susuz səhra insanının tipik tərzidir. Akkad dövlətinin mövcud olduğu bütün iki əsr boyu (e.ə. 2316-3137) Yaxın Şərqin tarixində ilk dəfə etnik yerdəyişmə və hətta soyqırım siyasəti reallaşdırılmışdır.

Digər dövlət tipi Pers-Medya dövlət sistemidir ki, bu əsasən Akkad dövlət fəlsəfəsinə qarşı yaradılmış əkinçi (Ariya) tayfaların özünəməxsus konfederasiya tipidir. Tarixçılər səhvən Midiyanın süqut etməsi kimi onun farslar tərəfindən məğlub edilməsini göstərir. Bu tamamiylə yanlışdır. Çünki, Bu konfederasiya sadəcə mərkəzləşdirilmiş dövlətçilik mərhələsinə qədəm qoyduğu üçün artıq tamamiylə fərqli olan idarə sistemi yaranmağa başladı. Yəni sadəcə Haxa-Manaş (Əhəmənilər) sülaləsi xanədanı öz əlinə aldı. Dövlət isə eyni dövlət idi. BU mənada Pers-Medya dövlətçilik fəlsəfəsinin Yaxın və Orta Şərqə gətirdiyi ən önəmli məsələ avtonomluq faktoru idi. İmperiya ərazisinə birləşdirilmiş, topaqlarda yaşayan müxtəlif etnosların mədəni həyatına müdaxilə etmədən mərkəzə tabe edilirdi. Həmin etnosların mərkəzə tabe etdirilməzdən əvvəl özlərinin arasından bir hakimə təhkim edilirdi. Bu cür idarə

üsulu Akkad-Assur-Babil qətliyamlarından sonra region üçün nəfəs almaq imkanı yaratdı. Heç təsadüfi deyil ki, quldarlıq sivilizasiyası özünün qürub çağını yamaq nöqtəsinə gəldiyi bir zaman Pers-Medya siyasi fəlsəfəsi quldarlıq quruluşunun ömrünün nə az, nə çox düz min il uzatmağa nail oldu. Bu düşüncə tərzi təkcə Haxamanaş (Əhəmənilər) imperiyasında deyil, eyni zamanda Roma İmperiyasının rasionalizmində də özünü göstərir. Eyniylə romalılar da xalqların mədəni lokallığına təcavüz etmir, dillərinin məhvinə vaxt itirmirdilər.

## Geopolitik uyğunsuzluq, mənəvi apatiya radikallaşmanın əsas mənbəyidir

Geopolitika elminin ataları sayılan Ratsel, Çellen, Haushofer, Mehen, Makkinder, Spaykmenin sistemləşdirdikləri klassifikasiyaya uyğun olaraq dini dünya görüşünün də geopolitik analizini vermək mümkündür. İslam coğrafiyası bu gün beynəlxalq münasibətlərin fövqəl aktorlarının toqquşduğu düyün nöqtəsidir. Yaxın və Orta Şərqin 92%-ni təşkil edən müsəlman əhalisinin daşıyıcısı olduğu dinin əsas ontolologi əlamətləri məhz amorit-semitlərin səhra təfəkkürünə əsaslanır. İlk olaraq xalis semit baxışına əsaslanan İslam hər şeyin özü kimi olması (yəni səhra həyat tərzi), bu olmadıqda isə məhv edilməli olmasına əsaslanır. Bununla belə İslamın yayıldığı ərazilər bu təfəkkür tərzi ilə həm tanış olmuş, həm də bu təfəkkür tərzinin ciddi dəyişikliklərə uğramasına səbəb olmuşdur. Belə ki, hami-sami dil ailəsinin yaşadığı ərazilərdən fərqli olaraq, arıya dilinin daşıyıcıları daha münbit Toros-Zaqros dağlarının yamaclarında məskunlaşmışdılar. Bu xalqlar özlərində daha mütərəqqi baxışları yaşadırdılar. İslam simasında Fəratı keçmiş semitlər burada (İran) əkinçi dünya görüşünün təsirinə məruz qalırlar. Bu geopolitik dəyişiklik İslamın adı altında Əcəm fəlsəfəsinin yaşaması ilə davam edir. Belə ki, islamqədərki fəlsəfi baxışlar indi sadəcə adlarını dəyişərək, yenidən yaşamaqda idilər. Sufilik kimi daha mütərəqi bir cərəyan semit təfəkkürü üçün birmənalı şəkildə məhv edilməli olan təlimdir.

Əgər geopolitik xəritələrə baxsaq görərik ki, hər məkanın özünə məxsus düşüncə tərzi formalaşmışdır. Belə çıxır ki, hər bir geopolitik məkanın üzərində yalnız həmin məkana uyğun düşüncə tərzi və bu təfəkkürdən yaranmış mədəniyyət forması mövcuddur. Lakin reallıqda isə bir geopolitik məkanın üzərində nəinki öz təbiətinə uyğun mədəniyyət forması hətta digər geopolitik məkanda formalaşmış mədəniyyət elementləri də mövcud olur. Axı bir geopolitik məkana yad olan mədəniyyət forması həmin geopoltik məkanda necə yaşaya bilər?

Bu sualın cavabını tarixi proseslərdə axtaranlar bəzən sosial hadisələri nəzərə almırlar. Belə ki, sosial proseslər yuxarıda verilən sualın birbaşa cavabını özündə daşıyır. Geopolitik təfəkkürün başqa bir gopolitik məkana müdaxiləsi sosial apatiya ilə mümkün olur. Sosial qruplar daxilində mənəvi apatiyaya uğrama və düşdükləri mənəvi boşluq onları radikallaşmaya sövq edir. İntiqam hissi ilə alışan bu sosial qruplar çıxdaş edildikləri üçün özünə qapanır, sosiallaşmaya meyl etmir, inteqrasiyadan imtina edirlər. Bu cür sosial-mənəvi apatiya genişləndikcə insanlar küskün hala gəldikləri məkanda öz mənəvi boşluqlarını doldurmaq üçün digər geopolitik məkanlardan axıb gələn təfəkkür tərzlərinə meyl edirlər. Çünki belə vəziyyətdə onların yaşadıqları geopolitik məkan onlar üçün yadlaşır və tamamiylə nifrət obyektinə çevrilir. Əgər İbn Xəldun yadlaşmanı siyasi hakimiyətin (siyasi elita) xalqdan uzaqlaşması kimi dəyərləndirirdisə, bu mənada daha elmi izahı karl marks irəli sürür. Karl Marks yadlaşmanı kapitalın böyüməsi şəraitində proletariatın daha çox tabe edilməsi kimi qiymətləndirir. Belə ki, kapital proletariatı işləmək üçün stimullaşdırdıqca kapitalın özü həndəsi silsilə ilə böyüyüb daha çox proletariat sinifini öz hakimiyyəti altına alır. Deməli güclənən kapital elə proletariatın əməyi hesabına güclənir. Gücləndikcə də yeni-yeni proletariat sinifinin nümayəndələrini öz hakimiyyətinə salır. Bu mənada Karl Marks proletariatın əməyinin özgələşdiyini və proletariata yad oluğunu bildirir. Yadlaşma isə geopolitik təfəkkür tərzinə biganə qalmaqla kifayətlənmir. Bir qədər sonra həmin yadlaşmış geopolitik təfəkkürə qarşı nifrət oyanır. Bu nifrət isə mənəvi boşluğun digər geopolitik təfəkkür tərzi ilə doldurulması ilə müşayiət edilir.

Bəs bu mənəvi boşluq necə yaranır? Kamyunun “Yad” əsərindəki obraz necə yaranır? Tarix boyu müharibələrin əsasən eyni geopolitik məkanda aparılması təfəkkür tərzində ciddi dəyişikliklərin olmasına imkan verməyib. Çünki geopolitik məkan iki döyüşən tərəf üçün eyni təfəkkürü formalaşdırmışdı. Bu da qələbənin hansı tərəfə müyəssər olmasından asılı olmayaraq, mütləq həmin geopolitik təfəkkür yaşayacaqdı. Mənəvi boşluq geopolitik təfəkkür tərzi müxtəlif olan sosial qrupların bir-birinin üzərində ideoloji təzyiq realizasiyası sayəsində meydana gəlir. Lakin Geopolitika elmində iki ana məkan var ki, bunlar da Dəniz akvatoriyası, Quru territoriyası adlanır. Məhz bu geopolitik məkanların təfəkkür tərzi bir-birindən tamamiylə fərqlənir. Belə ki, geopolitik düşüncə tərzinə görə Quru(Hartland-telluriya) özündə stabilliyi, kollektivçiliyi, mühafizəkarlığı birləşdirirsə, bunun əksinə olaraq Dəniz (Talasiya) geopolitikası qeyri-sabitliyi, dinamizmi, fərdiyyətçiliyi ilə fərqlənir. Məhz belə olduqda sosial qruplar arasında mənəvi boşluq bu düşüncə tərzlərinin biri digəri üzərində qələbəsi ilə baş verə bilərdi. XVI əsrdən başlayaraq, dəniz təfəkkürünün fərdiyyətçi eyforiyası siyasi güc toplamağa başladı. XVI əsrdən başlayaraq isə Dənizin Quru üzərinə hücumu start götürdü. Bu ilk əvvəl birbaşa Quru daxilinə deyil, Hartlandın yan xəttlərinə doğru istiqamət aldı. Həmin yan xəttlə geopolitika elmində Rimland adlanır. Heç təsadüfi deyil ki, fərdiyyətçi nəzəriyyə olan liberalizm dəniz dünyasının məhsuludur. Buna qarşılıq isə mühafizəkarlıq və xalq avtokratiyası, eyni zamanda sosial-demokratiya, kommunizm, faşizm, nasional-sosializm Qurunun müqaviməti kimi meydana çıxdı. Lakin dəniz siyasi fəlsəfəsinin prinsiplərinə uyğun olaraq, traybalizm (iki düşməni bir-birinə qarşı qoymaq) Qurunun resurslarını tükəndirdi. Nasional-sosializmin məhvindən sonra kommunizm üzərində qələbə çalan liberalizm maneəsiz şəkildə özünün “dalğalı” siyasi fəlsəfəsini Quruya təlqin etdi. Bu təfəkkür tərzi isə yerli sosial qruplar arasında yadlaşma effekti yaratdı. Artıq öz geopolitik vətənində öz ruhunu tapa bilməyən “obıvatel” digər geopolitik məkanların təfəkkür tərzini özünə mənəvi ilham qaynağı hesab edir. Mənəvi boşluğunu doldurmaq üçün hətta ən ucuz zövqlü ədəbiyyata meyl edir. Deqrodasiyaya uğramış sosial qruplar artıq yadlaşmış varlığa çevrilirlər. Bu varlıqlar

isə yaşadıqları geopolitik zonallıqdan yadlaşma ilə uzqlaşır və ona nifrət edirlər. Daha çox radikallaşırlar.

Beynəlxalq hüquq sistemində isə qalib gəlmiş liberal baxışlar dominantlıq təşkil edir. Belə ki, beynəlxalq hüquq normaları məhz neoliberalizmin inkişafı naminə qəbul edilən bütün fəaliyyət formalarını qəti şəkildə təlqin edir. Yəni liberalizm üçün yararlı olmayan hərəkətlər "yararsız" hərəkələrdir. Məhz bu "terror" anlayışını təyin edir ki, belə vəziyyət mənəvi boşluqda olan insanın psixoloji radikallaşmasına səbəb olur. Kapitalizmi yaşamaq üçün təcrübəsi az olan və yaxud anlo-saks tipli kapitalizm görməmiş cəmiyyətlərdə ictimai istehsalı tənzimləmək çətinləşir. Belə olan halda bütün istehsal vasitələrinin özəlləşdirilməsi nəhəng sosial qrupları bu vasitələrdən uzalaşmağa məcbur edir. Bu qruplarda apatiya meylləri yaranır ki, bu da mənəvi boşluqla müşayiət olunur. Bahalı təhsilin mövcudluğu şəraitində zövqsüz ədəbiyyat nümunələri küskün qrupların mənəvi boşluğunu doldurmaq üçün əsas vasitəyə çevrilir.

## Ticarət kapitalizmi şərtləndirdi

XIX əsrin ikinci yarısı bütün Avropanı və koloniyaları sürətlə yayılan marksizm görüşləri radikal çıxışlarıyla həyat fəlsəfəsinə yaxınlıq hiss etdirsə də individ qarşısında sosium mövqeyinə görə Nitşeyançılardan fərqlənirdi. Sosiumun liberal iqtisadiyyata qarşı mübarizəsinin mərkəzləşmiş şəkildə təklif etdiyi inqilab nəzəriyyəsi demək olar ki Privat anlayışını sosiuma konfiskasiya edirdi. Marksizmin yayıldığı dövrü və ilkin yayıldığı məkanı xarakterizə etməklə sosiumun sürətlə komplektləşməsinin mərkəzləşməsinin səbəblərini inkişaf rakurslarını aydın görmək olar.

## Kapitalizmin yaranması

XVI əsrdə artıq bir neçə yüz il idi ki, əsasən yəhudi mənşəli tacirlər ticarətin müxtəlif incəliklərini təkmilləşdirmiş, bank, qiymətli kağız, çek, veksel anlayışlarını dövriyyəyə gətirmişdilər. Bunların fəlsəfi əlavəsi olaraq, XIII əsrdə Şərqə Bizans torpaqlarına edilən Xaç yürüşləri Latın dilli Avropaya Antik dünyanın unudulmuş

fəlsəfəsini geri qaytardı. Geri qayıtmış Antik fəlsəfə Katolisizmin əsaslarını sarsıtmağa başlamışdı. Bunu hiss edən Vatikan geniş miqyasda inkvizisiya və autodafe tədbirlərinə baş vurdu. Buna baxmayaraq, həm Şimali Avropada, həm də Latın dilli Avropanın müxtəlif ərazilərində renesansın və insana, təbiətə dünyaya baxışın yeni forması yarandı. Bu forma artıq teosentrik deyil, antroposentrik dünyabaxışı idi. Belə ki, dünyanın izahı artıq insanın baxış bucağından izah edilirdi. İncillər müxtəlif Avropa xalqlarının dilinə tərcümə edildi. Katolik kilsəyə etimadsızlıq sürətlə yayıldı. Feodal –natural təsərrüfatın ideoloji təəssübkeşi olan katolisizmin yerini sürətlə protestantizm tutdu. Protestan dünya baxışı artıq dünyaya insanların uğurlu əmək fəaliyyəti prizmasından baxırdı. Lüteran, Kalvinist, Münser tipli protest hərəkatlarının genişlənməsi şəraitində artıq ticarətə və bazar təsərrüfatına loyal baxan təfəkkür tərzi bərqərar olmağa başladı. Bu da öz növbəsində katolik ehkamlarından imtina edilməsinə gətirib çıxardı. Buna cavab olaraq katolik kilsə geniş cəza kompaniyalarına başladı. Fransanın cənubundakı Varfolemey qətliamı uzun illər yaddaşlardan silinmədi. Bu qətliyamlar öz növbəsində geniş miqyaslı burjua tacirlərin öz fəaliyyətlərinə uyğun düşüncə tərzi uğrunda inqilabi hərəkatlara sövq etdi. Bu inqilablar otuzillik müharibədən sonra Şimali Avropada protestantizmin qələbəsini təsdiq etdi. Protestantizm özü ilə kapitalizmin, dəniz ticarətinin, bazar dövlətləri-milli dövlətlərin intişar tapmasına rəvac verdi. Kapitalizmin qələbəsi ilə bütün Avropanın şimalında yeni tipli kilsələr yarandı. Ingiltərədə Anglikan kiləsəsi 1535-ci ildə VIII Henrix tərəfindən islahatlar nəticəsində möhkəmləndi. XVI əsrin sonlarından başlayaraq artıq İngiltərə dənizlərdə katolik İspaniyanı eyni zamanda Alman Xalqının Müqəddəs Roma İmperiyasının Habsburqlar sülaləsini dənizlərdən sıxışdırmağa başladı. Niderland İspaniyadan qurtulan kimi özünü dənizlərə açdı. Yeni müstəmləkələr tapıb, bazarlarda məskunlaşmağa başladı. Artıq katolik dünyası özünün natural-feodal tarixiylə keçmişə dəfn edildi. İlkin kapital yığımı hadisəsi baş verdi. Bu hadisə Engelsin də qeyd etdiyi kimi amansız zorakılıq və quldarlıqla müşayiət edilirdi. Amerikada quldarlıq, Rusiyada təhkimçilik məhz modernizmin tələbi kimi yaranmışdı. Manufakturalar liberalizm protestantizmin davamı kimi genişlənməyə başlayır. Hər yerdə amansız istismar olunan kütlələr muzdurlar yaranır.

İstehsal genişlənir, kütləvi istehsal kütləvi istismar yaradır. Bu bəzən etiraz çıxışlarına səbəb olsa da liberalizm üçün təhlükəli xarakter almır. Milli dövlətlər bu çıxışları operativ şəkildə boğa bilirlər. Burjuaziya inadla irəliləyir.

## Sənayeləşmə

Hələ XV əsrdə yaranmış manufakturalar bütün şimali Avropaya yayıldıqca əmək bölgüsünə əsaslanan istehsalat təcrübəsi möhkəmləndi və təkmilləşdi. Bu da öz növbəsində əmək və istehsalat prosesində hərəkətlərin sadələşdirilməsinə gətirib, çıxardı ki, bunun nəticəsində ilkin maşınlar, dəzgahlar yaranmağa başlandı. Sənaye inqilabı - XVIII əsrin sonu və XIX əsrin əvvəllərində cəmiyyətdə baş verən iqtisadi və sosial dəyişikliklərlə müşayət olunan iş şəraiti və həyat rifahının yüksəlməsi prosesi. Sənaye inqilabı Avropada başlayıb sonra əsasən Mərkəzi Amerikaya keçmiş, bu cəmiyyətləri aqrar mərhələdən sənaye mərhələsinə adlatmışdır.

İstehsalatda külək, su və buxar enerjisinin tətbiqi cəmiyyətdə dərin sosial və texnoloji dəyişikliklərin başlanğıcını qoydu. Sənaye inqilabı köklü sosial dəyişikliklər yaratdığından çox vaxt mütəxəssislər tərəfindən "Neolit inqilabi" ilə müqayisə edilir. Burada inqilab sözu şərti olaraq tətbiq edilir, çunki sənayeləşmə on illər boyu baş verən bir proses olmuşdur. Bu ərəfədə texnikanın, elmin və bununla bağlı məhsuldarlığın inkişafı kütləvi işsizlik və kasıbçılıq kimi bir çox problemləri də ozü ilə gətirmişdir.

Sənaye inqilabı XVIII əsrdə İngiltərədə başlamış və XIX əsrdən etibarən Avropa və ABŞ-a yayılmışdır. Əvvəllər heyvan və ya insan gücü ilə hərəkətə gətirilən maşınlar üçün Vattın ixtira etdiyi buxar maşını yeni imkanlar yaratmışdır. Buxar enerjisinin mexaniki enerjiyə çevrilməsi nəticəsində fabrik və zavodları çaylardan və su kanallarından uzaq olan ərazilərdə qurmaq mümkün olmuşdur. Əl əməyi mexanikləşdirilərək manufakturalar iri fabriklərə çevrilmiş və bununla da yeni istehsal üslubu yaranmışdır. Bu öncə İngiltərənin pambıq istehsalında tətbiq olunmuş, sonra başqa sahələri də əhatə etmişdir.

# Təhsilin genişlənməsi

XVIII əsrdə Fransada narazılığın artması,üçüncü silk(bütün aşağı təbəqə) ilə iki əvvəlki silklər(rühanilər və zadəganlar) arasında mübarizənin kəskinləşməsi,köhnə qayda-qanunun tənqidi—bütün bunlar katolik kilsəsinə,feodal qaydalarına, silki quruluşa qarşı təzyiq halında təzahür edirdi. Qabaqcıl filosoflar və yazıçılar, iqtisadçılar və tarixçilər mütərəqqi, çox vaxt inqilabi xarakterli ideyalar irəli sürürdülər. Onlar Fransa burjua inqilabından çox-çox əvvəl mütləq monarxiyanı, feodal quruluşunu tənqid etməyə başlamışdılar. Feodalizmin tənqidi onun siyasi cəhətdən dağılmasından xeyli əvvəl başlanmışdı. Bu böyük ideya hərəkatı sonralar maarifçilik adlandırılmışdı.

Yaranmaqda olan burjuaziyanın və xalqın mənafeyini müdafiə edən maarifçilər feodal qaydalarına qarşı çıxmaqla yanaşı, xüsusi sahibkarlığın sərbəstliyi, şəxsiyyət və cəmiyyətin kilsə və mütləqiyyət zülmündən azad edilməsi uğrunda da mübarizə aparırdılar. Beləliklə, maarifçilər öz qabaqcıl ideyları ilə insanların şüuruna təsir göstərərək, onları mövcud ictimai quruluşun əsaslı şəkildə dəyişdirilməsinə, burjua inqilabına hazırlaşmaqla bu inqilabı ideyaca yetişdirmiş oldular. Maarifçilərin baxışları İnqilabın şüurlu silahlanmasını təmin etdi. İnqiabdan sonra isə həmin maarifçilərin dünya görüşlərinə uyğun olaraq, kütləvi pedoqoqika genişlənməyə başlandı. Əvvəllər aristokratiyanın malı sayılan təhsil indi həm də Demosun ixtiyarına verildi. Lakin demosun yəni üçüncü silkin üst təbəqəsinə burjuaziyaya nəsib oldu. Artıq milli dövlətin liberal təfəkkür tərzi bütün cəmiyyəti öz ağuşuna almışdı. Təhsilin kütləviləşməsi, həm də siyasi qrupların siyasi şüurunun inkişafına gətirib çıxardı. Bu isə öz növbəsində XIX əsrdə siyasi partiyalara doğru sürətli inkişafa səbəb oldu. Kütlələrin xüsusi mülkiyyətə sahib olmasının, rəsmiləşməsi, icmadan ayrılması, individləşmə plüralizmlə nəticələndi. Bu da öz növbəsində müxtəlif fikirlərin rəqabət şəaritində optimallarının seçilməsini labüd etdi. Sənaye çevrilişi kompakt, kollektiv ruhu yenidən canlandırsa da, bu artıq individlərin kollektivi idi. Məhz buna görə də onlar artıq şüurlu şəkildə mənafelərinə uyğun birliklərdə birləşirdilər.

## Demos kratos, liberal demokratiya, xüsusi mülkiyyət

Demokratiyanın antik variantından fərqli olaraq, liberal-demokratiya özünün individual xarakteri ilə seçilirdi. Tutaq ki, antik dünyada azad kişilər kollektiv şəkildə monolit olaraq, mövcud idilərsə, liberallar artıq müxtəlif fikirlərin çoxluğu şəraitində yaşayırdılar. Antik demokratiyada əxlaq və cəmiyyət şəxsiyyət üzərində hökmran idisə liberal demokratiya artıq individlərin meydan sulaması ilə səciyyələnirdi. Bunun əsas səbəbi xüsusi mülkiyyətdə idi ki, qədim dünyada icma torpaqlarında çalışan kəndli azad olsa da əməyin differensasiyana uğramadığı və icma mülkiyyətindən yararlandığı üçün eyni düşüncəyə malik idi. Liberallar isə artıq əməyin differensasiyasının bariz nümunəsi olan kapitalist şəhərləri genişləndirirdi. Sənaye isə iqtisadiyyatın şaxələnməsini, o cümlədən çoxfikirliliyi sürətlə dərinləşdirdi. Nəhayət bu çoxfikirliliyin mübarizəsi iki əsas istiqamətin – libarizm və marksizmin müxtəlif növlərinin yaşamasıyla məhdudlaşdı. Marksizm fəhlə hərəkatının geniş intişar tapması ilə böyüyürdüsə, liberalizm əslində sadəcə müxtəlif təftişçi baxışlarla ona qarşı müqavimət göstərməyə, marksizmin yayılmasının qarşısını almağa səy edirdi. Qeyd edək ki, bu iki istiqamətin arasında nasionalizm də möhkəmlənməyə başlamışdı. Nasionalizm əsasən xırda burjuaziyanın qismən də orta burjuaziyanın dəstəyə ehtiyacı olan etatist baxışlarının kollaps yığnağı idi.

## Neo marksizmus təhsil

Liberalizm özünün maarifçi əsaslarından başlamış sənaye dövründəki islahatlarına qədər həmişə təhsilin kütlviləşməsinə üçüncü silkə verilməsinə dəstək vermişdi. Lakin bu sonralar həm proletariatın təhsilli olmasına və siyasi şüurunun artmasına kömək etdi ki, bu da nəticə etbariylə elə liberalların əleyhinə oldu. Proletariatın davamlı mübarizəsi onun sosial rifah dövlətlərində ciddi güzəştlər əldə etməsiylə, sosial təminatlar əldə etməsiylə nəticələndi. Bundan sonra inqilabi ruhunu itirmiş proletariat artıq öz yerini həddən artıq genişlənmiş təhsil müəssisələrində oxuyan tələbələrə verdi. Tələbələr əsasən sosial özgələşmədən əziyyət çəkdiklərini və mədəniyyətə qarşı kontr-kultura yaratmağa cəhd etdiklərini ifadə edirdilər. Bu artıq XX əsrin 60-70-ci illərinə əsadüf edirdi. (Xatırlayın 1968..5 may gənclər

hərəkatı...Paris). Neoliberal dövrə keçməyin vaxtı çatmışdı. Məhz iri kapitalın TMK-lar şəklində ifadə olunan mərkəzləşməsi bütün dünya bazarını ələ aldıqdan sonra artıq təhsilin kütləviləşməsi ehtiyaclar içində deyildi. Belə ki, artıq dünyada işsiz təhsillilər yaranmışdı. Təhsil isə əlavə problemlər, əlavə düşünən beyinlər demək idi. Buna görə də Neoliberallar təhsildə yeni bir islahat keçirdilər. Əslində bu yeni bir şey deyildi. Necə deyərlər yeni ən yaxşı unudulmuş köhnədir. Məhz Boloniya universiteti vaxtiylə təhsil üçün deyil, Katolik təzyiqə qarşı müqavimət üçün qurulmuş birliklər idi. Məhz bu birlik işə yaradı. Çünki TMK-lara da təhsil deyil, əslində münasibətlər qurulan bir yer- kərpic universitetlər lazım idi. Belə universitetləri bitirənlər real fundamental elmlərdən uzaqlaşdırılmış yalançı tədris ilə silahlandırılır. Bu da neoliberal dünya vahid bazarını təmin etmək üçün istehlak mədəniyyətinin təfəkkürünə sahib "tənha"ların yaranması deməkdir.

### Milli dövlət

Tradisional (ənənəvi) perioddan modern mərhələyə keçdikdə dünya tarixində ilk dəfə milli dövlət anlayışı meydana çıxır ki, bu da özüylə bərabər milli dövlətlərin münasibətlərini ifadə edən "internasional" anlayışını dövriyyəyə gətirir. Milli dövlət feodal dağınıqlığı ilə müşayiət olunan "Müqəddəs İmperiyadan" fərqli olaraq, mərkəzi hakimiyyətin bütün ölkə üzərində ümumi qaydaları realizə etməsi və "vahid məcəllə" anlayışının tətbiqi ilə əlamətdardır. Milli dövləti bujua münasibətləri şərtləndirdiyi kimi, bu dövlətin təfəkkür tərzində radikal dəyişiklikləri də məhz bazar iqtisadiyyatının tələbləri müəyyən edir. Primodern düşüncə tərzindən fərqli olaraq milli dövlətin özünəməxsus modern təfəkürü ayrı-ayrı regional baxışlara deyil, ümumi milli görüşlərə malikdir. Kapitalist əmək bölgüsünün səbəb olduğu sənaye inqilabı milli dövlətin ərazisində kütləvi həyat tərzini formalaşdırır. Belə ki, artıq aqrar dövrə məxsus regional əlamətlər deyil, ümumi həyat tərzi milli dövləti xarakterizə edir.

## Qafqaz xalqları – assimilyasiya unifikasiya problemi

Qafqaz iki böyük geopolitik, geokultural, sivilizasiya sahəsinin sərhədlərini müəyyən edir. Bu sərhəd Baş Qafqaz Xrebetindən keçərək müxtəlif istiqamətlərdə

parçalanmış, beləliklə müxtəlif fərli mədəniyyətlərin yerləşməsinə səbəb olmuşdur. Qafqaz arxası xalqlar isə əsasən Kiçik Qafqaz dağlarında və Böyük Qafqazla Kiçik Qafqazın arasında quraq ərazilərdə məskunlaşmışlar. Müasir dövrdə Qafqazın əsas hissəsi Rusiya Federasiyası daxilində federativ subyektlər kimi mövcuddurlar. Qafqaz arxası xalqlar isə öz tarixlərinin milli dövlət periodunu yaşadıqları üçün kləskin və birmənalı şəkildə unitarizasiyaya uğramışlar. Bu milli dövlətlər əslində aqrar təfəkkür tərzindən qurtulmuş dövlətlər olmadığı üçün daha çox psevda-milli xarakter daşıyırlar. Sovet İttifaqı daxilində mövcud olduğu illərdə əhalinin siyahıya alınması nəticəsində xırda xalqların təsadüfi seçilmiş hər hansı bir xalqın adı altında birləşdirilməsi və həmin xalqın danışdığı dilin eyni regionda təhsil dili (sənaye dövrünün təhsili səviyyəsində) kimi rəsmiləşdirilməsi adi hal idi. Bu rəsmiləşdirilmədən sonra həmin dilin ətrafında müzakirələr daha çox despotik xarakter daşıyırdı. Çünki hər şey hətta bütün tarix həmin dilin mövcud regionda dərin köklərə malik olduğunu təsdiq etməli idi. Heç təsadüfi deyil ki, Qafqaz arxası xalqların müasir dövlətləri Sovet İttifaqından "yadigar" qalmış təhsil dili səviyyəsinə qaldırılmış bu dillərin təəssübkeşi onun daşıyıcısı kimi yaranmağa başladılar. Hətta bir çox hallarda dilin təəssübkeşi rolunda tamamiylə başqa bir xalqın və dilin nümayəndəsi çıxış edirdi. Tutaq ki Sovet İttifaqinda türk şiələrin dili təhsil dili səviyyəsinə qaldırıldısa, 90-cı illər nasifikasiyasının əsas hərəkətverici qüvvəsi kürdlə xalqının nümayəndələri idilər, lakin türk düşüncə tərzinin nasionalizminin keşikçiləri qiyafəsində qışqırırdılar. Bura qədər biz müəyyən qədər anladıq ki, Sovet İttifaqında təhsil dili səviyyəsinə qalxmış türk dili artıq icbari təhsil şəklində bütün azlıqların balaları tərəfindən mənimsənildi. Bu qədər sonra bu sosial dominantlıq belə bir fantaziyaya yol açacaqdı ki, guya bu ərazilər elə bütünlüklə türk dilinin daşıyıcıları tərəfindən məskunlaşdırılmışdır. Bunu bildikdən sonra mədəni fərqlərin toqquşmasına və bu fərqlərin köklərinə işıq salaq. Qafqaz cənubdan Rimlandın şimaldan isə Hartlandın ərazilərini birbirindən ayırır. Bu ərazilər Dəryal (hərbi Gürcüstan yolu) və Dərbənd (bağlı qapı) keçidləri ilə təmas saxlaya bilirlər. Bu geopolitik ərazilər özlərinə məxsus mühit və geokultural xarakter kəsb edilər. Hartland insanı "şimal insanı" kimi, Rimland insanı isə "cənub insanı" kimi

fəqləndirilir. Bu fərqlilik hər şeydən öncə onların təbiətlə təmas olmasının dərəcəsində və mistik özünəməxsusluğa malik həyat tərzlərindədir.

Şimal insanı – inandığı varlığın öz içərisində olmasına inanması və bundan rahatlıq tapması ilə fərqlənir

Cənub insanı – inandığı varlığın özündən kənarda, duyulmayan və heç cür dərk edilməz, kənar və müqayisə edilməz, müzakirə olunmaz, fövqəladə, izah edilməz olması ilə dünyaya baxış formalaşdırır

Geokultural

Hartland – soyuq mühitdə quldarlığın mövcud olmadığı, buna ehtiyacın duyulmadığı azadlıqlı inasanlar birliyi

Rimland – quldarlığın və yararlı torpaqların olduğu müti təfəkkür tərzinin hakim olduğu insanların kəskin stratifikasiyaya uğramış cəmiyyətləri

Tarix müxtəlif köçəri və istibdad qüvvələrinin sənayeyə qədərki dövrdə geniş və intensiv ekses fəaliyyətlərinin səhnələri ilə zəngindir. Qafqaz arxası xalqların həyatında bu tip şiddətli toqquşmalar özünə məxsus iz buraxmışdır. Belə ki, artıq sənaye dövründə köçəriliyin minimuma endirilməsi və Sovet hakimiyyəti ilə qadağan edilməsi Qafqaz arxası xalqların mədəniyyət xəritəsində dayanıqlı rəngbərəng təsvirlərin ortaya çıxmasına şərait yaratdı. Belə ki, sənaye dövrünü şimal insanından əxz edən Zaqafqaziya xalqları Rusiya imperiyasının təsiri ilə Rimland mədəniyyətindən uzaqlaşmağa başladılar. Etiraf etmək lazımdır ki, bu hadisə 150 ildən çox davam etmiş, hətta müəyyən qədər bu gün də davam edir. Qafqaz arxasının mədəni xəritəsində isə müxtəlif zonallıqlara məxsus mədəniyyət daşıyıcılarının yanaşı yaşamaları açıq sezilir. Bu daşıyıcılar nə qədər öz ilkin variantından uzaqlaşmış olsalar da, bir birinə assimilyasiya olunmamışlar. Bunun əsas səbəbi sənayenin inkişafının tormozlanması, sənaye mədəniyyətinin yayılmasında ciddi maneələrin tıxac yaratması oldu. Müxtəlif mədəniyyət daşıyıcıları isə özlərinin aqrar və primodern variantında qalmaqda davam etdilər. Belə şəraitdə insanlar bir-birinə qarşı ikrah və əsəbilik duyacaq, maskalı tolerantlıq nümunəsi göstərəcəklər. Buradan da Qafqaz xalqlarının müasir tarixində milli dövlətlərin yalnız “göstərmək” üçün mövcud olmalarını sezə bilərik. Belə ki, həmin “milli” dövlətdə regionçuluğun daha

doğrusu mədəniyyət daşıyıcılarının ciddi ayrı-seçkiliyinin şahidi oluruq. Bu tipli dövlətlərdə hakimiyyət yalnız digər mədəniyyət nümayəndələrini əzmək, onların istismarını və hətta mədəni qruplaşma kimi məhvini təmin etmək üçün vasitədir. Əlbəttə bu dövlətlərdə heç bir hüquq və demokratik imtiyazlardan yararlanmaq mümkün olmur. Adi avtoritarizm fəaliyyət göstərir. Çünki hakim mədəniyyət daşıyıcıları özlərinin hakimiyyətdən getməsinə həyatlarının sonu kimi baxırlar. Çünki digər mədəniyyət daşıyıcıları səmimi bir ikrah və nifrət hissi ilə qisas almaq haqqında düşünür. Bununla belə unitar dövlət modeli və hakim mədəniyyət daşıyıcılarının nümayəndələrinin imtiyazları digər mədəniyyət daşıyıcılarını təzyiq altında saxlamaq üçün istifadə edilir. Heç təsadüfi deyil ki, bu dövlətlərdə hər şey müasir görüntü ilə müşayiət olunsa da, tam bir aqrar feodal idarəçiliyi mövcuddur. Oliqarxlar həmin mədəniyyət daşıyıcısı kimi ayrı-ayrı əraziləri öz aralarında bölüşdür, hətta eyni aqrar dövrdə mövcud olan qayda ilə krala ödənişlər edilir. Lakin bu bir qədər yeni metodla edilir. Tutaq ki, kral hər hansı bir ərazinin inkişafına mövcud "milli" dövlətin kisəsindən "cib xərcliyi" ayırır. Bu vəsaiti tamamiylə öz hesabına köçürən kral, həmin ərazinin feodal ağasına eyni miqdarda vəsaitin cari məqsəd üçün xərclənməsini tələb edir. Ağa-oliqarx isə bütün itkilərini regionun yerli əhalisini istismar etməklə əvəz edir. Bu əhali isə digər mədəniyyət nümayəndəsi kimi, "milli" dövlətin bütün növ dövlət hakimiyyət orqanlarından uzaq tutulmaqla bariz şəkildə feodal istismar qaydası tətbiq edilir. Müasir dövrdə Qafqaz arxası xalqların yaşadığı "milli" dövlətlərin xarici siyasəti də məhz həmin dövlətin hakimiyyətində olan mədəniyyət daşıyıcılarının öz mənafeyinə tabe etdirilmişdir. Bu dövlət hər hansı dövlətə qarşı müharibəyə girmiş olursa, bu dövlətin deyil, məhz həmin dövlətin hakimiyyətində olan qüvvələrin daşıyıcısı olduqları mədəniyyətin təfəkkür tərzinə uyğun olaraq, məhz bu qüvvələrin istəkləri ilə baş verir. Qafqaz arxası xalqların müasir dövrdə müharibə şəraitində olan dövlətlərini analiz etsək, burada hansısa millətin ümumi mənafeyi deyil, ayrı-ayrı mədəniyyət daşıyıcılarının genetik yaddaşları dayandığını görərik. Əgər nəzərə alsaq ki, Qafqaz arxasında iki düşmən ölkədən birini hayların digərini isə qızılbaşların istəkləri qarşı-qarşıya qoymuşdur, deməli məsələnin kökünü burda axtarmaq lazımdır.

Əvvəla haylar. Bu xalq məğrur Hetlərin, yunan axeylərin, luviylərin, urartların, hurritlərin və bir qədər də arilərin simbioz assimilyasiyası nəticəsində formalaşmışlar. Bu xalqların ilk yaratdığı dövlət Ön Asiya xalqları – Midiyalılar tərəfindən təhdid edilmiş, sonralar bu təhdid Hetlərin məhv olmasında əhəmiyyətli rol oynamışdır. Hetlərin nəsilləri haylar və çərkəzlər şəklində davam etmişdir. Yeri gəlmişkən haylar çərkəzlərlə qohum etnoslardır. Yaqub Mahmudov onları da türk çıxarmaq istəsə də elm bunu inkar edir.

Qızılbaşlar. Bunlar əsasən XIII əsrin sonları Ön Asiyaya sığınacaq dalınca gəlmiş türkdilli, Midiyanın dağılmasından sonra arilərə nifrət bəsləyən mada və yaxud matalar, matalar kürd xalqını təşkil edən etnoslardan biridir, yəni müasir dövrdə artıq biz onları kürd kimi də tanıyırıq. Lakin yezidi kürdlər tamamiylər arilərdir. Midiya dağıdıldıqdan sonra ari dili bütün indiki İran ərazisində tayfalararası dil olduğu üçün matalar da yezidi kürdlər kimi ari (fars) dilində danışırlar. Bu gün biz bu dilə kürd dili deyirik. Kiçik Asiyanın şərqində əsasən köçəri həyat tərzi keçirən qızılbaşlar XV əsrdə fəallıq göstərməyə başlayır. Hayların ilk qətliamı da elə məhz həmin dövrdə baş verir. Tamamiylə nəzarətdən çıxmış ərazilər Sultan I Səlimin dövrünə qədər tamamiylə bu qüvvələrin basqınları altında idilər. Özlərində Rimland mədəniyyətinin Qərbi Fərat (ərəb) populyasiyasını əks etdirən və bu mədəniyyətin daşıyıcıları olan qızılbaşlar Hetlərlə qədim ədavəti dərinləşdirirlər.

Miladi təqvimiylə XI əsrdə köçərilər olduqca ağır vəziyyətdə olan Abbasi xilafətinin muzdluları kimi öz yürüşlərinə bir bəraət verdilər. Köçərilərin muzdlu qatil və yaxud xəlifənin hakimiyyətinin cəza dəstələri kimi sağa- sola cinayətləri son anda elə öz aralarında narazılıqlara və paylaşa bilmədikləri qənimətlərin uğrunda bir-birini didməsinə gətirib çıxardı. Bütün muzdlu qatillərin xarakterik cəhəti budur. Elə bu soyğunçu xarakterləri özlərini dövlət kimi dağıtdı. Yalnız köçəri və yalnız tək dildə danışan ayrı-ayrı bəyliklərdən təşkil olunmuş oğuzlar İrana gəldikləri zaman çoxminlik və müxtəlif dünyagörüşlü icmalarla rastlaşdılar. Bundan sonra İranın minilllərlə təcrübədən keçmiş idarəçilik mirasını saxlamağa məcbur oldular. Çünki xalqların dilini, düşüncəsini başa düşmürdülər. Məhz bu səbəbdən bürokratik aparat və eləcə də dövlət fars dilində danışırdı. Bu metod əlbəttə ki, türklərin kəşfi deyildi.

Romalılar 1500 il əvvəl bundan istifadə edirdilər. İran öz tarixi boyu muzdlu qatil siyasətindən geniş yararlanıb, hətta bu gün də onun Yaxın Şərqdə rəsmi Tehranın maraqlarını şiə ərəblər qoruyurlar. Bəzi xalqlar modern dövrdə bu və ya digər səbəbdən uğursuzdurlar. Məhz buna görə də həmin xalqlar modernizmin top-tüfəng dövründə yalnız və yalnız özlərinin aqrar dövrdən qalma döyüş bacarığı ilə sadəcə sənaye dövlətlərinin muzdurları olurlar. Bura kazaklar da, xüsusiylə Ukraynanın qərbindəki benderlər, hətta Türkiyə heç bir marağı olmayan bir əraziyə - Liviyaya məhz ABŞ-dan gələcək vədlər aldığı üçün gedib girmişdi. Heç təsadüfi deyil ki, Liviyadakı Vaqner qrupun (Rusiya) üzvləri başqırdlardan, çuvaşlardan təşkil edilib.

Bəs necə oldu sənayedən anlayışı olmayanlar dövlət dili oldular. Türkiyənin yaranmasında, hətta osmanlının itirdiyi Qars, Ərdahan, Artvin, Elazığ, Ağrı, İğdır ərazilərinin yenidən özünə qaytarılmasında Leninin bolşevik hökümətinin hədiyyəsindən danışmadan keçmək olmaz. Bolşeviklər Ənvərin Nikolaydan ala bilmədiyi əraziləri Mustafa Kamala hədiyyə etdilər. Bolşeviklər hesab edirdilər ki, cənubdan hər hansı təhdidin Antatnta üçün mümkün olmasını aradan qaldırmaq lazımdır. Məhz buna görə Ankara hökümətini əməkdaşlığa cəlb etdilər. Əvvəla türklər "İstiqlal savaşı" dedikləri şeyi yalnız yunanlara qarşı ediblər, yəni gözlərinin qabağında ingilis, fransız, italyan işğalında olan ərazilərinə heç gözlərinin ucu ilə də baxmağa cürət etməyiblər. Lozannada İngiltərənin tələb etdiyi bütün maddələr qəbul edildikdən sonra ingilislər həm Fransaya, həm də Balkan dövlətlərinə müqavimət göstərməyə başladılar. Türkiyənin də bəxti gətirdi. Mosuldan, Kərkükdən imtina edilməklə İngiltərəni neytrallaşıra bildi. Çünki İngiltərənin daha ciddi problemləri var idi. Fransanı razı salmaq (Almaniya təzminat məsələsi), Sovetlərin genişlənməsi, kommunizmin Avropaya ekspansiyası v.s. Mustafa Kamalın yunanlara qarşı müharibəsində qarşılıqsız sovet dəstəyi ciddi uğurlara qazanmasına səbəb oldu. Bu da ingilislər üçün Ankara hökümətini danışıqlar tərəfi kimi nəzərə almağa sövq etdi. Çünki İngiltərənin əlavə baş ağısı kimi qiymətləndirdiyi yunan-türk müharibəsi onu Moskva ilə qarşıdurmada zəiflədə bilərdi. Londonda bolşeviklərin Kiçik Asiyada nüfuzunu artırmasına görə narahat idilər. 1920-ci illərin əvvəllərində ingilis-Sovet

danııqları da Mustafa Kamala yaşamaq üçün şans qazandırdı. Mustafa Kamal sadəcə xırda burjua yerini tutan kimi Sovetlərlə əməkdaşlıqdan da imtina etdi.

Arazdan şimalda. XVI əsrdə səfəvilər indiki Türkiyənin şərqindəki türkman obalarından yığdıqları narazı kütləni ideoloji təbliğatla Şirvan ölkəsinə yürüşə gətirdilər. Şirvanşahlar həmişə Qafqazın ətəkləri olmaqla tat dilli oturaq əhalisi olan Şamaxı, Bakı, Kürün sol sahili və nəzarətdən kənar şimaldakı dağlar olmaqla nax-dağıstan dilli (əsasən ləzgi) dəmyə əkinçisi əhalidən ibarət idi. Bakıxanov farsca yazdığı "Gülüstani-İrəm" əsərini (əslində tatca sadəcə bunu dövlətin etiraf etməyə cəsarəti çatmır) belə izah edir: "(in kare- mən müstəcid başəd bəraye tarixi Şirvan-ha vəyin ki Doğestan-ha) əsər Şirvan və Dağıstanın tarixinə aiddir". Bu gün Bakıxanovun tat dilində danışdığını, İsmayıl Qutqaşınlının ləzgi olduğunu ağlına belə gətirməyən orta statistik azərbaycanlı bunların yerli feodallar olduğuna görə rus ordusunun rütbəsini daşımaq hüququ olduğunu da bilmir. Səfəvilərin – şiə türkmanların (təxminən müasir ermənistanlılar, şiə naxçıvanlılar, şərqi anadolu şiələri, və əlbəttə ki ərdəbillilər) mədəni səviyyələrinin Şirvandan aşağı olmaları bu ərazilərin işğalı zamanı xüsusi vandallığında, kütləvi qətliyamlarında görünür. Lakin bu işğal türk dilini hegemon etmədi. Çünki heç səfəvi sarayında da bu dil bürokratiyada özünə yer tapmamışdı. İsmayılın özünü İran tax-tacının varisi hesab etməsi Sasani kimi görməsi fars dilinin əhəmiyyətli təsir vasitəsi kimi qəbul edilməsini də ehtiva edirdi.

XX əsrin əvvəllərinə gəldikdə isə tatların Bakı quberniyasında hakim dilin daşıyıcısı olmasını yerli ədiblərin bu dildə yazdıqları faktı təsdiq edir. Yalnız kənardan gələn şiələr Bakıda türk dilində yazmağa başlamışdılar. Neft milyonçularının tat mənşəli olması gəlmə (əsasən İran türkləri) türk fəhlələr arasında onsuz da mövcud olan ixtilafı dərinləşdirirdi. Mövcud ixtilaf şiə-sünni əksliyi idi. Musavatın bakılı üzvlərinin "zadə" familiyası heç təsadüfi deyildir. Fars dilində "zindəge" "dirilən doğulan" deməkdir. Tutaq ki, Rəsulun ailəsindən doğulan. Lakin bu hökümət də öz varlığı ilə etnik-dil dəyişikliyinə əhəmiyyətli təsir edə bilmədi. Çünki Fevral inqilabından sonra Zaqafqaziyada bir qurum yaratmış xalqlar (Zaq Seym) osmanlının işğalı qarşısında nəyinki müqavimət göstərə bilmədilər, hətta

parçalanmaya getdilər. Daha sonra isə Kolçakı Denikini Vrangeli Kornilovu Yudeniçi ve başqa ağ qüvvələri və eləcə də Antantanın intervensiyasını darmadağın etmiş qırmızılar – Sovetlər – bolşeviklər üçün Musavat sadəcə bir neçə saatlıq məsələ idi. Əlbəttə Bakıdakı şüurlu fəhlələrin (sinfi şüur) inqilabi mübarizəsini danmaq olmaz (bunun üçün bax: Məmməd Süleymanov-İnqilab təşkilatları). Lakin bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra yerli fəhlələrin türk dilli olmasından maksimum istifadə etmək qərarına gəldilər. Belə ki, türk fəhlələr rus fəhlələrə nisbətən sinfi şüuru olmasa da bu ərazinin İranla sərhəd olması və İngiltərənin imperializmini məhz Şərqdən (İran, Hindistan) vurub sındırmaqla məhv etmək fikri bu ərazilərə gəlmə olan və Bibi-heybət ətrafındakı məskunlaşmış türklərin həyatında ciddi uğura çevrildi. İnqilabdan sonra yerli tatların demək olar ki, hər yerdə təqib olunması baş verdi. (bax: Tahir Cəfəli – Bir əsr bir nəsr). Bu adi məntiq qanunudur ki, yerli insan əlbəttə ki, gəlmələrə nisbətən uzun illərdir burada yaşayır və əlbəttə ki, bu ərazilərdə yaxşı yaşamağın yolunu tapmış, təcrübə qazanmış və bu sahədə uğur əldə etmiş həyatını yaxşılaşdırmış və hətta varlı olan tatlar inzibati şəkildə mülkiyyətdən məhrum edilir, Abşeron bağları, əllərindən alınır və sonra milli şüuru (tat dili) məhv edilməyə başlanılır. Çünki Sovet hökümətinə Azərbaycanın uydurulmuş yalançı bir türk obrazı və məcburən tədris edilən türk dili zorla pasportlara yazılan “azərbaycanlı” milləti və bu adla İrana iddia etməyə uyduruq tarixi haqqı çatan bir “qurum” lazım idi. İran – məhz bu ölkə İngiltərə imperiyasını dağıtmaq yolunda Hindistana çıxış idi. Bundan sonra zorla türk fəhlənin dili tədris edilməyə, teatrlaşdırılmağa başlanıldı. (İlk teatr Axundovun əsərləri fars dilindədir-tat). Dili itirsə də dünyaya baxışı identikliyini qoruyub saxlamağa çalışan tatlar özləri də hiss etmədən türklərlə tamam fərqli cəmiyyətlərdir. Assimilyasiya tatları tamam məhv etdi, çünki Bakı neft milyonerləri yəni “sinfi düşmənlər” əsasən tatlardan ibarət idi. Lakin ləzgilər də bundan payını aldılar. Belə ki, 30-cu illərdə ləzgilərə öz dilində dərs keçmək üçün vergi qoyuldu. Hətta ali təhsil məhz ləzgilərə pullu edilmişdi. Bağırov edilən şikayətlərə belə cavab verdi: “biz onların hüququnu almırıq sadəcə əgər oxumaq istəyirlərsə uşaqlarının doğum kağızına “azərbaycanlı” yazsınlar”. Beləliklə Bakı Şirvanşahların tatdilli şəhərindən dönüb oldu “Bozqurd” paytaxtı.

Azərbaycanın hətta talış mənşəyə malik gopçu tarixçilər ordusu yarandı. Az qala ölkədə hər daşı, kəsəyi “Dədə Qorqudun nəvəsi” “türk” “qurd” “canavar” çıxaran bu tarixçilər ölkədə orta məktəbdə oxuyan digər millətdən olanların beynində öz millətindən utanma hissi kimi faşizmə getdilər. Tatlar bu gün də öz dillərində dərs keçmirlər. Rusiyanın Azərbaycandakı qorxusuna görə Ləzgilər heç olmasa ləzgi dili keçirlər. Panturkistlərin özlərinin inandıqları uydurma həqiqətlər Bakıya gəlib bakılıya Bakının tarixini öyrətmək cəhdləri sadəcə gizli hikkə və nifrət yaradır. Yalnız aşkarlıq (Гласность) dövrü gələndə Bakının Şirvanın kadrları ölkədə hakimiyyətə gələ bildilər. 90-cı illərdə Mütəllibovun(tat) hakimiyyətdən getməsinə bir region qarşıdurması kimi baxan qarşı tərəf onu öz maraqlarına cavab vermədiyi üçün bütün digər xalqların da düşməni olduğunu qəbul etdirməyə çalışırlar.

Bəli, kommunizmə görə tatlar da, ləzgilər də əksinqilabçı idilər. Lakin bu gün Qarabağdan Ermənistandan qaçıb canını qurtarıb Bakıda evlə təmin edildiyinə görə türklər məhz hər gün söydükləri bolşeviklərə minnətdar olmalıdırlar. Məhz bolşeviklər Bakını türk şəhəri etdilər. “Kaş ki, Musavat qalsaydı” deyənlər xüsusiylə türklər bu gün Bakı neftinin hesabına “qaçqın” kimi pulsuz qaz, işıq, çörək pulu ala bilməyəcəkdilər. Ümumiyyətlə ermənilərlə hər hansı konflikt toqquşma zamanı onlar sahibsiz yəqin ki İranın səhralarına didərgin olacaqdılar. Bir vaxtlar Andronik onları qovanda məhz İran ərazilərinə sərgərdan olub dağılmışdılar. Tat Bakı illioneri Tağıyev heç Musavat hökümətinə kredit verməmişdi. Yusubbəyli isə elə öz Gəncəsini bütöv kəndləri ilə birlikdə ingilislərdən aldığı zirehli qatardan açılan top atəşiylə məhv etmişdi.Çünki elə öz gəncəliləri onu dəstəkləmirdilıər Qatır məmmədi sevirdilər. Bu da Yusubbbəyliyə kifayt etdi ki, öz gəncəlilərini top ağzına verib, qırsın. Qatır Məmməd isə Musavata qarşı döyüşürdü. Fərz edək ki, Musavat qalsaydı Naxçıvan türklərin əlində olacaqdı, çünki bunu elə Musavat imzalamişdı – Batumda. Yəni Naxçıvan Türkiyədə qalsaydı nə Bakıda naxçıvanlı var idi, nə də onlar hakimiyyətə gəlib, tat neftini “ata malı kimi” bölüşdürməzdilər. Eləcə də Ermənistan müstəqil qalsaydı tam müstəqil faşizmlə ordakı türkləri ya Türkiyəyə ya da İrana (şiə idilər) qovmuşdu. Yəni heç ermənistanlı türklər də Bakı üzü görməyəcəkdi. Türkün dili isə nəinki dövlət dili heç ingilis imperiyasının İran qarnizonuna da tanış deyildi.

Bunu açıq aydın “Tehran-43” filmində görmək olur. Hətta hələ 1923-cü ildə Esenin Bakıya gələndə ona deyirlər ki, sənin ən böyük arzun İranı görmək idi. Budur, bu da İran şəhəri...bir neçə gün fars dilli şəhərdə qaldıqdan sonra Yesenin başa düşür ki, bura Sovet şəhəridir.. Sovetlərin erməni xalqına həm böyük köməyi həm də zərbəsi olub. Ermənistan adında dövlət bu gün onun hesabınadır. Banqladeş vəziyyətində yaşamaqdan tarixi bəxti gətirərək qurtulmuş uydurma “azərbaycanlılar” da Sovetlərin hesabına məktəbin nə olduğunu bilirlər. Yəni Musavat onsuz da təsadüfi bir şey idi. Onun tarixi kökü yox idi. Məzh buna görə birinci dünya müharibəsində türklər üstünlük əldə edəndə, türklərin, ingilislər qələbə qazandıqda isə ingilislərin yaqları altında əzildi (Nərimanovun sözüdür). Musavat hökuməti üçün parlament kimi qurum ümumiyyətlə müzakirə mövzusu olmayıb. Nuru paşanın yanında “parlament” deyən adamı elə İslam qaydasındada Xəlifənin “ucalığı” naminə cəzalandırardılar. Heç təsadüfi deyil ki, parlament məhz dekabr ayında açıldı. Çünki ingilis gəlməsəydi o da olmayacaqdı.

Qarabağda Musavat heç vaxt ermənilərə öz suverenliyini qəbul elətdirə bilməyib. Musavat heç Gəncəyə söz keçirə bilmirdi, ləzgilərin isə heç xəbəri olmadı Bakıda kim gəldi, kim getdi, onlar öz Dağlı Respublikaları ilə məşğul idilər. Yeri gəlmişkən ruslar olmasaydı, ləzgi xalqını Samur çayı ilə ayırmaq mümkün olmazdı. Dağlılar Respublikası bütün Qafqaza iddia edirdi. Dağlılar Respublikası Qara dənizdən Xəzər dənizinə qədər ərazilərdə meydana gəldi. Zaqatala 1921-ci ildə Gürcüstan ruslar tərəfindən tutulanda gürcülərin idi. Bolşeviklər Zaqatalanı da alıb verdilər uydurma “Azərbaycana”, eyni ilə 1923-cü ildə bütün tarixi iqtisadi əlaqələrini nəzərə alaraq RSDP-nin Qafqaz bürosu (Kav Byuro) yeni yaradılmış Dağlıq-Qarabağ Muxtar Vilayətini ermənilərə verdi. Stalin tələm-tələsik (bəli həmin o söydüyünüz Stalin) qərarı dəyişərək Azərbaycanın tərkibində saxladı. Hətta Daşkəsəni Goranboyu, Xanları (Şaumyan rayonu) onun tərkibindən çıxararaq ərazisini kiçiltdi. Tat dilli şairlərin türk dilində yazmasını məcbur edən Sovetlər və daha sonra Azərbaycan adlandırılmış dövlət tat dilində və digər xalqların dilində kitab nəşrini qadağan etdi.


Istanbul
Black Sea
GEORGIA
Caspian Sea
UZBEKISTAN
KYRGYZSTAN
Ankara
TURKEY
ARMENIA
AZER-BAIJAN
Baku
Mt. Ararat
Dyarbakir
FREE KURDISTAN
Tabriz
TURKMENISTAN
TAJIKISTAN
GREATER LEBANON
SYRIA
Kirkuk
Tehran
Kabul
Islamabad
ISRAEL
(pre-1967 borders)
Beirut
Damascus
SUNNI IRAQ
Baghdad (city-state)
Herat
AFGHANISTAN
IRAN (PERSIA)
Amman
WEST BANK
(status undetermined)
ARAB SHIA STATE
Basra
PAKISTAN
GREATER JORDAN
EGYPT
KUWAIT
Bandar E-Abbas
FREE BALUCHISTAN
Karachi
Persian Gulf
Gwadar
Medina
Riyadh
ISLAMIC SACRED STATE
QATAR
U.A.E.
Mecca
SAUDI HOMELANDS INDEPENDENT TERRITORIES
OMAN
SUDAN
Red Sea
YEMEN
ERITREA
ETHIOPIA
Grand Moyen-Orient

# Böyük Orta Şərq Proyekti

*İmperializm kapitalizmin çürüyən periodudur*

*V.İ.Lenin*

Yaxın və Orta Şərq bəşəriyyətin yaratdığı ilkin mədəniyyətin beşiyi sayılan ərazilərdəndir. Nildən Fərata qədər yarımdairə formasında uzanan, "Məhsuldar Aypara" adlanan ilk "neolit inqilabının" baş verdiyi ərazilər məhz yaxın Şərqdə yerləşir. Dünyanın müxtəlif bölgələrində mövcud olmuş mədəniyyətlərin qovuşmasında geosiyasi əhəmiyyətə malikdir. Dünyanın müxtəlif böyük regionlarının əlaqələndirilməsində Yaxın və Orta Şərqin əhəmiyyəti sadəcə ticarət yollarının kəsişməsində deyil, eyni zamanda müxtəlif mədəniyyətlərin, inancların sintezində özünü göstərir.

Çoxtərəfli əlaqələri sayəsində Yaxın və Orta Şərq sənaye çevrilişinə qədər dünya tarixinə ən çox təsir göstərən müxtəlif proseslərin baş verdiyi region olmuşdur.Bu səbəbdən qlobal miqyasda baş verən siyasi proseslərə istiqamət vermək istəyən istənilən fövqəl – dövlət üçün Yaxın və Orta Şərq strateji əhəmiyyət kəsb etmişdir. Region ərazisində tarixən baş vermiş qarşıdurmalar, müxtəlif etnik qrupların miqrasiyası, imperialist müharibələr bu coğrafiyada yaşayan xalqların həm məskunlaşmasına, həm də kulturaloji özünəməxsusluğunun formalaşmasına ciddi təsir etmişdir.

"Böyük Orta Şərq Layihəsi"nin əhatə etdiyi ərazidə Mavritaniya, Mərakeş, Əlcəzair, Tunis, Liviya, Misir, İsrail, İordaniya, Livan, Suriya, Səudiyyə Ərəbistanı, Yəmən, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Bəhreyn, Küveyt, İraq, İran, Əfqanıstan, Pakistan və Türkiyə də daxil olmaqla 23 ölkə yerləşir.

Regionun fiziki coğrafiyasında əsas hissə səhraların payına düşür. Bununla belə Nil vadisi, İordan çayı, Dəclə - Fərat su hövzəsi və Ərəbistan yarımadasının cənub – qərb hissəsi kimi çox məhsuldar sahələr regionda xüsusi əhəmiyyətə malikdir. Region eyni zamanda neft və təbii qaz kimi sərvətlərlə də zəngindir. Dünyada indiyə kimi kəşf edilmiş bütün neft yataqlarının 65%-i bu regionun payına düşür. dünyanın təbii qaz ehtiyatının isə 36%-i Yaxın və Orta Şərq ölkələrinin ərazisindədir.

Yaxın və Orta Şərq özündə fərqli irqləri və dil ailələrini birləşdirir. Lakin regionda yaşayan əhalinin əsas hissəsini ərəblər təşkil edir. Ərəblərin sayca üstün olmalarına baxmayaraq, regionda ciddi siyasi nüfuza malik olan dövlətlər qeyri - ərəb dilli dövlətlərdir ki, bunlar da Türkiyə, İran  və İsrail Respublikalarıdır. Ərəb olmamaq bu 3 ölkənin ortaq oxşar cəhətləridir. İran və Türkiyə regionda ən çox əhaliyə sahib olan ölkələrdir.

İranda ərəbcə, farsca, bəxtiyaricə (əsasən Çaharmahal və Bəxtiyari ostanında məskunlaşmışlar), türkcə danışan əhali dil fərqliliyinə baxmayaraq, ümumi İran mədəniyyəti arealında birgə yaşayırlar. Pakistanda əhali urdu dilində danışır. Bu dilin özü də İran dilləri qrupuna aiddir. İsraildə isə əhalinin əksəriyyəti rəsmi dövlət dilində - ibranicə danışırlar. Şimali Afrikanın yüksək təbəqələri, elit ictimaiyyət fransız və ingilis dillərində danışırlar.

Yaxın və Orta Şərqdə 575 milyondan artıq əhali məskunlaşmışdır ki, bunun da 92%-i müsəlmanlardan ibarətdir. Müsəlmanların da 3/2-dən bir qədər çox hissəsini sünnilər, 3/1-ə yaxın hissəsini isə şiələr təşkil edirlər.

Regionda 13,5 milyon xristiyan yaşayır. Xristiyanlar əsasən İsrail, Livan, Suriya, İraq və Misirdə kompakt şəkildə məskunlaşmışlar. Xristiyanların sayı müsəlmanlara nisbətən azsaylı olsalarda, onlar da müsəlmanlar qədər müxtəlif məzhəb və təriqətlərə parçalanmışlar. Belə ki, Yaxın və Orta şərq  xristiyanlar "Şərqi xristiyan kilsəsələri" adı altında qruplaşdırılaraq 3 qola bölünürlər:

— İlk qrupa İstanbul mərkəzli, Hələb mərkəzli, Antakiya, Qüds və İsgəndəriyyə (Aleksandriya) mərkəzli pravoslav kilsələr daxildir.

— Digər qrupa isə 4 – 5-ci əsrlərdə pravoslav məzhəbindən ayrılmış kilsələr daxildir. Bu qrupdakı kilsələr saylarının çox olması ilə seçilir. Bu qrupda ən populyar kilsə Erməni Qriqoryan Kilsəsidir. Nüfuzuna görə ən güclü kilsə isə Misir Qipti kilsəsidir.

— Üçüncü qrup kilsələr isə Vatikana – Roma Papasına bağlı olan "Rum və yaxud Roman Katolik Kilsələridir".

Yəhudilər isə Yaxın və Orta Şərqdə ən monolit və ən az parçalanmış icmadır. Yəhudilərin yeganə dövləti İsrail 20 min km$^2$ ərazisi ilə bütün regionun 0.1% hissəsini əhatə edir. Əhalisi 6 mln. nəfərdən azdır.

Həm yəhudilər, həm xristiyanlar, həm də müsəlmanlar üçün xüsusi əhəmiyyət kəsb edən Qüds (İerusalim) şəhəri regionun "mirvari"si hesab edilir[129]. Belə ki, yəhudilərin müqəddəs kitabı Tövratda ilk yəhudi dövlətinin Davud tərəfindən bu şəhərdə qurulması, Allah tərəfindən bu torpaqların yəhudilərə vəd edilməsi, İbrahim (Avraam) və ondan olan nəslinin bu torpaqlara Allahın əmri ilə köçməsi, Musanın (Moisey) öz xalqını fironun zülmündən (tədqiqatlara görə bu II Ramzes olmuşdur) xilas etmək üçün ilahi göstərişlərlə bu torpaqlara ("Kənaan" və yaxud "Xanaan" topağı) gəlməsi və s. bu kimi doqmatik baxışlara görə İerusalim və ətraf ərazilər yəhudilər üçün xüsusi əhəmiyyət kəsb edir.

Xristiyanlar da Nazaretli İsanın (Yeşua və yaxud İisus) çarmıxa çəkilənə qədər (inanclara görə bu hadisə 30 – 33-cü illərdə baş vermişdir) Qüdsdə yaşadığına inanırlar.

İslama görə isə əfsanəvi "Merac" hadisəsi zamanı İslam peyğəmbəri Məhəmməd məhz Qüdsə getmiş və hətta hicrətdən sonra iki il müsəlmanların qibləgahı məhz Qüds şəhəri olmuşdur.

Orta Şərq ölkələrində iqtisadiyyatın ana ünsürünü neft və təbii qaz kimi təbii resurslar təşkil edir. Bundan başqa bu ərazilər Xəzər neftinin dünya bazarına ixrac – çıxış yolları üzərində yerləşir. Regionun adam başına düşən gəlir 2013-cü ilin məlumatına görə orta hesabla 1840 ABŞ dollarına bərabərdir.

Yaxın və Orta Şərqin gələcək taleyini özündə əks etdirən və təməli Yeni Mühafizəkarlar (neokonservatorlar) tərəfindən qoyulmuş strateji planlar sistemi "Böyük Orta Şərq" adı ilə həm siyasi, həm də publisistik ədəbiyyatlarda özünə populyarlıq qazanmışdır. Bu layihənin meydana çıxmasına, tarixi proseslərin obyektiv inkişafı şərait yaratsa da, onun reallaşmasına təşəbbüs göstərənlər məhz "Ağ ev"in imperialist dairələrinin maraqlarını təmin etmək məqsədi güdürlər.

ABŞ siyasi dairələri inadla vurğulayırlar ki, Yaxın və Orta Şərq xalqları demokratik və azad həyat qurmaq üçün radikal dəyişiklikləri özündə ehtiva edən,

layihəyə ehtiyac duyurlar. Bu xalqların ağır şəraitdə yaşamaları avtoritar rejimlərlə bağlıdır. Regionda mövcud olan anti – demokratik rejimlər öz xalqlarına qarşı hər cür qanunsuzluğa əl atır, qeyri – məhdud hakimiyyətlərindən sui – istifadə edərək, öz ölkələrində insan hüquqlarını kobud şəkildə pozmaqdan çəkinmirlər. Bu xalqların yaşadıqları cəmiyyətlər xüsusiylə qadın haqqlarının tapdalanması, sosial təminatın olmaması, kütləvi təhsilsizlik şəraiti ilə xarakterizə olunurlar. ABŞ rəsmi dairələri isə bütün bu faktlardan bəhrələnərək, regionda milli, etnik və dini azlıqların hüquqlarının qorunmasıvə bu xalqların həyatında inkişafa nail olmaq üçün böyük bir layihəni - “Böyük Orta Şərq” layihəsini ortaya atmışlar.

XX əsrin sonlarına doğru Yaxın və Orta Şərqə dair ABŞ-da formalaşmış fikirlər öz köklərini yüz ildən artıq müddətdə işlənib, hazırlanmış geosiyasi nəzəriyyələrdən götürür. Belə ki, ABŞ üçün dünya hökranlığına nail olmağın strategiyası məhz həmin qlobal planda hazırlanmış geosiyasi nəzəriyyələrin məzmununda verilmişdir.

İngilis – amerikan geopolitik nəzəriyyələrinin klassik nümayəndələri öz fikirləri ilə bu gün ABŞ-ın dünya üzərində hakimiyyətini qurmağa istiqamətlənmiş geostrateji planların əsasını qoymuşlar. Bu mənada ABŞ-ın Yaxın və Orta Şərqə müdaxiləsi ilə bağlı fikirlərin köklərini araşdırmaq olduqca maraqlıdır. Klassik ingilis – amerikan geosiyasət məktəbinin məşhur nümayndəsi Herfold Corc Makkinder geosiyasi nəzəriyyələrə çoxsaylı terminlər gətirməklə yanaşı, həm də müasir dəniz dövlətlərinin əsas prinsiplərini işləyib hazırlamışdır. Makkinderin nəzəriyyəsinə görə dünyanın mərkəzində yerləşməsinə görə böyük üstünlüyə malik Avrasiya materikinin mərkəz hissəsi dünya hökranlığı üçün geniş imkanlar açır. Makkinder geosiyasi termin olan “tarixin coğrafi oxu” ifadəsindən istifadə edərkən məhz Avrasiyanı nəzərdə tuturdu. O bu ərazini dünyanın “ürəyi” “Hartland” adlandırırdı. Hartlandın ətrafında isə böyük bir geosiyasi aypara olduğunu deyirdi. Ayparanın özü də daxili və xarici olmaqla iki hissəyə ayrılırdı. Makkinder deyirdi ki, kim Hartlanda sahib olsa, o bütün dünyaya ağalıq edəcək. Makkinderin fikirlərində maraqlı olan cəhət odur ki, o Qərb dövlətlərini “Atlantizm konsepsiyasını” müdafiə etməyə çağırırdı.

Xüsusiylə ABŞ-ın milli maraqlarını geosiyasi strategiyalarla uyğunlaşdırmağa çalışan Makkinder Almaniya ilə Rusiyanın ittifaqına hər cür vasitələrlə mane olmağa çağırırdı. O belə hesab edirdi ki, Avrasiyanın mərkəzi hissəsində Almaniya ilə Rusiya arasında xırda dövlətlərdən ibarət "geosiyasi korridor" çəkmək lazımdır ki, hər iki dövlətin bu xırda dövltər uğrunda toqquşmaq ehtimalı yüksək olsun. Çünki bu iki dövlətin ittifaqı şəraitində dəniz imperiyası olan Böyük Britaniya dənizlərdəki arxayın mövcudluğunu sonlandıra bilər.

Makkinderin fikirlərini davam etdirən digər ingilis – amerikan geosiysi nəzəriyyəçisi Alfred Mehen "Dəniz qüdrəti" (tallasokratiya) konsepsiyasını işləyib, hazırlamışdır. Mehenin fikrincə dünya tarixi boyu dənizlərə nəzarət edən dövlətlər özləri üçün əsas üstünlüyü təmin etmiş olurlar. Dəniz dinamikanın təbii əsası kimi, ticarətin inkişafına şərait yaradır. Mehenin dövriyyəyə "sahilboyu millətlər" termini gətirərək, ABŞ və hətta NATO-nun geostrateji prinsiplərinin fundamentini qoymuşdur. Onun fikrincə dəniz imperiyaları sahil zolağını tam nəzarətə götürməli, quru dövlətləri olan Almaniya və Rusiyanı qitənin mərkəzinə doğru sıxışdırmalıdır. Dəniz dövlətləri Quru dövlətlərini bir həlqə olaraq dairəyə almalıdırlar. Mehen dəniz dövlətlərinin lideri kimi ABŞ-a təklif edirdi ki, Quru dövlətlərinə qarşı "anakonda" strategiyasını tətbiq etsin. Bu strategiya Avrasiyanı bütün sahil zolağından məhrum etmək və onu sıxmağı nəzərdə tutur.

Bu təklif bu gün Mehenin də dediyi kimi "sahilboyu zolaqda" yerləşən İslam coğrafiyasına müdaxilənin konseptual əsaslarını təşkil edir. Məhz bu gün ABŞ özünün Yaxın və Orta Şərqə müdaxiləsinin mahiyyətində dünya ağalığına çatmaq niyyətini daşıyır. Dünya ağalığı üçün isə yuxarıdakı nəzəriyyəçilərin də qeyd etdiyi kimi Avrasiyanın mərkəzinə nəzarət etmək lazımdır. Bunun üçün isə quru dövlətlərini bütün kənarlardan dövrəyə almaq xarici aləmdən izolyasiya etmək lazımdır. Məhz bundan sonra zəifləmiş quru dövlətlərinin mərkəz hissəsinə qətiyyətlə son zərbəni endirmək və mərkəz hissəyə daxil olmaq lazımdır. Bununla da dünya ağalığı təmin edilmiş olacaqdır.

Mehenin gələcəklə bağlı təklifləri ABŞ-ın müasir siyasətini də formalaşdırmağa təkan vermişdir. Belə ki, o ABŞ rəsmi dairələrinə təklif edirdi ki:

- ✓ Böyük Britaniyanı Almaniyaya qarşı dəstəkləsin və onunla sıx əməkdaşlıq etsin.
- ✓ Almanları dənizlərdən vurub çıxarsın, qitənin mərkəzinə sıxışdırsın
- ✓ Sakit okeanı yaponlardan “təmizləsin”.
- ✓ İslam ölkələri ilə mübarizədə Avropa dövlətlərinə tam dəstək versin.

ABŞ-ın müasir geosiyasi planlarının konseptual əsaslarını qoyan digər geosiyasət nəzəriyyəçisi Nikolas Spaykmandır. Spaykman öz nəzəriyyəsində “Rimland” (ingilis dilində “kənar ölkə”) terminindən istifadə edərək, öz sələflərinin fikirlərini bir qədər də dərinləşdirmişdir. Makkinderin fikirlərində “Hartlanda” üstünlük verməsinə qarşı çıxış edən Spaykman dünyaya nəzarətin məhz “Rimland” ərazisinə sahib olmaqla mümkün olduğunu qeyd edirdi. Lakin bu nəzəriyyə də öz mahiyyəti ilə “dünya adasının” mərkəzində yerləşən quru dövlətlərinin neytrallaşdırılması və məhv edilməsi məqsədi daşıyırdı. Belə ki, Rimlanda nəzarət etməklə dəniz imperiyaları quru dövlətlərini tam sıxışdırıb, məhvə məcbur edə bilərlər.

Məhz bu fikir bu gün İslam coğrafiyasına müdaxilə ideyasının köklərini özündə ehtiva edir. Belə ki, Böyük Britaniyadan Yaponiyaya qədər bütün okean sahili zolaq Spaykman tərəfindən “Rimland” adlandırılmışdır. Bu ərazinin mərkəzi hissəsini isə İslam coğrafiyası təşkil edir. Bu coğrafiya isə Yaxın və Orta Şərqə müdaxiləni nəzərdə tutan ABŞ-ın “Böyük Orta Şərq” layihəsinin əsas hədəfidir. Məhz bu ərazini tam nəzarətə götürdükdən sonra Avrasiyanın mərkəzi hissələrinə doğru irəliləməyi nəzərdə tutan ABŞ rəsmi dairələri artıq Rusiyanın simasında quru dövlətinin müqaviməti ilə elə Yaxın Şərqdə rastlaşdılar.

ABŞ geosiyasət nəzəriyyəçiləri arasında “milli maraq” və “dünya dövləti” anlayışlarını uyğunlaşdırmaq uğrunda mübahisələrə baxmayaraq, əksər ABŞ geosiyasət nəzəriyyəçiləri dünya dövlətini ABŞ-ın milli maraqlarından çıxış edərək, izah edirlər. Bu istiqamət Atlantist istiqamət kimi tanınır. Atlantistlər tallasokratik (dəniz gücü) akvatoriyanın (su hövzəsi) tellurokratik (quru hakimiyyəti) territoriya (məkan) üzərində qələbəsini ciddi cəhdlə geosiyasi prizmadan əsaslandırmağa çalışırlar. Milli marağın dövlətin gücü ilə təmin edilməsi kontekstindən yanaşan Hans

Morgentau dövlətlərin gücünü bir çox amillərlə izah edirdi. Milli maraq prinsipindən yanaşaraq, dövlətin gücünü təbii sərvətlər, relyef, iqlim və eləcə də hərbi qüdrəti ilə bağlayan H.Morgentau ABŞ-ın öz milli marağına uyğun şəkildə qlobal nəzarət yaratması imkanlarını öyrənmişdir.

Müasir ABŞ geosiyasətini quran geosrateqlərdən Henri Kissencer və Zbiqnev Bzejinski bu günki amerikan geostrategiyasının portretini öz nəzəriyyələrində on illər öncə təsvir etmişlər. Zbiqnev Bzejinskinin ABŞ-ın hegemonluğunu təmin etmək məqsədiylə işləyib hazırladığı "mondialist nəzəriyyəsi" bütün dünyaya amerikan nəzarətinin bərqərar olmasını özündə əks etdirir. Onun "Yeni dünya nizamı", "konvergensiya" nəzəriyyələri bütün dünyanı vahid dünya dövlətində birləşdirməyin əsaslarını göstərir. Kissencer ABŞ üçün əsas vəzifə kimi Avrasiyanın Rimland hissəsini "bütöv birlik" daxilində nəzarətdə saxlağı tövsiyyə edir. Bu fikirlər "Böyük Orta Şərq" layihəsində nəzərdə tutulmuş "Böyük Orta Şərq Katibliyi" anlayışı ilə uyğun gəlir.

"Böyük Orta Şərq" layihəsi haqqında ilkin fikirlər yəhudi əsilli tarixçi Bernard Levisə aiddir. Levis Amerikan administrasiyasında olan Yeni Mühafizəkarların (NeoCons) ən etbarlı məsləhətçisi olmuşdur. Bernard Levis digər bir yəhudi – "Qaranlıqlar Şahzadəsi" ləqəbi ilə tanınan Rixard Perle vasitəsiylə, öz fikirlərini Dik Çeniyə çatdıra bilmişdi. Çeniy isə öz növbəsində Levisin Orta Şərq, İran, İraq, İslam haqqında fikirlərindən çox təsirlənmiş və siyasi dairələrin diqqətini bu fikirlərə çəkə bilmişdi.

"Böyük Orta Şərq Layihəsi" 1960-cı illərdə Yeni Mühafizəkarlıq hərəkatının aktiv nümayəndələri olan – bir qrup jurnalist və politoloqlar tərəfindən sitemləşdirilməyə başlanıldı. Bunların arasında İrving Kristol, Norman Podhorest, Midge Dekter, Ben Uattenberg, Natan Glazer, Daniel Bell kimi amerikan siyasətini nəzəriyyələşdirən adlar vardır. Daha sonra bu qrupa Nyu York əyalətinin keçmiş senatoru Daniel Patrik Mohinghan, Rixard Perle, Eliot Abrhams, Cannet Adelmann, Gene Kirkpatrik, və Ualt Ugene Restov kimi tədqiqatçılar qatılmışlar. Bu şəxslərin çoxu Çikaqo Universitetinin professoru, ciddi nüfuza malik Albert Volştetterin tələbələridirlər. Rixard Perle isə eyni zamanda Albert Volştetterin kürəkənidir. Yeni

Mühafizəkarların tərkibində yəhudilərdən başqa, Xristiyan – Protestant – Evangelistlər, Xristiyan – Katoliklər də yer alıblar.

Yeni Mühafizəkarlar ABŞ tərəfindən yeridilən demokratiyanın bütün dünya üçün ən uğurlu variant olmasını, azadlığın yayılmalı olduğunu və bu vəzifənin onlara (yəni ABŞ) Allah tərəfindən verildiyini israrla vurğulayırlar. SSRİ-nin dağılmasından sonra ABŞ-a meydan oxuya biləcək bir gücün qalmaması səbəbindən neokonservatorlar ABŞ-ın öz liderliyində təkqütblü dünya qurmalı olduğunu, diktaturaların hərbi müdaxilələrlə devrilməsini və ABŞ-ın xarici siyasət sahəsində aktiv, müdaxiləçi bir dövlət olmasını tələb edirlər. Yeni Mühafizəkarlar yəhudi dövləti – İsrailin də ultra – sağçı siyasətinə tam haqq qazandırırlar. Fələstinə verdiyi dəstəyə görə problem yaradan Suriya, İran və Səudiyyə Ərəbistanındakı rejimlərin isə devrilməsini həyati əhəmiyyətli zərurət hesab edirlər. Yeni Mühafizəkarlar Hantinqtonun ortaya atdığı "Sivilizasiyaların toqquşması" ideyasına əsaslanaraq, 3-cü dünya müharibəsinin məhz Orta Şərqdə başlayacağını bildirirlər. Prezident C.Buşun andiçmə mərasimini öz dualarıyla rituallaşdıran "Müqəddəs Ata" Billi Graham isə İslamı günahkar bir din elan etmişdir. Pentagonun antiterror və kəşfiyyat üzrə məsul əməkdaşı general Villiam Boykin öz çıxışlarında C.Buşun məhz Tanrı tərəfindən prezidentlik kürsüsünə gətirildiyini söyləmişdir.

"Böyük Orta Şərq" layihəsi ABŞ-ın rəsmi sənədlərində bütöv göstərilməsə də, bu planın ayrı — ayrı hissələri ABŞ-ın rəsmi nümayəndələrinin və MKİ (ABŞ "Mərkəzi Kəşfiyyat İdarəsi", ingiliscə CİA – "Central Intelligence Agency") tabeliyində fəaliyyət göstərən beyin mərkəzlərinin hesabatlarında, bəyanatlarında və s. sənədlərdə verilmişdir[50.səh.91].

Bu layihənin ilkin variantı hələ 1995-ci ildə ABŞ-ın "Milli Strateji Araşdırmalar İnstitutu" ("İnstitute for National Strategic Studies") və "Milli Müdafiə Universiteti" ("National Defence University") tərəfindən nəşr edilən "Milli qüvvələrin rüblüyü" ("National Force Quarterly")adlı jurnalının payız buraxılışındakı "Böyük Orta Şərq" ("The Greater Middle East") başlıqlı yazıda işıqlandırılmışdır.

Bu sənədlərdən ən vacibi 17 sentyabr 2002-ci ildə imzalanmış ABŞ "Milli Təhlükəsizlik Strategiyası" doktrinasıdır. Bu sənəd ABŞ-ın "soyuq müharibə"

bitdikdən sonra dünya nizamı üçün hazırladığı önəmli sənədlərdəndir. “Milli Təhlükəsizlik Strategiyası” 20 sentyabr 2002-ci ildə ictimaiyyətə açıqlanmışdır.

ABŞ-ın XXI yüzillikdə təhlükəsizlik strategiyasını özündə cəmləmiş həm “Yeni Amerikan Yüzilliyi Layihəsi” (“Project New American Centry”), həm də “Milli Təhlükəsizlik Strategiyası” (“National Security Strategy”) respublikaçıların siyasi baxışlarına uyğun şəkildə qələmə alınmışdır. Mətbuatda tez – tez “şahinlər” adlandırılan yeni mühafizəkarlar əsasən Respublikaçılar Partiyasının təmsilçiləridirlər. Yuxarıda adları çəkilmiş sənədlərdə göstərilir:

— Terrorizmin yaranıb, dünyaya ixrac edilməsinə münbit şərait yaradan bütün qeyri - demokratik rejimlərin qəti şəkildə məhv edilməsi

— Təhsilsizliyin aradan qaldırılması,

— Dini fanatizmlə mübarizə aparılması

— Terrorizmə qarşı amansız mübarizədə heç bir danışıqlara və razılaşmaya getməmək

— Amerikan liberalizminə uyğun infrastrukturun, azad bazarın, modern həyat tərzinin yaradılması

— Regionda maarifləndirmə işi aparan müxtəlif qrupların fəaliyyətinin maliyyələşdirilməsi, onların dəstəklənməsinə xüsusi diqqət ayrılması

— Yeni tipli təhsilin inkişaf etdirilməsi

Ata C.Buşun hökümətində 1992-ci ildə hazırlanıb təsdiq edilmiş “Strateji Müdafiə Planı”na əsasən ABŞ həm Sovet coğrafiyasında, həm də ona yaxın digər regionlarda təbii sərvətləri ələ keçirməlidir ki, bir daha SSRİ kimi fövqəl gücə malik dövlət ilə üz – üzə dayanmaq məcburiyyətində qalmasın. Çünki, bu təbii sərvətlər yeni bir gücün yaranmasına səbəb ola bilər. “Böyük Orta Şərq” həm də bu çərçivədə nəzərdən keçirilməlidir. ABŞ-ın XXI yüzillikdə ən vacib hədəfi ABŞ-ın təkqütblü hegemonluğunun (“Pax Americana” və yaxud “Pan Amerikan”) davamlılığını qoruyub, saxlamaqdır. Bu vəzifə rəsmi şəkildə “Yeni Amerikan Yüzilliyi Layihəsi” (PNAC “Project for the New American Century”) sənədlərində yer almışdır.

“Böyük Orta Şərq Layihəsi” ABŞ rəsmilərinin özləri tərəfindən də ayrı – ayrı tədbirlərdə dünya ictimaiyyətinə təqdim edilmişdir. 2003-cü ildə ABŞ-ın NATO

strukturlarındakı daimi təmsilçisi R.Nicolas Burns Pragada söylədiyi nitqdə ABŞ- ın Yaxın və Orta Şərqdə həyata keçimək istədiyi planlardan danışmış və NATO-nun bu layihədə iştirakının labüd olduğunu vurğulamışdır. ABŞ Dövlət Katibinin Köməkçisi Mark Grosman və ABŞ prezidentinin milli təhlükəsizlik üzrə o zamankı məsləhətçisi, sonralar isə Dövlət Katibi olmuş Kondoleza Rays tərəfindən müxtəlif vaxtlarda Yaxın və Orta Şərqə müdaxilənin qaçılmaz olduğu yüksək tribunalardan dilə gətirilmişdir. ABŞ-ın eks prezidenti C.Buş (oğul) öz müsahibələrində, rəsmi tədbirlərdə, Milli müraciətində və Konqresdəki nitqlərində‘‘Böyük Orta Şərq" layihəsindən irəli gələn məqsəd və vəzifələri əsaslandırmağa çalışmış, bu layihənin vacibliyini xüsusi qeyd edərək, bildirmişdir ki, Yaxın və Orta Şərqdə demokratikləşdirmə və antiterrorizm fəaliyyətində bütün dünya ölkələri ABŞ-a dəstək olmalıdır. Ancaq bu layihənin xüsusən 2004-cü ilin prezident seçkiləri ərəfəsində ABŞ prezidentinin köməkçisi Dik Çeniy tərəfindən Davosda dilə gətirilməsi dünya ictimaiyyətini bu məsələ ətrafında ciddi düşünməyə sövq etdi. Tamamiylə aydındır ki, "Böyük Orta Şərq" layihəsi ABŞ rəsmi dairələrinin imperialist maraqlarına xidmət edir. Buna baxmayaraq bu layihənin rəsmi şəkildə elan edilmiş əsas məqsədi "azad olmayan, antidemokratiya şəraitində yaşayan, geridə qalmış, yoxsulluqdan əziyyət çəkən, təhsil səviyyəsinin çox aşağı olduğu Yaxın və Orta Şərq ölkələrinə demokratiya gətirmək" kimi açıqlanmışdır.

Corc Buş 2002-ci ilin iyun ayının 1-də ABŞ "West Point" hərbi məktəbinin məzuniyyət mərasimindəki çıxışı zamanı terrorla mübarizənin xüsusiyyətlərini və mərhələlərini açıqlayarkən gələcək planlarından da söz açmışdır: "ABŞ-ın "soyuq müharibə" zamanı tətbiq etdiyi "fikrindən yayındırmaq", "vaz keçməyə məcbur etmək" (deterrence) və "blokadaya almaq" (contaimrent) strategiyaları hələ də yararlı olmasına baxmayaraq, kifayət deyildir. Terror üzərində qələbə yalnız müdafiədə oturmaqla mümkün deyil. Bunun üçün gərək biz müharibəni düşmənin yuvasına aparaq. Onların planlarını reallaşmadan aşkar edib, məhv etməliyik. Yaşadığımız dövr bizi təhlükəsizlik uğrunda fəaliyyətə keçməyə məcbur edir. İslam ölkələri də demokratiyaya layiqdir, lakin demokratiyanı bu ölkələrə əvvəlcə aparmaq, sonra isə

möhkəmləndirib, inkişaf etdirmək lazımdır. Bu vəzifəni Tanrının köməyi ilə yalnız ABŞ layiqincə yerinə yetirə bilər".

26 fevral 2003-cü ildə "Amerikan Təşəbbüslər İnstitutu" ("Institute of American Initiatives") kimi qatı mühafizəkar bir orqanın fəaliyyəti ilə tanış olmaq məqsədiylə iştirak etdiyi tədbirdə çıxışı zamanı C.Buş açıq şəkildə bildirmişdir: "Yaxın və Orta Şərqdə demokratik dəyərlərin yerləşdirilməsi olduqca vacib və təxirəsalınmaz tapşırıqdır". C.Buşun sonrakı çıxışlarında biz ABŞ imperializminin Yaxın və Orta Şərq regionuna dair planlarını daha aydın görə bilərik. 9 may 2003-cü ildə C.Buş öz nitqində Yaxın və Orta Şərqdə sərbəst ticarət bölgəsinin qurulmasını həyati əhəmiyyətli vəzifə kimi təqdim etmişdir. Burada onu xüsusiylə qeyd etmək yerinə düşər ki, Yaxın və Orta Şərqdə qurulacaq təsisatların ən vacibi bütün Yaxın və Orta Şərqin ümumi bankı və sərbəst ticarət zonalarıdır. 6 noyabr 2003-cü ildə "Milli Demokratiya Mərkəzi"ndə çıxış edərkən prezident C.Buş "Orta Şərqi azad etmək Strategiyası" haqqında geniş nitq söylədi.

C.Buş Yaxın və Orta Şərqə istiqamətlənmələrinin səbəbini region ölkələrində mövcud olan yoxsulluq səviyyəsi ilə izah etmişdir: "Ona görə bu ölkələrdə qadın hüquqları yoxdur. Qadınların məktəblərə getməsi ciddi maneələrə rast gəlir. Bütün dünya inkişaf edərkən, Orta Şərq yerində sayır". C.Buşa görə Orta Şərqdə azadlıq, demokratiya bərqərar olmadığı müddətdə regionda terrorçuluq və şiddət yüksək səviyyədə qalaraq, digər ölkələrə ixrac ediləcəkdir".

"Böyük Orta Şərq Layihəsi"nin təşəbbüskarlarından olan Dik Çeniy layihə haqqında bunları söyləmişdir: "Böyük Orta Şərq Layihəsinin ana fikri, bütün regiona demokratiyanı yayaraq, regionda inkişafı və sülhü qarantiya altına almaqdan ibarətdir. Demokratiyaya gedən yolda regionun özünəməxsus problemlərini həll etmək lazım gələcək:

— Sərhədlərdəki hüquq pozuntularının qarşısını almaq

— Dini və milli azlıqların öz müqəddəratını həll etməsi

— Bütün regionu zəhərləyən yanlış ideologiyaları məhv etmək üçün təhsildə islahatlar aparmaqla böyük irəliləyişə nail olmaqdır".

D.Çeniy öz nitqinə davam edərək: "Hətta qara Afrikanın Avropa ilə bir çox bənzərliklərini görə bilərsiniz. Latın Amerikasında və Asiyada da Avropa ilə oxşarlıq tapmaq mümkündür. Lakin Orta Şərqə səyahət edərkən heç vaxt özünüzü rahat hiss etməzsiniz. Harda olursunuzsa olun Mərakeşdə, yaxud beş min km uzaqlıqda – Səudiyyə Ərəbistanında, özünüzü təhlükədə olan əcnəbi kimi hiss edərsiniz. Çünki, İslam çox qəribə sivilizasiya yaratmışdır. Qadın haqqlarındakı geriliyin səbəbi də dindir. Sosial sahədə insanların inkişafını elə məhz qadınlardan başlamaq lazımdır." söyləmişdi.

ABŞ prezidentinin o zamankı Təhlükəsizlik üzrə müşaviri Kondoleza Rays (Condolezza Rise) 7 avqust 2003-cü ildə "Vaşinqton Post" ("The Washington Post") qəzetində yayımlanan "Orta Şərqin dəyişdirilməsi" ("Transforming the Middle East") başlıqlı yazısında C.Buşun söylədiklərini bir daha təsdiq edərək, yazırdı: "Yaxın və Orta Şərqdə ABŞ-ın planları, Mərakeşdən Çin sərhədlərinə qədər 22 ölkənin siyasi və iqtisadi coğrafiyasının dəyişdirilməsini nəzərdə tutur".

Londanda çıxan "El Hayat" qəzəetinin 13 fevral 2004-cü il nömrəsində dərc olunmuş məqalədə ABŞ-ın Yaxın və Orta Şərqə dair planları detallı şəkildə işıqlandırıldı.

2001-ci il 11 sentyabrda Nyu – Yorkdakı ticarət mərkəzinə, Pentaqon binasına reallaşdırılmış hücumlar ABŞ-a qarşı kin və nifrət kimi dəyərləndirilmişdir. "Ağ Ev"dəkilər 11 sentyabr hadisələrindən maksimum yararlanaraq, Yaxın və Orta Şərqə müdaxilə etmək üçün bəhanə kimi istifadə etdilər. Bu layihə ABŞ üçün Yaxın və Orta Şərqə, o cümlədən Fars körfəzi ölkələrinə tam nəzarət etmək imkanı yaratmalı idi. Yaxın və Orta Şərqdə möhkəmləndikdən sonra ABŞ rəsmiləri Avrasiyaya müdaxilə etmək arzusundadırlar. Məhz bundan sonra tam dünya hökranlığına nail olaraq "Yeni Amerikan Yüzilliyi Layihəsi"ndə ("Project New American Centry") öz əksini tapmış məqsəd və vəzifələr yerinə yetirmiş olacaq.

ABŞ-ın İslam dünyası üçün nəzərdə tutduğu dəyişikliklər rəsmi Vaşinqtonun imperialist maraqlarına xidmət edir. Əvvəla Kondoleza Raysın da dediyi kimi 22 dövlətin sərhədlərini dəyişmək birtərəfli qaydada səslənmiş fikirdir. Bu da bir daha beynəlxalq hüququn birtətəfli şəkildə pozulması deməkdir. Çünki, hər hansı sərhədin

dəyişilməsi xarici müdaxilə və ya təzyiq ilə deyil, daxili referendumlarla mümkündür ki, bu da zərurət olduğu təqdirdə labüddür.

Bir başqa məsələ isə ABŞ-ın Yaxın və Orta Şərqdə "demokratiya yaratmaq" istəyidir. Əvvəla ABŞ sənədləri və rəsmi şəxslər özləri də bildirirlər ki, regionda azad bazar iqtisadiyyatının, kapitalist həyatın, liberal düşüncə tərzinin yaradılması üçün heç nədən çəkinməyəcəklər. Burada xüsusiylə qeyd etmək lazımdır ki, demokratiya sivil balanslı güclərin siyasi rəqabətidir. Xüsusiylə plyuralist demokratiya iqtisadi gücün paylanması şəraitində mümkündür. Lakin Yaxın və Orta Şərq regionunda elə amerikalıların XX əsrdə hakimiyyətə gətirdikləri diktatorlar bütün iqtisadiyyatı öz əllərində inhisara almışlar. Budiktatorların devrilməsi liberalizmin inkişafına deyil, kolonial quruluşa gətirib çıxaracaqdır. Belə ki, formalaşmamış yerli burjuaziyanın imperialistlər qarşısında zəif mövqelərə malik olması onları dünya kapitalizminin əlavəsinə çevrilməyə vadar edəcəkdir. Məhz bu cür kolonial iqtisadiyyatı asanlıqla idarə etmək üçün regionda imperializmin əleyhinə olan bütün qüvvələr məhv edilməlidir. Anti – Qərb təlimlərin başında region ölkələrindəki millətçilik və İslam dini dayanır. Həm millətçilik (etatizm mənasında), həm də İslam xarici sərmayenin regiona daxil olmasını narazılıqla qarşılayır. Belə ki, məhz milli dövlətlərin ideologiyası sayılan "Etatizm" özünün iqtisadi proteksionizmi və yerli burjuaziyanı müdafiə siyasəti ilə imperialistlərin maraqlarına heç cür cavab vermir. İslam dini isə Dik Çeniyin də bildirdiyi kimi heç bir halda kapitalizmin maraqlarına cavab vermir. Çünki, İslam liberal dünya görüşünün inkişafını ən az Katolisizm qədər buxovlayır.

Ümumiyyətlə aqrar periodun (sənayeyə qədərki dövr) məhsulu olan İslam dini, kapitalizmin nəticəsi və təbii davamı olan industrial həyat tərzini qəbul etməməsi tamamiylə anlaşılandır. Məsələ kapitalizmdə deyil, çünki İslam heç sosializmi də qəbul etmədi. Burada problem doqmatik İslamın aqrar vəziyyətdə qalmasında və reformların aparılmamasındadır. Türkiyədə uzun müddət MKİ-nin (ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi) nümayəndəsi kimi işləmiş Graham Fuller isə öz qeydlərində bunları yazır: "Yaxın və Orta Şərqdə Qərbin mənafeyinə qarşı çıxacaq yeganə müxalifət İslam olacaqdır".

S.Hantinqton isə İslam haqqında belə deyirdi: "İslam klerikal olanla sekulyar olanı ayıra bilməyən militan (döyüşkən) bir dünya görüşüdür". S.Hantinqtonun İslama qarşı bu cür kinayəli fikirləri iki istiqamətdə nəticə çıxarmağa şərait yaradır. Belə ki, S.Hantinqton ya dinlərin yaranması tarixindən tamamiylə məlumatsızdır, ya da İslam dininə qarşı qərəzli münasibət nümayiş etdirir. Çünki İslam dini Xristianlıqdan fərqli olaraq, qeyri – dini dövlətin ərazilərində yaranmadığı üçün heç bir sekulyar dövlət anlayışı ilə tanış deyildi. Xristianlıq isə Roma imperiyası kimi qeyri – dini dövlətin ərazisində yaranmış və sekulyar dövlətin necə ola biləcəyi haqqında təsəvvürlərə malik idi. İslam dini yaradılmazdan öncə ərəblər nəinki sekulyar (dünyəvi dövlət), hətta heç bir dövlət institutuna malik deyildilər. Bütün elm aləminə məlum olan bir faktı İslamın ünvanına xüsusi vurğu ilə söyləmək hesab edirəm ki, S.Hantinqtonun qərəzli münasibətinin əyani nümayişidir. Digər bir məsələ isə İslam dinin dağıdıcı xarakteri haqında Hantinqtonun fikirləridir. İslam dini daxilində ayrı – ayrı məzhəblərin siyasi fikirlərini nəzərə almadan təkcə onu deyə bilərik ki, İslam peyğəmbəri öz həyatı boyunca Ərəbistan yarımadasından kənara heç bir hərbi təcavüz etməmiş, yalnız məktub göndərməklə qonşu ölkələrin hökdarlarını İslam dininə dəvət etmişdir. Bu da bir daha İslamın diplomatiyaya meylli olmasından xəbər verir ki, Hantinqton bu faktı nəzərə almamışdır. Hantinqtonun neoatlantist baxışı bütün xalqların eyni həyat tərzinə məcbur edilməsini nəzərdə tutur ki, bu da amerikan həyat tərzidir. Amerikan həyat tərzi isə neoliberal maliyyə kapitalizminin yaşamasına xidmət edir. Bu cür düşüncənin əsasında amerikan praqmatizm fəlsəfəsi yatır ki, bu da son nəticədə bütün dəyərlərin əvəzinə yalnız "gəlir gətirən" anlayışının qoyulması deməkdir. Bütün dünyaya amerikan həyat tərzini yaymaq, neoliberal kapitalizmin istehlakçı təfəkkürə malik insan modeli yaratmaq ABŞ üçün dünya dövlətinə çatmağın mahiyyətində yer tutur. Bu fəlsəfə amerikan həyat tərzinin praqmatizmini özündə ehtiva edir. Dünyada insan, varlığa gəlir gətirmək potensialından baxan bu fəlsəfə üçün "inam və etibar" anlayışı yaddır. Geosiyasi praqmatizm ABŞ fəlsəfəsinin "insan hüquqları" anlayışından kənar düşüncə tərzinə malik olduğunu göstərir. Bu fəlsəfəyə görə hər şey eqoist maraqların sərt realizmindən ibarətdir ki, bu da açıq aşkar hegemonluq məqsədlərini ifadə edir.

S.Hantinqtonun bütün dünyanı eyni qaydada monolitləşdirməyə çağırmasına qarşı elə digər bir məşhur amerikan alim Arnold Toynbi çıxış edirdi. Arnold Toynbiyə görə sivilizasiya daşıyıcısı olan xalqlar özlərinin müəyyən tarixi dövrdə, ətraf mühitə verdikləri reaksiyalar və yeni dəyərləri mənimsəmələri ilə tarixdə yaşamaq qabiliyyətlərini möhkəmləndirirlər.

Buradan çıxan nəticə odur ki, "Böyük Orta Şərq" layihəsinin məqsədi "demokratiya gətirmək" adı atında pərdələnib dünya imperializminin maraqlarına cavab verən, istismara hazır vəziyyətə gətirilmiş, neokolonializmin əlavəsi olan bir region təşkil etməkdir.

C.Buşun nitqlərində səsləndirilmiş ''Tanrının köməyi ilə" və yaxud "bütün vasitələrdən istifadə etməklə" ifadələri imperializmin öz hərəkətlərinə bəraət qazandırmağa çalışması, hər cür zorakılığa "yaşıl işıq" yandırmaq deməkdir. Region dövlətlərinin iradəsindən kənar onlara xarici müdaxiləni nəzərdə tutan bu layihə beynəlxalq hüququn imperializmin xeyrinə pozulmasından başqa bir şey deyildir.

"Böyük Orta Şərq Layihəsi"nin mənəvi əsaslarınıın formalaşmasına Yeni Mühafizəkarların (neocon) dini baxışları da güclü təsir etmişdir. ABŞ xarici siyasətini formalaşdıran rəsmilər nüfuzlu yəhudi və ya kəskin anti – katolik protestant ailələrin üzvləridir. "Böyük Orta Şərq Layihəsi"ndə dini – mistik baxışların təsiri heç də pərdə arxasında qalmamışdır. Hətta nüfuzlu Protestan – Evangelist din xadimləri hesab edirlər ki, İsanın gəlişinə qədər Yaxın və Orta Şərqdə yəhudilərin hakimiyyətini bərqərar etmək vacibdir.

İudaist din xadimləri Yaxın Şərqdəki torpaqlara olan iddialarının mötəbər olduğunu göstərmək üçün Tövratda "Qanunun təkrarı" bölümünə əsaslanırlar. Yəhudi din xadimləri təkidlə bildirirlər ki, Tövrata görə Allah, yəhudilərə Kenaan diyarını vəd etmişdir. Yahudilərə görə Davudun nəslindən olan Məsih zühur edərək, zülmə məruz qalan yəhudiləri xilas edəcəkdir. Lakin Məsihin gəlməsindən öncə bütün Allah düşmənləri Qüdsə hücum edəcək və onu xarabalığa çevirəcəklər. Məsih zühur etdikdən sonra isə Tanrının krallığını quracaqdır. Bu Tanrı krallığı isə Qüdsdən idarə olunacaq ki, bu dövlətin də mərkəzi Kənaan – yəni vəd edilmiş, Fərat və Nil çayları arasındakı torpaqlar olacaqdır.

Onların əsaslandığı Tövrat kitabının “Qanunun təkrarı” bölümünün 11 – 25-ci ayələrində deyilir: “Ayaq dabanlarınızı basdığınız hər yer sizin olacaqdır. Sərhədiniz səhradan Livana, Fərat çayından Qərb dənizinə qədər uzanacaqdır. Sizin qarşınızda heç kim dayana bilməyəcəkdir. Allahınız Rəbb sizə vəd etdiyi kimi, ayaq basacağınız hər yerdə sizin vahimə və qorxunuzu yayacaqdır”.

Bu haqda danışanların arasında dindar olmayan, siyasi və dövlət xadimləri də olmuşdur. XIX əsrin sonlarında “Sionu sevənlər” təşkilatının yaradıcısı və müasir sionizmin atası sayılan Teoder Herzl 1887-ci ildə söylədiyi nitqdə aşağıdakı sözləri demişdir: “Şimal sərhədlərimiz, Kapadokyadan (Türkiyə ərazisində yaşayış məskəni), cənubda Süveyş kanalına qədər olmalıdır. Məqsədimiz isə Davud və Solomonun Fələstini olmalıdır”. Bundan təxminən 50 il sonra İsrailin ilk prezidenti David Ben Qurion bütün yəhudilərə müraciət edərək, dedi: “Fələstinin indiki xəritəsi ingilis mandatlı idarəçilər tərəfindən cızılmışdır, yəhudi gəncləri və yəhudi xalqı bu xəritəni Nildən Fərata qədər böyütməlidirlər. Bu onların müqəddəs vəzifəsi və borcudur”.

İfrat xristiyanlar Tanrı Krallığının yaranması üçün İsrailin Fələstinə hərbi müdaxilələrini dəstəkləyirlər. ABŞ Baptistlərinin İncildən (Yevangelya) çıxardıqları nəticəyə görə, İsa (Yeşua və yaxud İisus) Məsih (Xristos) yenidən gəlib, Tanrının Krallığını qurmalıdır. Bunun üçün İsrail mütləq Yaxın və Orta Şərqdə hakim dövlət olmalıdır. Baptistlərin fikirlərinə görə “Müqəddəs Kitabda” Armagedonun (Axirət müharibəsi) 2000-ci illərdə olacağına dair işarələr mövcuddur. Bu zaman İsa göy üzündən yerə enəcək və Dəccalı öldürəcəkdir. Uzun sürən sülh dövrü başlayacaqdır. Bu inanca görə Məsih yer üzünə enməzdən əvvəl:

- Yəhudilər dünyanın dörd bir tərəfinə yayılmalıdırlar;
- Yəhudilər İerusalim mərkəz olmaqla öz dövlətlərini qurmalıdırlar;
- Solomon (Süleyman) məbədinin yenidən inşası baş verməlidir.

Lakin bu üçüncüsü reallaşacağı təqdirdə həm Əl – Əksa məscidi, həm də Kubbetu – Səhra məscidi qismən də olsa sökülməlidir. Müsəlman inanclarına görə İslam peyğəmbəri Məhəmməd, həmin Əl – Əksada əfsanəvi “Meraca” qalxmışdır. Bu məscidin zərər görməsi qanlı toqquşmalara gətirib, çıxaracaqdır.

Lakin Tanrı Krallığı haqqındakı baxışlarda son nöqtədə yəhudilərlə, xristiyan — evangelistlər də bir — birindən ayrılırlar. Yəhudilərə görə Məsih gəldikdən sonra onlar Tanrının oğulları kimi Krallığın tək hegemon gücü olacaqlar. Xristiyanlar isə bildirirlər ki, İisusun birinci gəlişində ona inanmayan yəhudilər, ikinci gəlişində ona inanacaq və xristiyan olacaqlar.

Bu layihənin reallaşmasının gecikdirilməsinə həm daxili, həm də xarici maneələr səbəb olurdu. Xarici maneə kimi 90-cı illərdə həm Şərqi Avropada, həm də NATO daxilində ABŞ-la münasibətlərin hansı istiqamətdə inkişaf tapacağı sual altında olması idisə, daxildəki əsas problem ABŞ Milli Təhlükəsizlik Şurası və Dövlət Departamenti arasındakı münasibətlər idi. Belə ki, ikinci dünya müharibəsindən sonra adları çəkilən bu iki qurum ABŞ-ın xarici siyasətini müəyyənləşdirmək və onu formalaşdırmaq uğrunda kəskin rəqabət aparırdılar. Bu rəqabət ABŞ-ın maraqlarını daha yaxşı reallaşdırmaq naminə aparılsa da, bir çox hallarda elə rəsmi Vaşinqton üçün ciddi problemlər yaradırdı.

Prezident Ronald Reyqanın zamanında strateji qərarların qəbul edilməsinin mərkəzində Milli Təhlükəsizlik Şurası dururdu. Onu da qeyd edək ki, bu zaman Ronald Reyqan bu orqanda kadr dəyişikliklərinin yerinə yetirilməsi sayına görə rekord vurmuşdu. Belə ki, o, Şuranın altı rəhbərini yeniləmişdi ki, bunlar da aşağıdakılar idi: Riçard Allen (1981-1982), Uilyam Klark (1982-1983), Robert Makferleyn (1983-1985), Con Poyndekster (1985-1986). Frenk Karluçi (1986- 1987) və Kolin Pauel (1987-1989)

Lakin bu rəqabət 2000-ci illərin əvvəlləri Milli Təhlükəsizlik Şurasının bir qədər arxa plana keçməsiylə müəyyən qədər sona çatdı. Belə ki, ABŞ prezidenti Corc Buşun (oğul) administrasiyasında aparıcı xarici siyasət orqanı artıq Dövlət Departamenti idi. Bu idarəyə də əvvəlcə Kolin Pauell (2001-2005), daha sonra isə Kondoliza Rays rəhbərlik etmişdir.

Sovet İttifaqının dağılması ilə Yaxın və Orta Şərqdə ABŞ-ın demək olar ki, rəqibi qalmadı, lakin buraya nəzarət imkanları çox məhdud görünürdü. Məhz 60-cı illərin sonlarında üzərində işlədikləri böyük bir layihə 90-cı illərdə və daha sonralar olduqca aktuallaşdı. 2000-ci illərdə ABŞ xarici siyasətində bu layihə prioritet

əhəmiyyət kəsb etməyə başladı. Bu layihə ABŞ üçün Yaxın və Orta Şərqə tam və stabil nəzarət imkanları verməli olan – Böyük Orta Şərq Layihəsidir.

2000-ci illərin başlanğıcında ABŞ-da "Yeni Dünya Nizamı"nın reallaşdırılması üçün əlverişli şəraitin yarandığı haqda danışmağa başladılar. Bu şərait aşağıdakılardan qaynaqlanır:

— Güclənən Çin faktoruna qarşı "Avropa Birliyi" ölkələrinin ABŞ-ın kredit və qrantlarına ciddi ehtiyac hiss etməsi

— Rusiyanın düşdüyü ağır iqtisadi vəziyyət, ölkə daxilində ayrı – ayrı silahlı birləşmələrin, terrorist qruplaşmaların dağıdıcı fəaliyyətinin ciddi problemə çevrilməsi

— Ərəb ölkələrinin öz aralarındakı ziddiyyətlərin dərinləşməsi və İran təhlükəsinə qarşı ABŞ-ın hərbi – siyasi yardımına olan ehtiyacları

— Rusiyanın hətta öz daxilində partizan – terrorçulara qarşı effektiv mübarizə aparmaq üçün ABŞ-ın dəstəyinə ehtiyac duyması

— AB ölkələrindəki iqtisadi böhranın dərinləşməsi ilə əlaqədar ucuz kreditə - yəni ABŞ Federal Bankının dəstəyinə ehtiyacın yaranması

Bütün bu sadaladıqlarımız ABŞ-ı öz planlarını həyata keçirməyə həvəsləndirdi. Bu planların ən başlıcası "Böyük Orta Şərq" layihəsidir. ABŞ 2001-ci il 11 sentyabrdan sonra bu layihəyə start verdi. Həmin il Əfqanıstanın işğalı baş verdi. Əfqanıstandakı Taliban yaraqlıları tamamiylə dağlara çəkildi. 2003-cü ildə isə İraq ABŞ-ın nişangahına keçdi və elə həmin il işğal edildi. "Demokratiya və insan hüquqlarının qorunması" şüarı ilə meydana atılmış bu planın əsasında daha konkret məqsədlər güdülür ki, bunlar da aşağıdakılardan ibarətdir:

— Yaxın və Orta Şərqin neft və qaz mənbələrini tam nəzarət altına almaq;

— bu ölkələrin "liberal iqtisadiyyat"a (azad bazar) keçirilməsiylə, imperializmin bazarlarına çevrilməsi;

— regionda İsrailə qarşı ərəb ölkələrinin mövqeyində ciddi dəyişikliyə nail olmaqla İsrailə qarşı kəskin münasibətin yumşaldılmasını təmin etmək;

— bununla da hər il İsrailin təhlükəsizliyini təmin etmək üçün ayrılan 2 milyard dollar yardım paketini digər sahələrə istiqamətləndirmək;

— İraq müharibəsindən sonra antiamerikan düşüncə tərzini "demokratiya" termini ilə neytrallaşdırmaq və regionda ABŞ-a rəğbət bəsləyən qüvvələrin xüsusi çəkisini artırmaq;

— Dini fundamentalizm əleyhinə regionda fəaliyyət göstərən maarifçi hərəkatlara dəstək vermək.

Rejimlərin dəyişilməsi və yenisi ilə əvəzlənməsi uzun müddətli proses olduğu üçün siyasi dəyişikliklər mərhələli şəkildə reallaşdırılacaqdır. Belə ki, sosial – iqtisadi dəyişikliyin son nəticədə siyasi dəyişikliyə gətirib, çıxaracağına böyük ümidlər bəslənilir. İslamın geniş yayıldığı bu coğrafiyada amerikalıların qarşısında duran tapşırıqlar aşağıdakılardır:

✓ Enerji qaynaqlarının nəzarətə götürülməsi və çatdırılma yollarının təhlükəsizliyi üçün Xəzər hövzəsi, Fars körfəzi, Aralıq dənizi eləcə də Malakka boğazının "etibarlı əllərə" keçməsi;

✓ Sosial – iqtisadi, siyasi reformların bu strateji nöqtələrdən başlanması;

✓ İlkin siyasi reformları Yaxın və Orta Şərqin ən mühüm punktlarında həyata keçirməklə başlamaq;

✓ Region ölkələrinin xüsusənPakistan, İran, İndoneziya və Türkiyənin hərbi gücünün məhdudlaşdırılması hərbi gücünün zəiflədilməsi;

✓ Kütləvi Qırğın Silahlarına malik olmağa can atan dövlətlərə ciddi təzyiq göstərməklə bu fikirdən yayındırmaq;

✓ İslami birliklərin və hərəkatların bütün üsullarla təqib edilməsi və sıxışdırılması

✓ ABŞ-a və İsrailə qarşı antipatiya yaradan dərs vəsaitlərinin dəyişdirilməsi

✓ Yaxın və Orta Şərqdə ABŞ-a rəğbət bəsləyən qüvvələrə yardımların artırılması və onların gücləndirilməsi

✓ ABŞ üçün təhlükəli olan yerli konfliktlərin həll edilməsi, Əfqanıstan, İraq və Fələstində sınaqdan keçirilmiş "Kərzai modeli"nin (yəni yerli radikallara qaşı Qərb meylli yerli mötədillərdən istfadə etmək) tətbiqi ilə ABŞ-ı pərdəarxasına çəkmək, rəsmi Vaşinqtonun maraqlarını maksimal şəkildə qorumaq

- ✓ Qərb düşüncə tərzinə malik kadrların yetişdirilməsi, dəstəklənməsi və gücləndirilməsi
- ✓ Türkiyə nümunəsində mülayim İslam anlayışının önə çəkilməsi və bu istiqamətdə regionun yenidən qurulması
- ✓ İqtisadi inkişaf bəhanəsi ilə region ölkələrində hərbi xərclərin azaldılması və milli dövlətlərin silahlı qüvvələrinin zəiflədilməsi

ABŞ-ın rəsmi açıqlamalarına görə "Böyük Orta Şərq Layihəsi"nin son məqsədləri bunlardır:

— Enerji qaynaqlarının fasiləsiz kontrolda saxlamaqla təhlükəsizliyini təmin etmək;

— İsrailin təhlükəsizliyini yüksək səviyyədə təmin etmək;

— Sərbəst bazar iqtisadiyyatının regionda tam oturuşması və yeni beynəlxalq bazarların yaradılması

Lakin qeyd etmək lazımdır ki, ABŞ-ın yuxarıdakı hədəfləri üçün bir neçə baza xarakterli ilkin tədbirlər görmək lazımdır.Bu tədbirlər uyğun olaraq, aşağıdakı addımların atılmasını zəruri edir:

— Orta Şərqdəki ölkələrdə qadın hüquqlarının qorunması, onlara seçmək və seçilmək hüquqlarının verilməsi;

— Mətbuat, televiziya və teleradio azadlığının tam təmin edilməsi;

— Regionda fəaliyyət göstərən Qeyri – Hökümət təşkilatlarına yardım edilməsi.

— Oxuma – yazma səviyyəsinin yüksəldilməsi

— Böyük Orta Şərq Maliyyə Mərkəzinin qurulması

Yuxarıda qeyd edilən məqsəd və vəzifələr ABŞ-ın rəsmi qəbul etdiyi "Milli Təhlükəsizlik Strategiyası" ("National Security Strategy") ilə bir – birini tamamlayır. "Milli Təhlükəsizlik Strategiyası" "Ağ ev" qarşısında bu vəzifələri qoyur:

— İnsanların müdafiəçisi olmaq

— Qlobal terrorizmi məhv etmək üçün müttəfiqlər tapmaq

— Regional konfliktlərin həlli üçün qonşu dövlətlərin yardımından bəhrələnmək

— Kütləvi Qırğın Silahlarını təhdid ünsürü kimi istifadə edənlərə qarşı qəti qələbəyə qədər döyüşmək (ABŞ-ın Dövlət Katibi Kolin Pauel özünün 3 fevral 2003-cü ildə “The Wall Street Journal”da çap etdirdiyi məqaləsində yazırdı: “Əgər İraqı Kütləvi Qırğın Silahlarından imtina etdirməyin yeganə yolu müharibədirsə, biz müharibədən qaçmayacağıq”)

— Sərbəst ticarət və bazar iqtisadiyyatını bütün dünya üçün alternativsiz inkişaf istiqaməti kimi dəstəkləmək, müqavimət göstərənlərə qarşı amansız mübarizə aparmaq, bütün dünyanı bütöv iqtisadi sistemdə birləşdirmək

— Digər güc mərkəzləri ilə ortaq planlar qurmaq

— ABŞ-ın milli təhlükəsizlik sahəsindəki qurumlarını yenidən təşkil etmək.

Bu layihənin ABŞ tərəfindən rəsmi olaraq elan edilmış əsas məqsədi geri qalmış ölkələrə “demokratiya gətirmək”dir. “Böyük Orta Şərq” layihəsi vasitəsiylə ABŞ regionda asağıdakı məqsədlərə çatmağa çalışır:

✓ Enerji qaynaqları üzərində nəzarəti təmin etmək və özünə yeni satış bazarları yaratmaq;

✓ Ənənəvi, radikal islami dairələri kənarlaşdırmaqla, beynəlxalq kapitalizmə və protestant dünya görüşünə tolerantlıqla yanaşan mülayim İslam anlayışı gətirmək;

✓ ABŞ-ın güclü hegemoniyasını qorumaq və digər regionlarda güc mərkəzlərinin yaranmasının qarşısını almaq;

✓ Regionda İsrailin təhlükəsizliyini ən yüksək səviyyədə təmin etmək;

✓ Milli dövlətləri dağıdıb, parçalamaqla yerində xırda və yaxud ən yüksək statuslu federativ dövlət formaları qurmaq.

ABŞ ordusunun ehtiyatda olan generalı Uesli Klark 3 mart 2007-ci ildə “Democracy now” verilişində, canlı yayımda bütün dünyanı təəccübləndirən bu sözləri söylədi: “Təxminən 10 gün keçmişdi ki (11 sentyabr hadisələrini nəzərdə tutur) mən Pentagonda koridorla irəliləyirdim. Cənab nazir Ramsfeldi və onun müavini Volfovitzi gördüm. Mən pilləkənlərlə aşağı düşdüm. Bir neçə nəfər məni salamladı. Bu insanların arasında mənimlə birlikdə işləmiş şəxslər də var idi. Bir nəfər mənə dedi: - Ser, siz mənim otağıma gələ bilərsiniz? Bir qədər söhbətləşərik. –

Mən ona vaxtımın olmadığını söylədim. Amma o təkid etdi və məsələnin İraqla müharibə haqqında olduğunu dedi. Bu təxminən 20 sentyabrda olmuşdu. Mən dedim ki, biz niyə İraqla müharibə edək ki? Niyə? O bu suala cavab verə bilməyəcəyini bildirdi. O əlavə etdi ki, - bunu düşünənlərin özləri də bilmirlər ki, nə etməlidirlər. – Mən soruşdum ki, Səddamla Əl – Qaidənin yeni əlaqələri tapılıb ya yox? O isə bunu tamamiylə inkar etdi. Sadəcə bildirdi ki, - bizim güclü ordumuz var belə olan halda müharibə etməyək, bəs nə edək? - Mən bir həftə sonra yenə ora qayıtdım. Bu zaman artıq biz Əfqanıstanı bombalamağa başlamışdıq. Mən onu görüb yenidən soruşdum ki, İraqla müharibə yenə gündəmdədir ya yox? O isə öz növbəsində vəziyyətin daha ciddi şəkil aldığını qeyd etdi. Masanın üzərindən bir kağız, götürüb mənə göstərdi. Kağızın altında ABŞ Müdafiə Nazirliyinin imzası var idi. Bu kağızda ABŞ-ın yaxın 5 ildə işğal edəcəyi dövlətlərin adları qeyd edilmişdi. İraq, sonra Suriya, Livan, Liviya, Somali, Sudan və nəhayət İran”.Bu çıxış nə qədər qəribə görünsə də bir o qədər də gözlənilən idi. Bu dolayısı ilə uzun müddət haqqında söhbət gedən “Böyük Orta Şərq” layihəsinin açıq etirafı idi. Artıq bu barədə ABŞ-ın ciddi planlarının olduğunu bütün dünya ictimiyyəti şübhə yeri qalmadan öyrənmiş oldu.ABŞ özünün strateji planlarını reallaşdırmaqda Avropadakı müttəfiqlərindən də dəstək tələb edir. Bu müttəfiqlər isə XX əsrin ikinci yarısı ABŞ-ın güclü təzyiq və nəzarəti altında rəsmi Vaşinqtonun maraqlarına uyğun şəkildə yenidən formalaşdırılmışdılar. İkinci dünya müharibəsindən sonra Avropa kontinental geosiyasət məktəblərinin nüfuzu sarsılmışdı. Almaniyada dünya tarixini izah etmək üçün geosiyasi reallıqların əhəmiyyəti məsələsi geniş mübahisələrə səbəb olmuşdu. İ.Herder və K.Yaspers kimi alimlər bütün dünyanın eyni tarixi inkişaf xəttini keçdiyini və vahid mədəni sistemdə inteqrasiya edəcəyini müdafiə edirdilər. Bunun əleyhinə isə O.Şpengler, Arnold Toynbi və başqaları çıxış edirdilər. Onlar öz fikirlərini məşhur rus geosiyasətçisi N.Danilevskinin etnosfera nəzəriyyəsinə əsaslandırırdılar. Bu nəzəriyyəyə görə hər bir mədəniyyət özünəməxsus etnosferaya söykənir və bununla da vahid dünya sistemi qurula bilməz. Bu nəzəriyyələr ABŞ-ın dünya hökuməti qurmaq planları ilə uyğun deyildi. Məhz buna görə də belə fikirlərin səslənməsinə ciddi cəhdlə maneələr yaradılırdı və onlar əhəmiyyətsiz nəzəriyyələr kimi gözdən salınmağa başlanıldı.

Hətta XX əsrin ikinci yarısında ABŞ dəstəkli Atlantist gesiyasət məktəbləri burada yerli məktəbləri sıxışdırmağa başladırlar. Onları marginal nəzəriyyələr kimi sıradan çıxarırdılar. Hətta anti-atlantislərin də tez-tez işlətdiyi "dünya hökuməti" qloballaşma kimi terminlər ABŞ geosiyasət nəzəriyyəçilərinin təsirini təsdiq edir. Kontinental Avropa geosiyasi məktəblərinə mənsub nəzəriyyəçilərdən Allen de Benua, J.Tririar, Yordis fon Lohauzen, K.Terraçano Avropa kontinentində anti-atlantist geosiyasi birliyin Şərqdə Rusiya ilə sıx inteqrasiyadan dəstək almasını vacib hesab edirdilər. Bunlar çox zaman "Yeni sağlar" adlanırdılar. "Yeni sağların" hətta İslam coğrafiyasına dəstək verərək, anti-ABŞ fəaliyyətlərini genişləndirmək fikirləri də mövcuddur. Lakin bu fikirlərin ABŞ-ın təsiri ilə xeyli zəiflədiyini demək mümkündür. Avropada kontinental birliyin olmasına qısqanclıqla yanaşan ABŞ bu birlik daxilində hər dəfə hər hansı bir problemin meydana gəlməsində yaxından iştirak edir. Kontinental geosiyasət nəzəriyyəçilərinin fikirlərindəki maraqlı məqamlardan biri də odur ki, onlar Avropanın kontinental tamamlayıcısı kimi Afrikanı özlərinə inteqrasiya edib, geniş həyat zonası yaratmağı hədəf qoyurlar. Bunu alman geosiyasətçisi A.Çişki Avropanın əsas məqsədi kimi qeyd edir. Bu da ABŞ-ın Yaxın və Orta Şərqdə maraqlarına daban – dabana ziddir. Məhz buna görə ABŞ ciddi dəstək verərək, Avropada Atlantist maraqlardan çıxış edən geosiyasi məktəblər yaratdı. Bu məktəblər tamamiylə ABŞ hegemonluğu altında dünya dövlətinin qurulmasına çağırır. Avropa kontinental geosiyasətçilərinin hələ klassik dövrdə qütblərə ayrılması XX əsrin ikinci yarısında ABŞ üçün münbit şərait yaratmışdı. Belə ki, "coğrafi məkan", "həyat sahəsi" kimi realist sərt terminlərdən istifadə edən klassik alman geosiyasətçiləri olan Fridrix Ratsel, Rudolf Çellen, Karl Haushoferin fikirlərinə qarşı fransız geosiyasətçilərin fikirləri ənənəvi qütbləşmənin bazasını təşkil edirdi. Fransız geosiyasət məktəblərinin klassik nümayəndələri olan Elize Reklyu, Videl de la Blanş "insan təşəbbüsü, azadlığı", "insan qabiliyyəti, mümkün imkanlar" termini ilə alman geosiyasətçilərini təcavüzkarlıqda ittiham edirdilər. Onlar əsasən diqqət mərkəzinə insanın mümkün potensialdan istəfadə etmək bacarığını çəkirdilər. Avropada Atlantis baxışın məşhur nümayədələrindən biri J.Attali özünün solçu keçmişinə baxmayaraq, bütün dünyanı vahid bazar kimi, ABŞ mərkəzli qlobal sərbəst

ticarətin birjası kimi başa düşürdü. Gələcək onun üçün bütün dəyərlərin pul ilə ifadəsindən ibarət idi.

Bununla da XX əsrin ikinci yarısı iki yerə bölünmüş Avropa nəzəriyyəçiləri atlantistlər, sivilizasiyaçılar) getdikcə atlantistlərin təsiri ilə monolitliyə doğru xeyli irəlilədilər. ABŞ-ın milli maraqlarına cavab verəcək bir şəkildə qurulmuş NATO yarandığı gündən etibarən "kommunizm təhdidinə" qarşı təsis olunduğunu elan etmişdi. Lakin bu təhlükənin aradan qalxması ilə NATO-nun da lazımsızlığı haqqında fikirlər meydana gəlməyə başladı. Xüsusiylə Almaniyanın başçılığı altında Avropa dövlətləri artıq ABŞ-dan uzaqlaşmaq fikrinə düşmüşdülər. NATO-nun bu mənada gələcək fəaliyyətini, siyasətini formalaşdıran ilk toplantı 1999-cu ildə Vaşinqtonda reallaşan, NATO-nun zirvə toplantısı oldu. Uzun müzakirələrdən sonra qəbul edilən "Yeni NATO Konsepsiyası" ABŞ-ın mənfəətinə uyğun olaraq, yenidən formalaşdırıldı. Bu konsepsiyaya görə:

— NATO Şimali Atlantika coğrafiyasından xaricdə fəaliyyət göstərməyə üstünlük verəcək;

— NATO terror başda olmaqla, insan alverinə, irqi avrıseçkiliyə və digər problemlərə qarşı mübarizədə aktiv rol oynayacaq;

— NATO Birləşmiş Millətlərin qərarı olmasa belə, istənilən regionda müharibə apara bilər;

— NATO çətiri altında "Birləşmiş Tapşırıq Qüvvələri" yaratmaq və bu qüvvələrdən hərbi əməliyyatlarda istifadə etmək;

— NATO qlobal iqtisadiyyata, beynəlxalq siyasətə, təhlükəsizliyə münasibətdə demokratik və strateji funksiyalar daşıyacaq.

M.Teçer 1990-cı ilin 7-8 iyununda Şotlandiyada səfərdə olarkən, "yeni düşmən"in İslam sivilizasiyası olacağını demişdi. NATO-nun keçmiş baş katibi Villi Kleas kommunizmin çöküşündən sonra ən ciddi təhdidin İslam dünyası olacağını dəfələrlə dilə gətirmişdi.

İraq müharibəsi və Əfqanıstandakı hərbi əməliyyatlarda ABŞ-ın xərclədiyi 87 mlrd. dolların 30 mlrd. hissəsi ingilis şirkətlərinə xərclənmişdir. Bu şirkətlər ABŞordusunu ən müasir texnika ilə təmin edirdi. Yaxın tarixdə Avropanın və ABŞ-ın

təhdid anlayışını formalaşdıran iki mühüm hadisə vardır ki, bunlardan biri 1991-ci ildə "Soyuq müharibə"nin sona çatması, ikincisi isə 2001-ci il 11 sentyabr hadisələridir. Bu hadisələr zaman baxımından bir – birindən 20 illik zaman məsafəsində baş versələr də, doğurduqları nəticəyə görə bir – birinin təkrarıdırlar. Hər iki hadisənin baş verməsi nəticəsində Avropada və ABŞ-da İslamafobiya ciddi şəkildə böyümüşdür.

ABŞ bu yeni təhdid anlayışından bəhrələnərək, yeni hərəkət planları və strategiyaları qurmuşdur. Bu planlara uyğun olaraq, NATO-nun da vəzifə və funksiyaları dəyişmişdir. "Soyuq müharibə" dövründə NATO daxilində ən önəmli mübahisə obyekti, üzv ölkələrin sərhədlərindən kənarda müdaxilə edib, etməmək məsələsi artıq geridə qalmışdı. 2000-ci ilin may ayında Reykyavikdə toplanan NATO-nun xarici işlər nazirlərinin görüşündə qərara alındı ki, NATO Yer kürəsinin istənilən nöqtəsində antiterror əməliyyatları keçirə bilər. NATO-nun bu yeni strategiyasına rəsmi Brüsselin rəsmi açıqlaması belə idi: "1991-ci ildə Roma zirvə toplantısında formalaşdırılmış, 1999-cu ildə Vaşinqtonda təsdiqlənmiş NATO-nun yeni strateji konsepsiyasında ittifaqın quruluş prinsipi olan - üzv dövlətlərin təhlükəsizliyini təmin etmək funksiyasında bir dəyişiklik yoxdur. NATO ölkələrinin təhlükəsizliyinin hərbi tərəfi ilə paralel siyasi tərəfinə ağırlıq vermək və buna bağlı olaraq sabitliyin genişləndirilməsi üçün ittifaqın prinsiplərini paylaşan qonşu dövlətlərlə yaxından əməkdaşlıq etmək nəzərdə tutulmuşdur".

"Böyük Orta Şərq" layihəsinin reallaşmasında NATO-nun yer alması ABŞ tərəfindən tələb kimi irəli sürülmüşdür. 2003-cü ildə Praqada "Böyük Orta Şərqə dair mülahizələr" adlı beynəlxalq konfransda ABŞ-ın NATO-dakı daimi təmsilçisi Nikolas Börns öz nitqində söyləmişdir: "NATO öz missiyasını dəyişdirməlidir. Alyansın yeni missiyası Orta Şərqdədir". NATO-nun yeni baş katibi Hup isə alyansın Orta Şərqdə gedən proseslərdə rol almalı olduğunu bildirmişdi.

2004-cü ildə İstanbulda keçirilmiş NATO zirvə toplantısının gündəmində "Böyük Orta Şərq Layihəsi"nə rəhbərlik etmək məsələsi var idi. Bu konteksdə beynəlxalq terrorizmlə mübarizə adı altında NATO-nun dəyişdirilmiş funksiyası tam formalaşdırıldı.

Yaxın və Orta Şərqin siyasi xəritəsində ciddi dəyişikliklərin olacağını uzun müddət rəsmi dairələr gizli saxlayırdı. Hətta dəyişiklik olacağı signalı verdikləri zaman bu dəyişikliyin nədən ibarət olacağını aydın şəkildə açıqlamırdılar. Lakin yüksək çinli ABŞ rəsmilərinin əsasən təqaüdə çıxdıqdan sonra bu planlar haqqında verdikləri məlumatlar gizli saxlanılan siyasi xəritələri tam çılpaqlığı ilə dünya ictimaiyyətinə təqdim etdi. Bu xəritələr əsasən ABŞ Silahlı Qüvvələrinə aid jurnallarda dərc edilmiş xəritələrdir. Təqaüddə olan ABŞ ordusunun yüksək rütbəli zabiti Ralf Petersin (Ralph Peters) 26 iyul 2006-cı ildə “Ordunun Gücü Jurnalı" (“Armed Forces Journal”) dərgisində çap etdirdiyi xəritə gizli qalan suallara cavab tapmaqda xeyli kömək edir. Yaxın və Orta Şərqin siyasi xəritəsindəki dəyişiklikləri nəzərdə tutan təkliflər aşağıdakılardır:

— Bütün Ərəb Afrikası əhəmiyyətsiz milli sərhədlərlə parçalanacaq və böyük bir konfederasiyada birləşdirildikdən sonra siyasi baxımdan Orta Şərq Katibliyinə, iqtisadi baxımdan isə Orta Şərq İnkişaf Bankına tabe ediləcəkdir.

— Siyasi sərhədlərin ən kəskin dəyişikliyə uğradığı ərazi isə bu layihənin geopolitik mərkəzində yerləşən ərazilərdir ki, bura da Mesopotamiya, Müqəddəs torpaqlar, Kiçik Asiya yarımadası, İran və Hind vadisi daxildir. Yeni yaradılacaq dövlətlər Azad Kürdüstan, Sünni İraqı, Şiə Ərəb dövləti, Müqəddəs İslam dövləti, Azad Bəlucistan dövlətləridir.

— Mövcud dövlətlər isə ərazilərinin əhəmiyyətli hissəsini yeni yaradılmış və digər qonşu dövlətlərin xeyrinə itirməlidirlər. İran öz ərazisinin böyük hissəsini Kürdüstan, Azərbaycan, Bəlucistan və Şiə Ərəb dövlətinin xeyrinə itirməlidir. Tükiyə isə torpaqlarının yarıya qədər hissəsindən Kürdüstanın xeyrinə əl çəkməlidir. Səudiyyə Ərəbistanı isə öz torpaqlarının Sünni İraq, Şiə Ərəb dövləti, Böyük İordaniya, Müqəddəs İslam dövləti və Yəmənin xeyrinə əlindən alınacağı ilə barışmalıdır. İsrail isə 1967-ci ilə qədərki sərhədlərinə qaytarılacaqdır. Qərbi İordan çayı sahilindəki Fələstin torpaqları isə statusu müəyyən edilənədək beynəlxalq nəzarətə veriləcək.

## İslam qövmlərinin və qonşularının arzuları

*Qonşusunun ac yatdığını bilənvə lageyd qalan*
*kimsənin heç bir ibadəti qəbul deyil*
*İmam Əli*

Region ölkələrinin bu “Böyük Orta Şərq Layihə”sinə münasibətini öyrənməzdən əvvəl, aparıcı dövlətlərin formalaşmış mövqelərinin haradan qaynaqlandığını, keçdikləri siyasi tarixi yolu qısaca olaraq gözdən keçirmək lazımdır. Yalnız bundan sonra biz hərbir dövlətin bu layihəyə münasibətinin məzmununu anlaya və araşdıra bilərik.

Regionun müxtəlif qədim, tarixi – mədəni inkişaf istiqamətləri İslamın yaranması ilə müştərək tarixdə birləşmişdir. Bununla da region xalqları ümümxilafət sivilizasiyası altında birləşdirilərək, ümumi inkişaf xəttinə malik olurlar. Lakin bu sivilizasiya Yaxın və Orta Şərqin geopolitik, etnik, iqtisadi və nəhayət sosial – siyasi fərqliliklərini özündə ehtiva edirdi. Məhz bu fərqliliklər sonralar ümummüsəlman xilafətinin daxilində kəskin ziddiyyətlərə və qarşıdurmalara gətirib, çıxardı. Bu qarşıdurmaların ən böyük nümunəsi Ərəb – Əcəm qarşıdurması idi ki, İslam dini tərəfindən tam ram edilə bilinməyən İran mədəniyyəti başqa – başqa adlarla özünə yol açır və yenidən intişar tapırdı.

XX əsrin əvvəllərində İslam arealı ölkələri kapitalizmin imperializm mərhələsində geniş koloniyalara çevrilmişdi. Sosial ziddiyyətlərin kəskinləşməsi ilə yenidən müstəqil dövlətlərin yaradılması istiqamətində proseslər cərəyan etdi. Bu ziddiyyətlər həm sosial vəziyyətin kəskin xarakter alması, həm də yenicə yaranmış yerli burjuaziyanın özünütəsdiqi ilə izah olunurdu .

1950-ci illərdən sonra “soyuq müharibənin” təsiri ilə region dövlətlərinin öz aralarında olan münasibətləri mürəkkəb sistem əmələ gətirmişdi. Məhz bu mürəkkəbliyə görə hər hansı bir Yaxın və Orta Şərq ölkəsini öyrənərkən, digərlərini də araşdırmaq lazım gəlir.

I dünya müharibəsinin başa çatması ilə Yaxın Şərqdə mandatlıq rejimi reallaşmağa başladı. Məkə şeyxi Hüseynin müstəqillik arzularına baxmayaraq, imperialistlər ərəb ölkələrini tamamiylə nəzarət altına aldılar.

Osmanlılara qarşı mübarizədə fəallıq göstərmiş Feysal ibn Hüseyn 1920-ci ildə özünü Suriya kralı elan etsə də, həmin ildə San – Remo konfransında ingilislər Suriyanı fransızlara güzəştə getdilər. Beləliklə 1920-ci ilin sonlarına doğru Feysal Dəməşqi tərk etmək məcburiyyətində qaldı. Fransa mandatına verilmiş Suriya bir neçə yarımmüstəqil dövlətlərə parçalandı. Yaradılmış Dəməşq, Hələb, Livan, Lazkiyə (ələvi dövləti), Cəbəl əl Druz (Dəriziyun dövləti), Aleksandretta (indiki İskenderun, Hatay, Türkiyə) əmirlikləri Fransaya tabe idilər.

1930-cu illərdə Almaniya və İtaliyada eləcə də digər Avropa və hətta Asiya ölkələrində millətçi hərəkatlar özlərinin yüksəlişinə nail oldular. Bu hadisələr Suriyada, Livanda və digər ərəb ölkələrində millətçi cərəyanları fəallaşdırdı. 1940-cı ildə Fransa Hitlerə məğlub olduqdan sonra Livan və Suriya müstəqillik elan etdilər. 1946-cı ildə isə Fransa rəsmən bu torpaqlardan çıxdığını elan etdi.

Livanda XX əsrin ikinci yarısı müsəlman və xristian hökümətlərin növbələşməsi ilə əlamətdadır. Lakin qonşuluqda yaradılmış İsrail dövlətinin qurulması səbəbiylə ölkədə etnokonfessional gərginlik yaranmağa başladı. İsrailin fələstinli ərəbləri İordan çayının qərb sahillərinə doğru qovması və şimala tərəf sıxışdırması Fələstin ərəblərinin qonşu ölkələrə kütləvi axını ilə müşayiət olunurdu. Həm İordaniyada, həm Livanda, həm də Suriyada böyük qaçqın düşərgələri yarandı. Livanda yaradılmış düşərgələrdə əsasən şiə məzhəbli fələstinlilər yerli dürzilər, ələvilərlə və solçu birliklərlə “Milli Mübarizə Cəbhəsi”ni yaratdılar. Livanın xristian hökümətinə bağlı qüvvələr isə əsasən Maruni xristianlarından təşkil olunmuş “Livan Cəbhəsi”ndə birləşmişdilər. Müsəlmanlara əslən dəriziyun olan Canpolad, qarşı tərəfdəki xristianlara isə Piyer Cemayel başçılıq edirdilər. Bu iki qruplaşma arasında toqquşmalar geniş miqyas alaraq, Livanda vətəndaş müharibəsiylə (1975 – 1990) nəticələndi.

Ərəb dövlətləri imperialistlər tərəfindən xətkeşlə çəkilmiş coğrafi sərhədlər daxilində yaradılmışdı. Bu dövlətlərdə hakimiyyət başına gətirilmiş, güclü ailələrin imperialistlərə yaxın üzvləri milli dövlətin deyil, öz tayfa maraqlarından çıxış edirdilər. Bu vəziyyət əhalini və ayrı – ayrı əşirətləri mərkəzi hökümətdən narazı salırdı.

1950 – 1960-cı illərdə ərəb ölkələrini "Bəəs" təfəkkürü və ərəb millətçiliyi bürüdü. Ərəb ziyalılar sekulyar dövlətin tərəfdarı olmaqla bərabər, ərəb dövlətlərinin mərkəzi hakimiyyətdə birləşdirilməsinə çalışırdılar. Misirdə, İraqda, Suriyada və başqa ərəb ölkəsində sekulyar qüvvələr hakimiyyətə gəldikcə ümmətçi ərəblər (dindarlar) və digər qeyri – ərəb etnik qruplar onlara qarşı mübarizəyə qalxdılar. Misirdə, Suriyada"Müsəlman qardaşları" ("İxvan əl Müslimin"), İraqda isə kürdlər və şiələr "Bəəs"-ə qarşı mübarizə aparırdılar.

İraqisə 1920-ci il San – Remo konfransından sonra ingilislərin mandatına verilmişdi. Fransızlar tərəfindən devrilmiş Suriya kralı Feysal ibn Hüseyn ingilislər tərəfindən İraq kralı kimi taxta çıxarıldı. Millətlər Cəmiyyəti 1922-ci ildə ingilis mandatının əsaslarını müəyyənləşdirən 28 maddəlik qərarı qəbul etdi. Qırmızı dənizin şimalındakı Akabe Körfəzinin şimal ucqarında yerləşən Akabe şəhərindən başlayaraq, Yarımık çayı ilə Şeria çayının qovuşduğu yerə, fransızların Suriyadakı ərazilərinə qədər coğrafi məkana ingilislər nəzarət edəcəkdilər. Bu torpaqlardan şərqdə isə İordaniya torpaqları yerləşirdi. İngilislər İordaniyada da dövlət yaradaraq, bu dəfə Məkkə şeyxi Hüseynin digər oğlunu – Əmir Abdullahı İordaniya kralı elan etdilər. İordaniya ilə İngiltərə arasında münasibətlər sabit inkişaf etsə də, 1946-cı ildə ingilislər bu dövlətin də müstəqilliyini tanımalı oldular. Yeni dövlətin adı 1946-cı ildən dəyişdirilərək, İordaniya Haşimilər Krallğı adlandırılmağa başlandı.

Misirdəhələ I dünya müharibəsi başlayanda İngiltərə tərəfindən elan edilən protektoratlıq rejimi narazılıqları artırırdı. Millətçi Vəfd partiyasının təhlükəli şəkildə genişlənməsi, kral Fuadı 1930-cu ildə parlamenti buraxmağa və diktatorluq elan etməyə məcbur etdi. 1935-ci ildə kral Fuadın ölümündən sonra oğlu I Faruk taxta əyləşən kimi, parlament çağırdı. Vəfd partiyası ilə razılaşdıqdan sonra ingilislərlə 1936-cı ildə ittifaq haqqında Rühcanlı müqviləsi imzalandı.

1916-cı ildə Ərəbistanda Nəcd sultanı Əbdüləziz ilə Məkkə şeyxi Hüseyn arasında qarşıdırma qızışdı. Buna səbəb isə Hüseynin özünü bütün ərəblərin kralı elan etməsi idi. Hüseynin oğulları ingilislərin köməyi ilə İraq (kral Feysal) və İordaniyada (kral Abdullah) kral olduqdan sonra Nəcd sultanı Əbdüləziz, Məkkə şeyxi Hüseynə qarşı qəti döyüşə hazırlaşdı. 1924-cü ildə Mustafa Kamal Türkiyədə Xilafəti ləğv

etdikdən 2 gün sonra Hüseyn özünü xəlifə elan etdi. Əbdüləziz son döyüşə başlamaq üçün bəhanə tapdı. Məkkə şeyxi bu qarşıdurmadan məğlub ayrıldı. Əbdüləziz bin Səud özünü Hicaz kralı və Nəcd sultanı elan etdi. 1932-ci ildən sonra Səudiyyə Ərəbistanının kralı elan edildi.

Yəmən hətta Osmanlı zamanında da faktiki olaraq, yerli əşirət liderlərinin hakimiyyəti altında idi.

İran hələ birinci dünya müharibəsi illərində imperialistlərin platsdarmı kimi əhəmiyyət kəsb etmişdir. Müharibədən sonra İranda möhkəmlənmək uğrunda ingilis – rus qarşıdurması kəskin xarakter aldı. Hətta ölkənin daxili işlərinə qarışmaq, İranın ayrı – ayrı hissələrində dövlət qurmaq, onlara dəstək vermək ingilislər və rus kommunistlər üçün adi iş icraatına çevrilmişdi. Yalnız Rza xanın çevriliş edərək, 1925-ci ildə özünü şahənşah elan etməsi ilə İranda mərkəzi hakimiyyət gücləndi, qonşularla ikitərəfli müqavilələr bağlandı, milli dövlət quruculuğu yolunda əməli işlər görüldü.

II dünya müharibəsindən dərhal sonra İranda neft yataqlarını ələ keçirmək uğrunda ABŞ – ingilis qarşıdurması başlandı. Hətta bir neçə il Sovet İttifaqı da bu mübarizəyə qoşulmuş, şimali İran (Mazandaran, Gilan) neftinə tam sahib olmağa çalışmışdır.Lakin müharibədən ağır vəziyyətdə çıxmış rəsmi London bütün Yaxın və Orta Şərqdə olduğu kimi İranda da öz mövqelərini ABŞ-a güzəştə getməli oldu. ABŞ-ın İranda möhkəmlənməsi rəsmi Tehranın CENTO-da mühüm dövlət olması ilə nəticələndi. Lakin şah istibdadı sosial partlayışa gətirib çıxarmaqla, həm də rəsmi Vaşinqtonun hesablaya bilmədiyi proseslərə rəvac verdi. 1979-cu ilə qədər ABŞ-ın müttəfiqi kimi mövcud olmuş İran monarxiyası İslam inqilabından sonra tamamiylə antiamerikan siyasətlə "Ağ ev"i məyus etdi. İslam İnqilabının yayılması qonşu ölkələri də narahat edirdi. 1980 - 1988-ci illərdə baş vermiş, İran – İraq müharibəsi hər iki tərəfə 1 mln.-danartıq tələfat verdi. Lakin İran İslam İnqilabını qoruyub saxlamaq mümkün oldu.

Yəhudilərə qarşı kəskin münasibət hələ qədim dövrlərdən mövcud olmuş, Xristiyanlıq yarandıqdan sonra isə bütün orta əsrlər boyu davam etmişdir. XVIII əsrin sonunda Böyük Fransa İnqilabından sonra Avropaya yayılmış millətçilik ideyaları,

özgəyə nifrət hissi demək olar ki, hər evdə yəhudilərə qarşı qanlı planlar hazırlanmasına gətirib çıxardı. Bu vəziyyətdə yəhudilər dövlət qurmaq haqqında fikirləşdilər.

XIX əsrin sonlarında "sionizm" hərəkatına başçılıq edən Teoder Herzl Fələstin ərazisində yəhudi dövlətinin qurulması üçün Osmanlı sultanı II Əbdülhəmidə anlaşma təklif erdi (1901 və 1902-ci illər). İslamın xəlifəsi bu təklifi rədd etsə də, yəhudilər Fələstinə köçməkdə davam edirdilər (əsasən qaçaq yolla). I dünya müharibəsinin gedişində Yaxın Şərqdə möhkəmlənən ingilislər 1917-ci ildə Balfur deklorasiyasını elan etdilər. Bu deklorasiya Fələstin ərazisində yəhudi məskənlərinin yaradılmasını nəzərdə tuturdu.

1933-cü il A.Hitlerin Almaniyada hakimiyyətə gəlməsindən sonra kütləvi şəkildə "müqəddəs torpaqlara" qaçan yəhudilər Fələstində etnokonfessional qarşıdurmalara səbəb oldular. 1947-ci ildə taqətdən düşmüş, İngiltərə imperiyası sürətlə dağıldığı zaman BMT-yə müraciət edərək, Fələstin məsələsini həll etməsini xahiş etdi. 1947-ci il 29 noyabrda BMT-nin Baş Assambleyasının qəbul etdiyi 181 saylı qətnamədə qərara alınırdı:

— Fələstin ərazisində üç siyasi qurum yaradılırdı: Yəhudi dövləti, Ərəb dövləti və Qüds beynəlxalq ərazisi

— Ərəb və Yəhudi dövlətləri iki illik bir keçid dövründən sonra müstəqil olacaqdı

— Bu iki dövlət arasında iqtisadi birlik yaradılacaqdı

— Qüds BMT-nin vəsatətinə verilirdi

— Ərəb dövləti Fələstin ərazisinin 42,88%-ni, Yəhudi dövləti isə 56,47%-ni ehtiva edəcəkdi.

İsrailin qurulması ilə regionda bütün ərəb dövlətləri yəhudi dövlətinin yer üzündən silinməsi üçün "Cihada" qalxdılar. 1948-ci ilin İsrail - ərəb müharibəsi zamanı Misir, İordaniya, Suriya, Livan və İraq silahlı qüvvələri Fələstinə girdilər. Lakin məğlub olaraq geri çəkilmək məcburiyyətində qaldılar. İsrailin sülh təkliflərinə əhəmiyyət verməyən ərəb dövlətlərinin aşağıdakı ciddi səbəbləri var idi:

— Amansız düşmənin mövcudluğu ərəb krallarına taxtda qalmağa şərait

yaradırdı;

— Düşmənçilik şəraitinin saxlanması ərəb hakim dairələrinə xaricdən qarşılıqsız kömək əldə etməyə imkan yaradırdı;

— Fələstin ərəblərinin müstəqil dövlət yaratmaq istəyi qədər sülhməramlı və arzuolunan kimi görünsə də, bu dövlətin Qəzza zolağı (o vaxtki Misir ərazisi) və İordan çayının qərb sahilindəki ərazilərdə (o vaxtki İordaniya torpaqları) yaradılması Misir və İordaniyanı qane etmirdi.

ABŞ, Fransa və İngiltərə 1950-ci ildə adları çəkilən üç ölkə Yaxın Şərq dövlətlərinə silah embarqosu elan etdilər. Lakin bu embarqo qanunsuz,gizli yollarla elə bu dövlətlərin özləri tərəfindən pozulurdu. Demək olar ki, bütün ərəb dövlətləri yəhudilərə qarşı partizan müharibəsinə hər cür yardım edirdilər. Partizan müharibəsinin İsrailə verdiyi itkilər bu dövləti məhv etməyə kifayət etmədi. Məhz bu faktor ərəblər arasında qəti və son döyüş üçün birləşmək meyli yaratmışdı.

Misir prezidenti C.Ə.Nasir uzun danışıqlardan sonra İordaniya kralı Hüseyni İsrailə qarşı müharibədə iştirak etməyə razı salaraq yeni koalisiya yaratmağa nail oldu. 1967-ci ildə ərəb dövlətləri İsraili yer üzündən tamamiylə və qəti şəkildə silmək üçün bir daha iri miqyaslı hərbi əməliyyatlara başladılar. Lakin bu dəfə də "Mossadın (İsrailin ''Kəşfiyyat və Xüsusi Əməliyyatlar Orqanı" - "Ha Mossad le Modiin ule Tafkidim Meyuhadim" qısaca "Mossad") fədakar əməyi sayəsində dəqiq kəşfiyyat məlumatları ilə silahlanmış İsrail ordusu hava hücumu ilə ilk zərbəni endirdi. Bundan sonra Misirin Sinay yarımadasındakı tank korpusları gözlənilmədən İsrail tanklarının hücumuna məruz qaldılar. Qəfil hücum qarşısında ciddi itkilər verən ərəblər geri çəkildilər. Misir və İordaniya silahlı birləşmələri cəmi 6 günə (6 günlük müharibə) tamamiylə məğlub edildilər. İsrail bu qələbə ilə öz ərazisini 3 dəfədən də çox artırdı. Məhz bundan sonra İsrail ABŞ tərəfindən ciddi müttəfiq kimi qəbul edildi. Müharibə İsrailin Sinay yarımadasını, Qəzza zolağını, İordan çayının bütün qərb sahillərini və Golan təpələrini işğal etməsiylə nəticələndi.

Altı günlük (1967) müharibə ərəblərin beynində İsraili yer üzündən silmək fikrini tamamiylə çıxarıb atdı. Bundan sonra ərəblər İsrailə qarşı aparacaqlarımübarizədə yalnız bir məqsəd güdəcəkdilər – 1967-ci ildə itirdikləri

torpaqları geri almaq. Məhz bu məqsədlə 1973-cü ildə Misir və Suriya qəfil hücumla 6 il əvvəl itirdikləri əraziləri qaytarmaq niyyəti ilə müharibəyə başladılar. İordaniya kralı Hüseyn yalnız maddi yardım etməklə kifayətləndi. Misir Sina yarımadasında müəyyən qədər irəliləyə bilsə də, İsrail ordusu bu hücumun böyüməsinə imkan vermədi. İsrailin itkiləri də kifayət qədər ciddi rəqəmlərlə ölçülürdü. İsrail bu müharibədə verdiyi itkiləri uzun müddət bərpa edə bilmədi. Yeni ərəb hücumu yəhudilər üçün həyati əhəmiyyətli təhlükə yarada bilərdi. ABŞ İsrailin təhlükəsizliyini təmin etmək üçün bütün imkanlarını səfərbər etdi.

Vyetnamda rüsvayçı uğursuzluq ABŞ-ı təşvişə salmışdı. SSRİ-nin öz nüfuzunu Yaxın Şərqdə də genişləndirməsinin qarşısını tezliklə almaq lazım idi. Digər tərəfdən "Yom Kipur" müharibəsi ərəblər arasında əsəbi vəziyyət yaratmışdı. Qərb ölkələrinin İsrailə dəstək verməsinə cavab olaraq, ərəb ölkələri neft satışını dayandırdılar. Dünyada enerji böhranı baş verdi. Kapitalizmin total iqtisadi durğunluğu bütün sahələrdə sürətlə dərinləşməyə başladı. ABŞ təcili tədbir görməyə məcbur idi.

Misir prezidenti Ənvər Sadatın Sovet İttifaqına qarşı bu qərəzli mövqeyi 1975-ci ildə Misir – SSRİ münasibətlərinin qırılması ilə nəticələndi. Ə.Sadatın rəsmi Moskvaya qarşı belə səhv mövqe tutması aşağıdakı məqsədləri güdürdü:

- Ərəblərin məğlubiyyətində Misir ordusunun səriştəsizliyini və arxayınlıq nümayiş etdirməsini gizlətmək və bütün günahı Sovet silahlarının üzərinə yıxmaq
- Sovet İttifaqının yardımlarının kifayət etmədiyini göstərməklə daxildəki yeyinti faktını ört – basdır etmək
- Sovet İttifaqından sürətlə uzaqlaşmaqla, ABŞ-ın vəd etdiyi maliyyə dəstəyinin alınmasını tezləşdirmək

Ə.Sadatın İsraillə sülh bağlamaq niyyətinin arxasında daxili problemlərin həllinin tezləşdirilməsi istəyi də dayanırdı. İsrail dövləti ilə bağlanmış sülh müqaviləsi Ə.Sadata aşağıdakı məsələlərin həllinə diqqətini yönəltmək imkanı verirdi:

✓ Fələstin Azadlıq Təşkilatının Misirdə fəallaşmasına yol verməmək

✓ İsrailin işğal etdiyi Qəzza zolağında fəalaşan ərəb partizanlarının Misirəsızmasının qarşısını almaq və onların Misir ictimaiyyətinə təsir imkanlarını

azaltmaq

- ✓ Daxildə İsrailə qarşı müharibə tələb edən radikal İslamçı qruplaşmalara qarşı bütün qüvvələri səfərbər edərək, arxayın mübarizə aparmaq.

ABŞ prezidenti C.Karter hər iki tərəfi təcili şəkildə öz iqamətqahına – Merilenddəki “Kamp Devid" imarətinə dəvət etdi. Həm Misirə, həm də İsrailə böyük iqtisadi yardımlar söz verən rəsmi Vaşinqton, sülh danışıqlarına nail ola bildi. İsrail baş naziri Menahem Begin və Misir prezidenti Ə.Sadat 1978-ci ildə "İsrail və Misir arasında imzalanacaq sülh müqaviləsnin prinsipləri” və “Yaxın Şərqdə sülhün prinsipləri” adlı iki müqavilə imzaladılar. "Kamp Devid” anlaşmaları sonda İsrail – Misir anlaşmaları ilə bitdi. Misir və İsrail arasında sülh müqaviləsi 1979-cu ildə Vaşinqtonda ABŞ prezidenti C.Karterin iştirakı ilə bağlandı. Sülh müqaviləsi aşağıdakı əsas bəndləri özündə ehtiva edirdi:

1. İsrail Sina yarımadasından çıxacaq, Misir İsraili rəsmən tanıyacaq və diplomatik əlaqələr qurulacaq
2. Qəzza və İordan çayının qərb sahillərindəki fələstinlilərə Misir və İordaniyanm müəyyənləşdirəcəyi muxtariyyat veriləcək
3. Muxtariyyat statusunu müəyyənləşdirmək üçün 3 il sonra İsrail – Misir – Fələstin – İordaniya nümayəndələri görüşəcəklər
4. İsrail – İordaniya sülh danışıqları başlayacaq
5. İsrail Fələstində hərbi qüvvələrini azaldacaq

Misir – İsrail müqavilələri bütün ərəb dünyasında Ə.Sadata qarşı kəskinreaksiya yaratdı. Misir SSRİ-dən tamamiylə uzaqlaşaraq, ABŞ-la yaxınlaşmaistiqamətində irəliləməyə başladı. Ölkə daxilindəki radikal İslamçı qruplaşmalar fəallaşdılar. 1981-ci ildə özünəqarşı təşkil olunmuş sui – qəsd nəticəsində Ə.Sadat öldürüldü.

1982-ci ildə İsrailin Livana hücumu burada formalaşmış, Fələstin müqavimətini tamamiylə məhv edə bilməsə də, cənubi Livanda xeyli tələfata yol açdı. İran İslam İnqilabından sonra yaradılmış “Hizbullah” Livanın cənubunda İsrailə qarşı uğurlu əməliyyatlara başladı. XX əsrin sonlarına doğru İsrail Livanı tərk etməyə məcbur edildi.1990-cı illərdə ABŞ-ın Yaxın Şərqdə təşəbbüsü ələ almasına imkan

verən bir neçə səbəb var idi:

— “Soyuq müharibə” bitdiyi üçün ərəblər artıq SSRİ-nin dəstəyindən məhrum idilər. Belə vəziyyətdə ABŞ-ın istəklərinə uyğun, İsrailin arzu etdiyi şəkildə sülh müqavilələrinin imzalanmasına müqavimət göstərmək çətinləşdi.

— Ərəb ölkələrinin öz aralarındakı siyasi düşmənçilik, 1975 – 1990-cı illərdə Livan vətəndaş müharibəsi, Kamp – Devid sazişlərindən sonra Misirin ərəb dünyasından izolə edilməsi, İraqın ərəb dövləti olan Küveytə hücumu ərəb xalqının özünə inamını itirməsinə səbəb olmuşdu.

Oslo(1993-cü il) və Qahirə(1994-cü il) sülh müqavilələri genişlənən muxtariyyat statusu Fələstində qanlı toqquşmaların qarşısını ala bilmədi. Yasir Ərəfatın da nəzarət edə bilmədiyi qruplar sülh prinsiplərini ciddi şəkildə pozurdular. Buna cavab olaraq, İsrail Beytülləheym və Qəzzada Fələstin düşərgələrinə ağır zərbələr endirdi.

1923-cü ildə yeni yaradılmış Türkiyə Respublikasının daxilindəsekulyar qüvvələrlə klerikallar arasında hakimiyyət uğrunda mübarizə 1920-ci illərin sonlarına yaxın kamalistlərin qələbəsiylə başa çatdı. Rəsmi Ankaranın Yaxın və Orta Şərq ölkələriylə münasibət qurmaq üçün həmin ərazilərin sahibi olan Avropa dövlətlərindən razılıq almalı olduğunu nəzərə alan Mustafa Kamalxarici siyasətdə birmənalı şəkildə Qərblə əməkdaşlığa meyl edirdi.

Türkiyə “Sovet təhlükəsi” qarşısında müdafiəsiz qalmamaq üçün 1952-ci ildə qəti şəkildə NATO-nun üzvü oldu. ABŞ-ın müttəfiqi kimi Türkiyədə kommunistlərin və dindarların təqib edilməsi total xarakter aldı. Hətta xalq tərəfindən seçilmiş, leqal hökümətlər ordu tərəfindən ya təzyiq göstərilməklə xarici siyasətlərini dəyişməyə məcbur edilmiş, ya da Silahlı Qüvvələr tərəfindən devrilmişlər (1960-cı il 27 may, 1971-ci il 12 mart və1980-ci il 12 sentyabrda, 1997-ci il 28 fevralda (post – modern darbe) baş vermiş hərbi çevrilişlər). Ayrı –ayrı hökümət üzvləri və nazirlər həbsxanalara atılmış, edam edilmişlər. Türkiyə 70 – 80-ci illərdə millətçi – solçu, sünni – şiə (alevi) qarşıdurmalarının qanlı meydanına çevrilmişdi.

90-cı illərin əvvəlləri Turqut Özalın islahatları ilə ölkədəki vəziyyət sabitləşməyə doğru gedirdi. Türkiyə Yaxın və Orta Şərq ölkələri ilə münasibətlərə

əhəmiyyət verməyə başladı. 2000-ci illərin əvvəllərindən başlayaraq, Türkiyə regionda gündəmdə olan aktora çevrildi. Bu qədər sürətli dəyişikliyin əlbəttə ki, ABŞ-ın "Böyük Orta Şərq" layihəsiylə ciddi əlaqəsi möcuddur. Türkiyə həm Əfqanıstanın (2001 -ci il), həm də İraqın (2003-cü il) işğalında bu və ya digər şəkildə ABŞ-a dəstək oldu. Türkiyə artıq Yaxın Şərq sülh prosesinə açıq müdaxilə edir, İsraili tənqid edir, hətta "ərəb baharının" istiqamələndirilməsində təşəbbüsü ələ almağa çalışırdı. 1918-ci ildən sonra Türkiyə Yaxın və Orta Şərqə qayıtmaq istəsə də, ərəblər Türkiyənin üzünə qapıları açmaqda tərəddüd edirdilər. Lakin ABŞ-ın dəstəyi ilə Türkiyənin Yaxın Şərqdə nüfuzu artmağa başladı.

Beləliklə tarixi proseslərin inkişafı Yaxın və Orta Şərq ölkələrində ABŞ-a və eyni zamanda "Böyük Orta Şərq Layihəsi"nə münasibətlər sisteminiformalaşdırdı. Bu münasibətlər sistemi tarixi – siyasi, sosial – iqtisadi, mənəvi – psixoloji nöqteyi – nəzərdən öyrənilməlidir. Araşdırmalar nəticəsində region ölkələrinin bu layihəyə münasibətinin üç əsas (aparıcı – ana baxış) variantının mövcud olduğu müəyyən edilmişdir:

1. Təklif edilmiş bu layihəni olduğu kimi, bütöv şəkildə, qəbul etmək;
2. ABŞ-ın mövcud orijinal layihəsinə bəzi düzəlişlər etmək təklifi irəli sürmək və bu layihəyə adaptasiya olmaqla, həm də region ölkələrində uzun illər mövcud olmuş, avtokratik siyasi rejimləri və mövcud siyasi sistemləri qoruyub, saxlamaq;
3. "Böyük Orta Şərq" layihəsini birmənalı şəkildə rədd etmək.

ABŞ bu layihənin məqsədləri üçün Yaxın və Orta Şərqdə özlərini İslam sivilizasiyasına məxsus hesab edən üç müxtəlif qrupla münasibət qurmalı olacaq ki, bunlarda:

1. Despotik hakimiyyətlərin başında duran diktatorlar – Despotların mövqeyinin dəyişdirilməsi mümkün görünməsə də, onların əksəriyyətinin devrilərək, yenisi ilə əvəzlənməsi mümkün oldu.
2. Dünyəvi ziyalılar – Uzun müddət despotlara qarşı mübarizə aparmış, hər zaman ABŞ tərəfindən neytrallaşdırılmış, təklikdə qalmasına şərait yaradılmış, demokratik, sekulyar ziyalılar nə qədər ABŞ-dan incik olsalar da, bu proyektin

reallaşmasında ABŞ-la birlikdə hərəkət edəcəklər. Müsəlman ziyalıların nüfuzlu bir qrupu da etatistlər və bəəsçilərdir ki, bu sosial qrup hesab edir ki, din dövlətdən tamamiylə ayrı olmalı, bütün qərarlar beynəlxalq qanunlara əsasən verilməlidir. Lakin bu qrupun əsasını solçu gənclər təşkil etdiyindən ABŞ-a və kapitalizmə nifrət edirlər. Bundan başqa bu qrup regiondakı İslama da nifrət edir. Buna görə bu qrupa söykənib, hərəkət etmək ABŞ üçün ifşa olunmaq təhlükəsi yaradır.

3. İslamçılar – bir çoxlarının hesab etdiyi kimi, islamçıların heç də hamısı anti – amerikan baxışa sahib deyillər. Belə ki, ABŞ tədqiqatçıları belə nəticəyə gəliblər ki, Yaxın ə Orta Şərqdə islamçıların özləri də bölünürlər:

— Ənənəvi islamçılar – öz dini ayin və ibadətlərinə sadiq qalanlar təcavüz vəzorakılığa da qarşıdırlar. Bu qrup həm radikal təkfirçi şəriətçilərlə, həm də Qərb demokratiyası ilə eyni uzaq məsafədə dayanır. Bu qrupla münasibətlər zamanı ABŞ üçün ən uğurlu variant sülh görüntüsü yaratmaq olacaqdır:

— Mülayim, demokratik islamçılar – bunlar İslamın qlobal dünyada yer tutmasını arzu edənlərdirlər. Bu qrupun təmsilçiləri hesab edirlər ki, İslamın yarandığı ilk çağlardakı vəziyyətlə müqayisədə indiki vəziyyət bəzi şəriət hökmlərinin qüvvədən düşdüyünü deməyə əsas verir. Bu qrup ABŞ-ın müsəlmanlar daxilində ən yaxın müttəfiqidir. Regiondakı bütün planlarda bu qrup xüsusi əhəmiyyətə və rola malik olacaqdır.

— Radikal islamçılar – əsasən təcavüz və şiddətli qarşıdurmalardan yararlanaraq diqqət mərkəzində olmaq, İslamı yaymaq və genişləndirmək naminə hücum etmək, Qərbin demokratik dəyərlərinə qapılarıbağlamaq tərəfdarıdırlar. Bu qrup Qərbə xüsusiylə ABŞ-a dərin nifrət bəsləyir. İslamın şəriət qanunlarına əsaslanan əxlaqi kodeks və normativlərə uyğun dövlət qurmağa çalışırlar. ABŞ üçün bu qrup qeyd – şərtsiz məhv edilməli olanlar siyahısına daxildir.

Yuxarıdakı təsnifatdan da göründüyü kimi bütün təhlillər ABŞ üçün regionda ən uğurlu müttəfiq "mülayim islamçılar" olacaqlar ki, bunun da bir çox üstün tərəfləri mövcuddur:

- Mülayim islamçılar region ölkələrində demək olar ki, əksəriyyət təşkil edirlər. Xüsusiylə bu qrupun böyük hissəsi ABŞ üçün unikal müttəfiq sayıla bilən

Türkiyə Respublikası ərazisindədir. İran kimi güclü dövlətin ərazisində sərt rejim görüntüsünə baxmayaraq, xüsusiylə farsdilli əhali arasında demokratik İslam möhkəmlənmişdir. Digər tərəfdən İran şiəliyi öz mənşəyi etibarı ilə ortodoksal, ərəb İslamından uzaq, rasionallığa meyl edən və xroniki ərəb antipatiyasına malik mistik dünyagörüşüdür. Digər region ölkəsi İsrail isə ümumiyyətlə İslam dininə ehtiyatlı münasibəti ilə məşhurdur. Regionun ərəb olmayan bu 3 ən güclü dövləti ərəblərə xroniki soyuq münasibəti ilə tanınır. Məhz bu dövlətlər Yaxın və Orta Şərqdə "mülayim İslamı" qəbul etdirmək gücündədirlər.

- Digər tərəfdən dinc yolla digər müsəlman xalqlarını əməkdaşlığa cəlb etmək üçün mülayim İslamm mövqeyi xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu cür İslam liberal iqtisadiyyatın amerikan üslubunda formalaşmasına nəinki mane olmaz, hətta əksinə yaxından kömək etmiş olardı.
- Nəhayət mülayim İslam özünün sülhsevərliyi ilə, şiddətə baş vurmuş radikal İslamın tamamiylə məhv edilməsində yardımçı ola bilər. Mülayim İslamın dini liderləri geniş kütlələri ABŞ-ın maraqlarına uyğun təşkilatlandıra və maarifləndirə bilərlər.

İndi isə Yaxın və Orta Şərqin ayrı – ayrı nüfuzlu dövlətlərinin "Böyük Orta Şərq Layihəsin"ə münasibətini təhlil etmək yerinə düşər. ABŞ-ın İslam dövlətləri ilə bağlı planlarında xüsusi rola malik dövlət – Türkiyə Respublikasıdır.

Artıq 2000-ci illərin əvvəllərindən başlayaraq İslam coğrafiyasının ABŞ tərəfindən qəti şəkildə fəth edilməsi istiqamətində əməli addımlar atılmağa başlanıldı. "Mülayim İslam"ın Türkiyə qanadı üzərində ciddi hazırlıq işləri tamamlandıqdan dərhal sonra bu plan icra mərhələsinə daxil oldu.

1997-ci ilin yanvar ayında ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin məxfi xidmətorqanı ("CİA Rand Corporation") ABŞ hökümətinə verdiyi raportda bildirmişdir: "İranda şahı tərk etməkdə ABŞ hököməti çox gecikmişdi. Türkiyədə eyni səhvietməməliyik. Ənənəvi ANAP(Ana – Vətən Partiyası), DYP (Doğru Yol Partiyası) və başqa partiyalarla, o cümlədən hərbi çevrilişlərlə Türkiyəni nəzarətdə saxlamaq imkanlarımız hər gün daha da azalır.ABŞ Türkiyədəki maraqlarını İslamçı partiya ilə qoruya bilər. Bu mənada gecikmək olmaz. Artıq "Refah" (1983-cü ildə

Türkiyədə yaradılmış, mühafizəkarpartiya) partiyasını iqtidar partiyası olaraq, dəstəkləməliyik" yazılmışdı. Həmin raportda Rəcəb Tayyip Ərdoğandan baş nazir kimi, Abdullah Güldən isə xarici işlər naziri kimi söz açılırdı.

1996-cı ilin 20 oktyabrında "Aydınlık" jurnalında ABŞ-ın Türkiyədəkikeçmiş səfiri Abromoviçin R.T.Ərdoğanı baş nazir postuna hazırlaması haqqında"manşet – xəbər" dərc edilir. R.T.Ərdoğan Abromoviçlə hələ"Refah" partiyasında olarkən görüşüb tanış olmuşdur. Bu görüşdən sonra R.T.Ərdoğan sürətlə vəzifədən – vəzifəyə yüksəldi. İlçə başkanlığından, İl başkanlığına sonra İstanbul böyük şəhər bələdiyyəsi başkanlığına seçilir. 3 noyabr 2002-ci ildə isə Türkiyədə parlament seçkilərində, 8 il əvvəl planlaşdırıldığı kimi R.T.Ərdoğanın başçılıq etdiyi Ədalət və İnkişaf Partiyası (AKP – Adalet ve Kalkınma Partisi) 34% səslə qalib gələrək, 362 deputat mandatı əldə etdi. Bu seçkilərin məhz bu şəkildə nəticələnməsi üçün "Refah" və "Səadət" partiyalarını parçalayaraq, səslərin azaldılmasına nail olundu. Lakin R.T.Ərdoğan "siyasi yasaqlı" (siyasi fəaliyyətlə məşğul olmaq qadağası) elan olunduğu üçün baş nazir ola bilməzdi. 4 noyabr 2002-ci ildə R.T.Ərdoğan ABŞ-ın müdafiə nazirinin köməkçisi Paul Volfovitsə məktub göndərdi. Məktubda Ərdoğanı narahat edən məslələr, o cümlədən Türkiyə ordusunun rəhbərliyindən gördüyü soyuq münasibətdən narazılıq ifadə olunurdu.

Bu məktub ilk dəfə 17 yanvar 2004-cü ildə "Star" qəzetində Hayrullah Mahmud tərəfindən dərc edilmişdir. Hökümət üzvləri bu məktuba heç bir münasibət bildirmədilər. 2002-ci il 15 noyabrda Türkiyə Ordu Generalı Hilmi Özkök R.T.Ərdoğanı rəsmi şəkildə qəbul etdi[120]. R.T.Ərdoğan 34 dəfə "Böyük Orta Şərq Layihəsi"nin həmsədrlərindən biri olduğunu söyləmişdir. R.T.Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) 2006-cı ildə Bayrampaşa İlçə (bölgə) Konqresində özünün çıxışı zamanı bu cümləl追 söyləmişdir: "Türkiyənin Orta Şərqdə bir vəzifəsi var. Nədir bu vəzifə? Biz "Böyük Orta Şərq" layihəsinin Eşbaşkanlarından (həmsədr) biriyik".

AKP-nin qurduğu I hökümət kabinetində xarici işlər naziri olmuş A.Gül 24 may 2003-cü ildə "Vatan" qəzetinin müxbiri Sadat Sərtoğluna verdiyi müsahibədə bunları açıqlamışdır: "İndi sən oturduğun kresloda bir neçə gün əvvəl Kolin Pauel

otururdu. Onunla 2 səhifəlik, 9 maddəlik bir razılaşmanı müzakirə etdik. Amma mən indi sənə hər şeyi açıqlaya bilmərəm ki,...Gizli olan o qədər məsələ var ki...".

2003-cü ildə ABŞ Dövlət Departamentinin Baş Katibi Kolin Pauel Türkiyə xarici işlər naziri Abdullah Gül ilə razılaşma imzalayır. Bu haqda ilk dəfə Doğu Perincek (Türkiyə Fəhlə Partiyasının sədri, "Aydınlık" qəzetinin yaradıcısı) parlamentə göndərdiyi məktubda məlumat vermişdi. Dərc edilmiş məlumata görə A.Gül ilə K.Pauel arasındakı anlaşmalar aşağıdakı bəndlərdən ibarət idi:

- Türk ordusuna aid bütün silahlı birləşmələr İraqın şimalından 4 ay ərzində Türkiyə sərhədlərinin içərilərinə geri çəkiləcək.
- Türk ordusu bundan sonra heç bir halda sərhəddən kənardaəməliyyat həyata keçirməyəcək. PKK (Partiye Kargerane Kordistan – Kürdüstan Fəhlə partiyası) birliklərinə qarşı keçirilən əməliyyatlara dərhal son veriləcək.
- Türkiyə sərhədləri daxilində PKK-ya qarşı əməliyyatlar isə yalnız ABŞ-a xəbər verildikdən və icazə alındıqdan sonra reallaşdırıla bilər.
- Türkiyə öz ərazisində PKK-ya qarşı ABŞ-dan icazəsiz hərbi əməliyyat keçirərsə ABŞ "Kürd xalqına soyqırım" edilməsi bəhanəsi ilə müdaxilə edə biləcək. Türk ordusuna embarqolar və məhdudiyyətlər tətbiq ediləcək.
- ABŞ Yaxın və Orta Şərqin hər hansı dövlətinə qarşı hərbi əməliyyat keçirərsə, Türkiyə həm hava limanlarını, həm hərbi bazalarını, həm də hərbibirliklərini ABŞ-ın istifadəsinə verməlidir.
- Türkiyə ordusunun canlı qüvvəsi və silah arsenalı ABŞ-ın müəyyənləşdirdiyi həddə qədər endiriləcəkdir. Xüsusiylə tank və təyyarələrin sayı azaldılacaq, taktiki raketlərdən başqa bütün növ raketlər qadağan ediləcək. Türkiyədə işləyən ABŞ kəşfiyyat və ordu nümayəndələrinin səlahiyyətləri genişləndiriləcək.
- İraqın şimalındakı kürd dövləti elan edildikdən dərhal sonra rəsmi Ankara tərəfindən rəsmən tanınacaq.
- Abdullah Öcalan və digər 4 kürd liderlərindən başqa bütün PKK üzvlərinə ümumi əff fərmanı veriləcək.
- PKK-nın siyasi səhnəyə girə bilməsi üçün bütün hüquqi maneələr aradan qaldırılacaq.

- Kürdlərin kütləvi yaşadıqları şəhər və qəsəbələrdə muxtariyyat verilməsi dədaxil olmaqla, Türkiyə Respublikası 4 il ərzində federasiya quruluşuna keçəcək.
- Kiprdə “Annan Planı” həyata keçiriləcək, R.Denktaş isə “Yasir Ərafat modeli” (yəni müalicə bəhanəsi ilə xəstəxanaların birinə yerləşdirilərək, fiziki məhvi nəzərdə tutulur) ilə siyasi arenadan kənarlaşdırılacaq.
- Türk silahlı qüvvələrinə aid təyyarələr Yunanıstan sərhədlərinə yaxınlaşmayacaq, təlim arealları daraldılacaq.
- Ermənistanla ticari əlaqələr genişləndiriləcək, sərhədlər açılacaq, ermənilərin Türkiyə ərazisinə sərbəst girişi təmin ediləcək.

Bu razılaşma haqqında məlumatın mediaya sızdırılması Türkiyə cəmiyyətində İslam prinsiplərinə bağlı olan qüvvələrin hansı həddə qədər dəstək aldığını yoxlamaq idi. Başqa bir tərəfdən bu cür razılaşmaların gündəmə gətirilməsi bir daha onu göstərirdi ki, Türkiyə Respublikasının rəsmi Vaşinqtonun planlarında İslam coğrafiyasına müdaxilə üçün “giriş qapısı” rolunu oynadığını göstərir. Ərdoğanın Türkiyə siyasi hakimiyyətində möhkəmlənməsinə məqsədli şəkildə yardım edilməsi haqqında şübhələr dolaşmağa başladı. Razılaşmanın bəndlərindən də göründüyü kimi “Misaqi – Milli” (Milli And) çərçivəsində göstərilən prinsiplərdən imtina etməsi bəhanəsi ilə Türkiyə daxilində Ərdoğanın tənqid olunması geniş xüsət aldı. Onlar Ərdoğanı “mülayim İslam” adı ilə kamalizmin prinsiplərini laxlatdığını iddia edirdilər. Tənqidçilərin böyük əksəriyyətini Türkiyə ictimaiyyətinin, sekulyar, kamalist hissəsi təşkil edirdi. Ərdoğan hökümətində vaxtiylə parlaq simalardan olmuş Ə.Davudoğlunun “Strateji dərinlik” əsərində “neo –ottomonizmin” konturlarının olmasını iddia edən tənqidçilər Ə.Davudoğlunun öz kitabında Osmanlı imperiyasının, İslam Xilafətinin xiffətini çəkdiyini deyirdilər. Neoliberalizmin prinsiplərinə uyğun olaraq, dünyada milli dövlətləri ləğv etmək “Böyük Orta Şərq” layihəsində də özünü göstərir. Bu layihədə Türkiyə milli dövlət kimi deyil, bütün İslam Şərqinin ümmət dövlətinin (dil və etnik əsasa deyil, yalniz dini əsasa söykənən dövlət) bir hissəsi kimi dərk edilir və dəyərləndirilir. Bu parametrlər “Böyük Orta Şərq Katibliyi” yaratmağı planlaşdıran ABŞ-ın maraqları ilə uyğunluq təşkil edir.

Suriyaya münasibətdə ABŞ-ın maraqlarına uyğun xarici siyasət yürüdən

Ərdoğan Ermənistan Respublikası ilə sərhədlərin açılmasında rəsmi Vaşinqtonu razı salmadı. Suriya mərkəzi hakimiyyətinə qarşı döyüşmüşterrorçuların Türkiyə xəstəxanalarında müalicə alması, onların Türkiyə - Suriya sərhəddini maneəsiz keçməsi rəsmi Vaşinqtonu razı salsa da, Ermənistanla sərhədlərin açılmasında qəti addımlar atılmaması ABŞ-ı narazı salmışdı. Bundan əlavə daxili bazarda spirtli içkilər və tütün məmulatlarına sərt qadağalar gətirilməsi ABŞ şirkətlərini Ərdoğan hökümətindən narazı saldı. 2013-cü ilin məşhur "Gezi Parkı" hadisələrində ABŞ-ın narazı qaldığı məsələləri Ərdoğanın "diqqətinə çatdırmaq" məqsədi var idi. Bir zamanlar Ərdoğana ABŞ-ın dəstəyini təmin etmiş Fətullah Gülən və onun geniş xidmət şəbəkəsi də Ərdoğanla toqquşdu. Bu toqquşmanı ən sadə dildə izah etsək görərik ki, qarşıdurmanın əsasında ABŞ-ın gələcək planlarında mühüm vəzifə tutmaq məqsədi dayanır. Böyük İslam coğrafiyasında və yaxud ən azı Türkiyə sərhədləri daxilində şəriksiz nüfüz sahibi olmaq bu rəqabətin əsas səbəbidir.

2013-cü ilin sonlarına doğru hətta baş nazir – Ərdoğanın da sonradan xəbər tutduğu antikorrupsiya əməliyyatları iri maliyyə oliqarxlarının həbsi ilə nəticələndi. Belə görünə bilər ki, ABŞ bu prosesdə Ərdoğanın əleyhinə çıxış edir. Lakin rəsmi Vaşinqton bu regionda öz planlarının icrasının yerinə yetirilməsi üçün təzyiq qruplarından istifadə edir. Gülən "camaatı" ABŞ-ın gücündən istifadə edərək Türkiyədə güc sahibi olmağa və ABŞ-ın İslam coğrafiyası ilə bağlı planlarında önəmli yer tutmağa can atırlar. ABŞ isə bu təzyiq qruplarından yalnız öz planlarının sürətlə reallaşmasını təmin etmək üçün istifadə edir.

Xarici siyasəti ABŞ-la, daxili siyasəti AB ilə, iqtisadiyyatı isə Beynəlxalq Valyuta Fondu (İMF – "International Monetary Fund") ilə sıx bağlı olan Türkiyə baş naziri Ərdoğan 28 yanvar 2004-cü ildə ABŞ-da rəsmi səfərdə olarkən, Vaşinqtonda mətbuat konfransında ABŞ-ın Yaxın və Orta Şərqə dair planlarıyla bağlı fikir söyləmişdi: "Cənab Buşla görüşdüm. ABŞ-ın böyük bir planı haqqında ən mötəbər dildən detallı şəkildə məlumatlandırıldım. "Böyük Orta Şərq" və yaxud "Genişləndirilmiş Orta Şərq" layihələrinə öz münasibətimi və təkliflərimi verdim. Cənab Buş bu təkliflərin onlar üçün vacib olacağını və yararlı olacağını söylədi".

ABŞ prezidenti C.Buş isə öz növbəsində bunları söylədi: "Türkiyə bizim Yaxın

və Orta Şərqlə bağlı planlarımızda öz uğurları ilə örnək ölkədir”. Uzun illər Türkiyə Milli İstihbarat Təşkilatında (MİT) işləmiş Mahir Kaynaka görə Qərb ölkələrinə lazım olan “reformist İslam” Türkiyənin simasında öz nümunəsini tapır. M.Kaynak vurğulayır ki, Orta Şərqdə Xristiyanlıq və ya İudaizm böyük nüfuza malik deyillər. Türkiyənin simasında mövcud olan “mülayim İslam”, “kapitalizmə düşmən olmayan İslam” bu problemi həll edə bilər.

Ərdoğan Türkiyədə hakimiyyətə gəldikdən sonra “Böyük Orta Şərq” layihəsinin humanist məqsədlərini vurğulayaraq, region xalqlarının problemlərini və onların həllinin vacibliyindən danışırdı. Ərdoğan bu layihəyə münasibətini bildirərkən söyləmişdir: “Regionda demokratiya və rifah yarada biləcək bütün layihələri dəstəkləyirik. Bu layihə daxili qüvvələrin nisbətini, xalqların qayğılarını nəzərə almalıdır. Bu cür layihələri dəstəkləmək olduqca vacibdir”. AKP hökuməti bu layihəyə dəstək verməklə:

— ABŞ-la yaxınlaşma nəticəsində davamlı iqtisadi sabitliyə nail olmaq;

— Yaxın və Orta Şərq xalqlarının problemlərini hər nitqində qabartmaqla Ərdoğan xüsusən ərəblər arasında ciddi nüfuza sahib olmaq istəyirdi.

Türkiyədə ana müxalifət partiyası – Respublika Xalq Partiyası (Cümhuriyyet Halk Partisi – CHP) Türkiyənin bu layihədə iştirakının əleyhinə olmasa da rəsmi Ankaranın ABŞ təmsilçisi olmasını qəbul etmir. Türk Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi (Genel Kurmay Başkanı) İlker Başbuğ (2012-ci ildə ömürlük həbs cəzasına məhkum edilmiş, 26 ay həbsdə saxlanıldıqdan sonra 2014-cü ilin martında azadlığa buraxılmışdır) ilə R.T.Ərdoğan arasındakı konfliktin əsasında “mülayim İslam” ifadəsi dayanırdı. Türkiyə Silahlı Qüvvələrinin Qərargah rəisi (Genel Kurmay başkanı) Türkiyənin müsəlman ölkəsi olduğunu tez – tez vurğulayan baş nazirdən və ABŞ rəsmilərindən narazı idi. Digər Baş Qərargah Rəisi Hilmi Özkök(Genel Kurmay başkanı) demişdir: “ABŞ-ın planlarında Türkiyənin model olaraq mülayim İslam ölkəsi kimi göstərilməsi yanlış addımdır. Çünki, əksəriyyəti müsəlman olan ölkənin demokratik olması haqqında illüziya sıfıra bərabərdir. Çünki, təfəkküründə layik, dünyəvilik olmayan cəmiyyətlər demokratik, normal dövlət qura bilməzlər”. Beləliklə Türkiyədə ABŞ-ın “Böyük Orta Şərq Layihəsi”nə bir neçə baxış var ki,

bunlardan da yalnız "mülayim İslam" adlandırılan qrupun baxışları rəsmi Vaşinqton üçün dəyərlidir.

ABŞ üçün Yaxın və Orta Şərqdə xüsusi əhəmiyyətə malik digər ölkə İsraildir. İsrail ABŞ-ın Yaxın Şərqlə bağlı planlarına dair narahatlıqlarını gizlətmir və səmimi şəkildə bu planların reallaşmasını arzu etmədiyini bildirmişdir. İsrailin ciddi narahatlıq keçirdiyi məsələlər:

— "Böyük Orta Şərq" layihəsi ilə başlanmış olan "ərəb baharı" diktatorları devirərək, yerinə xalqın seçdiyi İslamçı qüvvələri gətirə bilər;

— Uzun müddət radikal müsəlmanların qarşısını alan tiranların əvəzinə hakimiyyətə gələn qüvvələr İsrailə qarşı radikal mövqe tuta bilərlər;

— "Kemp – Devid" sazişinin (1978-ci ildə bağlanılmış Misir – İsrail sülh müqaviləsi) qüvvədən düşürülməsi baş verə bilər;

— Həm Misirdə, həm də Suriyada radikal İslamçıların güclənməsi şəraitində İsrailin vəziyyəti ağırlaşa bilər.

Lakin yuxarıda göstərildiyi kimi rəsmi Vaşinqtonun hesablamalarına görə "Böyük Orta Şərq Layihəsi"nin reallaşacağı təqdirdə ABŞ hər il İsrailin təhlükəsizliyi üçün ayırdığı 2 milyard dollar əlavə vəsaitdən azad olmuş olacaqdır. ABŞ-ın diqtəsi və qəti mövqeyi qarşısında İsrail bu plana "yox" demək şansına malik deyildir. ABŞ-dakı beyin mərkəzləri İsrailin də narahatlığını nəzərə almışdır. Regionda yaradılacaq yeni dövlətlər İsrailin müttəfiqi kimi nəzərdə tutulmuşdur.

1982-ci ilin 6 fevralında "Haaretz" (İsraildə rəsmi dövlət qəzeti) qəzetinin Şif Zeev adlı eksperti yazırdı ki, "İsrailin maraqlarını qorumaq üçün Yaxın Şərqdə Sünni və Şiə İraq, eləcə də Kürdüstan dövlətləri qurulmalıdır". "Böyük Orta Şərq Layihəsi"ndə İsrailin nəzərə alınmış maraqları:

— Ərəb ölkələrinin daha kiçik dövlətlərə parçalanıb, zəiflədilməsi

— İsrailin təhlükəsizliyinin ən yüksək səviyyədə təmin edilməsi.

Yaxın Şərq dövlətlərinin hər birinin daxilindəki məzhəb və təriqətə görə azlıq təşkil edən qruplar rəsmi Vaşinqtonun hesablamalarına görə "Böyük Orta Şərq Layihəsi"nin reallaşacağı təqdirdə ABŞ hər il İsrailin təhlükəsizliyi üçün ayırdığı 2 milyard dollar əlavə vəsaitdən azad olmuş olacaqdır. ABŞ-ın diqtəsi və qəti mövqeyi

qarşısında İsrail bu plana "yox" demək şansına malik deyildir. ABŞ-dakı beyin mərkəzləri İsrailin də narahatlığını nəzərə almışdır. Regionda yaradılacaq yeni dövlətlər İsrailin müttəfiqi kimi nəzərdə tutulmuşdur.

1982-ci ilin 6 fevralında "Haaretz" (İsraildə rəsmi dövlət qəzeti) qəzetinin Şif Zeev adlı eksperti yazırdı ki, "İsrailin maraqlarını qorumaq üçün Yaxın Şərqdə Sünni və Şiə İraq, eləcə də Kürdüstan dövlətləri qurulmalıdır"."Böyük Orta Şərq Layihəsi"ndə İsrailin nəzərə alınmış maraqları:

- Ərəb ölkələrinin daha kiçik dövlətlərə parçalanıb, zəiflədilməsi
- İsrailin təhlükəsizliyinin ən yüksək səviyyədə təmin edilməsi

Yaxın Şərq dövlətlərinin hər birinin daxilindəki məzhəb və təriqətə görə azlıq təşkil edən qruplar rəsmi Vaşinqtonun müttəfiqi kimi çıxış edə bilərlər. Hər zaman mərkəzi hakimiyyət tərəfindən diskriminasiyaya məruz qalmış azlıqlar bunun intiqamını almaq şansı əldə edəcəklər. Bu da ərəb xalqını parçalayaraq, imperializmə qarşı müqavimət göstərmək əzmini sındıracaqdır.

Beləliklə bu münasibətlər sistemindən də aydın olur ki, region ölkələrində "Ağ ev"in səmimiyyətinə inanan sosial qruplarla yanaşı, ABŞ-ın ümumiyyətlə bu regionda heç bir mənəvi haqqının olmadığını təkidlə vurğulayan radikal, barışmaz İslam düşərgəsi də mövcuddur. İslami radikalizmin ön sıralarında sələfilik, xəvaric və bəzən də vəhhabilik kimi tanınan əqli məntiqi birtərəfli qaydada inkar edən, sərt şəriət qaydaları ilə müsəlman xilafəti qurmaq iddiası olan qruplar dayanır. ABŞ-ın qəti şəkildə mübarizə aparacağı qrupların siyahısında radikal İslamçılar yer alsa da, bəzi maraqlı faktlar paradoksallıq təşkil edir. Yaxın Şərqdə imperializmə ciddi müqavimət göstərən dövlətlərə qarşı məhz radikal İslamçıların döyüşdüyünə xüsusi diqqət yetirmək lazımdır. Yaxın Şərqdə özünü "İslam dövləti" adlandıran radikal birliklərə ABŞ tərəfindən təmin edilən yardımlar yalnız müvəqqəti xarakter daşıyır. ABŞ yalnız öz maraqları çərçivəsində bu və ya digər qruplara dəstək verir. Suriyada 2011-ci ildən başlanmış vətəndaş müharibəsinə digər ərəb dövlətlərinin (Qətər,BƏƏ, S.Ərəbistanı) fəal şəkildə müdaxilə etməsini də məhz "Ağ ev" təşkil etmişdir. Yaxın Şərqdə dövlətlər arasında qarşıdurmanın məzhəb toqquşmalarına gətirib çıxarılması imperializmin mövqelərini gücləndirir. Region xalqlarının isə siyasi monolitliyi

mövcud olmadığı üçün imperializmə qarşı müqavimət göstərmək üçün gücləri də kifayət etmir.

Misir və Səudiyyə Ərəbistanının rəsmi dairələri hələ 90-cı illərin sonlarında ABŞ-ın Yaxın və Orta Şərqdə hər hansı dəyişiklik etmək siyasətinə qarşı olduqlarını bildirmişdilər. ABŞ-la müttəfiqlik əlaqələrinin vacibliyini nəzərə alıb bu proyektdə özlərinin də maraqlarına uyğun dəyişiklik edilməsini diqqətə çatdırırdılar. Misirin o zamankı prezidenti H.Mübarək öz fikrini belə izah etmişdi: "Əgər qapıları açsaq, xaos təhlükəsi daha da böyüyəcəkdir". Bu hadisələrin qızışmasında ABŞ-ın birbaşa rolu olduğu artıq təsdiq olunmuş faktdır. H.Mübarək və Səudiyyə Ərəbistanının kralı da daxil olmaqla, bir çox ərəb şeyxləri rəsmi Vaşinqtonun Yaxın Şərqdə "demokratikləşdirmə" fəaliyyətinə müqavimət göstərən ən önəmli simalar olmuşlar. 2011-ci ilin fevralın 11-də "ərəb baharı" hadisələri nəticəsində H.Mübarək istefaya getməyə məcbur edildi.

## İran: İnqilabın mistikası

İranda baş vermiş İslam İnqilabından sonra İranın siyasi sistemində ən mühüm hadisə teokratik respublikanın yaranması oldu. İnqilabı həyata keçirmiş siyasi qüvvələrin konfessional qanadı təşəbbüskarlığı öz əlində saxladı. İİR-in siyasi sistemi imami (cəfəri) şiələrinin dövlət fəlsəfəsinə söykənir. İran şiələrinin əhəmiyyətli hissəsini cəfəri şiələri təşkil edir. "Əli hökuməti", "Əhli- beyt", "Vilayəti – Fəqih" kimi ibarələrlə zənginləşdirilmiş siyasi fəlsəfə İslam peyğəmbəri və onun yaxın ətrafı haqqında rəvayətlərə söykənir. Mövzunun daha aydın və anlaşıqlı olması üçün "şiə" anlayışının ifadə etdiyi mənanı müxtəlif mənbələrə müraciət edərək, dəqiqləşdirmək vacibdir.

Şiəlik bütün məktəblərdən fərqlənən kəlami (sxolastik) və fəlsəfi – mistik baxışlara malikdir. "Şiə" sözü Y.Zübeydinin (VII əsr ərəb tarixçisi) hazıladığı "Tacül-ərus" lüğətində "müşayiət etmək", "kömək etmək" mənalarını daşıyır. İslamın "Müqəddəs kitabı" – Quranın Səba surəsinin 54-cü ayəsində "şiə" kəlməsi "davamçı" mənasında işlənmişdir. Saffat surəsinin 83-cü ayəsində isə İbrahim (Avraam) özündən əvvəlki Nuhun (Noya) "şiə"si adlandırılmışdır. İslam sxolastiklərindən Şəhristani özünün "Miləl və Nihəl" adlı kitabında yazır: "Şiə sözü yalnız Əliyə tabe olub onun yolunu davam etdirən şəxslərə deyilir. Yəni, onlar əvvəlki üç xəlifəyə tabeçilik və ardıcıllığı qəbul etmirlər. Onlar İslam peyğəmbərinin aşkar və ya gizli buyuruqlarına əsasən, yalnız Əlinin imamət və xilafətini qəbul edirlər. Şiə əqidəsinə görə imamət yalnız onun övladlarınlaməxsusdur. Əgər onlardan qeyrisi bu məqama yiyələnsə, demək bu iş ya zülm, yada təqiyyə vasitəsilə həyata keçmişdir. Bu əqidəyə əsasən, imam ümumi kütləninrəyi əsasında təyin olunmur. Dini əsasların ən ümdə hissəsindən biri olduğu üçün,İslam peyğəmbəri imamət məsələsində səhlənkarlığa yol verməz və onu camaatın öhdəsinə buraxmazdı". "Şəhid Sani" adı ilə məşhur olan Zeynəddin Əli ibni Amili yazır: "Şiə sözü Əlinin davamçılarına deyilir. Digər imamların imaməti iləmüvafiq olmasalar da, özlərini Əlinin davamçıları və onu başqalarından üstün hesab edən şəxslər şiə hesab olunurlar. Bu səbəbdən də İmamiyyə, Carudiyyə, İsmailiyyə, Vaqifiyyə və Fəthiyyə firqələri də bu məktəbin müxtəlif istiqamətləri sayılırlar".

Hakimiyyətin subyekti və reallaşması mexanizminə görə şiəlik ortodoksal (sünnət) İslamdan fərqlənir. Siyasi hakimiyyətə ortodoksal (sünnət) baxış sxolastiklərin (ibn Ədim Hənəfi, Malik Ənəs, İbn Covzi Həmbəli,və s.) əsrlərlə verdiyi izahlara söykənir.

Sünni din xadimləri Quranın ayrı – ayrı ayələrinə özlərinə xas şərhlər verməklə xəlifələrin siyasi hakimiyyətinə bəraət vermək, onların hər cür əməllərinə haqq qazandırmaq istəmişlər. Quranın Nur surəsinin 42-ci ayəsində deyilir: "Göylərin və yerin hökmü Allaha məxsusdur. Axır dönüş də ancaq Allahadır". Beləliklə İslamda siyasi hakimiyyətin mənbəyi bütün monoteist (tövhid) dinlərdə olduğu kimi Allahdır[104]. Lakin bu heç də Allahın birbaşa idarəetmə mexanizminə malik olması demək deyildir. Məhz bu nüans ziddiyyətli fikirlərin toqquşmasını alovlandırmışdır. Hətta nüfuzlu sxolastiklər də bu ziddətlərin qurbanı olmuşlar. Xəlifə Məmunun atası – Harun ər Rəşidə xidmət etmiş İmam Həmbəlin Məmun tərəfindən zindana atılması şəriətin ziddiyyətli xarakterindən qaynaqlanırdı. Ortodoksal müsəlmanlara (əhli — Sünnə) görə xəlifənin legitimliyini yalnız 3 (üç) əsas prinsip müəyyənləşdirir:

1. Ümmətin icması tərəfindən seçilmək.
2. Öncəki xəlifə tərəfindən təyin olunmaq.
3. Üləmalar tərəfindən xəlifəliyə layiq görülmək.

Siyasi hakimiyyətin formalaşmasının üsul və prinsiplərinə görə ən radikal, fərqli baxış şiə təlimlərinə məxsusdur. İslam tarixində "şiə" sözü əsasən möminlərin əmiri (Əmir əl Möminin) adlandırılan Əli ibn Əbu Talibin İslam peyğəmbərindən sonra Əlini xəlifəliyə ən layiqli şəxs hesab edən müsəlmanlara aid edilmişdir. Əksər şiələr belə bir əqidədədirlər ki, İslam peyğəmbəri özündən sonra xilafət və canişinlik məqamının təyin olunmasına İslam dininin ən əhəmiyyətli bir məsələsi kimi yanaşmış, öz həyatında bu işin həllinə xüsusi diqqət yetirmiş, onu müsəlmanların öhdəsinə buraxmamış və hətta bu vəzifəyə kimlərin layiq olduğunu dəfələrlə bəyan etmişdir.

Şiələrə görə Fatimənin (Məhəmmədin qız övladı) övladları xəlifəlik məqamına hamıdan daha çox layiqdirlər. Şiələrin öz siyasi mövqelərini əsaslandırmaq üçün gətirdikləri arqumentlər İslam peyğəmbərinin Əliyə olan münasibəti haqqında

rəvayətlərə söykənir. İbn Əsakir, Cabir ibn Əbdullah Ənsaridən eşitdiyi bir hədisdə deyir: "Peyğəmbərin hüzurunda idik, elə bu vaxt Əli də gəldi. Peyğəmbər onu görcək buyurdu: "And olsun canım əlində olan Allaha! Bu kişi (Əlini işarə edərək) və onun davamçıları qiyamət günü nicat tapacaq şəxslərdir".

İslam sxolastikasının (latınca dilindən tərcümədə "məktəb" deməkdir, fəlsəfədə "İslam sxolastikası" "Kəlam" anlaşı əvəzlənir) nümayəndəsi Məğəzəli öz qeydlərində Ənəs ibn Malikə istinad edərək yazır: "Peyğəmbər buyurur: "Ümmətimdən yetmiş min nəfər sorğu – sualsız cənnətə daxil olacaqlar. Üzünü Əliyə tutub buyurdu: "Onlar sənin şiələrindir və sən də onların imamısan"".

Şiələrin istinad etdiyi ən sevimli mənbə - "Nəhc ül Bəlağə" (şiələrin iddiasına görə Xəlifə Əlinin dilindən yazılmış mətnlər toplusudur) 15-ci xütbədə (mətn) deyilir: "Əli xilafətə çatdığı ilk gündə camaata belə söyləyir: "Agah olun! Peyğəmbəri – Əkrəmin besəti dövründə qarşılaşdığınız çətinliklər bu gün yenidən sizə tərəf qaytarılmış və yaxanızdan tutmuşdur. Hər şey dəyişdirilməlidir; geriyə çəkilmiş fəzilətli səhabələr üzə çıxmalı, nalayiq və yaramaz işlərə adət edənlər geri çəkilməlidir".

Əl Hafiz Əbu Məhəmməd ibn Yəzid ibn Macə əl Qəzvini özünün "Sünəni ibn Macə" adlı kitabında yazır: "Peyğəmbər buyurmuşdur: Allah mənə xəbər vermişdir ki, O, dörd nəfəri sevir, mənə də əmr etmişdir ki, onları sevəm. Onların adını soruşduqda üç dəfə "Əli" – deyə buyurdu və sonra Salman, Əbuzər və Miqdadın (Əlinin xəlifəliyini ilk qəbul edən səhabələr) adlarını çəkdi".

Əbül Həsən Əli ibn Hüseyn əl – Məsudi "Murucuz əz zəhəb" kitabında qeyd edir: "Siffeyn müharibəsindən sonra Nəhrəvan qiyamı baş verdi. Bu hadisələr zamanı aralarında bəzi səhabələr də olan mürtəce bir qrup Müaviyənin təhriki ilə Əliyə qarşı qiyam edib İslam ölkələrində iğtişaş yaradırdılar. Əlinin tərəfdarlarını hər yerdə tapıb öldürür, hətta hamilə qadınların qarnını cıraraq, körpəni çıxarır və başını kəsirdilər".

Əli ədalətinə inam bəsləyən şiələrin gətirdikləri arqumentlər İran mədəniyyətinin, geopolitik özünəməxsusluğunun və düşüncə tərzinin ifadəsi idi. Məhz İran — Sasani sivilizasiyasının ərəb — semit təfəkkürünə qarşı müqavimət reaksiyası, şiə dünya görüşünün yaranmasını şərtləndirirdi. Əlinin simasında

obrazlaşdırılmış İran təəssübkeşliyi ərəb təcavüzünə qarşı müqavimət və özünümüdafiə refleksindən doğmuş baxışlar məcmusu idi. Geopolitik müxtəlifliyin yaratdığı fərqli həyat tərzi konfessional qarşıdurmalarda da öz əksini tapmışdır. Şiəlikdə öz ifadəsini tapan İran müqavimət fəlsəfəsi "Firud – id – din" və "Üsul id din" sahəsində də özünü biruzə verir. Müsəlmanları fərqləndirən əməli xüsusiyyətlər "Firud – id – din" adlanır:

— Şəhadət – Bir Allahın mövcudluğuna və Məhəmmədin Allahın elçisi olduğuna şahidlik etmək. Şiələrdə isə həm də Əlinin Allaha dost (Vəliyullah) olduğunu qeyd etmək vacibdir.

— Gündə beş (5) dəfə namaz qılmaq ("Nisa" surəsi, 4/103; "Hud" surəsi, 11/114; "İsra" surəsi, 17/78; "Rum" surəsi, 30/17-18; "Nur" surəsi, 24/36; "Qaf" surəsi, 50/39-40; "Dəhr" (İnsan) surəsi, 76/25-26-cı ayələrində də beş namaza işarələr mövcuddur). Şiələr 5 namazı 3 dəfə qılmağı təklif edirlər.

— Ramazan ayında oruc tutmaq

— Zəkat vermək

— Məkkəni və Kəbəni ən azı bircə dəfə ziyarət etmək

İslam dinini doqmalaşdıran (ehkam) prinsiplər "Üsul id din" aldandırılır. Şiələr bu prinsiplərə "İmamət" prinsipini də əlavə etmişdir.

1. Tövhid – tək Allaha inanmaq. "Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur." (Məhəmməd surəsi, 19-cu ayə)

2. İlahi ədalət — Allah ədalətli və rəhmdildir. (Tövbə surəsi istisna olmaqla bütün surələr "rəhman və rəhim olan Allahın adı ilə..." başlayır)

3. Nübuvvət (ərəbcə "nəbi" sözündən olub, "elçi" deməkdir) – Məhəmmədin və ondan əvvəlki peyğəmbərlərin peyğəmbərliyini qəbul etmək.

4. İmamət — Peyğəmbərin vəfatından sonra onun işini davam etdirmək, şəriətin tələblərinə müvafiq şəkildə cəmiyyətə rəhbərlik etmək.

5. Məad (ərəbcə "son" deməkdir) – ölülərin diriləcəyinə, qiyamət gününə inam. "Məgər insan elə güman edir ki, onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Biz onun barmaqlarını da düzəltməyə qadirik" (əl-Qiyamə surəsi, 3-cü ayə).

Yuxarıda qeyd edildiyi kimi şiəliyin prinsipial problemi məhz imamət

problemidir. İslam dinində geniş istifadə olunan “imam” sözü ərəbcə “əmmə” sözündən olub, “irəlidə durmaq, başçılıq etmək” deməkdir. Sufilər bəzən bu kəlməni “pir”, “mürşid”, “şeyx” kimi də işlədirdilər. İslamda işlənən “imam” sözü 3 məna kəsb edir:

1. İmam – müsəlman icmasının və müsəlman dövlətinin ali hakimiyyət başçısına deyilirdi (sünnilik).

2. Şiələr üçün imamlıq Əlinin nəslindən olan adamların alın yazısı hesab olunur ki, bu da Əlinin və İslam peyğəmbərinin qızı Fatimədən olanların adlarını bildirmək üçün işlədilən anlayışdır.

3. İmam sözü məsciddə ibadət edənlərin qarşısında duran və onlara rəhbərlik edənlərə deyilir.

Sünnilik bütün müsəlmanların imamı kimi xəlifəni hesab edir. Şiələrin təlimində isə Əlinin nəslindən olan on iki imam qüsursuzdur. Onların hər biri möcüzə göstərmişdir. Onların hər biri ölərkən öz xələfi olan imamı təyin etmişdir ki, bu ardıcıllıq da Həsən (imami şiələrin 11-ci imamı nəzərdə tutulur) ibn Əli əl-Əsgəriyədək davam etmişdir. O da imamlığı öz oğluna verərkən demişdir: “O, Mehdidir və sahib əz – zamandır”. Həsənin bu oğlu 869-cu ildə Samarrada doğulmuşdur. Rəvayətə görə o bir mağarada qeybə çəkilmişdir.

Şiələrin iddiasına görə Məhəmməd 632-ci ildə sonuncu həcc ziyarəti zamanı Qədir Xum ərazisində istirahət edən kütlənin qarşısında Əli haqqında bunları söyləmişdir: “Harun Musa üçün nədirsə, Əli də mənim üçün elədir. Ey Allah! Ona yar olana sən də yar ol, düşmən olana düşmən ol, ona kömək olana sən də kömək ol, onu xəcil edəni sən də xəcil et”.

İmami (cəfəri) şiələr Əli ibn Əbu Talibin nəslindən 12 imam olduğuna inanan (onların başqa bir adı “İsna Əşərə” yəni “on iki”) mötədil şiələrdir. İran İslam Respublikasının siyasi sistemi məhz imami (cəfəri) şiələrin siyasi təlimlərinə əsaslanır.

İmamilər tərəfindən qəbul edilmiş 12 məsum (Qərbi Avropada “innocent”) imam aşağıdakılardır: Əbülhəsən Əli Əbu ibn Talib. Əl-Mürtəza, Əbu Mühəmməd əl-Həsən bin Əli əl-Müstəba, Əbu Əbdullah əl-Hüseyn bin Əli əş-Şəhid, Əbu

Mühəmməd Əli bin əl-Hüseyn Zeynalabdin əs-Səccad, Əbu cəfər Məhəmməd bin Əli əl-Bağır, Əbu Əbdullah Cəfər bin Məhəmməd əs-Sadiq, Əbu İbrahim Musa bin Cəfər əl-Kazım, Əbuhəsən Əli bin Musa ər-Riza, Əbu Cəfər Məhəmməd bin Əli ət-Təqi, Əbulhəsən Əli bin Məhəmməd ən-Naği əl-Hadi, Əbu Məhəmməd əl-Həsən bin Əli əl-Əskəri əz-Zəki, Məhəmməd bin əl-Həsən əl-Hüccə əl-Qaim əl-Müntəzər əl-Məhdi (Allahın insanlara dəlil — sübütu, Allahın hökmlərini icra edən, gözlənilən, qeybə çəkilmiş xilaskardır. İmami şiələr onun zühur edəcəyini, yer üzündə ilahi ədaləti bərqərar edəcəyini gözləyirlər).

Şiələrin nəzərincə hakim Allah tərəfindən təyin olunmalıdır. Allah peyğəmbərdən sonra hakimiyyətə 12 məsumu təyin etmiş və peyğəmbər tərəfindən icmaya tanıtdırmışdır. Şiələr bu baxışlarını bir rəvayətlə əsaslandırırlar. Bir gün peyğəmbərin yanına gəlib, ondan soruşurlar: “Ey Peyğəmbər, Allaha və Onun Peyğəmbərinə itaət edilməsi ilə bağlı göstərişi anladım. Bəs öz aranızdan olan əmr sahibləri kimdir?” Peyğəmbər buyurur: “Ulil-əmr” dedikdə mənim 12 canişinim nəzərdə tutulur. Onların birincisi Əlidir. Sonra İslam peyğəmbəri qalan 11 imamın adını bir-bir dilə gətirir”.

Şiə baxışlarına görə bu 12 imamı peyğəmbər deyil, Allah özü hakimiyyətə təyin etmişdir. Peyğəmbərin hakimiyyətə seçilməsində icmanın heç bir rolu olmadığı kimi, imamların da təyinatında icmanın heç bir rolu yoxdur. Peyğəmbərə Allah tərəfindən iki vəzifə tapşırılmışdı:

1. peyğəmbərlik
2. hakimlik

Hətta icma Məhəmmədin peyğəmbərliyini və hakimiyyətini qəbul etməsəydi də, bu haqlar ondan alınmırdı. Allahın hökmü ləğv edilə bilməzdi. İmamların hakimiyyətini də qanuni edən Allahın təyinatıdır. İcma onların hakimiyyətini qəbul etməsə də hakimiyyət haqqı onlarındır. Onların yaşadığı dövrdə başqasının hakimiyyətə gəlməsi qeyri-qanunidir.Şiələrə görə İslam peyğəmbəri dünyasını dəyişdikdən sonrakı 25 ildə başqalarının (Xəlifələr: Əbu Bəkr, Ömər ibn Xəttab, Osman ibn Əffan nəzərdə tutulur) hakimiyyəti qanuni olmamışdır. Həmin dövrdə hakimiyyət haqqı Əliyə məxsus idi.

İmami şiələrə görə sonuncu – 12-ci imam Mehdinin dördüncü naibi Əli ibn Məhəmməd Səmurinin vəfatından sonra "qeybəti – kübra" dövrü başlandı. Bu qeyb dövrü İmamın zühuruna qədər davam edəcək və hələ də davam edir. İmam Zaman Ağanın (şiələr onu belə adlandırır) artıq bu dövrdə xüsusi naibi yoxdur və müsəlmanların bütün işləri "Vilayəti – Fəqih" adlandırılan cami – üş – şərait (bütün şərtlərə malik olan) müctəhidlərə tapşırılmışdır. Bu dövrdə bütün növ ictimai, siyasi, mədəni problemlər, yalnız Vilayəti – Fəqihin rəhbərliyi ilə öz həllini tapır. IX — X əsrlərdə yaşamış təfsirçi, mütəfəkkir Əhməd İshaq ibn Yaqub özünün "Tarixi – Yaqubi" əsərində qeyd edirdi ki: "Dövrün imamı, həzrət Mehdinin birinci naibi Osman ibn Səiddən xahiş etdim ki, mənim məktubumu o həzrətə çatdırsın. Məktubda o həzrətdən Qeybəti — kübra dövründə kimə müraciət etməyimizi soruşmuşdum. İmam Zaman öz xətti ilə sualımın cavabında belə yazmışdı: "Baş verən bütün hadisələrdə bizim hədislərimizi rəvayət edənlərə müraciət edin. Çünki onlar mənim sizə olan höccətim, mən isə Tanrının onlara olan höccətiyəm".

Sonuncu imam qeybə çəkilərkən onun naibləri imam ilə insanlar arasında rabitəçi rolunda çıxış etməli idilər. Sonuncu naibin ölümündən sonra Sahib əz – Zamanın zühuruna (peyda) qədər müsəlmanlar müctəhidlərin, yəni Vilayəti – Fəqihlərin göstərişlərinə tabe olmalıdırlar. Fəqih imamın bəyan etdiyi ümumi prinsiplər əsasında təyin olunur. Şiə təlimlərinə əsasən Fəqihin qanuniliyi Allah tərəfindəndir və bu baxımdan icmanın heç bir haqqı yoxdur. Bu fəlsəfə şiələrin (cəfəri) öz hakimiyyətlərinə ilahi əsaslar gətirməsinə səbəb olmuş və 1979-cu il İran İslam İnqilabı zamanı şiə din xadimlərinin siyasi hakimiyyətə layiq olduqlarını fanatik dərəcədə iddia etmələrinə gətirib çıxarmışdır. Ayətullahlar öz siyasi baxışlarını konstitusiyada da göstərərək, Vilayəti – Fəqih anlayışını rəsmiləşdirdilər.

İranda 1978 – 1979-cu illər hadisələri zamanı kütlənin dini həssaslığını qabardaraq insanları yönləndirə bilmiş Ayətullah Musəvi Ruhulla Xomeyninin ətrafında birləşmiş şiə ruhanilər hakimiyyəti ələ keçirdilər. Şaha yaxın dairələr ya ölkədən qaçır, ya da amansız təqiblərə məruz qalırdılar. İnqilabın hərəkətverici gücünü təşkil etmiş neft sənayesinin fəhlələri hələ də Tudənin ("Hizbe – Tudeyi İran", yaxud "İran Xalq Partiyası") nəzarətində idi.

İran İslam İnqilabının baş tutmasına hələ bir həftə qalmış, 1979-cu il 5 fevralda Xomeyni artıq müvəqqəti inqilabi hökümətin başına Mehdi Bazarqanı təyin etmişdi. M.Bazarqan həm burjua ziyalılarının, həm solçuarın, həm də klerikal qüvvələrin nümayəndələrindən ibarət hökümət qurdu.

Xomeyni digər inqilabi qüvvələrin gücündən istifadə etməklə hələ də hakimiyyətdə olan şah rejimini devirmək məqsədi güdürdü. Artıq 1979-cu il 12 fevralda bütün ölkədə inqilabçıların qələbəsindən sonra Xomeyni artıq burjua ziyalılarından və sollardan uzaqlaşmağa başladı. Martın 30 – 31-də keçirilmiş referendumdan sonra aprelin 1-i bütün ölkə ərazisində İran İslam Respublikası elan edildi.

M.Bazargan liberal islahatlarla əhalidə demokratik əhvali — ruhiyyənin güclənməsinə çalışırdı. Xomeyni liberal islahatlardan narahat olsa da açıq etirazını bildirmirdi. 1979-cu ilin noyabrın 4-də birbaşa Xomeyniyə tabe olan "İmam xəttinin davamçıları" adlı gənclər qrupu ABŞ-ın İrandakı səfirliyinə basqın etmiş, bütün diplomatları girov götürmüşdü. Bu addım ABŞ-ın əks reaksiyasından bəhrələnərək antiamerikan ab – havanın möhkəmləndirilməsinə, dini əhvalın qaldırılmasına, burjua ziyalılarının mövqeyini sarsıtmağa hesablanmışdı. 1961-cildə qəbul edilmiş "Diplomatik əlaqələr haqqında Vyana Konvensiyası" şiə din xadimləri üçün heç bir əhəmiyyət kəsb etmirdi. Ali dini Rəhbər hadisələrdən xəbərsiz olduğunu desə də, tələbələri dəstəklədiyini bildirdi.

Bu hadisə 6 noyabrda M.Bazarqanın istehfa verməsinə səbəb oldu. Hökümət böhranına baxmayaraq, Xomeyni konstitusiya hazırlamağa girişmişdi. 1979-cu il 1 – 2 dekabrda referenduma çıxarılmış konstitusiya layihəsində yer alan "Vilayəti - Fəqih" prinsipiçoxsaylı müzakirələrə səbəb olsa da Xomeyninin istədiyi şəkildə qəbul edildi. Ölkədə davam edən ağır sosial – iqtisadi vəziyyət 1980-ci ildə prezident seçkilərində özünü biruzə verdi. İlk prezident solların da (Tudə) arzu etdiyi şəxs – Əbülhəsən Bənisədr seçilmişdi.

Xomeyninin dəstəklədiyi namizəd – Həsən Həbibi yalnız 500 min səs toplaya bilmişdi. Rəsmi rəqəmlərə görə (1980-ci il 28 yanvar) 14 milyon seçicinin 10 milyonu Bənisədrə səs vermişdi[61.səh.86]. Xomeyni Bənisədrin prezidentliyini

təsdiq edəndən sonra parlamentə, yəni İslam Şurası Məclisinə (Meclise – Şuraye – İslam) seçkilər keçirildi. Kürdüstan və Bəlucistan bölgələrində separatçı qüvvələrin fəallaşması bu bölgələrdə seçkilərin 28 maya qədər gecikdirilməsinə səbəb oldu.

Ruhanilər solları SSRİ-yə casusluqda ittiham edir, orduda şah rejimindən qalan generalların güllələnməsini tələb edirdilər. Tudə isə demokratik reformların dərinləşdirilməsini, qadın və fəhlə hüquqlarının qorunmasında ciddi islahatların aparılmasını tələb edir, eyni zamanda şah diktaturasının teokratik diktatura ilə əvəzlənməsinin də əleyhinə çıxırdılar. Tudənin əsas aparıcı elektoral bazası, İsfahan və Tehran fəhlələrinin Həmkarlar İttifaqları, Körfəz sahili ərazilərdə neft sahəsində çalışan tətilçi muzdurlar idi. Klerikal qüvvələrin mərkəzi isə şiə mollaların demək olar ki, “qiblə”si halına gəlmiş Qum şəhəri, Şəriət – Mədarinin başçılığı ilə Cənubi Azərbaycanın dindar əraziləri (başda Təbriz olmaqla), bəxtiyari və mərkəzi Xuzistan şiələri idi.

Ciddi nəzarət altında keçirilmiş parlament seçkilərində dindarlar qələbə qazandılar. Baş nazir Məhəmməd Əli Rəcai və Ayətullah Behiştinin başçılığı ilə dindarlar həm Tudənin, həm də liberalların üzərinə hücuma keçdilər.

İranda inqilabi proseslərin getdiyi bir vaxtda hakimiyyəti ələ keçirmiş Səddam Hüseyn bir il sonra İrana qarşı ərazi iddiaları ilə çıxış etdi. Sentyabrın 20-də İraq silahlı birləşmələri İrana hücum etdi. İran ordusu ilə “İslam İnqilab Keşikçiləri Korpusu” arasında ziddiyyətlər dərinləşdi. İraq silahlı qüvvələrinin irəliləməsi və müdafiənin düzgün təşkil edilməməsi həm cəbhədə, həm də mərkəzi hakimiyyət orqanlarında vəziyyəti mürəkkəbləşdirdi. Ruhanilər yaranmış ağır vəziyyətdən solçuların təqib edilməsi üçün bəhanə kimi istifadə etdilər. Ayətullah Behişti (Ali Məhkəmənin sədri), M.Ə.Rəcayi (baş nazir) və Parlament sədri Ə.H.Rəfsəncaniyə bağlı teokratlar Bənisədri (İran İslam Respublikasının ilk prezidenti) hərbi məğlubiyyətlərdə günahlandıraraq, bu barədə geniş məzmunlu iş – material hazırlayıb, Xomeyniyə təqdim etdilər[61.səh.94]. İlk öncə razılıq verməyən Xomeyni ölkədəki solların mövqeyinin güclənməsindən ehtiyatlanaraq, 1981-ci il iyunun 10-da Bənisədri istehfaya göndərir.

Bundan dərhal sonra Tudəçilərin fiziki məhvi başlandı. Özünü inqilabın daha imtiyazlı təbəqələri sayan mollalar şahın bütün digər əleyhdarlarını da hakimiyyətdən kənarlaşdıraraq, amansız şəkildə təqib etməyə başladılar. Siyasi hakimiyyət tamamiylə konfessional qüvvələrin əlinə keçdi. 1981-ci il 28 iyulda M.Ə.Rəcayi prezident seçilir. Baş nazir isə Hüccətülislam Bahonar təyin edilir. Həmin gün Behişti sui – qəsd nəticəsində həlak oldu. Avqustun 30-da Təhlükəsizlik Şurasının iclası zamanı törədilən terror aktı nəticəsində isə Rəcayi və Bahonar da öldürüldü. Artıq həm dini, həm də dünyəvi hakimiyyəti əlinə almaqda çətinlik çəkməyən Xomeyni bütün ölkə ərazisində müxaliflərə qarşı "təmizləmə" əməliyyatına başladı.

Bu sui – qəsdlərdə adı hallanan "Xalqın Mücahidləri" (Mocahedane – Xəlq) Təşkilatının 30 min üzvü edam edildi. 1980-ci ildən cəmiyyətin bütün sahələrində "mədəni inqilab" başladı. "Mədəni İnqilab" Xomeyni ölənə qədər davam etmişdir. "Mədəni inqilab" özündə şiə propoqandasını, dini təhsilin və ibadətin genişləndirilməsini özündə ehtiva edirdi. Kürdüstanda, Türkmən obalarında, Bəlucistanda və Azərbaycanın bir neçə yaşayış məskənlərində separatçı qüvvələrlə "İslam İnqilabı Keşikçiləri Korpusu" (Sepahiye – Pazdarane – Enqelabe – İslam) arasında silahlı toqquşmalar 80-ci illərin sonlarına qədər davam etmişdir. Nəhayət bu regionlarda da mərkəzi hökümət öz suverenliyini bərqərar etdi.

Xomeyninin tələbələrindən olan Hüccətülislam Seyid Əli Xameneyi 1981-ci ilin sentyabrında prezident seçilir. Baş nazir isə Ə.H.Rəfsəncani təyin olunur. Mir Hüseyn Musəvi isə parlamentə sədr seçilir. Beləliklə bütün hakimiyyəti öz adamları arasında bölüşdürən Xomeyni İranda klerikal – konfessional rejim yarada bildi. İran ordusunun İslam İnqilabı Keşikçiləri Korpusu ilə olan ədavəti aradan qaldırıldı. Çünki artıq ordunun dünyəvi üst qurumu məhv edilmişdi. Bu hadisə bir qədər sonra cəbhəyə də təsir etdi. Hərbi uğurlar bir – birini əvəzləməyə başladı.

Bununla belə hakim partiya daxilində çatlar əmələ gəlirdi. "İmam xətti" və "Hüccətiyyə" qrupları arasındakı mübarizənin əsas səbəbi əhalinin sosial vəziyyətinin pisləşməsi, başqa cür düşünənlərə qarşı amansız divan tutulması idi. 1983-cü ildən Məclisi – Xubreganda Ayətullah Golpayegani İranın siyasi sistemini (Vilayəti – Fəqih idarə sistemi) müzakirəyə çıxararaq, ölkədə yeni çaxnaşmaya səbəb oldu..

1987-ci ildə İslam Respublikası Partiyası buraxıldı. 1984-cü ildə parlament seçkiləri, 1985-ci ildə prezident seçkiləri ruhanilərin qələbəsiylə nəticələndi. Xameneyi 2-ci dəfə prezident seçildi. Eyniylə Musəvi də 2-ci dəfə baş nazir oldu.

1988-ci ildə İran İslam Respublikasının siyasi sistemində yeni bir qurum – Məcmeyi Təşxise Məsləhəte Nizam yaradıldı. Bu qurum Parlament ilə Konstitusiya Müdafiə Şurası arasındakı mübahisəli məsələləri həll etməli idi. Reallıqda heç bir qanun A.R.M.Xomeyninin arzu etmədiyi şəkildə qəbul oluna bilməzdi. Bununla da İran İslam Respublikası siyasi sistemi tam qurulmuş oldu. Formalaşmasında Xomeyninin göstərdiyi 8 illik inadkarlıq nəticəsində 5 min siyasi məhbusun edamı reallaşdırıldı.

Daxili siyasətin normaları din xadimlərinin xeyrinə leqallaşdırıldıqdan sonra, xarici siyasətin də mahiyyətinin şəriət qaydalarına uyğunlaşdırılmasına diqqət ayrıldı. Beləliklə İran İslam Respublikasının Konstitusiyasında xarici siyasətin əsas istiqamətləri kimi:

— hər növ istismarın və işğalçılığın əleyhinə olması

— ölkənin müstəqilliyinin hər cür hücumdan qorunması, ərazi bütövlüyünün mühafizəsi

— beynəlxalq aləmdə İslam ölkələrinin hüquqlarını müdafiə etmək

— İmperialist dövlətlərlə heç bir öhdəçilik müqaviləsinə qoşulmamaq göstərilmişdi.

Cəfəri dünyagörüşündən bəhrələnmiş konstitusiya ABŞ-la hər cür əlaqələri istisna edir. “Böyük Şeytan” – ABŞ-a və onun “əlaltısı” – İsrailə qarşı geniş miqyasda mübarizə aparmaq, Yer üzünə şiə ədalətini yaymaq bu dövlətin əsas İranın xarici siyasət strategiyasını müəyyənləşdirir. Ayətullah Əli Xamneyi İsraili nəzərdə tutaraq 2013-cü ilin noyabrında belə demişdir: “Biz ilk gün də dedik, indi də deyirik və gələcəkdə də deyəcəyik ki, biz sionist rejimi qeyri-qanuni və haramzadə bir rejim bilirik”.

Bu eyni zamanda həm də daxili auditoriyaya yönəlmiş ritorikadır. Xarici təzyiqlər molla rejiminə daxildə güclü hakimiyyət qurmağa əlverişli şərait yaradır. Daxildəki problemləri xarici təzyiqlərlə əlaqələndirən İran hakimiyyəti xalqın üzərinə

daha ağır məhdudiyyətlər qoyur. Belə vəziyyət İran daxilindəki geniş kütlələrə "güclü xarici siyasət" görüntüsü yaratmaq məqsədi daşıyır.

İslam İnqilabının siyasi fəlsəfəsi inqilabı ixrac etmək, onu ətraf ölkələrə yaymaq, permanent hala gətirməyi nəzərdə tuturdu. İİR rəsmiləri tez-tez öz hakimiyyətləri haqqında "Allahdan olan bu hakimiyyət" kimi ifadələrlə öz geosiyasi iddialarına dini çalar verərək haqq qazandırırlar.

İran hökuməti cəfəri şiələrinin sonuncu imamı Sahib - əz – zaman – İmam Mehdi adı ilə məşhur olan ononim kulta inamı təlqin və təşviq edən rəsmi Tehran qonşu dövlətlərin ərazilərinə də qeyri – rəsmi, hətta yüsək çinli məmurların dilindən iddialar edərək, həmsərhəd dövlətləri özündən narazı salır. Bu inanclara görə, Axirət (xristian ədəbiyyatlarında "apokalisis" və yaxud "armagedon" kimi adlanır) zamanı yuxarıda qeyd edilən ezoterik varlıq yer üzündə zühur – reankarnasiya edəcək və ədalətli cəmiyyət quracaqdır. İİR Konstitusiyasının preambulasında (Müqəddimə) İslam hökuməti anlayışının mahiyyəti və bu hökumətin "Allahın dəstəklədiyi hökumət" olduğu açıq şəkildə qeyd edilmişdir: "İslama görə hökumət, sinfi mövqedən, fərdi və ya dəstə hökmranlığının tələbatından irəli gələn bir obyekt deyildir, əksinə hökumət, eyni düşüncə və dinə sahib olan, özünü təşkilatlandıra bilən millətin siyasi ideallarının gerçəkləşməsidir ki, öz əqidə və düşüncə təkamülü prosesində son hədəfə - Allaha doğru öz yolunu seçir".

İran İslam Respublikasının siyasi sitemi. 1979-cu ildə qəbul edilmiş konstitusiyaya görə İran teokratik, unitar, İslam Republikasıdır. İslam Şurası Məclisi (Məclise – Şuraye – İslami) – ümumxalq seçkiləri ilə dörd (4) il müddətinə seçilir. Millət vəkiliyinə namizədliyini vərmək istəyən hər bir şəxs yalnız Kostitusiya Müdafiə Şurası tərəfindən müsbət rəy aldıqdan sonra təbliğat – təşviqat işinə başlamaq hüququna malikdir. İslam Şurası Məclisi 290 deputatdan ibarətdir və hər on ildən bir 20 nəfərə qədər deputat sayı artırıla bilər. Məclis seçkilərində partiya sistemi yoxdur. İran məclisinin millət vəkilləri fərdi şəkildə və kiçik bölgələrdə mojaritar qaydada seçilirlər. İran İslam Respublikasının Konstitusiyasına görə İslam Şurası Məclisinin (İİR parlamenti) səlahiyyətlərinə aşağıdakılar daxildir:

— Rəsmi məzhəbin (cəfəri şiəliyi) və İİR Konstitusiyasının prinsiplərinə

uyğun qanunlar vermək;

— Nazirlər kabinetini təsdiq etmək və ya ona etimadsızlıq göstərmək;

— İran hökümətiylə xarici ölkələr arasında imzalanmış müxtəlif məzmunlu müqavilələri təsdiq və ya rədd etmək;

— Nazirlər Kabinetinə (bütün hökümət kabineti nəzərdə tutulur), prezidentə və ayrı - ayrı nazirlərə qarşı sorğu keçirilməsini tələb etmək;

— Prezidentin istehfası tələbi ilə Ali Dini Rəhbərə rəsmi müraciət etmək;

— Dövlətin Xarici bazarlardamaliyyə əməliyyatlarına razılığını bildirmək və ya valyutanın ölkə ərazisindən çıxmasına icazə verməmək;

— Ölkədə bütün sahələr və istiqamətlər üzrə yoxlamalar aparmaq;

İslam Şurası Məclisi Qanunverici səlahiyyətə sahib olsa da, bu qanunlar yalnız Konstitusiyanı Müdafiə Şurasının (Şuraye – Negahban) təsdiqindən sonra qüvvəyə minə bilər. Şuraye – Negahban 12 nəfər üzvdən təşkil olunur. Bunlardan 6 nəfər fəqih Ali Dini Rəhbər tərəfindən təyin edilir. Digər 6 nəfər hüquqşünas isə İslam Şurası Məclisində səs vermə ilə seçilir. Şuraye – Negahbanın üzvlərinin səlahiyyət müddəti 6 ildir. Lakin hər 3 ildən bir həm fəqihlərin, həm də hüquqşünasların yarısı dəyişdirilir. İİR Konstitusiyasına görə Şuraye – Negahbanın aşağıdakı səlahiyyətləri var:

— İslam Şurası Məclisinin qəbul etdiyi qanunların İslam dininə, rəsmi məzhəbə və Konstitusiya prinsiplərinə uyğunluğuna nəzarət etmək;

— İslam Şurası Məclisinin qəbul etdiyi bütün növ qanunları təsdiq etmək və ya yenidən baxılması üçün parlamentə geri qaytarmaq;

— Parlamentə seçilmək istəyən şəxslərin namizədliklərini təsdiq və ya rədd etmək;

— İslam Şurası Məclisinin iclaslarında iştirak edə bilmək;

— Həm Məclise – Xubregan, həm Meclise – Şuraye – İslam, həm də İranın Prezident seçkilərinə və ümumxalq referendumlarına tam nəzarət etmək.

İİR siyasi sistemində bütün növ hakimiyyət qollarının çıxış nöqtəsini siyasi sistemin mərkəzində duran Ali Dini Rəhbər – “Vilayəte – Fəqih” təşkil edir. Xalqın seçə biləcəyi iki qurum çox ciddi məhdudiyyətlərlə xalqa təqdim edilir. Bunlardan ən

başlıcası yalnız yüksək rütbəli dindarların seçilə bildiyi – Məclisi Xubregandır ki, (Yaxşılar və ya daha yaxşı bilənlər Məclisi) bu da dini lideri seçir, parlamentə seçiləcək namizədləri şəriət senzurasından keçirir, prezidentin namizədliyini qəbul və ya rədd edir.

Məclise – Xubregan Ali dini Rəhbəri seçir və vəzifəsindən kənarlaşdıra bilir. O həm də Ali dini Rəhbərə qanuni vəzifələri mövzusunda məsləhətçilik etməklə məsuldur. Bu Məclis ildə bir dəfə toplanır. Ümumi səsvermə ilə seçilən 86 ali rütbəli dindar mollalar 8 illiyə seçilir. Məclise – Xubregan Prezident və parlament seçkilərində olduğu kimi Konstitusiya Qoruyucuları Şurasnın (Şuraye – Negahban) üzvlüyünə namizədlərin şəriət qaydalarına uyğun senzuradan keçirilməsini təşkil edir.

Vilayəti – Fəqih – Rəhbər ölkədə ən ali vəzifəli şəxsdir. 1979-cu il inqilabından sonra yeni yaradılmış teokratik quruluş özü – özlüyündə Ali Dini Rəhbər İnstitutunu labüd etmişdir. Rəhbərin konstitusiya ilə müəyyən edilən vəzifələri:

1. Ali Məhkəmənin, Dövlət Radio və Televiziyasının, Təhlükəsizlik Şurasının ümumi rəyasət heyətini və 12 üzvlü Konstitusiyanı Müdafiə Şurasının 6 üzvünü təyin edir,
2. Məcmeyi – Təşhise – Məsləhəte – Nizam ilə məsləhətləşərək, dövlətin ümumi strategiyasınımüəyyənləşdirir,
3. Bu siyasətin həyata keçirilməsinə nəzarət edir,
4. Ümumxalq referandumlarına qərar verir,
5. Silahlı qüvvələrin Ali Baş Komandanıdır,
6. Müharibə, sülh, səfərbərlik və hərbi vəziyyət elan edir,
7. Məcmeyi – Təşhise – Məsləhəte – Nizamın üzvlərini, Konstitusiya Müdafiə Şurasının (Şuraye - Negahban) ruhani (fəqihlər) üzvlərini, Baş qərargah rəisini, Ordu (Arteş) Komandanını və Sipahiye – Pazdarane – Engelabe – İslamın Komandirini, Quru, Dəniz, Hava qüvvələri komandanlarını təyin və ya da vəzifədən azad edir,
8. Qanunvericilik, məhkəmə, icra hakimiyyətləri arasındakı problemləri həll edir, uzlaşmanı təmin edir,

9. Dini rejimlə əlaqədar anlaşılmazlıqları, Məcmeye – Təşhise – Məsləhəte – Nizam ilə müzakirə edərək həll edir,

10. Prezident seçkisini təsdiqləyir,

11. Prezidenti vəzifədən azad edir,

12. Əff elan edir.

Bundan başqa İran ictimai həyatında mühüm rol oynayan bir sıra təşkilat və qurumlar var ki, onlar da bu və ya digər formada Ali Dini Rəhbərə bağlıdırlar. Bu təşkilatlar "Müstəzaflar və Gazilər Fondu", "On beş Xordad Fondu", "İslam İnqilabı Şəhidləri Fondu", "İslam İnqilabı Məskun Fondu", "Mədəni İnqilab Ali Şurası", "İslam təbliğı təşkilatı" olmaqla ölkə təsərrüfatının, sosial – mədəni həyatının ayrı – ayrı istiqamətləri üzrə fəaliyyət göstərirlər.

Məcməye – Təşhise – Məsləhəte – Nizam Konstitusiyanı Müdafiə Şurası ilə İslam Şurası Məclisi (parlament) arasındakı anlaşılmazlıqları həll etmək vəzifəsi daşıyır. Vəzifəsi siyasi təşkilatlar arasındakı problemləri aradan qaldıraraq uzlaşma və əlaqələndirməni təmin etməkdir. Məcməye – Təşhise – Məsləhəte – Nizam bütün dövlət orqanlarına nəzarət etmək səlahiyyətinə malikdir. Yalnız Ali dini Rəhbər qarşısında hesabat verməyə bocludur. Məcməye – Təşhise – Məsləhəte – Nizamın üzvləri Ali dini Rəhbər tərəfindən təyin edilir. Üzvlərinin sayı vaxtaşırı dəyişir.

Prezident – Konstitusiyaya görə Rəhbərdən sonra ikinci ali vəzifəli şəxsdir. İİR-in prezidenti dörd (4) il müddətinə ümumi səsvermə yolu ilə və yalnız 2 dəfə seçilə bilər. İran prezidenti rəhbərlik strukturlarının işindən məsuldur. Bununla belə Prezident Daxili İşlər Naziri və Müdafiə Nazirini təyin edə bilməz. Bundan başqa Daxili İşlər və Müdafiə Nazirlərinin Ali Dini Rəhbər tərəfindən təyin edilməsindən sonra İslam Şurası Məclisi hökümət kabinetinə etimad göstərə bilər. Prezidentin iyirmi iki nəfərlik hökümət kabinetini formalaşdırmaq üçün İslam Şurası Məclisinin təsdiqinə və Ali dini Rəhbərin rəyinə ehtiyacı vardır. Birbaşa prezidentə bağlı olan dövlət qurumları aşağıdakılardır:

- Prezident təsisatı,
- Dövlət planlaşdırma təşkilatı,
- Ölkə inzibati və məşğulluq işləri təşkilatı,

- Ətraf mühitin qoruması təşkilatı,
- İdman birliyi,
- Atom enerjisi təşkilatı,
- Milli kitabxana

İİR-in Silahlı qüvvələri isə 3 ayrı hissədən ibarətdir:

1. Ən böyük və strateji çəkiyə malik – İran ordusu (Arteş) əsasən 450.000 canlı qüvvəyə malik piyada hissələrindən ibarətdir. Arsenalında yüngül atıcı silahlardan tutmuş, ən müasir qanadlı və balistik raketlər vardır.
2. İran Polisi
3. İnqilabı Mühafizə Keşikçiləri Korpusu ("Sepahe – Pazdarane – Engelabe –İslam", Azərbaycanda "Sepah" adı ilə məşhurdur) – İran İslam Respublikasının ideoloji əsaslarını qoruyur və ciddi intizama malik qatı dindar, fanat qurumdur. Birbaşa Ali dini Rəhbərə tabedir.

İİR-in Məhkəmə hakimiyyəti – Ali Dini Rəhbər Ali Məhkəmə sədrini və Baş Prokuroru təyin edir. Mülki və cinayət məsələləri ilə məşğul olan məhkəmələrdən başqa dövlət təhlükəsizliyi məsələlərinə baxan "inqilab məhkəmələri" də vardır. İnqilab məhkəmələrinin qərarları qətidir və appelyasiya vermək mümkün deyildir. Xüsusi Din Adamlarını mühakimə edən məhkəmə din adamları tərəfindən törədildiyi iddia edilən cinayətlərə və dinlə əlaqədar mövzulara baxır. Məhkəmə hakimiyyəti İİR ərazisində qanunçuluğu qorumaq məqsədiylə aşağıdakıları həyata keçirir:

— Hüquq pozuntlarına və cinayətkarlığa qarşı mübarizə;
— Müxtəlif sahələr üzrə hüquq pozuntuları və cinayətlərə dair şikayətlərə baxmaq
— Pozulmuş hüquqların bərpası və təmini;
— Qanunların icrasına nəzarət;
— İslam qanunlarına uyğun cəza mexanizmlərinin icra edilməsi;
— Cinayətkarların təqibi və axtarışı.

Ali Milli Təhlükəsizlik Şurasının (Şuraye Aliye Emniyete Milli) quruluş məqsədi İslam İnqilabını qorumaq, milli mənfəətləri təmin etmək, ölkənin ərazibütövlüyünü və suverenliyini təmin etmək olaraq təyin olunmuşdur. Bu

təşkilatın vəzifəsi Ali Dini Rəhbər tərəfindən təyin olunmuş ümumi siyasət çərçivəsində ölkənin təhlükəsizlik, kəşfiyyat və müdafiə siyasətlərinə istiqamət vermək və bütün siyasi, ictimai, mədəni, iqtisadi məsələləri təhlükəsizlik və müdafiə siyasəti ilə uyğunlaşdırmaqdır. Digər vəzifəsi isə daxili və xarici təhdidlərə qarşı ölkənin maddi - mənəvi imkanlarından faydalanmaqdır. Ali Milli Təhlükəsizlik Şurası İranın ən üst təhlükəsizlik, müdafiə və kəşfiyyat orqanı sayılır. Tərkibi Baş qərargah rəisi, silahlı qüvvələrin komandanları, Büdcə və Planlaşdırma Təşkilatının rəhbəri, Ali Dini Rəhbərin iki nümayəndəsi, İslam İnqilab Keşikçiləri Korpusunun komandiri, Xarici İşlər, Daxili İşlər və Kəşfiyyat nazirlərindən ibarətdir. Şuranın sədriliyini prezident həyata keçirir. . Ali Milli Təhlükəsizlik Şurasının Səlahiyyətli orqanı Katiblikdir. Qərarları Ali Dini Rəhbər tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Göründüyü kimi siyasi sistemin mərkəzində Ali dini Rəhbər – Vəliyi Fəlqih dayanır. Ali dini Rəhbər həm də inqilabın klerikal qanadının mənəvi kultu olmaqla yanaşı, klerikal – teokratik qüvvələrin hakimiyyətinin güclənməsini təmin edir. İslam Şurası Məclisinə seçkilər zamanı dini azlıqlar üçün nəzərdə tutulmuş kvota bu azlıqlara təmsilçilik imkanları açır. Lakin bu sahədə hüquqi problemlərin qalması yeni islahatların keçirilməsini labüd edir. Belə ki, əsas qanunun (İİR Konstitusiyası) 64-cü maddəsinə görə İranın ən qədim dini dünya görüşü olan Zərdüştilər və kəlimilər hər biri, bir (1) nümayəndə, cənub və şimal ermənilər 'hər biri bir (1) nümayəndə aşuri və kəldani xristianlar isə birlikdə yalnız bir (1) nümayəndə göndərməklə İslam Şurası Məclisində (IIR parlamenti) təmsil olunurlar.

## İran: Şiri – Xurşid

*İran-dağlar arasında qala*
*Corc Fridman*

İran bütün tarixi boyu öz geopolitik üstünlüklərindən yararlanaraq, regionda nüfuzlu siyasi təsisat yaratmışdır. İranın geopolitik mövqeyi, ictimai quruluşu, tarixi təcrübəsi, fiziki – coğrafi relyefinin mürəkkəbliyi, köklü dövlətçilik ənənəsi, çoxmilyonlu əhalisi, hərbi gücü, nuklear enerji (nüvə enerjisi) sahəsində inadkar fəaliyyəti və beynəlxalq arenadakı özünəməxsus yeri rəsmi Tehranın özünə inamının özək mayasını təşkil edir. Şiri-Xurşid (Günəşin Şiri) İranın əkinçi bazasına oturaq kulturuna işarədir ki, bu da Günəşə olan xüsusi inam və pərəstişlə bağlıdır. Günəşin əhəmiyyətini göstərən bu ifadə İranla bağlı olan bütün kulturlara sirayət etmişdir. İslam tarixində təsadüfi deyil ki, şiə imamlarından birincisi olan Əli ibn Mürtəza məhz "Allahın Aslanı" adlandırılırdı, Assuriyanın paytaxtı Neynəva (Nineviya) "Aslanlar yatağı", "Aslanlar yuvası" adlandırılırdı. İran Şumer bazası üzərində yaranmış, mövcud olmuş əkinçi-oturaq dövlətlərin arilərin simasında köçəri-maldarlarla sintezi şəklində davamı və həm kultural, həm də antropogen varisidir.

İran Ön Asiyanın kəskin quru, yarımsəhra, subtropik ərazilərində yerləşir. İran İslam Respublikası şimaldan Azərbaycan Respublikası (689 km), şimal - qərbdən Ermənistan Respublikası (44 km), qərbdən Türkiyə və (534 km) İraq Respublikları (1599 km), cənub – şərqdən Pakistan İslam Respublikası (959 km), şərqdən Əfqanıstan Respublikası (921 km), şimal – şərqdən isə Türkmənistan Respublikası (1148 km) ilə quru sərhədlərinə malikdir. Şimal sahilləri Xəzər dənizinin, cənub sahilləri isə Fars körfəzi və Ərəb dənizinin suları ilə yuyulur.

Sahəsi 1.648.195 $km^2$ olan İran dünyanın 18-ci böyük ölkəsidir. İİR-in ərazisi Fransa, Almaniya, Hollandiya, Belçika, İspaniya və Portuqaliyanın birlikdə ümumi sahəsindən daha böyükdür. İran ərazisi Türkiyədən 2-dəfədən də artıq böyüklüyə sahibdir. ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin 2014-cü ilin iyul ayına olan məlumatına görə 80 milyonluq əhali sayı ilə dünyanın 19-cu ölkəsi olan İran həm Fransanı, həm də İngiltərəni geridə qoyur. İraq 26 milyonluq əhalisi və 438.000 $km^2$ sahəsi ilə İrandan sahəsinə görə 4 dəfə, əhalisinə görə isə 3 dəfə daha balacadır. Əfqanıstanın isə uyğun olaraq, 31 milyon əhalisi və 652.000 $km^2$ ərazisini nəzərə

alsaq, İran öz sahəsinə görə Əfqanıstan və İraqın ümumi sahəsindən 68% daha böyük əraziyə, həmin ölkələrin ümumi əhalisindən isə 40% daha çox əhaliyə malikdir.

İran əsasən dağlıq relyefdən ibarət olub, kəskin geosinklinal əraziyə malik ölkədir. İranın ən böyük dağları – Zaqros silsiləsi Ermənistan sərhədlərindən başlayıb, cənub – şərqə doğru, Hörmüz boğazındakı Bəndər – Abbas limanına qədər davam edir. Bu dağlıq ərazi farslarla Mesopotamiya arasındakı tarixi – geomorfoloji sərhəddir. Xəzərin cənubu ilə Əfqanıstana və Hindiquş dağlarına qədər uzanan digər dağ silsiləsi isə Elbrus dağlarıdır ki, bu da Türkmənistanın Qaraqum səhrasına qarşı İranı təbii şəkildə mühafizə edir. Hindquş dağlarından cənuba Pakistan sərhədləri boyunca alçalan dağlar Hind okeanına doğru təpəliklərlə əvəzlənir.

İranın məkəzində iki böyük səhra var ki, bu səhraların biri Qum şəhərindən başlayıb, Əfqan sərhədlərinə qədər davam edən Dəşti – Kəbir, digəri isə cənuba uzanan Dəşti – Lutdur.

İran əhalisi yüksək dağlarda və yaxud dağ yamaclarında məskunlaşmışlar. Hətta Tehran şəhəri ən böyük şəhər olması ilə yanaşı, kəskin geosinklinal – dağlıq zonada yerləşməsi ilə məşhurdur. Əhalinin ənçox məskunlaşdığı coğrafi xətt Xəzərin cənub sahillərindən Hörmüz boğazına və Əfqan sərhədlərinə doğru uzanan dağlardan keçir. Bu xətt tarixən nəinki, Xəzər dənizi ilə Fars körfəzini, eləcə də Hind vadisini Aralıq dənizinə birləşdirən yeganə əlverişli quru yoludur. Ölkənin mərkəzindəki qumsal ərazilərdə hərəkət etmək demək olar ki, mümkün deyildir. Əfqan sərhədlərində əhalinin məskunlaşma mərkəzi kimi Məşhəd şəhəri xüsusi əhəmiyyət kəsb edir.

Tehranda yayımlanan "Həmşəhri" qəzetinin 1993-cü il iyul buraxılışının yayımladığı məlumata görə İran ərazisində 80-ə yaxın etnik qruplar yaşayır. Əhalinin etnik tərkibi əsasən farslardan (61%), azərbaycanlılardan (25%) və kürdlərdən (10%) təşkil olunsa da, ölkədə bəluclar, ərəblər və türkmənlər də yaşayırlar. İran əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarətdir. Bunlardan 89% şiə, 9% sünni, qalan 2% isə xristianlar, bəhailər, zərdüştilər və yəhudilərdir.

İran İslam Respublikasının beynəlxalq arenada tutduğu yerini geoiqtisadi, geopolitik,konfessional – ideoloji faktorlarla izah etmək lazımdır.

Geoiqtisadi faktor – İran iqtisadiyyatının böyüklüyünə görə dünyanın 28-ci ölkəsi olsa da, bu ölkədə kəskin geosinklinal ərazilər sənayenin yayılmasını əngəlləyir. Digər tərəfdən ölkə iqtisadiyyatının beynəlxalq aləmdən təcrid edilməsi, İranatətbiq edilən embarqolartəsərrüfatın inkişafına durğunluq gətirir.

İran neft ehtiyatına görə dünyada 4-cü yeri tutur. Son hesablamalara görə ümumi rezervin həcmi 370 mlrd, barel (50 mln. ton) müəyyən edilmişdir. İranın iqtisadi dayağı sayılan neft, ölkənin üç müxtəlif hissəsindən tapılmışdır. Əsas neft rayonu – cənub – qərbdə, Xuzistan ərazisinin Fars körfəzi sahlləridir. Digər neftlə zəngin ərazi İraq sərhəddinin şimal əraziləridir. Bu ərazilərdə hasilatın və tədarükün az olması ilə səciyyəvidir. Üçüncü neftli ərazi Qum ətrafındakı çöküntü laylarıdır ki, əsasən ehtiyat ərazilərə daxildir.

İran gündəlik 2,5 mln barel xam neft ixrac edir ki, bunun da 50%-dən çox hissəsi Yaponiya, Çin və Koreyaya (Cənubi Koreya) göndərilir. Avropa Birliyi ölkələri arasında isə İranın neft tərəfdaşı kimi İtaliya birinci yeri tutur. İtaliya əsasən neftin digər ölkələrə ötürülməsini təmin edir. İran büdcəsinin 60% hissəsi neft gəlirlərindən asılı olması ölkədə sosial rifahın səviyyəsini neftin dünya bazarlarındakı qiymətindən asılı edir.

Neft yataqlarının kəşfiyyat işini “İran Milli Neft Şirkəti” (Şerkəte Milliye Nəfte İran) aparır. İslam İnqilabının təməl prinsiplərindən sayılan anti imperializm rəsmi Tehranın iqtisadi əlaqələrində də aydın şəkildə özünü göstərir. İran konstitutsiyasına əsasən neft hasil edən dövlət müəssisəsinin səhmlərinin xarici kompaniyalara satılaması, xarici şirkətlərin İran ərazisində neft hasil etməsi qadağandır.

Neftə bağlı sahələrə ayrılan vəsaitlərin digər sahələrə ayrılan vəsaitlərdən çox olmasına baxmayaraq, İran hələ də inkişaf etmiş neft sənayesi kompleksinə malik deyidir. İranın Abadan (65 min ton/sutka), İsfahan (34 min ton/sutka) və Bəndərabas (30 min ton/sutka) şəhərlərində istehsal edilən neft məhsulları daxili tələbatı ödəmir. Neft məhsullarının istehsalının olduqca aşağı səviyyədə olması, İranı bu məhsulları xaricdən idxal etməyə məcbur edir (ümumiyyətlə bu amil bütün Fars körfəzi — ölkələri üçün xarakterikdir). İranın neft məhsullarına olan tələbatının 40%-i xaricdən idxal edilir. Neft emalı sənayesinin 80%-dən çox hissəsi dövlət mülkiyyətindədir.

İran təbii qaz ehtiyatına görə dünyada Rusiyadan sonra ikinci yeri tutur. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin 2013-cü ilin yanvarına olan məlumatına görə İranın mövcud təbii qaz ehtiyatı 33,61 trilyon $m^3$ həcmində qiymətləndirilmişdir. Əsas qaz yataqları Fars körfəzi şelfində və ölkənin şimal – şərqində yerləşir. Lakin İran ixrac etdiyi mavi yanacağın həcminə görə xüsusi göstəriciyə malik deyildir. Çünki daxili tələbatı ödəməyə yönəlmiş mavi yanacağın həcmi hasilatın həcminə bərabərdir. Daxili tələbatı ödəməklə bərabər, İran hasil olunan təbii qazı ölkədaxili elektrik enejisinin istehsalına yönəldir. Hətta CİA-in (ABŞ MKİ) məlumatına əsasən İran 2011-ci ildə ölkədən xaricə 9 mln. $m^3$ qaz ixrac etdiyi halda, 11 mln. $m^3$ mavi yanacağı xaricdən idxal etmişdir (Azərbaycan və Türkmənistandan). İrandan xaricə ixrac olunan təbii qaz Türkiyə, Azərbaycan (Naxçıvan MR) və Ermənistan istiqamətinə göndərilir.

İran Rusiyanın "Qazprom" şirkətinə Fars körfəzində birgə kəşfiyyat işləri aparmaq üçün bir neçə dəfə təklif etmişdir. Bu təklif əslində Avropa Birliyinin sanksiyalarına cavab kimi qaz hasil edən ölkələrin birgə hərəkətini təşkil etmək məqsədi güdürdü. Rusiya və İran qazının hesabına özünü tam mənada qazla təmin etmiş, Türkiyə indi bu ölkələrə mavi yanacağın qiymətini diktə edəcək vəziyyətə gəlib, çatmışdır. Türkiyənin və Avropa bazarının alternativi kimi İrandan Pakistana, Hindistana və hətta Çinə qədər çəkilməsi planlaşdırılan "Sülh" qaz kəmərinin tikintisinin maliyyələşdirilməsində ciddi problemlər yaranmışdır. Çinin idxal etdiyi Rusiya qazına nisbətdə İran qazı daha ucuz təklif edilir. Çin höküməti ABŞ-ın bütün təzyiqlərinə baxmayaraq, 2013-cü ildə "Sülh" boru xəttinin tikintisinə 500 mln. dollar kredit ayıracağını açıqladı. İran höküməti Pakistandan keçən hissəsinin vaxtından əvvəl tikilib, təhvil verilməsi üçün qonşu dövlətə 500 mln. dollar kredit ayırdı. Ümumilikdə Çin indiyə qədər İranın neft – qaz hasilatına 100 milyard dollar kapital qoymuşdur.

İran öz tələbatını ödəmək üçün 500 kilovatt/saat elektrik enerjisini idxal edir. Bu problemi aradan qaldırmaq və inkişafda olan sənayeni ucuz elektrik enerjisi ilə təmin etmək məqsədiylə rəsmi Tehran özünün hidro və nüklear potensialını

reallaşdırmağa çalışır. Hətta bu məqsədlərə xidmət edən uranın zənginləşdirilməsi, İran üçün təhlükəsizlik məqsədlərindən daha çox iqtisadi əhəmiyyət daşıyır.

İnqilabdan sonrakı İran iqtisadiyyatına dövlət tərəfindən ayrılan subsidiyalar xarakterikdir. 2010-cu ilə qədər büdcənin 30% payı benzin və digər yanacaq növlərinin istehsalına ayrılırdı. Neft gəlirlərinin böyüklüyü hətta gənclərin probleməri ilə məşğul olan, eləcə də bir çox hallarda onların nigah xərclərini də öz üzərinə götürən fondların yaranmasına gətirib, çıxarmışdı. 2010-cu ilə qədər bütün İran prezidentləri subsidiyaların məhdudlaşdırılmasına çalışsalar da, son anda kütləvi etirazlardan çəkinərək, geri addım atmışdılar. 2010-cu ilin dekabrında prezident Mahmud Əhmədinejat neft gəlirlərinin aşağı olmasını əsas gətirərək, təsərrüfatın müxtəlif sahələrinə ayrılan subsidiyaları ləğv etdi. Bununla da dövlətin xərcləri ildə 57 milyard dollar azaldı.

İran iqtisadiyyatının 65% hissəsi 20 min kooperasiyanın nəzarətindədir. dövlət nəzarətində olan bu kooperasiyalar İranın ixracatında 80% paya malikdirlər.

İran böyük miqyasda ucuz işçi qüvvəsinə malikdir. CİA-in (ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi) 2014-cü ilin iyul ayına olan məlumatına görə İran əhalisi 80 mln. nəfərdən bir qədər çoxdur. Əmək resursları İran əhalisinin 68,1%-ni təşkil edir. İranda ictimai sahələrdə işləyən qadınlar 50% təşkil etdiyi halda, bu göstərici Türkiyədə 29%, Misirdə isə 22% təşkil edir. Gənclərin əksəriyyət təşkil etdiyi İran əhalisinin 27,5 %-ni 10 yaşdan balaca uşaqlar, 32,5 %-ni isə 11 yaşdan 24 yaşa qədər olan gənclər təşkil edirlər. Təbii artım hər il 3%-dən böyük rəqəmlə ifadə olunur[76.səh.6]. İşsizliyin səviyyəsi 15 – 20% arasında dəyişir. CİA-in İran haqqında məlumatlarında ən böyük çoxmilyonlu şəhərlər bunlardır: Tehran (7.304.287 nəfər), Məşhəd (2.713.316 nəfər), İsfahan (1.781.1 10 nəfər), Geraş (1.635.000 nəfər), Təbriz (1.509.60 nəfər), Şiraz (1.321.331 nəfər).

Ölkə daxilində xüsusiylə şose və dəmiryollarının ümumi uzunluğunun tələbatı ödəyə bilməməsi, inqilabdan əvvəlki nəqliyyat problemini aktuallaşdıra bilər. Ölkə daxilində 6 şəhərdə metro tikintisinə start verilib. Dəmiryollarına ehtiyac bu sahədə tikinti işlərini sürətləndirmişdir. Dəniz nəqliyyatında müasir gəmilərdən istifadə

edilir. Dünya neft ixracatının 40%-dən də çoxu Hörmüz boğazından keçir. Bu boğazdan keçən bütün neft tankerləri İran sularından keçimək məcburiyyətindədir.

İran İslam Reşpublikasının illik büdcə layihələri əsasən ölkə ərazisində industrial infrastrukturun yradılmasını nəzərdə tutur. Müasir İranın iqtisadi prioritetlərini təşkil edən istiqamətlər aşağıdakılardır:

1. Uranın kifayət qədər zənginləşdirilməsi və nüvə enerjisinin istehsalı istiqamətində ən yeni texnologiyaların tətbiqi;

2. Neft – kimya sənayesinin inkişafını təmin etmək, bu sahədə istehsalatın keyfiyyət və kəmiyyətini yüksəltməyə nail olmaq;

3. İnşaat sektorunda davamlı inkişafa nail olmaq;

4. Ənənəvi olaraq, təhsil sahəsində islahatların aparılmasını davam etdirmək.

İranın Asiya ölkələrinə (xüsusiylə Çin, Yaponiya, Koreya Respublikası) yaxınlaşması, əslində sadəcə politik balansı təmin etmək zərurətindən doğur. müxtəlif təzyiqlərlə İran bazarına daxil olmaq istəyən Qərb dövlətləri inqilab nəticəsində itirdiklərini bütün imtiyazları yenidən bərpa etmək istəyirlər. İrana edilən təzyiqlərə qarşı rəsmi Tehran Asiyanın güclü dövlətləri ilə (xüsusiylə Çinlə) yaxınlaşmağa çalışır. Bu yaxınlaşma İİR-in həm siyasi, həm də iqtisadi maraqlarına cavab verir. Qərb dövlətlərinin təzyiqlərinə uğurlu müqavimət göstərmək üçün rəsmi Tehran beynəlxalq arenada özünə dəstək almağa çalışır. Asiya ölkələri İran üçün getdikcə uğurlu ticari partnyora çevrilirlər. İran neftinə sanksiyalar tətbiq etmiş Qərbdən fərqli olaraq, Çin özünün getdikcə artan tələbatını məhz Fars Körfəzi nefti ilə ödəməyə çalışır.

Avropa rəsmilərinin İrana münasibəti zaman keçdikcə ABŞ təsirindən azad olmağa meyl edir. “Soyuq müharibə” bitdikdən sonra xarici siyasətində ümumavropa maraqlarından çıxış elməyə başlayan rəsmi Berlin İrana qarşı daha tolerant münasibəti ilə seçilir. İrana qarşı güc tətbiq etməyin qatı əleyhdarı olan Almaniya İranın ən yaxın iqtisadi tərəfdaşlarındandır. Almaniya Avropa Birliyi ölkələri arasında İrana qoyulmuş kapitalın həcminə görə birinci yeri tutur. Almaniya İranın 19 iri layihəsində iştirak edir. Bunların arasında su anbarları, irriqasiya sistemləri,

elektrik stansiyaları, Bəndər – Abbas limanındakı "Mehdi" alüminium kombinatı, Çahbahardakı yeyinti sənayesi kompleksi, pressləmə avadanlıqlarının quraşdırılması, və s. kimi iri layihələr vardır. Almaniya İrana ağır sənaye avadanlıqları, cihazlar, dəzgahlar, neft – kimya sənayesi məhsulları, generatorlar və avtomobil hissələri kimi sənaye məhsulları da ixrac edir. İrandan isə Almaniyaya neftdən başqa quru meyvələr və digər kənd təsərrüfatı məhsulları ixrac edilir.İranın Avropa Birliyinə daxil olan ölkələrlə ticari münasibətləri zamanı ən birinci məqsədi ölkəyə yeni texnologiyaları gətirməkdən ibarətdir. Bütün Avropa Birliyinin İrana olan ixracatının 80%-i Almaniya, Fransa və İtaliyanın payına düşür. Bu ölkələr İranın Avropa Birliyindəki əsas iqtisadi partnyorları hesab olunurlar. İran əlverişli geoiqtisadi zonada yerləşməklə, regionun gələcək inkişafına təsir rıçaqlarına malikdir. İstənilən ictimai quruluşun Yaxın və Orta Şərq regionunda möhkəmlənməsi üçün İranda ciddi dayaqları olmalıdır. İranda gecikən islahatlar eyni zamanda bütün regionda tarixi inkişafın ləngiməsinə səbəb olur. İran öz təsir rıçaqları ilə bütün qonşu ölkələrə əhəmiyyətli şəkildə təsir göstərmək imkanına malikdir. Bu amili nəzərə alan ABŞ-ın hakim dairələri nəzərdə tutduqları strateji layihələrində İran ərazisində möhkəmlənməyin labüd olduğunu başa düşür və istənilən üsullarla rəsmi Tehranın müqavimətini qırmağa çalışırlar.

Geopolitik (geosiyasi) faktor – XX əsrin əvvəllərində məşhur alman geopolitiki, Adolf Hitlerin məsləhətçilərindən biri olmuş Karl Haushoferin "pan–ideya"larında İranın geopolitik mövqeyinə xüsusi diqqət ayrılmışdır. K.Haushofer Berlin – Moskva – Tokio oxu ilə "Kontinental güc"ün mondual hegemoniyaya nail olmasında Berlin – Moskva – Tehran üçbucağının önəmindən söz açmışdır. Berlin – Moskva – Tokio xəttinin yaranması üçün bu üçbucağa nəzarət etmək vacibdir. İran "Hartland"ın (Avrasiyanın) dəniz sahillərində yerləşir. Bu sahillər "Hartland"ın qələbəsini də, məğlubiyyətini də müəyyən edir.

Müasir İran antiamerikan strategiyası ilə ABŞ-ın regiondakı əlaltısı – Səudiyyə Ərəbistanının gözlərindən yuxusunu qaçırıb, ərşə çəkən yeganə dövlətdir. İsraillə sıx əməkdaşlıqda antişiə fəaliyyətlə məşğul olan rəsmi Ər –Riyad 2014-cü ilin

yanvarında Fransa ilə birlikdə Livan ərazisində Hizbullah (İrana bağlı şiə silahlı qrup) əleyhinə 3 milyard dollarlıq layihəni həyata keçirmək haqqında öhdəlik götürmüşdür.

Rusiya – İran yaxınlaşmasına qarşı ABŞ daha böyük koalisiya ilə (Atlantika) hücuma keçə bilər. Bu koalisiya nə qədər qorxulu görünsə də, onun da boşluqları mövcuddur. Rusiya Avrasiya xətti ilə Fransa və Almaniyanı İrana yaxınlaşdıra bilər. Bu da ABŞ-ın təzyiqini əhəmiyyətli dərəcədə azalda bilər.

İranla Rusiyanı yaxınlaşdıran əsas istiqamətlər aşağıdakılardır:

1. Hər iki dövlət Orta Asiyanın, Qafqazın, Yaxın Şərqin ABŞ-a meyl edən qüvvələrdən təmizlənməsində maraqlıdırlar.

2. Hər iki ölkəni ərəb dövlətlərindən maliyyələşən radikal – sələfilik cərəyanı narahat edir.

3. Qafqaz ölkələrinə münasibətdə hər iki dövlət eyni mövqedən çıxış edirlər. Hər ikisi üçün proamerikan Gürcüstan qeyd – şərtsiz arzuolunmazdır. Azərbaycan və Ermənistana münasibətdə isə hər iki ölkə eyni məsafədə dayanırlar.

Moskva – Tehran oxu həm də böyük bir əraziyə nəzarət etmək imkanları verir. Avrasiya enerji daşıyıcılarının böyük bir monopoliyada birləşməsi baş verərsə atlantistlər ağır zərbə almış olarlar. Digər tərəfdən Rusiya Hind okeanı sahillərində güclü hərbi dəniz donanması saxlamaq imkanı əldə edə bilər. ABŞ Yaxın və Orta Şərqdə malik olduğu resurslardan məhrum olan ABŞ ən yaxşı halda öz sərhədləri daxilində milli dövlət kimi qala bilər. Lakin bu resurslardan məhrum olan ABŞ kapitalizmi çətin ki,parçalanmadan yaşaya bilsin. Məhz İran üzərində dəqiq siyasi gedişlər sayəsində ABŞ-ın ədalətsiz hegemoniyası tarixin qəbristanlığına göndərilə bilər.

ABŞ "Böyük Orta Şərq" layihəsini uğurla reallaşdırmaq üçün Yaxın və Orta Şərqin ürəyini təşkil edən Aralıq dənizi – Xəzər dənizi – Fars körfəzi üçbucağına sahib olmalıdır. Bu geopolitik üçbucaqda möhkəmlənmək üçün İranı ram etmək olduqca vacibdir. İranın bu üstünlüyü həm XX əsrin ikinci yarısında, həm də yaxın tariximizdə təcrübədə sübut edilmiş və qəbul ediləndir.

Makkinderin "qızıl ayparasına" uyğun olaraq kontinental Avrasiyanı (Hartland) dövrəyə almış ABŞ ordusunun yerləşdiyi nöqtələri birləşdirən xəyali –

xətt, nəhəng yarımdairə iki qütbün toqquşduğu cəbhə idi. Bu yarımdairənin (Aypara qurşağı) mərkəz hissəni təşkil edən Mərkəzi Müqavilə Təşkilatını (CENTO) Sovet İttifaqının cənub sərhədlərini nəzarətdə saxlamalı idi. İran şahının devrilməsi ilə hakimiyyətə gələn ruhanilər (cəfəri şiə din xadimləri) özlərinin antiamerikan baxışlarına uyğun olaraq, dərhal CENTO-dan çıxdıqlarını elan etdilər. İran bu təşkilatı tərk etdikdən dərhal sonra təşkilatın digər üzvləri də blokdan ayrıldıqlarını bildirdilər. ABŞ-da "qızıl ayparanın" çatladığı haqqında təlatüm baş qaldırdı. Demokratlar partiyası olduqca ağır vəziyyətə düşdü. İranı bir daha bu qurşaq daxilinə gətirmək rəsmi Vaşintona müyəssər olmadı.

İranın yuxarıda sadalanan geopolitik üstünlüklərini bir qədər də dəqiqləşdirmək üçün XXI əsrin əvvəllərində baş vermiş hadisələrə nəzər salmaq lazımdır. Məlum olduğu kimi 2011-ci ildən Suriyada daxili qarşıdurmanı kəskinləşdirərək, Bəşər əl Əsədin (Suriya prezidenti) də hakimiyyətinə M.Qəddafi üslubunda son qoymağı planlaşdıran ABŞ rəsmilərini İran məyus etdi. Birbaşa ali dini rəhbər Ayətullah Xameneyinin əmrində olan, "Qüds gücü" (Niruye – Quds), "İslam İnqilabı Keşikçiləri Korpusu (Sepahiye – Pazdarane – Enqelabe – İslam) və "Hizbullah" qruplaşmasının köməkliyi ilə Suriyada vəziyyət kəskin şəkildə Əsəd hökümətinin xeyrinə dəyişdi. 2013-cü ilin avqust – sentyabr aylarında xüsusiylə "Hizbullahın" cənubi Livan ərazisindən sürətli hücumla Suriyanın dörd böyük şəhərini azad etməsi, ABŞ-la bərabər Səudiyyə Ərəbistanının da əsəblərini tarıma çəkdi. Ölüm hökmü verilmiş məhbusları da Suriyaya Əsəd hökümətinə qarşı döyüşməyə göndərən Ərəbistan böyük maliyyə dəstəyinə baxmayaraq, uğursuzluğa düçar oldu. 2013-cü ilin sonlarına doğru ABŞ müxtəlif vasitəçilərlə İranı danışıqlara dəvət etdi. Bundan sonra İranın həm də uranı zənginləşdirməsi proqramı müzakirəyə çıxarıldı. 2004-cü ildə İranın təzyiqi ilə İraqda İranın sevmədiyi "müvəqqəti hökümət" devrildi. Yerini şiələrin üstünlük təşkil etdiyi hökümətə verdi.

Bütün bunlar bir daha sübut edir ki, İran öz geopolitik mövqeyi ilə bü regionda açar rolunu oynayır. İranın geopolitik strukturu ilə bir qədər daha yaxından tanış olmaq üçün onun fiziki – coğrafi quruluşunu öyrənmək lazımdır. İran fızki coğrafi

baxımdan sanki bir qaladır. İran ərazisi üç tərəfdən dağlarla və dördüncü tərəfdən dənizlə əhatələnib. Bu ölkəyə müdaxilə etmək həddən artıq çətindir.

İranın mərkəzi hissələrində böyük əraziləri əhatə edən səhralar məskunlaşmaq üçün tamamiylə yararsızdır. Lakin həm şimaldan, həm şimal – qərbdən, həm də Əfqanıstan istiqamətindən dağlarla əhatələnmiş İran tarixən qərbdə - Mesopotamiya ərazisində yararlı düzən torpaqlar axtarışında olmuşdur. Bu ərazilər Əhəmənilər dövlətinin yarandığı illərdən farsların əsas ekspansiya istiqaməti olmuşdur. Bu ərazilərə irəliləmək farslar üçün çətin olmadığı kimi buralarda möhkəmlənmək də çətin deyildi. Zaqros dağlarından düzən sahələrə hücum etmək onların ən birinci üstünlüyü idi. İranın Qafqaz dağlarına hücumu və bu dağları aşması tarixi təcrübədə olmadığı kimi heç rentabelli də deyildi. Farsların Əfqanıstana maraq göstərməməsi Əfqanıstanın dağlıq relyefi ilə izah olunmalıdır.Çünki, İran ərazilərindən fərqlənməyən və heç bir məskunlaşma yararı olmayan dağlıq ərazilərdə çətin döyüşlər aparmaq sadəcə itkiyə bərabər qələbə olardı. Türkmənistanın sərhəd əraziləri geniş səhralardan ibarət olduğu üçün İranın marağını cəlb etməmişdir.

Qərbə doğu irəliləmək İranı Misirə və Yunanıstana aparıb çıxarmışdır. Qərb istiqamətində əsas maneə Zaqros dağlarıdır. Bu dağlar İranın müdafiəçisi olmaqla bərabər ekspansiya etmək üçün ciddi manedir. İran – İraq müharibəsi göstərdi ki, bu dağlar hər iki tərəfin hücumlarının kəsərini azaldır. İraqda möhkəmlənmədən Aralıq dənizinə qədər genişlənmək mümkün deyildi. Bu mənada İraqın özünün daxilindən və hətta siyasi dairələrdən İrana verilən dəstək olduqca böyük əhəmiyyətə malikdir. Bu dəstək olmadan İran İraqın zənginliyini real gücə çevirə bilməyəcək və yalnız böyük güc hesabına iraqlıların müqavimətini qırmaqla resurslarını səmərəsiz şəkildə itirəcəkdir. Bu bir daha farsların zəbt etdikləri ərazilərdə yerli əhalinin dəstəyini aldıqlarına sübutdur. Farsların yerli əhaliyə qarşı, onların mədəniyyətinə, adət - ənənələrinə qarşı nümayiş etdirdikləri xoş münasibət həm də İran mədəniyyət arealının genişlənməsinə gətirib, çıxarmışdır.

İranın ən birinci strateji vəzifəsi mövcud təbii sərhədlərini, geopolitik – qala strukturunu qoruyub saxlamaqdır. Bu sərhədlər daxilində İran ərazisində etnik qarşıdurmalar çox ciddi xarakter ala bilməyəcəkdir. Bu sərhədlərdən geridə İran üçün

təhlükəsiz ərazi yoxdur. ABŞ-ın "Stratfor" elmi tədqiqatlar mərkəzinin mütəxəssisi, politoloq Corc Fridman (George Friedman) İran üçün ən önəmli geopolitik vəzifələri aşağıdakı kimi ayırır:

1. Zaqros və Elbrus dağlarını nəzarətdə saxlamaq (bu dağlar qərbdən və şimaldan gələn təhlükələri neytrallaşdırmaqda əhəmiyyətli rola malikdir);
2. İranın şərqindən cənub – şərqə doğru uzanan və Məşhədlə Zahedanı birləşdirən dağ silsiləsini nəzarətdə saxlamaq;
3. Türk və Rus təhdidini məhdudlaşdırmaq üçün qərbdə və şimalda, mümkün qədər ölkənin dərinliklərində ikinci xətti gücləndirmək;
4. İranın Fars körfəzindəki qərb sahillərini qorumaq üçün Şəttül-ərəb çayı bayunca nəzarət xətti formalaşdırmaq;
5. Fərqli etnik və dini qrupları bu qutunun içində nəzarətdə saxlamaq;
6. Sərhədlərdə, xüsusiylə regiondan kənar dövlətlərin güc toplamasına şərait yaratmamaq.

İranın daxilinə ölkənin şimal – şərqindən müdaxilə etmək daha uğurlu olmasına baxmayaraq, qərbdən müdaxilə ən çox cəhd edilmiş istiqamətdir. Lakin bu müdaxilə tarixi təcrübə ilə Zaqros dağlarının ciddi maneə olduğuna görə olduqca səmərəsiz sayılır.

ABŞ 1979-cu ildə itirdiyi İranı yenidən əldə etmək üçün artıq 30 ildən çoxdur ki, müxtəlif üsullarla İran coğrafiyasına qayıtmaq, orada möhkəmlənmək. İranı yenidən imperializmin nəzarət dairəsinə salmağa çalışır. ABŞ-ın "Böyük Orta Şərq Layihəsi" çərçivəsində İraqı işğal etməsindən sonra İran bu layihədə sonuncu və ən mühüm mərhələni təşkil edir. "Böyük Orta Şərq Layihəsi"ndə bu regionun ürəyi hesab edilən yuxarıda qeyd etdiyimiz üçbucağın (Xəzər – Fars – Aralıq dənizi) əsasguşəsi olan İran özünün geopolitik mövqeyi ilə bu regiona geniş nəzarət etmək imkanına malikdir. Digər guşədə Suriya və İsrail yerləşir ki, Suriyanın öz siyasi oriyentasiyasında dəyişiklik etməsi üçün ABŞ tərəfindən edilən cəhdlər bu ölkə daxilində qanlı müharibəyə səbəb oldu. İran bu geopolitik üçbucaqda özünün zəngin təbii resursları, dövlətçilik təcrübəsi, geopolitik üstünlüyü, hərbi gücü və xüsusiylə havadan çox effektiv müdafiə olunan uran zənginləşdirmə sentrafuqlarına malikdi.

İran Yaxın və Orta Şərqdə tam nəzarət yaratmaq üçün “açar” rolunu oynayan bir dövlətdir. Avroasiya regionunda (Rusiya mərkəzli yaradıla biləcək Avrasiya və yaxud Gömrük İttifaqı) ABŞ-ın digər imperialist rəqibləri ilə ittifaqa girə bilmək təhlükəsi mövcud olan İran rəsmi Vaşinqtonun bütün planlarının taleyini həll edə bilər. Belə Vəziyyət son nəticədə ABŞ üçün uğursuz cəhdlərə, rüsvayçılıqla geriçəkiİməyə və siyasi iflasa gətirib çıxara bilər.

Nə qədər ki, dağlar farsların əlində qalmaqda davam edir, İran öz təhlükəsizliyini təmin edəcək. Nəhayət bir gün böyük güclər bu regiondan gedəcək, o zaman farslar öz gopolitik üstünlüklərindən bəhrələnərək, təbii şəkildə regiona nəzarət edəcəklər.

Konfessional - ideoloji faktor – İranın region ölkələrinə təsir rıçaqlarından ən populyarı konfessional ekspansiyadır. İran İslam coğrafiyasında şiə (cəfəri) dünyagörüşünün mərkəzi hesab olunur. İranın böyük hissəsi (93,4%), Azərbaycanın (75%), İraqın (62,5%), Bəhreynin (61,3%), Livanın (41%) və Yəmənin (46,9%) əhəmiyyətli hissəsi şiələr tərəfindən məskunlaşdırılmışdır[47.səh.101]. İslam İnqilabından sonra bütün dünya şiələrinin həm dini, həm də siyasi mərkəzinə çevrilmiş İran özünün ideoloji təsiri ilə ətraf dövlətlərdə və onların siyasi hakimiyyətlərində ciddi narahatlıq yarada bilir. Dünya neft yataqlarının 70%-nin yerləşdiyi ərazilər şiələrin məskunlaşdığı ərazilərdir ki, bu da İrana münasibətdə nəzərə alınmalı amildir.

Ali Dini Rəhbər – Fəqih öz əlində həm dünyəvi, həm də dini hakimiyyəti mərkəzləşdirmişdir. Həm silahlı qüvvələr, həm də hökümət Ali Dini Rəhbərin iradəsi çərçivəsində fəaliyyət göstərir.

Yaxın və Orta Şərqin ən mühüm geostrateji zonasında yerləşən İran Qərbin yeni imperializm modelinin hədəfində olmaqda bir neçə səbəbi var. Lakin bunlardan ən vacibləri:

a) Uzaq Şərq, Cənub suları və Qərb mədəniyyətləri arasında tarixi, mədəni özünəməxsusluğu, oturuşmuş, zəngin, qədim dövlətçilik təcrübəsi, sivilizasiyaların görüşdüyü, toqquşub tanış olduğu yer kimi İran Aralıq – Xəzər – Fars körfəzi üçbucağının mərkəzində yerləşir.

b) İran zəngin təbii sərvətlərə, yeraltı karbohidrogen yataqlarına malikdir(dünyada 3-cü yer)

c) İran zəngin sərvətlərə malik ölkələr arasında ən böyük əhali sayına malik ölkələrdəndir.

d) Dili, dini, təriqəti, mədəni və mənəvi bağlan ilə qonşu ölkələrə geniş təsir imkanlarına sahibdir.

## Şiə dövləti və "Böyük Orta Şərq Layihəsi"

*Şiəlik – İslamda ədalətə qayıdışdır*

*Əli Şəriəti*

İranın xarici siyasətinin prinsiplərini 1979-cu ildə qəbul edilmiş İİR Konstitusiyası və Xomeyninin siyasi baxışları müəyyənləşdirmişdir. Xomeyni 1979-cu il dekabrın 1-də ərəb ölkələrindəki şiələri nəzərdə tutaraq, "Müsəlman ölkələrinin idarəçilərinin çoxu İslam yolundan sapmış, rüşvət bataqlığında maddi maraqlarını düşünür, Qərbin və Şərqin dinsiz imperialist dairələri ilə sıx əməkdaşlıq edirlər. Bununla da müsəlman ölkələrində istismar edilən xalqlar öz idarəçilərinə güvənmədən, həqiqi İslam idarəsi üçün mübarizəyə qalxmalıdırlar. Bütün müstəmləkələr öz anti – imperialist mübarizələrində İranı nümunə kimi götürməlidirlər. İran isə bu kütlələrə həm daxili, həm də xarici düşmənlərinə qarşı apardıqları mübarizədə yaxından dəstək verməlidir. İslam inqilabının ixracı və bütün dünyada İslamçı hərəkatlara dəstək verilməsi İran İslam Respublikasının təməl xarici siyasəti olmalıdır...bu müqəddəs ayda İslamı qorumaq, tiranları və parazitləri devirmək üçün qanınızı və canınızı fəda edin" söylədi.

İslam İnqilabını ixrac etmək siyasəti İİR Konstitusiyasının Preambulasında əksini tapmışdır: "Ölkəmizdə və ətraf dövlətlərdə inqilabın davam etməsini təmin etmək üçün lazım olan təminatı yaratmaq və tək bir İslam dünyası təsis etmək yolunda digər islamçı və xalqçı hərəkatlara köməklik göstərmək dövlətin borcudur". İİR Konstitusiyasının 11-ci maddəsində: "İran İslam Respublikası İslam dünyasının siyasi, mədəni, iqtisadi vəhdətinə (birlik) nail olmaq üçün səy göstərməyə borcludur" yazılır.

Ümumiyyətlə İran İslam İnqilabından sonra rəsmi Tehranın xarici siyasəti bir neçə mərhələdən keçmişdir:

— 1979 – 1984-cü illərdə İran inqilabi ekspansiya (İslam İnqilabını ixrac etmək) şəraiti təşkil etməyə çalışmaqla, ətraf dövlətlərlə kəskin qarşıdurmaya meylliliklə xarakterizə oluna bilər. İran Kemp – Devid razılaşmasını qəbul etmədiyini açıqladı. Kuba, Nikaraqua və Angola kimi antiamerikan dövlətlərlə yaxınlaşarkən, ABŞ tərəfindən dəstəklənən aparteid (irqçi, rassist) CAR (Cənubi Afrika Respublikası) hökümətinə qarşı kəskin mövqe tutdu. Fələstinlilərə Tehranda

nümayəndəlik açmağa imkan verən Xomeyni İsraili “siyasi xəritədən silməklə” hədələdi. İnqilabın dini lideri Xomeyni qatı şəkildə həm kommunizmə, həm də imperialist kapitalizm düşərgəsinə qarşı radikal münasibəti İranın demək olar ki, ilk 5 – 6 ilini konfessional – şiə kursuna kökləmişdi. Bütün nitqlərində imperializmi və onun əlaltılarını (xüsusiylə sünni ərəb hökümətlərini) hədəf alan Xomeyni iqtisadi problemlərdən yayınmaqla, dini ibarələrin təntənəli təsiri altında, xüsusiylə fanat gənclərin passionarlığıridan sui istifadə edirdi. Bu fanatlar Xomeyninin həm daxili, həm də xarici düşmənlərini məhv etməkdə ona yaxından kömək etdilər. İranaın inqilabı ixrac etmək niyyəti qonşu dövlət başçılarının yuxularında kabus kimi səslənirdi. İranı tamamiylə izolyasiya etmək məqsədiylə embarqolar tətbiq edilməyə başlandı .

— 1985 – 1989-cu illərdə inqilabın daha yaxşı yayılması üçün şiə çoxluğun mövcud olduğu ərəb ölkələri ilə əlaqələrə diqqət ayrılmışdır. İran – İraq müharibəsinin başlanması, embarqolara görə silah alınmasındakı problemlər, ordunun təchizatında mövcud çatışmazliqlar, sürətlə davam edən hərbi məğlubiyyətlər və daxildəki narazıların çoxalması təcili şəkildə ölçü götürülməsini tələb edirdi. Asiya və müsəlman ölkələrinə qarşı sərt ifadələrdən çəkinməklə yeni əməkdaşlıq kanalları axtarılmağa başlanıldı. Sovet İttifaqının müharibəyə (İran – İraq müharibəsi) müdaxilə imkanlarını nəzərə alaraq, rəsmi Moskvayla ehtiyatlı davranma siyasəti seçildi. 1984-cü ildə Çin ilə diplomatik əlaqələr qurulmağa başlandı. Liviya, Əlcəzair və Malayziya ilə diplomatik əlaqələr bərpa edildi[51.səh.258]. Silah ehtiyacı Xomeynini bir çox məsələlərə göz yummağa vadar etdi. ABŞ istehsalı olan silahların İsrail vasitəçiliyi ilə külli miqdarda İrana ötürülməsi məqsədli şəkildə ört – basdır edildi. İraq ordusunun hücumlarını səngitmək mümkün oldu. Səddam Hüseyn işğal etdiyi bütün İran torpaqlarından çıxarıldı. Xomeyninin daxili düşmənləri artıq neytrallaşdırılmışdı. Bu amil ona xarici siyasətdə bəzi “qadağaları” pozmağa imkan verdi. Çünki artıq onun bu hərəkətlərinə ciddi etiraz edən qalmamışdı.

— 1989 – 2005-ci illərdə isə İran hakimiyyətindəki reformist simalar müttəfiq axtarmağı gücləndirdilər. 1989-cu ilə qədər İran ekspansionist (inqilabı ixrac etmək) xarici siyasətlə inqilabi şiəliyi nəinki yaya bilmədi, hətta ağır müharibəyə və

təklənməyə məruz qaldı. "Soyuq müharibənin" bitməsi ilə Avropada NATO-nun "lazımsızlığı" haqqında danışmağa başladılar. Xomeyninin ölümündən sonra (1989-cu il) Avropa dövlətləri (xüsusiylə Almaniya) İrana maraq göstərməyə başladı. "Sovet təhlükəsi"nin sovuşması siyasi qüvvələrə islahatlar aparmağa şərait yaratdı. 1997-ci ildən sonra M.Xatəminin islahatları İran gənclərini inqilabdan sonra ilk dəfə Vilayəti – Fəqih sistemini tənqid etmək həddinə gətirdi. Artan neft gəlirləri, 1990-cı illərdə ABŞ-ın dünyadakı təsirinin qəfil zəifləməsi islahatların reallaşmasına imkan yaratdı. Lakin 2001-ci ilin 11 sentyabrından sonra hər şey islahatçıların əleyhinə dəyişdi. Əfqanıstanın, İraqın ABŞ tərəfindən işğalı rəsmi Tehranı yenidən təhlükəsizlik haqqında fikirləşməyə məcbur etdi.

— 2005 – 2010-cu illərdə İranın "uran zənginləşdirməsi" istiqamətində aktivləşən fəaliyyəti ilə yadda qaldı. Buş hakimiyyətindən sonra dünyada təsiri güclənən ABŞ hətta Avropa dövlətlərini də İrana qarşı sərt mövqe nümayiş etdirməyə məcbur etdi. 2000-ci illərin ilk onilliyi rəsmi Vaşinqtonun aqressivliyi ilə yadda qaldı. İran Mahmud Əhmədinejatın simasında ABŞ-a qarşı radikal mövqedə dayanmağa məcbur oldu. Rəsmi Tehran "uranın zənginləşdirilməsi" məsələsindən geri çəkilmədi. 2013-cü ilin sonlarında Suriyada Bəşər əl Əsədi bir neçə həftəyə "həll edə bilməyən" rəsmi Vaşinqton və Səudiyyə Ərəbistanı qarşılarında İranın regiondakı təmsilçisi – Hizbullahı gördülər. Sünni ərəb şeyxləri Suriya məsələsinin Cenevrədə müzakirə edilməsinə müqavimət göstərə bilmədilər. 2014-cü ilin yanvarında Cenevrə - 2 danışıqlarına dəvət almayan İranın sonradan dəvət edilməsi rəsmi Tehranın regionda söz sahibi olmasına işarədir. ABŞ-ın İran daxilində etnik qarşıdurma yaratmaq cəhdlərinə qarşı rəsmi Tehran:

1. İran neftlə zəngin Xuzistanın ərəblər yaşayan bütün yaşayış nöqtələrində əks – kəşfiyyat işini ən yüksək səviyyəyə qaldırdı. Sərhəd zonalarında bir qrup ingilis hərbçisini ələ keçirdi. Fars körfəzində ABŞ gəmilərinə qarşı qorxubilməz şəkildə meydan oxudu;
2. İraq və Əfqanıstanda etnokonfessional qarşıdurmanı gücləndirdi. ABŞ-ı müdafiəyə keçməyə məcbur etdi.
3. Dağlıq ərazilərdə hərbi qüvvələrin sayını artırmaqla nəzarəti gücləndirdi.

4. Qərb dövlətlərini danışıqlar masasına əyləşməyə məcbur etmək üçün 2013-cü ilin sonunda Suriyadakı hadisələrin inkişafına müdaxilə etməklə ABŞ-ın planlarını alt – üst etdi.

Bütün bunların öhdəsindən gəlmək üçün İran tarix boyu ən yaxşı bacardığı işə minnətdardır. Bu iş farsların ilk dövlətindən başlayaraq, qurduqları kəşfiyyat, əks – kəşfiyyat işidir ki, həmişə yerli xalqların dəstəyinə ciddi diqqət ayırmışlar. Bu gün İranda eyni məntiqlə İnformasiya Nazirliyi (Vəzarəte Ettelaat) və "İslam İnqilabı Keşikçiləri Korpusu" (Sepahe – Pazdarane – Enqelabe – İslam) fəaliyyət göstərir.

Şimaldan  və şimal – şərqdən yeni dövlətlərin meydana gəlməsi rəsmi Tehranı narahat edirdi. Azərbaycanla Ermənistan arasında gərginləşən münasibətlər ciddi döyüşlər mərhələsinə keçdikdə azərbaycanlılar arasında yüksələn millətçi passionarlıq İranı da narahat etdi. 1990-cı illərin əvvəllərində Azərbaycanda hakimiyyətdə olan millətçi qüvvələr tərəddüd etmədən Araz çayından cənubdakı ərazilərin taleyi ilə bağlı tez – tez kəskin çıxışlar edir, rəsmi Tehranı ciddi şəkildə ehtiyat tədbirləri görməyə sövq edirdilər.

İranın Azərbaycan və Ermənistana münasibətində sonrakı dövrlərdə balanslaşdırma siyasəti müşahidə edilmişdir. Bu regiona münasibətdə bütün reallıqları, praktik siyasi fəaliyyət prinsiplərini nəzərə alan İran praqmatizm nümayiş etdirir. 1992-ci ildə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında diplomatik münasibətlərin tənzimlənməsi istiqamətində bir neçə müqavilə imzalandı. 2002-ci ildə isə Azərbaycanla İran arasında "Dostluq və əməkdaşlıq haqqında" və "Dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilələr imzalandı. Bununla da iki ölkə arasında tarixi köklərə söykənən əlaqələri bütün sahələrdə inkişaf etdirmək, bir – birinin suverenliyinə hörmət etmək və daxili işinə qarışmamaqniyyəti bəyan edildi. Xüsusiylə müqavilənin 5-ci maddəsində göstərilir ki, razılığa gələn tərəflərdən heç biri öz ərazisindən digər tərəfə qarşı təcavüz məqsədi ilə istifadə edilməsinə icazə verməyəcəklər. Bunla da Azərbaycan ABŞ-ın hər hansı diversiya planına qoşulmayacağını öhdəsinə götürdü.

1990-cı illərin ikinci yarısından başlayaraq rəsmi Tehran Cənubi Qafqazda nüfuz uğrunda mübarizəyə başladı. İmperialistlər Cənubi Qafqaza birbaşa deyil,

Türkiyə və ərəb ölkələri (BƏƏ, Qətər, Səudiyyə Ərəbistanı) kimi öz marionetkaları ilə müdaxilə edirlər. Bu marionetkalar İranın Zaqafqaziyada toqquşduğu ilk qüvvələr oldu. Ayətullah Hərəmullahi "İranın Qafqazdakı hədəfləri" əsərində yazır: "Türkiyədən fərqli olaraq bu gün İran dövləti Azərbaycan və Gürcüstan siyasətində xeyli geridə qalır. Buna görə də biz Azərbaycanda təsiretmə yollarına daha çox maliyyə sərf etməliyik. İctimai təsir vasitəsi qismində iki ölkə ziyalılarının arasında "obyektiv əlaqələr"in gücləndirilməsi, ağır həyat şəraiti olan elmi işçilərə "xüsusi qayğıların göstərilməsi", Azərbaycanın hər yerində fars dilinə olan marağın artırılması (xüsusilə şiə dindarlar arasında) və lazım olan ədəbiyyatın pulsuz və ya çoxucuz qiymətə satışının təşkili, əruz vəznində yazılan müasir ədəbiyyatın təbliğinin genişləndirilməsi və digər təsir vasitələri çoxşaxəli forma və məzmunda əsas fəaliyyət istiqamətinə çevrilməlidir".

İran bir çox tarixi, kultural, konfessional arqumentlərə söykənərək Cənubi Qafqazı öz nüfuz arelı kimi görür. Xüsusiylə "Qafqazda 17 şəhər" strateji baxışlar sistemi bir daha göstərir ki, rəsmi Tehran Cənubi Qafqazı İran sosiokultural arealının daxilində görür. "Qafqazda 17 şəhər" strategiyası İİR-in Cənubi Qafqazda dayaqlarını möhkəmləndirmək üçün mövcud potensialdan maksimum istifadə etməyi nəzərdə tutmuşdur. Bu potensial hər şeydən öncə Cənubi Qafqazın şiə (cəfəri) əhalisinin kompakt şəkildə məskunlaşdığı şəhərlər nəzərdə tutulur. Şiə əhalinin dəstəyini almaqla İİR-in nüfuzunu gücləndirmək "Qafqazda 17 şəhər" strategiyası adını almışdır.

İranın "Qafqazda 17 şəhər" strategiyası — Sovetlər Birliyi dağıldıqdan sonra İran özünün xüsusi doktrinasını hazırlamaq üçün ölkənin Qum şəhərində dini mərkəz yaratdı. Bir qədər sonra paytaxt Tehranda Xarici İşlər Nazirliyinin tərkibində "İranın Qafqaz və Orta Asiya Araşdırmalar Mərkəzi" yarandı. Hər iki mərkəzin Qafqaz siyasətində uzlaşdırılmış əsas hədəfləri isə bundan ibarətdir: "İndiki Ermənistan, Azərbaycan və Gürcütan tarix boyu "Böyük Ariya" – fars mədəni – siyasi arealının təsir dairəsində olub və SSRİ-nin dağılması ilə İranın nəzarətinə keçməlidir".

İran XİN-in nəzdində "Risalət" dərgisi bu strategiyanın elmi – nəzəri əsasları barədə araşdırmaları gündəmə nəşr etməyə başladı. "Risalət" dərgisinin ilk saylarında

belə qeyd olunurdu: "Azərbaycan Respublikasının təkcə adı belə, İran dövləti üçün daim təhlükə mənbəyi olacaq" (1991-ci il 2-ci sayı, səh.4). Tehran Universitetinin professoru Cavad Şəfinejad "Risalət" dərgisində belə qeyd edir: "İranın quzey qonşusu olan Azərbaycan Cənubi Qafqazda ən böyük dövlətdir. 2008-ci ildən başlayaraq Azərbaycanın milli gəlirləri sürətlə artmaqdadır. Bu ölkənin enerji resursları ilə paralel şəkildədigər iqtisadi sahələrin inkişaf etməsi İran üçün artıq çox ciddi problemlərə səbəb olacaqdır. Buna görə də "Arran" Mədəni Müəssisəsi regionda daha çevik fəaliyyət göstərməlidir. Xüsusilə məzhəb (cəfəri) müstəvisində gücləndirməklə hədəflərimizi modernləşdirmək strategiyası üzərində kökləməliyik".

Qumdan və Tehrandan istiqamətləndirilən hədəflərə hesablanmış İrəvan, Tiflis, Batumi, Sarvan (Marneuli), Rustavi, Dərbənd, Beyləqan, Bakı, Bərdə, Gəncə, Quba, Şəki, Lənkəran, Salyan, Mingəçevir, Sumqayıt və Şuşa şəhərlərini əhatə edən "Qafqazın 17 şəhəri" strategiyası İranın "Qafqaz siyasəti"nin əsas konseptual hissəsidir.

Şiələrin kompakt şəkildə məskunlaşdığı "17 şəhər" arasında, 20 ildən artıq bir müddətdə, tam gücü ilə fəaliyyətdə olan koordinasiya şəbəkəsi qurulmuşdur. Bu şəbəkəyə missioner birliklər, elm və ədəbiyyat xadimlərindən ibarət ictimai qurumlar, müxtəlif qəzet və jurnallar, sosial qruplar, biznes, maliyyə və xeyriyyə təşkilatları daxildir. Bütün bunları koordinasiya etmək məqsədiylə "Arran" mədəniyyət mərkəzi yaradılmışdır.

İranın Tehran, İsfahan, Yəzd, Qəzvin, Qum, Ərdəbil, Məşhəd, Kirman, Mazandaran, Rəşt, Lahican, Şiraz və digər universitetlərində işləyən mütəxəssislər tərəfindən hazırlanan layihələr ilk öncə İİR XİN-ə buradan "Arran" mədəniyyət mərkəzinə təqdim olunur. "Qafqazda iri şəhərlərin və onların ətrafındakı coğrafi ərazilərin qədim İran torpaqlarıdır" mövzusu İranın televiziya və radio kanallarında, qəzet və jurnallarında uzun müddətdir ki, geniş şəkildə təbliğ olunur. Bu strategiya orta və ali məktəb dərsliklərinə daxil edilmişdir. Bununla da hər bir İran vətəndaşının beynində "Cənubi Qafqaz İranın tarixi – coğrafi ərazisidir" anlayışı mövcuddur. Qafqazda fəaliyyət göstərən İrana məxsus biznes şəbəkələri "Arran"ın proyektlərinin maliyyələşdirilməsinə borcludurlar. "Arran" mədəniyyət mərkəzi vasitəsiylə

nəzarətində olmaqla Azərbaycan, Ermənistan və Gürcüstanın siyasi, hərbi, iqtisadi, sosial, mədəni, dini və digər sahələri barəsində məlumatlar əldə edən İran regionda operativ fəaliyyət imkanı əldə edir. İran Qafqazda ABŞ nüfuzunun genişlənməsinin qarşısını almağa çalışır. Qərbin Zaqafqaziyada möhkəmlənməsinin qarşısını almaqda İranın ən yaxın müttəfiqi Rusiya Federasiyasıdır.

"Böyük Ariya" və ya İran sosiokultural arelına daxil olan keçmiş post – Sovet ölkələrindən biri də Türkmənistandır. Türkmənistan müsəlmanlarının əksəriyyətini sünnilərin təşkil etməsinə, əhalinin türkdilli olmasına rəğmən, rəsmi Aşqabad İran üçün xüsusi strateji əhəmiyyətə malikdir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Türkmənistan bitərəfliyini elan edərək, ABŞ-ın İran əleyhinə blokada siyasətinə dəstək vermədi. Bununla da İran Orta Asiyaya yeganə çıxış yolunu qoruyub, saxlaya bilmişdir.

2. İran Xəzər dənizinin hüquqi statusu məsələsində rəsmi Aşqabada tam dəstək verir. Türkmənistanın Xəzərdəki pay bögüsü ilə bağlı Azərbaycana qarşı kəskin xarakterli iddiaları İrandan açıq dəstək alır.

3. İranın mavi qaz yataqları cənubda yerləşdiyi üçün şimaldakı şəhərlərin qazla təminatı məsafənin olduqca böyük olması səbəbindən şimal əyalətlərində Türkmənistan qazı istifadə edilir.

4. Türkmənistanın dəstəyi ilə rəsmi Tehran 2003-cü ildə Özbəkistan – Türkmənistan – İran – Qətər – Oman dəmiryolu xəttinin çəkilişi üçün müqavilənin imzalanmasına nail oldu. Bu xətt həm dənizdən, həm də qurudan keçməklə İranın uzun illərdir arzuladığı şimal – cənub koridorunu reallığa qovuşdurmalıdır.

Özbəkistandan fərqli olaraq, Türkmənistanda İrana isti münasibət olsa da, rəsmi Tehran bu əraziləri də İranın nüfuz dairəsinə daxil etmək istəyir. Rusiyanın kəskin reaksiya verə biləcəyi ehtimalı regionda təklənmək riskini artırdığı üçün rəsmi Tehran türkmənlərə münasibətdə xoşməramlı davranmağa meyl edir.

İİR Yaxın və Orta Şərqlə bağlı ABŞ-ın bütün planlarını inkar edir və rəsmi Vaşintonun ən yaxşı halda bərabərhüquqlu tərəfdaş kimi qəbul edilə biləcəyini bəyan edir. ABŞ-ın "Böyük Orta Şərq Layihəsi" İranın bir neçə hissəyə parçalanacağını nəzərdə tutur ki, bu da rəsmi Tehran tərəfindən şiddətli müqavimətlə rastlaşır. Etnik

azlıqlara dövlət verməyi nəzərdə tutan ABŞ İran daxilində etnokofessional qarşıdurmalara ümid edir. ABŞ-ın bu siyasəti İran hakimiyyətini etnik azlıqlara ciddi nəzarət etməyə məcbur edir. Sosial qruplara qarşı ayrıseçkilik meylləri azalsa da, İranda sabitliyin pozulması təhlükəsi aktuallığını saxlayır. İran region ərazisində bütün yollarla təhlükəni özündən uzaqlaşdırmağa çalışır. ABŞ-ın heç bir provokasiyasına getməyən İran silahlı qarşıdurmanı sərhədlərindən kənarda saxlamağa çalışır. İran hökümətinin "Böyük Orta Şərq Layihəsi"nə münasibətini Ali dini Rəhbər Ayətullah Xamneyi 2013-cü ilin noyabrın 3-də Məşhəd şəhərində bir qrup məktəbli və tələbə ilə görüşü zamanı belə açıqlamışdı: "ABŞ-ın keçmişinə baxdıqda nüvə məsələsinin İran xalqı ilə düşmənçiliyi davam etdirmək üçün bəhanədən başqa bir şey olmadığı aydındır. Amerikalıların İranla düşmənçiliyinin səbəbi İran xalqının onların istəklərini rədd etməsi və ABŞ-ın ölkəmizə qarşı heç bir şey edə bilməyəcəyi qənaətində olmasına görədir. Amerikalılar yalnız o zaman düşmənçilikdən əl çəkəcəklər ki, İran xalqı təcrid olunmuş, etibarsız, hörmətsiz bir xalqa çevrilsin. İran höküməti ABŞ-ın imperialist planlarının reallaşmasına heç vaxt imkan verməyəcəkdir".

## "Şeytani-Bozorg" – Böyük Şeytan şiəliyə qarşı

*İran "şər dövləti"*
*Corc Buş (oğul)*

XX əsrdə İranın ABŞ-la münasibətləri iki mərhələyə ayrılır:

— 1979-cu il inqilabına qədər ABŞ-ın regiondakı müttəfiqi olan İran CENTO-nun ("Central Treaty Organization" – "Mərkəzi Müqavilə Təşkilatı") mərkəzi üzv – dövləti idi.

— 1979-cu il İran İslam İnqilabından sonra ABŞ-dan uzaqlaşmışdır.

XX əsrin 70-ci illərinə doğru İran Qərb üçün bir çox aspektdən cazibədar idi:

- İranın Sovet İttifaqı ilə həmsərhəd olması Pentagona və Mərkəzi Kəşfiyyat İdarəsinə (MKİ – ingilis dilində "Central İdentity Agency" qısaca CİA) imkan verirdi ki, Sovetlərə qarşı provakativ, gizli əməliyyatlar həyata keçirsin.
- İranın böyük ölçüdə karbohidrogen ehtiyatlarına sahib olması – İranın bu günə qədər 93 mlr. barel neft ehtiyatına malik olması, dünyadakı neft ehtiyatlarının 9 %-nə bu ölkənin nəzarət etməsi deməkdir. 2020-ci ilə qədər gündəlik neft hasilatını 5,5 mln. barelə qaldırmaq planlaşdırılır. Bundan başqa İran dünyadakı təbii qazın 16 %-nə nəzarət etməklə Rusiyadan sonra ikincidir. Neft ixracından daxil olan gəlirlər İran büdcəsinin 80 %-ni təşkil edir.
- İran təbii sərvətlərlə zəngin ölkələr arasında ən böyük insan resurslarına malik ölkədir.

1979-cu il inqilabından sonra İran CENTO-dan çıxdığını, ABŞ-la diplomatik əlaqələrin kəsildiyini, İslam dünyasının imperializmə qarşı mübarizəsinə başçılıq edəcəyini elan etdi. inqilabçıların "nə Qərb – nə Şərq" siyasəti həm Sovetləri, həm də ABŞ-ı İrandan narazı saldı.

Sovet İttifaqı dağıldıqdan sonra ABŞ (Xomeyninin təbirincə desək "Böyük şeytan") İranın yeganə düşməni vəziyyətinə gəldi. İslam İnqilabı hakimiyyət uğrunda daxili mübarizə fonunda İranın xarici sıyasətini formalaşdırırdı. Müvəqqəti hökümətə başçılıq edən Mehdi Bazarqan, liberal islahatlara və ABŞ-la bərabərhüquqlu əlaqələrə meyl etdi. Bu vəziyyət Xomeynini ciddi şəkildə narahat edirdi. Dini hisslərin coşmasından öz xeyrinə istifadə edən Xomeyni ruhanilərin mövqeyinin güclənməsinə

çalışırdı. ABŞ-la əlaqələr ölkədə liberal, qərbsayağı, anti şəriət əhvali – ruhiyyəsi yarada bilərdi. İslam inqilabının dini əhəmiyyəti qalmazdı. Xomeyni deyirdi: "Şərqin bütün bəlaları bu işğalçılara görədir, müsəlmanlara bütün bədbəxtliklər Amerikadan gəlir....Amerikaya ölüm!" Xomeyni bu cür nitqlərlə daxildə narazılıqlardan diqqəti yayındırmaq, antiamerikan əhvali – ruhiyyəni davamlı olaraq yüksək səviyyədə saxlamaq üçün ABŞ faktorunu gündəmdə saxlamağa çalışırdı. Ölkədən qaçmış şahın xərçəng xəstəliyindən müalicə alması xəbəri İranda əsəbləri tarıma çəkdi.

Müvəqqəti hökümətin başçısı Bazargan, xarici işlər naziri Yəzdi, Hərbi nazir Çamra Əlcəzairdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Zbiqnev Bzejinski ilə danışıqlar apardığı bir vaxtda, Tehranda "İmam xətti davamçıları – müsəlman tələbələr" təşkilatı ABŞ səfirliyinə basqın etdi. 53 nəfəri diplomat olmaqla 100 nəfər ABŞ vətəndaşı girov götürüldü. Tələbələr ABŞ-dan şahın geri qaytarılmasını və imperializmə görə İran xalqından üzr istəməsini tələb etdilər. 6 nəfər diplomat qaçaraq, Kanada səfirliyində gizlənir. Kanadanın İrandakı səfiri Ken Teylor və immiqrasiya məsələləri üzrə məsul əməkdaşı Con Şerdaun ABŞ diplomatlarını saxta sənədlərlə İran – İsveçrə - Kanada – ABŞ marşrutu ilə vətənlərinə qaytara bilmişdilər. Sonralar xilaskar əməllərinə görə həm səfir K.Teylor, həm də C.Şerdaun, eləcə də onların xanımları Kanada və ABŞ hökümətləri tərəfindən orden (Kanada ali vətəndaş mükafatı ordeni) və medallarla (ABŞ Konqresinin qızıl medalı) təltif edildilər. ABŞ səfirliyinə basqın edilməsi 1961-ci il Vyana müqaviləsinin kobud şəkildə pozulması idi[36.səh.175].

Səfirliyə edilən basqından sonra M.Bazargan dərhal ölkəyə qayıdıb, 1979-cu ilin noyabr ayının 6-da istehfa verdi. Onun istehfası Xomeyni tərəfindən dərhal qəbul edildi. Xomeyni səfirliyə basqın hadisəsindən xəbərsiz olduğunu bildirsə də, "Xalqımız bu cəsur adımı dəstəkləyir" söyləməklə tələbələri dəstəklədiyini nümayiş etdirdi. Xomeyni ABŞ səfirliyini "casus yuvası" adlandıraraq, beynəlxalq qalmaqala start verdi. Bununla kifayətlənməyən Xomeyni radikal şəkildə söylədiyi nitqdə "...birinciylə müqayisədə, bu daha böyük inqilabdır" sözləri ilə dünyanı heyrət içində qoydu. 1979-cu il noyabr ayının 5-də Xomeyni söylədi ki: "ABŞ öz qatil əməllərindən əl çəkməsə, biz lazım olan hər şeyi edəcəyik".

Ruhanilər İslam rejiminin iqtidarını gücləndirmək, üçün sosial problemlərdən diqqəti yayındırmaq məqsədiylə "düşmən" yaratmaq istiqamətində ABŞ-dan istifadə edirdilər. Xomeyninin M.Bazargan hökümətini istehfaya göndərməkdə və ABŞ-la münasibətlərin gərginləşdirilməsində aşağıdakı maraqları var idi:

— Ölkədəki iqtisadi çətinliklərə etiraz edən kütlənin diqqətini antiamerikan etirazlara yönəltmək və xalqın inqilabi əhvali – ruhiyyəsini yüksək tempdə saxlamaq;

— İranda kapitalist dövlətlərin işinə mane olmaqla teokratik hakimiyyətin güclənməsinə nail olmaq;

— Ölkədə müxalifətə qarşı mübarizəni genişləndirmək;

— İslam Respublikasının yaradılmasında dini hisslərin coşmasından istifadə etmək.

İranı iqtisadi embarqoya məruz qoymaq  siyasəti uğur qazanmadı. ABŞ-dan başqa demək olar ki, heç bir dövlət İrana sanksiya tətbiq etmədi. SSRİ- nin ciddi müqaviməti üzündən ABŞ öz embarqolarını BMT-dən keçirə bilmədi. 7 aprel 1980-ci il ABŞ prezidenti C.Karter İranla bağlı mövqeyini açıqladı:

- diplomatik əlaqələr kəsildi;
- İrana qarşı iqtisadi embarqo tətbiq edildi;
- ABŞ banklarında olan İran vəsaitlərinə həbs qoyuldu,
- İranın ABŞ-dakı maliyyə vəsaitlərindən ABŞ-ın iddia etdiyi "dəymiş ziyana görə" ödəmələr çıxarıldı.
- İranlılar üçün ABŞ-a viza verilməsi qadağan edildi.
- ABŞ-dakı İran səfirliyi və 209 nəfər iranlı tələbədən 8 aprel 1980-ci il tarixinə qədər ölkə ərazisini tərk etmələri tələb edildi.

C.Karter və Z.Bzejinski ABŞ-dakı İran diplomatlarını həbs etməyi düşündülər. İranın bu vəziyyətdə ABŞ diplomatlarını güllələməsi ehtimalı yüksək idi. ABŞ səfirliyinin zəbt olunduğu günlərdə "Nyu York Tayms" (New York Times) qəzeti yazırdı ki: "Amerika silahlı qüvvələri... Əgər Qərbin neft maraqlarına təhlükə yaranarsa, vəziyyətə hərbi müdaxilə etməklə ABŞ-ın maraqlarını qorumağa hazırdır".

ABŞ 1980-ci ilin yanvarında Hindistandakı təvyarədaşıyan gəmilərinə 3 gəmi əlavə etdi. Apreldə ABŞ siyasi dairələri İrandakı girovların xilas edilməsi üçün

xüsusi əməliyyat keçirilməsinə qərar verdilər.Plana uyğun olaraq 6 ədəd S-130 "Herkules" tipli hərbi təyyarələr Misirin Vadi – Kəna aerodromundan havaya qalxmalı idilər. Bu aerodrom C.Nasir dövründə Sovet hərbçiləri tərəfindən tərk edilmiş aerodrom idi. Onların Tehranın 430 km cənub – qərbində yerləşən Böyük Duzlu Səhraya enməsi planlanmışdı. Eyni zamanda Oman sahillərində lövbər salmış "NİMUS" adlı təyyarədaşıyan gəmisindən 8 ədəd "Sea Stallion" ağır vertolyot 90 nəfərlik desant komandasını İran səmalarına daşıyırdı. Plana görə C. Karni (Mərkəzi Kəşfiyyat idarəsinin agenti) tərəfindən müəyyən edilmiş "Desert 1" ərazisinə eniş edilməli idi. Ertəsi gün axşam vertolyotlar təyyarələrin gətirdiyi yanacaqları özləri üçün tədarük edərək, 120 desantı Tehran yaxınlığına çıxarmalı idi. Desantlar Tehrandakı ABŞ səfirliyinin və İran Xarici İşlər Nazirliyinin binasına hücum etməli, bütün girovları azad edərək, yaxınlıqdakı "Əmcədiyya" stadionuna gətirməli idilər. Buradan isə yaxınlıqdakı Manzariyya hərbi bazasına aparmalı idilər. Burada gözləyən "Herkules" təyyarələr diplomatları Misirə aparacaqdılar.

Əməliyyatdan əvvəl Con Karni (MKİ agenti) İranın Duzlu Səhradakı Təbəs səhrasında, kiçik təyyarə ilə kəşfiyyat uçuşu həyata keçirmiş və eniş üçün uyğun məkan seçmişdi. Zolağın kənarlarına isə infraqırmızı şüalar quraşdırdı ki, gecə uçan pilotlar zolağı aydın seçə bilsinlər. ABŞ peykləri 90 gün Dəşti – Kəbir səhrası üzərində fasiləsiz nəzarət həyata keçirir və C.Karninin eniş üçün seçdiyi zolağın təhlükəsizliyindən əmin olmaq istəyirdilər. Dik Midouz (MKİ agenti) hücum üçün məxfi məlumatlar toplamışdı.

Bütün bu müddət ərzində "Delta Fors" (Delta Force) xüsusi təyinatlıları Koliforniya konyonlarında ağır şəraitdə, gərgin təlimlər keçirdilər. Əməliyyatın rəhbərliyini ABŞ ordusunun generalı Ceyms Vout həyata keçirirdi. Döyüş əmrinin icrasın başçılıq etmək, "Delta Fors" xüsusi təyinatlı briqadanın komandanı polkovnik Bekvitə tapşırıldı. Siyasi məsuliyyəti Bzejinski öz üzərinə götürdü.

Təbəs səhrasında 1980-ci il aprelin 24-dən 25-nə keçən gecə hava desant əməliyyatı həyata keçirildi. Fars Körfəzindəki ABŞ hərbi dəniz qüvvələri bu əməliyyatı tam şəkildə dəstəkləməyə hazır idilər. Gecə saatlarında ABŞ-ın S-130 tipli desant daşıyan 6 hərbi təyyarəsi Oman ərazisindən İrana doğru istiqamət götürdü.

Təyyarələr vertolyotlar üçün yanacaq daşımalı olsalar da, polkovnik Bekvit xüsusi təyinatlıların sayını artırdığı üçün vertolyotlara yerləşməyən hərbçilər iki "Herkules" təyyarəsinə yerləşdirildilər. Digər 4 təyyarə xüsusi rezin çənlərdə yanacaq daşıyırdı.

"Herkules" təyyarələrindən birincisi 100 metrdən də alçaqdan uçaraq İran sərhədini keçdi. İran radarları sərhəd pozuntusunu müşahidə edə bilmədi. Digər təyyarələr radarlarda görünsə də, iranlılar bunu öz təyyarələri hesab etdilər. İranın radar sistemi zəif olsa da, çox dəqiq işləyən səs izləyən aparatları var idi. ABŞ pilotları radioları söndürmüş, bir – birləri ilə jestlərlə danışırdılar. Təbii şərait tamamiylə ABŞ ordusunun əleyhinə idi. Əməliyyatın əvvəlində vertolyotlardan biri "Nimus" təyyarədaşıyan gəmisinə geri dönmüş, digər vertolyotlardan bir neçəsi texniki nasazlığa görə məcburi eniş həyata keçirmişdi. "Herkules" təyyarələrinin ilk qarşılaşdığı təbiət hadisəsi "Xabub" idi. "Xabub" ərəbcədən tərcümədə "tozlu hərəkət" mənasını verir. Yaxın Şərq səhralarına məxsus qum küləyidir. İsti hava təzyiq fərqi əmələ gətirərək, havada atmosfer axınını yuxarıdan – aşağıya doğru şaquli olaraq, hərəkət etdirir. Təzyiq isti qumları ətrafa sovuraraq nəhəng "qum divarları" yaradır. Amerikalılar bunu nəzərə almamışdılar. Həmin "qum divarları" 1980-ci il 24 – 25 aprel tarixində ABŞ Hərbi Hava Qüvvələrini ciddi uğursuzluğa düçar etmişdi.

Təbəs səhrasındakı "Desert 1" ərazisinə gəlib çatmış, təyyarələr yoldan keçən İran avtobusunu saxlayaraq, 40 sərnişini özləri ilə saxlayırlar. Çünki əməliyyatın gizli qalması üçün bu olduqca vacib idi. Bir qədər sonra yolda görünən yük maşını dayanmadığı üçün amerikalı əsgərlər onu qumbaraatanla məhv etdilər. Sürücü öldü. Digər sərnişin isə gizlənə bildi. Lakin amerikalıların problemi yalnız deşifrə olmaqla bağlı deyildi.

Çətinliklə "Desert 1" zonasına eniş etməyi bacaran, "Herkules" təyyarələrindən fərqli olaraq, onları izləyən "Sea Stallion" vertolyotları bu imtahandan çıxa bilmədilər. Bekvit əməliyyata cəmi 6 vertolyotla başlamaq istəsə də vertolyotlardan birinin mühərrikləri tozla dolduğu üçün heç cür hərəkətə gətirilə bilinmədi. ABŞ prezidenti vertolyotların çatışmazlığını nəzərə alaraq, əməliyyatın təcili ləğv edilməsini əmr edirdi. Evə qayıtmaq üçün təyyarələrə əyləşən əsgərlər faciə ilə

üzləşdilər.

"Herkules" təyyarələrindən biri havaya qalxmaq üçün sürət yığmalı idi. Bunun üçün "Sea Stallion" vertolyotlarından azı biri havaya qalxmalı ərazini boşaltmalı idi. Pilot Şefer öz vertolyotunu təxminən 8 metr hündürlüyə qaldırsa da, qumlu hava görüntünü məhdudlaşdırdığı üçün təyyarənin hərəkətini izləyə bilmirdi. Şefer təyyarənin artıq hərəkət etdiyini düşünərək, qəflətən "Herkules"in pilot kabinəsinə çırpıldı. Şefer zərbə nəticəsində huşunu itirdi. Alovlanmağa başlayan "Herkules" içindəki əsgərlərlə dəhşətli şəkildə partladı. Digərləri bütün texnikanı ərazidə qoyub təyyarələrə mindilər. Bütün "Delta Fors" heyəti Almaniyaya (AFR-Qərbi Almaniya) daşındı. Gizli planın sənədləri bütün İranın əlinə keçdi. Bu hadisəni İranda "Allahın İranı qoruması" kimi şərh etdilər.

Beləliklə Pentaqonun təkbaşına həyata keçirmək istədiyi "Eagle clow" (Qartal caynağı) hava – desant əməliyyatı acınacaqlı sonluqla bitdi. ABŞ əməliyyatda iştirak edən 6 təyyarəsindən 1 -ni, 8 vertolyotundan isə 6- nı itirdi. Bu hadisə həm də ABŞ-ı öz ordusunda, o cümlədən xüsusi təyinatlı mobil zərbə qüvvələrində ciddi islahatlar aparmağa vadar etdi. "Qartal caynağı" ("Eagle Clow") əməliyyatı nəticəsində ABŞ-ın canlı itkisi aşağıdakılardır:

1. ABŞ hərbi hava qüvvələri, Herkules S – 130 təyyarəsinin ekipajı - Mayor Harold Luis, Mayor Lin Makintoş, Mayor Riçard Bakke, Kapitan Çarlz Makmillian, texniki serjant Coel Mayo;
2. Sea Stallion RH – 53 vertolyotunun ekipajı – Staff serjant Dyui Con, Serjant Con Harvi, Kapral Corc Holms.

Cimmi Karter 1980-ci il prezident seçkilərində sabiq Hollivud aktyoru Ronald Reyqana məğlub oldu. İran – ABŞ əlaqələrindəki bu gərginlik iki vacib nəticə ilə bitdi:

- Rəsmi Vaşinqton öz hərbi qüvvələrinin sayını Fars körfəzi və Hind okeanında artırdı.
- Rəsmi Tehran bu cür antiamerikan kampaniya ilə daxili auditoriyanı öz ətrafında sıx birləşdirməyə çalışdı.

Ruhullah Ramazani (İran əsilli tədqiqatçı) vurğulayır ki, "M.Bazarqani

hökumətinin ABŞ ilə əlaqələri normal hala sala bilməməsinin səbəbləri müəyyənləşmişdi: girovlarla bağlı hadisəni iqtidar uğrunda mübarizə aparan dindarların sağ qanadı uğurla istifadə etdilər. Bu hadisə öz işini yerinə yetirdikdən (liberalları hakimiyyətdən uzaqlaşdırdıqdan) sonra bunu cilovlamaq lazım idi”. ABŞ-la əlaqələrin bərpası birmənalı şəkildə girovların azad edilməsindən keçirdi. Xomeyni yaxın qohumu olan S.Tabatabaini AFR-də 1980-ci ilin sentyabrında amerikan heyətiylə görüşə göndərdi.

Uzun danışıqlardan sonra İran parlamenti 1980-ci ildə noyabr ayının 2-si girovların qaytarılması haqqında qərar verdi. Girovlar 444 gündən sonra, 1981-ci ilin 20 yanvarında, Ronald Reyqanın (ABŞ prezidenti) inauqurasiya (andiçmə) günü azad edildilər. Əsirlərin qaytarılması müqabilində ABŞ:

- İranın keçmiş şahının milyardlarla ölçülən mülkünü geri verməli,
- İrana qarşı tətbiq etdiyi bütün növ bank – maliyyə sanksiyalarını və qadağaları qüvvədən düşmüş elan etməli,
- İranın bütün əmanətləri geri qaytarılmalı və İranla bağlı iddialrından əl çəkməli idi. İran öz borclarını ödəmək haqqında ABŞ-a zəmanət verməli oldu.

1980-ci illərin əvvəlləri üçün İran artıq regionun ən arzuedilməz vəziyyətdə olan dövlətinə çevrilmişdi. 1979-cu ildə SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsi İranı ciddi şəkildə narahat etdi. İraqda isə ərəb millətçiliyinin yüksəlməsi İrana qarşı ərazi iddialarının ciddi şəkildə artmasına səbəb oldu. Daxildə “Xalq mücahidləri” (Mücahidane Xəlq) təşkilatı ilə mərkəzi hakimiyyətin silahlı qüvvələri arasındakı qanlı toqquşmalar ciddi sayda insan tələfatına səbəb oldu.

İraqda hərbi çevriliş nəticəsində hakimiyyəti ələ almış Səddam Hüseyn demək olar ki, dünyanın hər tərəfindən xoş münasibət görməyə başladı. İraq həm SSRİ, həm də ABŞ-dan hər bir formada dəstək alırdı. İran isə 1982-ci ildə Livanda yaradılmış “Hizbullah”, “İslami cihad” kimi çoxsaylı kiçik təşkilatları müttəfiq qismində formalaşdırdı. İran İslam İnqilabından sonra İmam Xomeyninin nüfuzu regionda yaşayan şiə (əsasən cəfəri şiələr) məzhəbli insanlar arasında mütləq xarakter almışdı. İrandakı mövcud rejimin dəyişilməsində hamıdan artıq İsrail baş naziri Şimon Peres maraqlı idi. Gözlənilmədən İsrail özü üçün olduqca xoş xəbər aldı. 1980-ci il

sentyabr ayının 22-də təqribən bir il əvvəl İraqda hakimiyyətə gəlmiş Səddam Hüseyn İrana hücum etdi. Hücumun bəhanələrindən biri də əhalisinin əksəriyyətini şiələr təşkil edən İraqda rəsmi Tehranın Səddam Hüseynə qarşı yerli şiə müxalifətinə dəstək verməsi oldu. İsrail üçün bu müharibənin arzuedilən olması onunla bağlı idi ki, 1979-cu il Kemp – Devid müqaviləsindən sonra Misir kimi güclü ərəb dövlətini neytrallaşdırdıqdan sonra meydanda İraqla Suriya qalmışdı. Buvəziyyət İsrail üçün göydən düşmə hesab edilə bilərdi. İsraillilər Mənuçöhr Qurbanifərə İrandakı anti – Xomeyni qüvvələrinə kömək etməyi təklif etdilər.

Xomeyninin öz hakimiyyətini gücləndirmək üçün müharibədən istifadə etməsi nəzərdən qaçmamalıdır. 1980-ci ildə Səddam Hüseynin hücumu xəbərinə reaksiya kimi Xomeyni demişdir ki, "bu müharibə bizə birləşmək üçün Allah tərəfindən bir lütfdür. Biz buna görə Allaha təşəkkür etməliyik". Müharibənin sonuna – 1988-ci ilə qədər İranda 5 min siyasi müxalif edam edilmişdi.

Girov diplomatlar azad edildikdən sonra Xomeyni bu dəfə ABŞ-a təsir vasitələrini Yaxın Şərqdə axtarmağa başladı. İran 1982-ci ildə "Hizbullah" və "İslami cihad" birliklərinin köməyi ilə ABŞ vətəndaşlarını girov götürməyə başladı. ABŞ rəsmi Tehranla danışıqlara razılıq verdi. Girovlar müqabilində ABŞ İrana silah satışını təmin edəcəyini öhdəsinə götürdü. Silahlar İrana üçüncü dövlətin vasitəçiliyi ilə gəlməliydi. Silahların həcmi İran – İraq müharibəsi illərində ABŞ-ın İraqa etdiyi hərbi yardımla müqayisədə kifayət qədər az idi. İranın girov götürmək istiqamətindəki hərəkətləri aşağıdakıməqsədləri var idi:

1. ABŞ-ın İranla birtərəfli "nota dilində" danışmasının qarşısını almaq
2. İraqın zirehli texnika ilə təchiz edilmiş ordusuna qarşı yeni nəsil silahlar əldə etmək.

1984-cü ildə ABŞ Milli Təhlükəsizlik Şurasının Yaxın Şərq üzrə departamentinin direktoru Cefpi Kemp, Şuranın o zamankı rəhbəri Robert Makferleynin adına hazırladığı hesabatda İranda təxribatçılıq fəaliyyətini fəallaşdırmağı və ölkə daxilində əlaqələr yaradılmasını təklif etdi. Tehranda əlaqələr əldə etmək niyyətində olan Milli Təhlükəsizlik Şurası və Mərkəzi Kəşfiyyat İdarəsi

(ingiliscə CİA) hər şeydən əvvəl, girovların azad edilməsi yönündə danışıqlar aparmaq üçün vasitəçilər tapmağa ümid edirdilər.

İran şahının gizli polisinin (SAVAK) sabiq əməkdaşı, beynəlxalq silah ticarəti ilə məşğul olan Mənuçöhr Qurbanifər İranda Xomeyniyə qarşı mübarizə aparan qüvvələrə yaxın idi. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Keysi Qurbaniféri İran kəşfiyyatına işləməkdə, iranlılar isə İsrailin "Mossad" kəşfiyyat idarəsi ilə əməkdaşlıqda şübhəli bilirdilər. Sonralar Robert Makferleyn Qurbanifər haqqında deyirdi: "O, mənim bu vaxta kimi rast gəldiyim ən böyük əclaflardan biri idi".

İsrail hökuməti İran – İraq müharibəsinin uzun müddət davam etməsinə çalışırdı. Səddam Hüseynin başı İran cəbhəsinə o qədər qarşmışdı ki, Təl – Əviv səmalarında İraqın MİQ-17, MİQ-21 təyyarələrinin uçuşları da ciddi şəkildə azalmışdı. Bu hücumların azalması İsrailə havadan effektiv müdafiə sistemləri yaratmaq üçün əlverişli şərait qazandırdı. Müharibədən sonra İraq təyyarələri nəinki, İsrail səmalarına yaxınlaşa bilmədilər, hətta Səddam Hüseynin pilotları yerdən havaya qalxdığı andan etibarən İsrailin havadan müdafiə sistemləri olan - "HETZ" radarları tərəfindən hədəfə alınırdı. 1981-ci ildən rəsmi şəkildə vəzifəsinin icrasına başlayan ABŞ prezidenti R.Reyqan İrana qarşı kəskin mövqe nümayiş etdirdi.

İsrailin vasitəsilə İrana ABŞ istehsalı olan silahların göndərilməsi həm ABŞ, həm də beynəlxalq qanunlara zidd idi. Alıcı (mövcud vəziyyətdə İsrailin) satıcının (yəni ABŞ-ın) formal razılığı olmadan reeksport (üçüncü tərəfə ixrac) etməyə ixtiyarı yox idi. Prezidentin yazılı icazəsi olmadan hətta MKİ bu cür irimiqyaslı əməliyyat keçirməyə səlahiyyəti yox idi. MKİ bu əməliyyatlar barədə Senatı da xəbərdar etməli idi. ABŞ hökuməti İranla apardığı sövdələşmədə aşağıdakı maraqları var idi:

- İrandakı keçmiş mövqelərini yenidən əldə etmək
- İraq hakim dairələrinə təsir etmək
- Fars körfəzində kəşfiyyat – baza nöqtələri əldə etmək
- İrana silah ötürməklə "mötədil" qüvvələrin mövqelərini gücləndirmək və rəsmi Tehranın siyasi kursunun dəyişilməsinə nail olmaq.

İrana silah ötürməkdə vasitəçilik edən İsrailin marağında Səddam Hüseynin

ağır itkiyə məruz qoyulması dayanırdı. İsrailin baş naziri Şimon Peres tank əleyhinə raketlərin və zenit raketlərin alqı – satqısının ABŞ rəhbərliyi tərəfindən rəsmiləşdirilməsini tələb edirdi. Amerikalılar isə raketlərin həqiqətən nüfuzlu qruplaşmanın əlinə düşməsinin sübutunu tələb edirdilər. Livanda "Hizbullah" tərəfindən saxlanılan girovlardan birinin azad edilməsi tələb edildi. 1985-ci ilin 30 avqustunda İlk silah partiyası, ikincisi isə elə həmin ilin 14 sentyabrında İrana gətirildi. Sentyabr ayının 15-də "Hizbullah" Livanda ələ keçirilmiş keşiş Bencamin Ueyri azad etdi.

1979-cu ildə İranda İslam inqilabının baş verdiyi vaxt Nikaraquada Auqust Sezar Sandino adına "Milli Azadlıq Cəbhəsi" adlı radikal solçu hərəkat ölkənin prezidenti Anastasio Somosu devirdi. Somosun ailəsi Nikaraquanı faktiki olaraq 43 il boyunca idarə etmişdi. ABŞ-ın dəstəklədiyi "kontras" ("contra" - "əks" sözündən) adlanan dəstələr qonşu Hondurasda yerləşirdilər. ABŞ Konqresində hesab edirdilər ki, Reyqan belə əməliyyatların keçirilməsində bütün hüdudları keçir. 1985-ci ildə "Hərbi xərclər barədə qanun"a iki düzəliş edildi. Nikaraqua partizanlarına dəstək üçün büdcə pullarının istifadəsinə Konqres tərəfindən qadağa qoyuldu. ABŞ-ın Milli Təhlükəsizlik Şurasının rəhbərinin müavini Oliver Nort və Mərkəzi Kəşfiyyat idarəsi ilə əməkdaşlıq edən istefada olan general Riçard Sikord "kontraslar" üçün silah, hərbi ləvazimat, ərzaq, tibbi ləvazimat, dərmanlar və s. ilə təmin edən kommersiya müəssisələrinin şəbəkəsinə nəzarət edirdi.

1985-ci ilin dekabr ayında İsrailin baş naziri Şimon Peresin terrorizmlə mübarizə üzrə müşaviri Amiram Nirin, Mənuçöhr Qurbanifərin (Mamburqda fəaliyyət göstərən İran əsilli biznesmen), Oliver Nortun (ABŞ ordusunun keçmiş dəniz piyadaları zabiti) və artıq fərdi şəxs qismində iştirak edən Robert Makferleynin (dekabr ayının 4-də prezident yanında milli təhlükəsizlik məsələləri üzrə müşavir vəzifəsində onu admiral Con Poyndekster əvəz etmişdi) apardığı danışıqlar ABŞ-dan İrana birbaşa silah göndərilməsi ideyasını meydana çıxardı. İran 4 min ədəd tank əleyhinə raketin əvəzinə Livanda "Hizbullah" tərəfindən saxlanılan bütün girovların azad edilməsini öhdəsinə götürdü. Yeni planda İraq hərbi qüvvələri barədə məlumatların İrana ötürülməsi də nəzərdə tutulmuşdu. Oliver Nort bu planı Milli

təhlükəsizlik üzrə Şuraya təqdim etdi. Şuranın sədri Con Poyndekster isə onu prezidentin razılığı olmadan qəbul etdi. 1986-cı ilin yanvarında prezident Ronald Reyqan bu planın həyata keçirilməsinə yazılı icazə verdi. Bu sənəd bütün bu əməliyyatlar zamanı prezident tərəfindən imzalanmış ilk sənəd oldu.

İrana min ədəd raket göndərərək yalnız bir nəfər girovun azad edilməsini əldə etmiş amerikalılar, 1986-cı ilin yazı üçün aldadıldıqlarından şübhələnməyə başladılar. Prezident Reyqan Con Poyndekstərə İran hakimiyyətinin nümayəndələri ilə görüşməsini tapşırdı. May ayının 23-də ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri C.Poyndekster, Oliver Nortun, Robert Makferleynin və həmçinin İsrailin nümayəndəsi Amiram Nirin (inkoqnito qismində) müşayiəti ilə Tehrana gəldi. “Boeing – 707” təyyarəsində müxtəlif növ iri və xırda çaplı silahlar. Tehranda Mənuçöhr Qurbanifərin söz verdiyi İran hakimiyyətinin yüksək vəzifəli rəsmiləri ilə deyil, bir neçə nəfər üçüncü dərəcəli məmurla görüşdülər.

Qurbanifər İrandakı nüfuzunu və əlaqələrini qiymətləndirərkən həddən artıq şişirtmişdi. Qurbanifərin bir daha girov götürülməyəcəyinə dair verdiyi zəmanətə rəğmən, Livanda “Hizbullah” daha üç amerikalını girov götürdü. General Riçard Sikord fırıldağın davam etməsi üçün “ikinci bir kanal” tapdı. Məşhur tarixçi – yazıçı, uzun illər MKİ-nin “Mossad”dakı nümayəndəsi olmuş Tomas Gordon yazdığı “Mossad Gizli Tarixi” kitabında bu kanalın Farzad Bazoft olduğu göstərilir.

Farzad Bazoftun SAVAK-ın, Sepahın, İsrailin, S.Hüseynin mənafeyi üçün xidmət göstərən gizli təşkilatlara işlədiyi iddia edilirdi. S.Hüseyn bu kəşfiyyatçını 1992-ci ildə asarkən, məhz İsrailə xidmət etdiyini əsas gətirmişdi. F.Bazoft isə “...mən heç vaxt İsrail üçün çalışmamışam” söyləmişdi. Oktyabr ayının 29-da bu kanal vasitəsilə İrana daha 500 ədəd raket gətirildi. Noyabr avının 2-də isə daha bir girov azad edildi.

“İran fırıldağı” nəticəsində Milli Təhlükəsizlik Şurasında qeydiyyatdan kənar çox böyük miqdarda pul məbləği yığıldı. Silah satışından əldə edilən pullar Nikaraquada solçu hökümətə qarşı döyüşən “Kontras” qruplaşmasının ehtiyaclarının ödənilməsinə xərclənirdi. Robert Sikord da daxil olmaqla ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin nəzarətində olan təyyarələr həm İrana, həm Hondurasa, həm də

Nikaraquaya silah daşıyırdılar.

1986-cı il oktyabr ayının 5-də Nikaraqua səmasında Amerikaya məxsus olan yük təyyarəsi vuruldu. Silahla dolu olan təyyarənin sükanı arxasında olan pilot Yucin Heyzenfus sorğu – sual zamanı təyyarədə onunla birlikdə uçan hər iki nəfərin MKİ-də işlədiyini bildirdi. 1986-cı ilin noyabr ayının 3-də Livanın "Əş – Şira" qəzeti bütün prosesin gizli məlumatlarını əldə edərək kütləvi şəkildə işıqlandırdı. Bu məlumatlarda ABŞ prezidentinin milli təhlükəsizlik üzrə sabiq müşaviri Robert Makferleynin 1986-cı ilin may ayında gizli şəkildə Tehrana getməsi barədə məqalə çap edildi. Həmçinin İranla ABŞ arasındakı silah alverində Makferleyndən əlavə CİA-in məsul vəzifəli şəxsi – Oliver Nortun və İsrailin ən gizli casuslarından olan – Amiram Nirin adları çəkilirdi.

Həm ABŞ, həm də İranda bu məlumatlar ciddi qalmaqal yaratdı. Noyabr ayının 13-də Ronald Reyqan xalqa müraciətlə çıxış etməyə məcbur oldu. Reyqan İranla yalnız Livanda saxlanılan girovların azad edilməsi üçün diplomatik münasibətlər qurmağa çalışdığını söylədi. Reyqan girovları silahla dəyişdirməsini tamamiyilə inkar etdi.

Noyabr ayının 25-də R.Reyqan özünün milli təhlükəsizlik üzrə müşaviri Con Poyndeksteri və onun müavini Oliver Nortu istefaya göndərdi. Milli Təhlükəsizlik Şurasının fəaliyyətini yoxlayacaq xüsusi komissiya yaradıldı. Komissiyanın tərkibinə respublikaçı senator Con Tauer, sabiq dövlət katibi Edmund Maski və Cimmi Karterin dönəmində milli təhlükəsizlik üzrə müşavir olmuş Brent Skaukroft daxil edildi. Baş prokuror Edvin Miz Oliver Nortun fəaliyyətinin hərtərəfli şəkildə araşdırılacığı barədə söz verdi.

E.Miz "İran – Kontras" çərçivəsində maliyyə fırıldaqlarının ilkin qiymətləndirilmələrini açıqladı. Baş prokurorun sözlərinə görə, bu fırıldaq çərçivəsində təkcə 1986-cı il ərzində İsrailə 12 milyon dollar həcmində silah göndərilmişdir. İsraillilər isə bu silahların İrana satılmasından 40 milyon dollar əldə edildiyini, bu pulların 12 milyonu Pentaqona, yerdə qalan məbləğ isə Nikaraqua "kontraslarının" ehtiyaclarına xərcləndiyini açıqladı. Bütün məsuliyyəti O.Nortun üzərinə qoydu.

Poyndekster və Nortun Milli təhlükəsizlik Şurasında son üç iş günü ərzində “İran – Kontras” fırıldağı ilə bağlı böyük miqdarda sənədləri məhv etdikləri aşkarlandı. Nort sonralar bunu bu sənədlərdə adı çəkilən insanların həyatını təhlükəyə atmamaq üçün etdiklərini söylədi.

1987-ci il fevralın 26-da senator Con Tauerin komissiyası bu işlə bağlı 200 səhifəlik hesabatını açıqladı. Hesabatda bütün günah C.Poyndeksterin və O.Nortun üzərinə qoyuldu. Ronald Reyqan isə öz administrasiyası üzərində nəzarəti itirdiyinə görə yüngülcə ittiham etdilər.

Ronald Reyqana bu plan barədə 1985-ci ilin 13 iyulunda məlumat verilmişdir. Əsas diqqət bu plan nəticəsində ABŞ-ın Tehranda nüfuzlu tərəfdaşlar tapacağına və bununla da SSRİ-nin Yaxın Şərqə ekspansiyasının məhdudlaşdırılacağına yönəldilmişdi. R.Reyqan həmin vaxt Merilend ştatının Betes şəhərindəki hərbi – dəniz hospitalında qalın bağırsağın xərçəngi xəstəliyindən cərrahiyyə əməliyyatına hazırlaşırdı.

Sonralar Robert Makferleyn prezidentin bu planın həyata keçməsinə razılığının olduğunu bildirdi. Reyqanın özü isə ömrünün sonuna kimi bu fikirdən xəbəri olduğunu inkar edirdi. Mart ayının 4-də Reyqan yeni televiziya müraciəti ilə çıxış etdi: “Mən öz hərəkətlərimə və öz administrasiyamın hərəkətlərinə görə bütün məsuliyyəti öz üzərimə götürürəm. Mənim xəbərim olmadan atılmış addımlara görə mən nə qədər qəzəbli olsam da, hər halda bu hərəkətlərə görə mən məsuliyyət daşıyıram. Mənim yanımda işləyən istənilən məmurun hərəkətlərinə görə Amerika xalqı qarşısında mən cavab verməliyəm”.

Noyabrın 18-də Konqresin xüsusi komissiyası öz hesabatını təqdim etdi. Konqresdə çoxluq demokratların əlində olduğu üçün Ronald Reyqanın ünvanına olan tənqid kifayət qədər kəskin idi. C.Poyndeksterin və O.Nort isə sənədlərin çoxunu məhv etdiyi üçün prezidentin nə dərəcədə məsələlərdən xəbərdar olmasını müəyyən etmək mümkün olmadı.

1986-cı ilin oktyabr ayında Reyqanın dəstək reytinqi 67 faiz, noyabrın sonlarında isə bu dəstək reytinqi 46 faizə qədər düşdü. 1989-cu ilin yanvarında Reyqan öz prezident kürsüsünü Corc Buşa (ata) təhvil verib gedəndə onun reytinqi 64

faiz idi ki, bu da vəzifəsindən gedən prezident üçün rekord göstərici idi.

O.Nort ona "immunitet" veriləcəyi təqdirdə ifadə verməyə razılaşdı. 1989-cu ildə keçirilən məhkəmə Nortun Konqresə danışdıqlarından başqa Norta qarşı heç bir iddiası yox idi. C.Poyndeksterlə də bu cür davrandılar. "İran – Kontras" işində iştirak etdikləri üçün məhkum edilmiş Robert Makferleyn, Kaspar Ueynberger və Reyqan administrasiyasının daha dörd əməkdaşı 1992-ci ildə ata Corc Buşdan prezident əfvi aldılar.

Seyid Əli Xamneyi isə bu biabırçılığı "müharibədə qazanılmış qələbədən daha vacib qələbə" kimi dəyərləndirdi. Makferleyn İrandan çıxarılsa da, rəsmi Tehran açıq bildirirdi ki, bu ticarət gələcəkdə də davam etdirilə bilər. Lakin Xomeyni bu əlaqələrin nəticəsi kimi ABŞ-ın İranda nüfuzunun artmasından və bu əlaqələrin nəzarətdən çıxmasından narahat idi. 1980-ci illərin ortaları ABŞ İsrailin "Kəşfiyyat və Xüsusi Tapşırıqlar Bürosu" ("Ha Mossad le Modiin ül Tafkidim Meyuhadim" qısaca "Mossad") tərəfindən yaxşı təşkil olunmuş bazarlıq nəticəsində İrana ciddi ölçüdə zenit kompleksləri verdi ki, bu da sonralar Səddama qarşı havadan effektiv müdafiə qurmaqda əhəmiyyətli rol oynadı. İranın yüksək dairələri hər dövriyyədən 10% olmaqla yüksək qazanc əldə etdilər.

Ronald Reyqanın yanında vitse – prezident olan Corc Buş ("ata") 1988-ci ildə prezident seçkilərində qələbə qazanaraq, respublikaçıların hakimiyyətini daha 4 il müddətinə uzatdı.

Qanundan kənar razılaşmalar sayəsində 1983-cü ildə ABŞ – İran ticari dövriyyəsi 1,5 mlr. dolları keçdi. İnqilab zamanı dəyən ziyana görə ABŞ-ın 25 bankı və 100-ə qədər şirkəti təzminat aldı. 1987-ci ildə bu ticari dövriyyə neft nəzərə alınmadan 730 mln. dollar təşkil etmişdi. 1985 – 1987-ci illərdə ABŞ İrandan gündəlik 260 min barel neft idxal etmişdi. İran parlamentinin sədri Ə.H.Rəfsəncani fransız telekanallarına müsahibəsində bildirmişdi ki: "İran İslam Respublikası heç bir zaman ABŞ-dan mal idxalına "Yox" deməmişdir. İranda böyük ölçüdə amerikan texnologiyaları və silahları vardır. Bizə onların hissələri və ləvazimatları lazımdır. Amerikanlar isə İran neftini ala bilərlər. Bizim onlarla düşmən rəftarımız hər şeydən öncə onların bizə düşmən rəftarından qaynaqlanır".

Mühafizəkar qüvvələrin xarici siyasətdə axsamaları reformçu (islahatçı) qrupların seçkilərdə qələbəsinə şərait yaratdı. Doğrudur, ABŞ-ın tələb etdiyi

a. Nüvə silahının istehsalı problemi

b. Terrorizmi dəstəkləmək məsələsi

c. İsrail-ərəb münaqişəsinə müdaxilə etmək və s. şərtlər reformçular tərəfindən də həll edilməmiş qaldı.

2011-ci il 11 sentyabrdan sonra ABŞ tərəfindən KXDR və Suriya ilə birlikdə "Şər üçbucağına" daxil edilmiş İran beynəlxalq aləmdə çətin vəziyyətə düşdü. Siyasi dairələr təzyiqlərin qarşısında dayanmaq məqsədilə xalqa məhdudiyyətlər tətbiq etmək və özlərini vətən uğrunda mübarizə aparan "Müqəddəslər" kimi kütlələrə təlqin etməyə çalışırdılar. Bununla belə insanlara ABŞ-ın təzyiqləri ucbatından ağırlaşan həyatlarını mərdlik və dözümlə, "Allah və ədalət" uğrunda apardıqları mübarizədən yayınmamaqla yaxşılaşdıra biləcəklərini qeyd edirlər.

İran İslam Respublikasına qarşı tətbiq edilən hər cür sanksiya və embarqolar nəinki dini rejimi zəiflədir, əksinə xalqa üzərində daha çox nəzarət etməyə sövq edərək, daxili audotoriyanın dini hisslərindən bəhrələnib öz ətrafında birləşdirir.2005-ci ildə prezident seçilmiş Mahmud Əhmədinejad H.Rəfsəncani və M.Xatəmiyə nisbətən daha radikal idi.

İran siyasi dairələri ölkə əhalisi üzərində ideoloji təzyiq vasitəsiylə, xarici düşmənlərin müdaxiləsinə qarşı möhkəm birliyin saxlanılmasına çalışır. Bu birlik şiə propaqandası ilə müşayiət olunmaqla dini rejimin yaşamasına xidmət edir. İran dini hakimiyyəti ölkədaxili təbliğatı antiimperialist kontekstdən apardığı üçün əlçatmazlıq və müzakirə olunmazlıq qazanır. İranın nüvə enerjisindən istifadə etməsində və daxili auditoriyanı öz istədiyi kimi istiqamətləndirməsində xarici siyasi məqsədləri də mövcuddur:

1. Əvvəla ABŞ-ın simasında imperializmə meydan oxuyaraq, nüvə fəaliyyətini davam etdirən İran həm qonşu ərəb ölkələrində, həm də digər müsəlman ölkələrində nüfuzunu genişləndirir (xüsusən şiələr arasında).

2. Anti – İsrail mövqeyi ilə İslam dünyasının rəğbətini qazanmış İran nüvə fəaliyyətinə görə ehtimal edilə biləcək etirazların miqyasını bu istiqamətdə azalda

bilmişdir.

3. Nüvə silahının əldə edilməsi İran hakim dairələrinin Yaxın və Orta Şərqdə söz sahibi olacaqlarına bütün hadisələrə istiqamət verə biləcəklərinə dərin inam yaratmışdır.

4. İran İslam Respublikasının Konstitusiyasının 13.21, 13.22 və 152-ci maddələrində göstərilən İslam dünyasının maraqları və müsəlman qardaşlığının təminatı üçün nüvə silahı cəlbedici görünür.

5. İranın şiəliyi yaymaq və İran mədəniyyəti arealında inqilabı ixrac etmək kimi doktrinası bu silahla yenidən hərəkətə gələ bilər. Belə ki, inqilabı ixrac etmək və bu kimi digər fikirlər 1988-ci ildən demək olar ki, siyasi leksikondan çıxarılmışdır.

İranın strateji məqsədlərinə çatmasına və beynəlxalq arenada müqavimətinin artmasına kömək edəcəyi düşünülən nüvə silahı həm Pakistan, həm də KXDR-nin simasında özünə nümunə tapır. Nüvə silahına malik olan Şimali Koreyaya qarşı heç bir silah işlədilməmiş və əksinə bu silaha malik olmayan Səddam Hüseyn öz ölkəsində leqal şəkildə asıldı. ABŞ kontekstindən "Böyük Orta Şərq" geopolitik proyektinin özəyini tamamlayaraq, regionu davamlı və stabil nəzarətdə saxlamaq üçün İranı itaətə gətirmək lazımdır. İran və Suriya Avrasiyanın cənub çıxışlarıdır. Üç dənizin arasında yerləşən bu üçbucaq (Xəzər - Fars - Aralıq dənizləri arası) ABŞ üçün həyati əhəmiyyət kəsb edir. ABŞ-ın Avrasiyaya qarşı atacağı addımlar yalnız bu regionun tam nəzarətə alınmasından sonra mümkündür. ABŞ-la qarşıdurmadan çəkinməyən İranın müttəfiqləri də elə həmin Avrasiya ölkələridir. Rusiyanın yaratmağa çalışdığı Avrasiya İttifaqı ABŞ-ın Şərqdəki maraqlarına zərbə endirməyi nəzərdə tutur."Böyük Orta Şərq" layihəsində önəmli yeri olan İrana qarşı ABŞ-ın potensial variantları bunlardır:

- Diplomatik həll variantı
- İrana qarşı iqtisadi embarqo
- İrandakı etnik qrupların İran rejiminə qarşı istifadə edilməsi.

Bütün Dünya diplomatik həllin olmayacağı halda ABŞ-ın atacağı addımları maraqla gözləyir.

1. ABŞ etnik azlıqların İran hakimiyyətinə qarşı qaldıra bilər ki, bu öz

əksini həm də “Böyük Orta Şərq” layihəsinin xəritələrində tapmışdır. Bəluclara, azərbaycanlılara, kürdlərə xüsusi önəm verən ABŞ bu istiqamətdə istifadə edəcəyi xalqlara dövlət verməyi də düşünür. Lakin azərbaycanlıların şiə məzhəbinə malik olması, İslam İnqilabının baş tutmasında xüsusi fəallığını nəzərə alsaq, bu xalqın İranın bütövlüyünə qarşı istifadə edilməsi çətin olacaqdır. İran xalqları arasında bu rolu oynaya bilən ən uğurlu seçim – kürdlərdir. Kürdlərin İran mərkəzi hakimiyyətinə qarşı uzun illər mübarizə təcrübəsi mövcuddur.

2. İslam İnqilabından baş verməsindən indiyə qədər ABŞ-ın təkbaşına elan etdiyi embarqolar 2006-cı ildə Vaşinqtonun təzyiqi ilə Avropanın bir çox aparıcı dövlətlərinin də ciddi şəkildə qoşulmasına gətirib çıxardı.

Vyanada qəbul edilən iqtisadi embarqolar İran dövlət xadimlərinə viza verilməməsi, onların xaricdəki mülklərinin dondurulması, İrana strateji malların göndərilməsinin qadağan edilməsi və s. yer alır. İran isə Vyanada danışıqların getdiyi zaman nəinki, nüvə fəaliyyətini dayandırmadı, əksinə uranın zənginləşdirilməsinin yekun mərhələdə olduğunu bildirdi.

2006-cı il Mart ayının 11-i İranın daxili işlər naziri bildirir ki, İran Hörmüz boğazından neftin daşınmasının qarşısını ala bilərdi. Bu isə Səudiyyə Ərəbistanı,Bəhreyn, BƏƏ, Küveyt, İraq neftinin daşınmasını da təhlükə altına alırdı. Neftinqiymətini isə 100 dollardan yuxarı qaldıracağını elan etdi. Neftin qiymətinin qalxması isə Rusiyayasərfəli olsa da, Çinə və Hindistana qorxunc kabus kimi görünürdü. Çinin neftdənkorluq çəkməsi, ABŞ-a da sərf edir. Amma ABŞ-ın Avropa müttəfiqləri isə bunanarazılıq edirlər. Çünki, İran neftinin alınmasına qoyulan qadağa onları olduqcaağır vəziyyətə sala bilərdi. Bundan əlavə maliyyə böhranında çabalayan Avropaya ABŞ-ın dəstəyi lazım idi. iran neftinin əvəzinə isə Avropalılara Liviyada və Aralıq dənizinin yeni yataqlarında pay verilməsi haqqında fikirlər eşidilməyə başlanmışdı.Lakin başqa tərəfdən İranın ticarət tərəfdaşı olmasa, Çin nəinki neft alacaq, hətta İran öz neftini ucuz qiymətə satmağa məcbur olacaqdır. Bu da ABŞ-ın maraqlarına zidd olacaqdır. Lakin Avropa Birliyi ölkələri hesab edir ki, İranı iqtisadi embarqolarla sarsıtmaq və müxaliflərə dəstək verməklə reformlar keçirmək, demokratik institutların yaranmasına nail olmaq mümkün olacaqdır. Lakin

başqa bir konteksdən İran xalqı öz haqqı hesab etdiyi nüvə enerjisini əldə etmək üçün embarqolara qarşı İranın teokratik hakimiyyəti altında birləşəcək. Bu da İranın mühafizəkar rejimini gücləndirəcəkdir.

İrana qarşı tətbiq edilə bilən variantlardan biri də açıq hərbi müdaxilədir ki, bu da həm Yaxın və Orta Şərqi,həm də bütün dünvanı ağır vəziyyətə salacaqdır. Neft qiymətlərinin artması ilə dünya təsərrüfatı böhranla, durğunluqla və iflasla nəticələnəcəkdir. Bu da bütün dünyanın, eləcə də amerikan cəmiyyətinin Vaşinqton hökümətinə müxalifətdə yer alacağına səbəb olacaqdır.

İİR Yaxın və Orta Şərqin gələcəyinə dair bütün planların istiqamətini dəyişməyə qadir rıçaqlara sahibdir. ABŞ-ın hər cür təhdidlərinə baxmayaraq, rəsmi Tehran hələ də özünün prinsipial mövqelərindən geri çəkilməmişdir. İranda 2014-cü il prezident seçkilərindən sonra hakimiyyətə gəlmiş Həsən Ruhani Avropa ölkələri ilə konstruktiv danışıqların dəstəkçisi kimi çıxış etsə də, rəsmi Tehran regiondakı təsir rıçaqlarını hələ də əlində saxlayır. 2011-ci ildən Suriyadakı vətəndaş müharibəsində müxtəlif şəkildə iştirak edən İİR Bəşər Əsədin hakimiyyətinin demək olar ki, qarantıdır. “Hizbullah”ın köməyiylə radikal islamçıların (süni qruplaşmalar) böyük şəhərlərdən çıxarılması Suriyada Əsədin mövqelərini möhkəmləndirdi. Radikal islamçıların (sünni qruplaşmalar) Suriyanın şimalında və İraqın qərb torpaqlarında 2014-cü ilin ortalarından başlayan cinayətləri müxtəlif ərəb paytaxtları tərəfindən dəstəklənirdi. Qətər, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri hər cür köməklik göstərməklə Suriyadakı radikalları istədikləri şəkildə idarə edirlər.

ABŞ-ın “Böyük Orta Şərq” strategiyası İranın regiondakı rıçaqlarını məhv etmədən reallaşması mümkün deyildir. Lakin bu rıçaqların məhv edilməsi üçün atılacaq hər bir addımın nəticəsində regionda geniş masştablı toqquşmalar qaçılmazdır. İranın müqavimətinin qırılması təhlükəsi yarandığı zaman Rusiya açıq şəkildə Yaxın və Orta Şərqə müdaxilə edəcək. Rusiyanın ABŞ-a qarşı müqaviməti Şərqi Avropadakı ABŞ mövqelərinə hücum etməklə də reallaşa bilər. 2014-cü ilin əvvəllərindən başlayaraq Ukraynanın cnub – şərqində baş vermiş toqquşmalar buna açıq sübutdur.

# İran, “Köhnə Qitə” və Yankilər

*İran ədəbiyyatı Avropaya humanistlik gətirdi*

*İ.Göte*

İran Qərblə münasibətləri e.ə. V əsrin ortalarına qədər gedib çıxır. Əhəmənilərin (“Haxa Manaş” və ya “Ahaman”) sülaləsinin Yunanıstan ərazisində apardığı müharibələr Avropa ilə ilkin əlaqələrin yaranmasına səbəb oldu. Avropa – İran münasibətlərinin müharibə forması Makedoniyalı İsgəndər və Roma imperiyası tərəfindən də davam etdirilmişdir.

Erkən orta əsrlərdə bu əlaqələri ciddi şəkildə zəiflətdi. XV əsrdə Ağqoyunluların Osmanlıya qarşı müttəfiq axtarmaq məqsədiylə Venesiya, Genuya, və ayrı – ayrı alman Königləri (knyaz) ilə apardığı danışıqlar, XVI əsrdə Səfəvilərin Portuqaliya, Şalke ilə yaxınlaşması Avropa – İran əlaqələrinin müasir təməllərini qoymuşdur. XIX əsrdə İran tarixində ilk dəfə olaraq ABŞ missionerləri ilə əlaqə yaradıldı.

XIX əsrdə İranın yarımmüstəmləkə vəziyyətinə salınması prosesi özünün eskalasiyasına(yüksəliş) çatmışdır. İran bu dövrdə iqtisadiyyatın zəifliyi, siyasi – ictimai, hərbi – texniki gerilik ilə xarakterizə olunurdu. Qərblə münasibətlərdə metropoliya – monopoliya münasibətləri sezilirdi. Qacarlar sülaləsi bu vəziyyəti dəyişmək istiqamətində siyasi iradə nümayiş etdirmirdilər. Qacar şahlarının və imperialistlərin İrandakı soyğunçuluq siyasətləri XX əsrin ilk onilliklərində inqilabi çıxışlara səbəb oldu. 1905 – 1911 -ci illərdə baş vermiş “Məşrutə İnqilabı” və 1917 – 1920-ci illərdə İranın şimal əyalətlərində baş verən inqilabi hadisələr bir daha göstərdi ki, İran əhalisi şah mütləqiyyətində yaşamaq və onun imperialist müttəfiqlərinə qulluq etmək istəmir. I Dünya müharibəsindən sonra İran uğrunda İngiltərə - ABŞ mübarizəsi başlandı.

1925-ci ildə hakimiyyətə gəlmiş Rza şah əvvəlcə ingilislərlə sonra isə Almaniya ilə (1933-cü ildə A.Hitler hakimiyyətə gəldikdən sonra) yaxınlaşmaq hesabına İranda milli dövlətin quruculuğu yolunda ciddi nailiyyətlər əldə etdi. Qacarların devrilib, modern, milli dövlətin yaradılması istiqamətində proseslər başladıqdan sonra İran aktiv aktora çevrildi.Rza şah “Müttəfiqlərin” maraqlarını təmin etmədiyindən 1941-ci ilin payızında hakimiyyətdən uzaqlaşdırıldı. Oğlu

Məhəmməd Rza İran şahı elan edildi. 1940-cı illərin ortaları ABŞ-ın İrandan İngiltərəni tam sıxışdırıb çıxardı. CENTO-nun üzvü olan İran ABŞ-la müttəfiqlik münasibətlərini davam etdirirdi. CENTO İranın simasında SSRİ-nin cənub sərhədlərini nəzrətdə saxlayırdı. İranda mövcud olan feodal torpaq sahibliyi və infrastrukturun müasir standartlara cavab verməməsi iqtisadiyyatı geri salan əsas foktorlardan idi. Təhsilin kütləviləşdirilməsində sürətin aşağı olması insan resurslarından düzgün istifadə etməyə imkan vermirdi. Sosial – iqtisadi problemlərlə paralel ölkədəki şiə din xadimlərinin antişah və anti İsrail propoqandası güclənirdi. Neft gəlirlərinin düzgün bölüşdürülməməsi, onun yaratdığı iqtisadi fəsadlar geniş kütləəri din xadimlərinin təbliğatına vasitə olmağa sövq edirdi. Xalq kütlələrinin çıxışları inqilabı yetişdirdi. Şah devrildi.

ABŞ-ın xüsusi xidmət orqanlarının SSRİ-yə başı qarışdığı bir vaxtda CENTO-nun düz mərkəzində nə Z.Bzejinskinin, nə də Dövlət Katibi Henri Kissencerin hesablaya bilmədikləri hadisə - İran İslam İnqilabı baş verdi. Xomeyni beynəlxalq şəraitdən yararlanaraq kütlələri şahın üzərinə qaldırdı. 1979-cu ildən başlayaraq ABŞ-ın sözəbaxan müttəfiqi Məhəmmədrza şah devrildi. 1979-cu ildə İran İslam İnqilabının lideri Xomeyni şah hökümətinin xarici siyasətini kökündən dəyişdi. Yeni tipli İran – Qərb münasibətləri formalaşmağa başladı. Orta Şərqdə onsuz da tam nəzarəti ələ keçirə bilməyən ABŞ indi də Fars körfəzi rayonunda yeni problemlə üz – üzə qaldı.

1979 – 1980-ci illərdə Xomeyni bütün hakimiyyəti öz əlində cəmləməyə çalışırdı. Lakin hələ hakimiyyətdə onunla bərabər qeyri - dini dairələr də var idi. ABŞ-la danışıqlara can atan bu dünyəvi qüvvələr Xomeyni tərəfdarları tərəfindən kəskin tənqidə məruz qalırdılar. Liberal qanadı neytrallaşdırmış Xomeyni ümumi referendumla İİR Konstitusiyasını qəbul etdirdi (1979, 1-3 dekabr). Xomeyni öz rəqiblərini neytrallaşdırdıqdan sonra Qərblə münasibətlərin qurulmasına özü cəhd etdi. Xarici müdaxilə və iqtisadi çətinlik Xomeynini Qərblə münasibətləri istiləşdirməyə məcbur etdi. Xüsusən embarqolara qoşulmayan Avstriya, İsveçrə kimi Avropa dövlətləri ilə iqtisadi əlaqələr quruldu. Almaniya İrandan qovulmuş kapitalist dövlətlərinin yerini tutmağa çalışırdı.

Xomeyni ən zəruri məhsullar və dərmanlar üçün sosialist bloku ölkələrinə müraciət etməli olmuşdu. Başda Sovet İttifaqı olmaqla bütün Şərqi Avropa köməyə tələsdi. Sovet İttifaqının siyasi nüfuzu İranda narahatlıqla qarşılandı. Bu məsələyə Mehdi Bazarganın mövqeyi xüsusi diqqətə layiqdir: "Biz ABŞ və SSRİ ilə eyni anda mübarizə apara bilmərik. Kommunistlərin İran üçün daha ciddi təhlükə törətdiyini görməliyik". İran Əfqanıstanla sərhədində Sovet İttifaqına qarşı döyüşən mücahidlərin toplanmasına göz yumurdu.

1979-cu ildən İran İslam Respublikasına qarşı elan edilən embarqo və sanksiyalar ilk öncə rəsmi Vaşinqtonu maraqlandırırdısa, daha sonra bu məsələdə Avropanın aparıcı dövlətləri də maraqlı görünməyə başladılar. Avropalıların böyük ümid bəslədiyiBazarqan ABŞ və Avropa ölkələri ilə əlaqələrin yumşaldılmasına çalışdığı üçün dindar dairələrin təzyiqi ilə 1980-ci il noyabr ayında istefa vermişdi.1979-cu ildə itirdikləri mövqeləri qaytarmaq ümidini də itirən Avropa ölkələri (xüsusilə Fransa) İrana qarşı embarqoları dəstəklədi. Kommunizmə qarşı elan etdiyi "cihad" (müqəddəs müharibə) İranın Sovet İttifaqından ala biləcəyi dəstəyi də aradan qaldırdı.

Belə bir mürəkkəb vaxtda İraq İrana müharibə elan etdi. Səddam Hüseyn 1975-ci ildə OPEK-in Qətərdə keçirilmiş zirvə toplantısında imzalanmış, İran – İraq sərhəddini müəyyənləşdirən "Müqəddəs Müdafiə" (Defae – moqəddəs) və ya "Qadisiyyət – Səddam" adlanan müqaviləyə etiraz edirdi. Bu müqavilə İran – İraq sərhədini Şəttül - ərəb çayından hesab edirdisə, Səddam Hüseyn bu sərhədi bir qədər də Şərqə tərəf çəkərək, İranın ərəblər yaşayan Xuzistan, Abadan ərazilərinin qərb hissəsinə iddia edirdi. Şəttül - ərəb çayı Dəclə və Fərat çaylarının qovuşmasından yaranmış, neftlə zəngin, axar su hövzəsidir. Bundan əlavə, neft ixracı sahəsində rəqabət, sünni - şiə ziddiyəti bu müharibəyə səbəb oldu. Bəhanə isə İraqın cənubunda İraqın baş naziri Tariq Əzizin şiələr tərəfindən sui – qəsdə məruz qalması oldu. İranda ABŞ səfirliyinin tutulması və girov götürülmüş diplomatların azadlığı çətinləşdiyi üçün S.Hüseynin İrana hücumuna Qərb ölkələri heç bir reaksiya vermədilər. ABŞ tərəfindən "Firodi qlikol" qazının İraqa keçirilməsi təşkil edildi. Müharibə Xomeyninin hakimiyyətini gücləndirməyə kömək etdi. Müharibənin siyasi

mənada nə qədər sərfəli olmasına baxmayaraq, İran iqtisadiyyatına dəyən ziyan olduqca böyük rəqəmlərlə ifadə olunurdu. İran – İraq müharibəsi İrana 1 trilyon dollar ziyan vurdu. Bu da həm daxildə narazı qüvvələrin artmasına, həm də xarici təsirlərin güclənməsinə şərait yaradırdı. Xomeyni 1981-ci ildə solların nümayəndələrini hakimiyyətdən göndərməklə dini dairələrin mövqelərini gücləndirmiş oldu. Ölkədəki terror hadisələri və etnik qrupların silahlı mübarizəsi (xüsusən kürdlər) xaos yaradırdı.

Xomeyni hakimiyyətin bütün səviyyələrində öz yaxınlarını yerləşdirdikdən sonra xarici ticarət əlaqələri Yaponiya, AFR, İngiltərə, İsveç, Fransa və Avstriya kimi dövlətlərə kurs götürdü. 1980-ci ildə İngiltərə ilə 971 mln., Yaponiya ilə isə 1,58 mln., dollar həcmində ticarət dövriyyəsi reallaşmışdı. 1982 – 1985-ci illərdə bu rəqəm 4 – 5 mln. dolara yüksəldi. Yaponiya İranın xarici ticarət partnyorları arasında birinci yeri tuturdu. Ölkədəki xaos və iqtisadi vəziyyətin ağırlığı İranı Qərblə danışıqlara məcbur etmişdi. İran bağlamış olduğu “neft kranları”nı yenidən açdı. 1987-ci ildə İtaliyanın 40 şirkəti “Şimali Fars” yatağında fəaliyyət göstərirdi. İnqilabı qorumaq üçün onun xarici düşmənlərini azaltmaq və daxildə inkişafa nail olmaq olduqca vacib idi. Rəsmi Tehran daxili isahatlara və xarici siyasətdə “yumşalma” nümayiş etdirməyə başladı. İraq ordusu İrandan tamamiylə çıxarıldı.

Xomeyni öldükdən sonra teokratik rejim yumşalmağa başladı. Xomeyninin ölümündən sonra İranda siyasi dəyişikliklərə cəhd edən Rəfsəncani 1989-cu il seçkilərindən sonra hakimiyyətə gəldi. Politoloqlar tərəfindən “texnokrat hökümət” adı ilə tanınan Rəfsəncani hökümətı zamanında əldə edilmiş uğurlar tarixi faktlarda öz təsdiqini tapır. 1989-cuildə Körfəz ölkələrinin Qətərdə keçirilmiş zirvə görüşündə İranın iştirakı və bu ölkələrlə yaxınlaşmaq məqsədiylə müqavilələrin imzalanması baş verdi. İran həm ərəb ölkələri, həm də Avropa dövlətləri ilə əlaqələri bərpa edə bildi. 1993-cü ildə Klintonun yeni embarqoları açıqlananda nə AB, nə Türkiyə, nə də Körfəz ərəbləri bu embarqolara ciddi yanaşmadılar. İran 90-cı illərdə “gülümsəyən İslam” görünüşü yarada bilmişdi. İranın bu cür islahatlar keçirməsinə Sovetlər İttifaqının dağılması da şərait yaratmışdı. Hər an cənubdakı “isti dənizlərə enmək” kimi təhlükəli arzusu olan SSRİ artıq mövcud deyildi. İran üçün daxili potensialı

daha çox islahatlara yönəltməyə şərait yaranmışdı. Avropa dövlətləri ilə ABŞ arasındakı çatlar, artıq NATO-ya ehtiyacın qalmadığı haqqında söyləntilər və ABŞ-ın avropalılarla artıq diktə diliylə danışa bilməyəcəyini anlaması İranın bir sıra Qərb dövlətləriylə yaxınlaşmasına şərait yaratdı.

M.Xatəmi hakimiyyətə gələn kimi ümumi islahat cərəyanını davam etdirərək, Vətəndaş cəmiyyəti və Hüquqi dövlət quruculuğu yolunda siyasi islahatlar keçirdi. 1997-ci ilin martında İslam Konfransı Təşkilatı ölkələrinin Tehranda keçirilən zirvə görüşündə İran özünün "mülayimləşmə" siyasətini açıqladı. İİR qonşu ölkələrlə və xüsusiylə İslam ölkələri ilə sıx iqtisadi əlaqələrin arzusunda olduğunu ifadə etdi.

Bütün bunlarla bərabər İran hələ də tam güvənilən iqtisadi tərəfdaş, mehriban qonşu kimi qəbul edilmirdi. Şiəlik bir strategiya kimi yayılmağa istiqamətlənmiş və inqilabı genişləndirməyi nəzərdə tuturdu. Rəsmi Tehranın siyasi ritorikasında açıq ifadə edilir ki, "Allahdan olan bu hakimiyyət" yer üzərində haqq - ədaləti qurmaq, yaratmaq funksiyası daşıyır. 1993-cü ildə ABŞ-ın tələbləri qəbul edilmədiyindən bu həm ərəb, həm də post-sovet ölkələrində narahatlıq yaratdı. Belə ki,

1. Kütləvi qırğın silahlarının istehsalından boyun qaçırmaq
2. Terrorizmi dəstəkləməmək
3. İsrail-ərəb münaqişəsinə müdaxilə etməmək və yəhudi dövlətinə qarşı kəskin mövqe nümayiş etdirməmək ciddi tələb kimi qoyulmuşdu.

İran Avropa dövlətləri ilə münasibətləri nisbətən yaxşılaşdırmağa nail oldu. Dünya Bankı İİR-ə kreditlər ayırmağa başladı. 2000-ci ildə Xatəmi bildirdi ki: "İran bütün bu islahatları taktiki addım kimi deyil, həm milli, həm də beynəlxalq maraqların təhlükəsiz təminatı baxımından məqsədli şəkildə həyata keçirirdi". ABŞ-ın 1990-cı illərdə İrana qarşı ciddi cəbhə yarada bilməməsi də məhz reformçuların Körfəz ölkələri və İslam dünyası ilə münasibətləri yaxşılaşdırması ilə bağlı idi. 1995-ci ildə ticari embarqoları elan edərkən dünya dövlətlərini cəlb edə bilməyən ABŞ digər dövlətlərə təzyiqləri artırdı.

İranda dini hakimiyyət gücləndikcə Avro – Atlantika onunla münasibətlərin heç də istiləşməsinə həvəs göstərmirdi. ABŞ-ın İrana qarşı iddiaları digər xarici qüvvələrin də təzyiqinin artmasına gətirib çıxardı. İran həm xarici siyasətdə ABŞ-a

qarşı dayana bilmək, həm də daxildə antiamerikan əhval-ruhiyyə yaratmaq üçün əvvəllər imtina etdiyi nuklear fəaliyyətinə start verdi. 1979-ci il İslam İnqilabından sonra Xomeyni tərəfindən nüvə fəaliyyəti qadağan edilmişdi. Hətta bu silahın İslam qaydalarına zidd olduğu söylənildi. Buna baxmayaraq İran – İraq müharibəsi və xarici təzyiqlər daxildəki qüvvələri anti – amerikan ruhda birləşdirməklə İranı bu məsələyə bir də qaytardı. Lakin bu dəfə İranın əməkdaşlıq etdiyi qüvvələr onun xarici düşmənlərinə çevrilmişdilər. Pakistandan xammal istənilməsinə baxmayaraq, ABŞ-ın müdaxiləsi nəticəsində uğursuzluğa düçar oldu. İran uzun müddət nüvə enerjisini əldə etmək üçün çalışmış, lakin obyektiv şərait imkan vermədiyi üçün uranın zənginləşdirilməsi hələ də başa çatdırılmamışdır. İran nüvə sənayesi ilə XX əsrin 50-ci illərindən maraqlanmağa başlamışdır. II Dünya müharibəsindən sonra ABŞ kommunizmin genişlənməsinə qarşı İran və digər ölkələrin ərazilərində gizli şəkildə nüvə sənayesi yaradırdı. Sovet İttifaqının nüvə silahı əldə etməsindən sonra ABŞ bu silahın yayılmaması üçün aktiv fəaliyyətə keçmişdir.

1953-cü il hərbi çevrilişindən sonra ABŞ-ın İranda təhlükəsiz şəkildə mövcud olması vacib məsələlərdən idi. 1959-cu ildə Eyzenhauer hökuməti ilə İran şahı arasında hərbi – siyasi müqavilə imzalandı. Kirmanşah, Təbriz, Tehran, Həmədan, Şiraz, İsfahan, Əhvaz, Dizful, Məşhəd, Abadan, Bəndər - Abbas şəhər və limanlarında Amerika bazaları quruldu.

1970-ci illərdə dünya bazarında neftin qiymətinin qalxması bombardmançı təyyarələrin alınmasını sürətləndirdi. 1973 – 1974-cü illərdə yalnız ABŞ-dan 6,8 mlr. dollar dəyərində ən yeni nəsil silah alınmışdı. Məhəmməd Rza Pəhləvi İranı ən azı regionun hegemon dövlətinə çevirmək istəyirdi. İranın böyük aqrar ölkə olması, heç bir industrial infrastruktura malik olmaması buna imkan vermirdi. şah və onun ətrafında olan texnokrat dairələr islahatlar aparmağa məcbur oldular. 1963-cü il 23 yanvar referendumundan başlayaraq davam edən bu tədbirlər “Ağ inqilab” adını aldı. İslahatlar əsasən aqrar sahəyə yönəlmiş və torpaq mülkiyyəti məsələlərində narazılığı yatırtmaq, inkişafa nail olmaq məqsədi güdürdü. İranın xarici gəlirlərinin 80%-i neft sahəsindən gəldiyi üçün şah bu vəsaitin yeni sənaye sahələrinə yönəltməyi qərara aldı. Pakistanı, Türkiyəni hətta bəzən İraqı tələm-tələsik bütün sahələrdə

qabaqlamağa çalışan şah ölkəyə ən yeni, qeyri-ənənəvi sənaye sahəsini – Atom sənayesini gətirməkdə israrlı idi. 1974-cü ildən bahalaşan neft qiymətlərinə söykənərək, söylədiyi nitqdə Məhəmməd Rza şah demişdir ki, "...yaxın 20 ildə ölkə ərazisində 20 min vattlıq AES-lər qurulacaqdır". İran şahı 1976-cı ildə Almaniyanın Kraftwerk (KWU) Şirkəti ilə müqavilə bağlayır. Almanlar İranın Buşehr şəhərində 1200 megavattlıq stansiya qurdular. 1977-ci il müqaviləsi ilə Fransa Bəndərabbas liman şəhərində 900 megavattlıq stansiya tikməli idi. İran şahının nüvə siyasətinin məqsədləri bunlar idi:

1. Regionda aparıcı dövlətə çevrilmək.
2. Nüvə enerjisi neft gəlirlərindən asılılığı azalda bilərdi, bu enerji ölkədə elektrik ehtiyacını ödəyə bilər, təsərrüfatı inkişaf etdirməkdə yararlı olardı.
3. Nüvə enerjisi ucuz elektrik, inkişaf elmiş təsərrüfatla bərabər həm də narazılığı aradan qaldırar, daxili sabitliyi təmin edərdi.

1984-cü ildə İsfahanda nuklear (nüvə) araşdırma mərkəzi yaradılmış, Haşimi Rəfsəncaninin başçılığı ilə Almaniya və Fransa ilə danışıqlar aparılmışdır. 1987-ci ildə Çindən kiçik kalutron (uranın zənginləşdirilməsi üçün sınaq aparatı), 1985-ci ildə isə reaktor alındı. Lazım olan miqdarda diosid-uran isə Argentinadan gətirildi. İran-İraq müharibəsindən sonra nüvə enerjisi istehsalına xüsusi diqqət ayıran İran bu məsələdə Rusiya ilə yaxınlaşlaşdı.

1990-cı illərdə Rusiya ilə nüvə enerjisinin istehsalı istiqamətində əməkdaşlıq İrana nüvə fəaliyyəti üçün imkanlar verir, Rusiyaya 1 milyard dollar dəyərində vəsait gətirirdi. Rusiya üçün dağılmış iqtisadiyyatı dirçəltməkdə bu vəsait mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda Rusiya İİR-in nüvə silahı siyasətinə nəzarət etmək imkanı qazanırdı.

1992-ci ildə İran ilə Rusiya arasında atom enerjisindən dinc məqsədlər üçün istifadə haqqında saziş imzalandı. 1995-ci ildə Rusiya Buşehrdə AES-in birinci blokunun tikintisinin başa çatdırılması haqqında sazişə imza atdı. Alman mütəxəssislər İranda fəaliyyətini dayandırdıqdan sonra bu tikinti yarımçıq qalmışdı. İranın nüvə proqramı sahəsində Avropa dövlətləri ilə danışıqlar İİR-in Ali Milli Təhlükəsizlik Şurası (Şurayi – Ali – Emniyyete – Milli) tərəfindən aparılırdı.

1995-ci ildə ABŞ İrana qarşı iqtisadi sanksiyanın tətbiqinə başladı. Qor – Çernomordin memorandumundan sonra Rusiya İrana hərbi texnikanın verilməsini dondurdu. 1998-ci ildə Buşehrdə AES-in tikintisinə başlanıldı. 2001-ci ildə Xatəminin Moskvaya səfərindən sonra Rusiya İrana hərbi texnikanın verilməsini bərpa etdi.

2003-cü ildə isə ABŞ İranı gizli atom silahı üzərində iş aparmaqda ittiham etdi. Bütün imkanlarını səfərbər edən ABŞ İranı beynəlxalq aləmdən təcrid etməyə çalışırdı.Beynəlxalq Atom Enerjisi üzrə Təşkilatın 1993-cü ildə qəbul etdiyi “92+3” protokolunu imzalamaqdan imtina edən İran 2003-cü ildə Fransa, Almaniya və Böyük Britaniyanın təzyiqləri ilə nüvə silahının yayılmaması haqqında sazişə əlavə olan protokola imza atmağa razı oldu. Bu protokol MAQATE müfəttişlərinə imkan verirdi ki, İranın nüvə obyektlərini yoxlasın. İran parlamenti bu sənədi ratifikasiya etmədi. İran Beynəlxalq Atom Enerjisi Agentliyinin (ingilis dilində “IAEA”, rus dilində “МАГАТЭ”) müfəttişlərinə yoxlama aparmağa imkan vermədi. 2004-cü ilin sentyabrında Beynəlxalq Atom Enerjisi Agentliyi İrandan nüvə proqramı haqqında beynəlxaq aləmə dəqiq məlumat verməsini tələb edən bəyannamə qəbul edirlər.

Böyük Britaniya İranı uranın zənginləşdirilməsini dayandırmağa çağırır. Fransa, Almaniya və Böyük Britaniya bildirirlər ki, İran nüvə əldə etmək sahəsində 12 ildir ki, gizli iş aparır. Sentyabrın 14-də İran hakimiyyəti uranın zənginləşdirilməsini dayandırmaq tələbini rədd edir. Bu cavabdan dərhal sonra ABŞ Beynəlxalq Atom Enerjisi Agentliyindən tələb edir ki, İranın nüvə proqramı haqqında hesabatı 2004-cü il oktyabrın 31-ə kimi açıqlasın.

ABŞ İranın qara bazardan nüvəmaterialları əldə etdiyindən əmin idi. ABŞ bu məsələni BMT-nin Təhlükəsizlik Şurasının iclasında müzakirə olunmasını tələb edirdi. 2004-cü ilin sentyabrın 16-da ABŞ peykdən çəkilmiş şəkilləri beynəlxalq ictimaiyyətə təqdim edir. Bu şəkillərdə Tehrandan 30 km cənub-şərqdə Parçin adlı yerdə nüvə silahı əldə etmək üçün gizli poliqonun görüntüləri var idi. ABŞ İran ərazisinə hava zərbələri endirməyin mümkünlüyünü söyləyirdi. Sentyabrın 18-də Beynəlxalq Atom Enerjisi Agentliyi İrandan noyabrın 25-ə kimi uranın zənginləşdirilməsini dayandırmağı və nüvə obyektlərin qapılarını beynəlxalq

müşahidəçilər üçün açmağı tələb etdi. İran hakimiyyəti bu tələbi özü üçün təhqir hesab etdiyini, heç bir ultimatumu qəbul etməyəcəyini və uranın zənginləşdirilməsini dayandırmayacağını bildirdi.

Noyabrın 15-də İran razılıq verir ki, noyabrın 22-dən uranın zənginləşdirilməsini dayandırsın. Avropalılar bunun qarşılığında İrana nüvə yanacağını və atom texnologiyasını verəcəyinə söz verir. 2005-ci il yanvarın 29-da Beynəlxalq Atom Enerjisi Agentliyi rəhbəri M.Əl – Baradei məlumat verir ki, İranın nüvə proqramı məsələsinin həllində kompromis üçün irəliləyiş əldə olunmuşdur. Martın 11-də ABŞ dövlət katibi K.Rays bildirir ki, İran nüvə proqramından imtina edərsə, ABŞ İranın Ümumdünya Ticarət Təşkilatına üzv olmasına dəstək verəcəkdir. 90-cı illərdə və 2000-ci illərin əvvəllərində İranla əlverişli müqavilələr imzalamış avropalılar ABŞ-ın təzyiqiylə İranla normal münasibətlər qura bilmir, beynəlxalq aləmdə anti – İran mövqeyi ilə gündəmə gəlirdilər.

2005-ci ildən sonra sentrafuqlar üzərində ciddi işləyən İran höküməti artıq 2010-cu ildə “sarı piroq” istehsal edən İsfahan zavodunun ilk məhsulunu aldı. Buşəhrdəki sentrafuqun reaktoruna ilk “sarı piroq” daxil edildi. Bu hadisə İranı uranın zənginləşdirilməsində irəliyə doğru atdığı ən böyük addım idi. İranın nüvə sahəsində alim – mütəxəssisi Məcid Şəhriyari (Mossad və ya Mİ-6 tərəfindən törədildiyi iddia edilir) qətlə yetirildi.

Almaniya İran kartı ilə ABŞ-a “siyasi ticarət” təklif edirdi. Maliyyə böhranı ucbatından əzilmiş Avropa dövlətlərini öz nüfuz dairəsinə qapadaraq, AB-ni möhkəmləndirməyə çalışan A.Merkel İrana qarşı tutacağı sərt mövqe müqabilində ABŞ-dan ucuz kredit tələb edir. ABŞ-a isə Rusiya ilə Çinin müqavimətini sındırmaq üçün Avropa Birliyinin (AB) dəstəyi vacibdir.İran AB üçün həm xammal, həm də bazar əhəmiyyəti daşıdığına görə İranın bütün bunları məhdudlaşdıran siyasi addımları rəsmi Tehranı AB-yə qarşı qoydu. AB-nin neft ehtiyacını digər mənbələrdən ödəmək bahasına ABŞ-ın AB-yə geniş imkanlar verəcəyi gözlənillir. 2000-ci illərin əvvəllərindən reallaşması istiqamətində praktik addımlar atılmış “Böyük Orta Şərq” Proyektində AB-nin maraqlarını bir o qədər nəzərə almamış “Ağ Ev” bu plana yeni düzəlişlər edir. Lakin İrana qarşı maliyyə, ticarət və xüsusilə neft

ticarəti sahəsində embarqolar Çinin əl – qolunu İran bazarında açsa da, bu vəziyyət İranı qane etmirdi. Çinin ucuz qiymətə aldığı neftin satışından dəyən ziyan və Çindən idxal olunan keyfiyyətsiz sənaye məhsulları İran bazarını işğaletdi. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Əfqanıstanda və İraqda ABŞ-ın hərbi – siyasi mövcudluğu İranı daha radikal şəklə saldı.

2005-ci il iyunun 26-da M.Əhmədinejad İranın yeni prezidenti seçildi. Bundan sonra ABŞ və Avropa İttifaqı ölkələrinə qarşı siyasət daha da sərtləşdiriİdi. İran avqustun 8-də İsfahanda olan nüvə mərkəzinin möhürünü açaraq yenidən uranın işlənməsinə başladı. 2005-ci ilin noyabrın 3-də Rusiya İrana uranın zənginləşdirilməsi üçün əməkdaşlıq təklif etdi.

2006-cı ilin yanvarına qədər İran Rusiyanın təklifinə rəğmən beynəlxalq aləmdə belə bir görüntü yardırdı ki, heç bir təklif almayıb. Lakin 2006- cı il yanvarın 7-8-də RF Təhlükəsizlik Şurasının katibinin müavini Valentin Soboleyevin başçılığı ilə Rusiya nümayəndə heyəti İranla danışıqların birinci mərhələsinə başladıqdan sonra vəziyyət bir qədər dəyişdi. 2006-cı ilin yanvar ayının 10-da İran Natanz, Fars və Farayanda atom tədqiqat mərkəzlərinin möhürlərini qırdı. Yanvarın 30-da Fransa, Almaniya və Böyük Britaniya İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi ilə apardıqları danışıqlar da uğursuzluqla nəticələndi. İran bir daha bəyan edir ki, danışıqları davam etdirə bilər, amma nüvə proqramını dayandırmaq fikri yoxdur.

2006-cı ilin Fevral ayının l-də Mahmud Əhmədinejad Buşehrdə çıxışı zamanı qeyd edir ki: "Qərb bizim bombamızdan deyil, elmi – texniki tərəqqimizdən qorxur. Ölkəmizdə sonillər müşahidə edilən nailiyyətlər İranı istəməyən qüvvələrin ciddi narahatlığına səbəb olur. Uğurlarımız Qərb mənbələrinin İslam Respublikası haqqında yalan məlumatlar yayması ilə nəticələnir". Prezidənt iranlı alimlərin nailiyyətlərinə İranda hazırlanan "Nano" mikroskopunu göstərib dedi: "Yalnız 6 ölkə həmin məhsulu istehsal etmək qabiliyyətinə malikdir. Bizim bombamız da elə budur".

2006-cı ilin fevralın 2-də İranın Moskvadakı səfirliyi bəyənat yayır ki, əgər İran məsələsi BMT Təhlükəsizlik Şurasında müzakirə olunsa, İran Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlıqdan imtina edəcək.

Baş katib Kondaliza Rays bildirir ki, "Dünya sadəcə dayanıb baxmayacaq ki, İran inadkarcasına atom silahı əldəetmək istəyir". Fevralın 7-də Beynəlxalq Atom Enerjisi Agentliyi İranın nüvə proqramı haqqında olan sənədləri BMT Təhlükəsizlik Şurasına təqdim edir. 2006-cı ilin Fevral ayının 11-də Mahmud Əhmədinejad İranın nüvə silahının yayılmaması haqqında sazişdən çıxacağını söylədi.2006-cı ilin fevralın 12-də "Sunday Telegraph" qəzeti ABŞ-ın İrandakı nüvə obyektlərinə zərbə endirmək planı haqqında xəbər yayır.

İran isə çalışırdı ki, nüvə məsələsi BMT Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmasın. Martın 4-də İran Ali Milli Təhlükəsizlik Şurası heyətinin rəhbəri Əli Laricani Moskvada Rusiyanın Təhlükəsizlik Şurasının katibi İqor İvanovla danışıqlara başlayır. İran beynəlxalq aləmə psixoloji təsir göstərmək məqsədilə bəyan edir ki, Martın 5-də İran tezliklə ya Rusiya, ya da "Avroüçlük"-lə razılıq əldə edəcəyini bildirir. Əgər Beynəlxalq Atom Enerjisi Agentliyi məsələnin BMT Təhlükəsizlik Şurasına təqdim etməkdən imtina etməsə bu razılıqdan imtina olunacaq.

Martın 12-də İranın Xarici İşlər Nazirliyinin nümayəndəsi Həmid Rza Asəfi rəsmi olaraq bəyan etdi ki: "İran Rusiya ilə nüvə məsələsində əməkdaşlıqdan imtina edir". İran tərəfi hesab edirdi ki, Rusiya müstəqil şəkildə İranla razılığa can atsa da, ABŞ-ın açdığı yolla getdi. Martın 11-də İran Daxili işlər naziri bəyanat yayır ki: "BMT Təhlükəsizlik Şurası İrana qarşı sanksiyaya səs versə İran Hörmüz boğazını bağlayaraq, neft daşınmasının qarşısını alacaq". Martın 12-də İran Xarici İşlər naziri Manuçöhr Mottaki açıqlama verdi ki, İran nüvə silahının yayılmaması haqqında sazişdən çıxa bilər. 2006-cı ilin Martın 16-da ABŞ Konqresi İrana qarşı iqtisadi sanksiyaları daha da sərtləşdirən qanun layihəsini qəbul etdi.

BMT Təhlükəsizlik Şurasının iclasında Rusiya və Çinin səyləri nəticəsində İranın nüvə proqramı məsələsi Beynəlxalq Atom Enerjisi Agentliyinin öhdəliyinə verilir. Rusiya və Çinin səyləri nəticəsində İrana qarşı sanksiyaların qarşısı alınır. Martın 28-də ABŞ dövlət katibi Kandaliza Rays Senatda dinləmələr zamanı bəyan etmişdir ki: "İran terrorizmi dəstəkləyir". Əksər dünya ölkələri İrana qarşı sərt addımların əleyhinə idi.

2006-cı ilin 23 dekabrında BMT Təhlükəsizlik Şurası İrana nüvə texnologiyası və materiallarının göndərilməsini qadağan edən qərar çıxardı. İranın Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasının qətnaməsini "qanunsuz" elan etdi və nüvə proqramını inkişaf etdirəcəyini bildirdi. 2007-ci il ildə İran hərbi paradda özünün istehsalı olan zenit və gəmiəleyhinə raketləri, idarə olunan torpedalarını, qırıcı təyyarələrini nümayiş etdirdi. İran 1500 km məsafəni vura bilən "Şahab-3" raketlərinə də sahibdir. Bundan başqa İran 1800 və 2000 km məsafəni vura bilən "Qədr" və "Aşura" raketlərini də nümayiş etdirmişdi. İran prezidenti İranın nüvə silahı hazırlamayacağını bir daha səsləndirdi: "Bu bizim dinimizə və mədəniyyətimizə ziddir". Prezident həm daxili auditoriyanı, həm də beynəlxalq aləmi sakitləşdirməyə çalışırdı.

Rusiya İranı dəstəkləməklə, heç də rəsmi Tehranın güclənməsinə çalışmır, sadəcə ABŞ-ın genişlənməsinin qarşısını almağa cəhd edir. 2009-cu ildə yarımçıq qalan nuklear miinasibətləri, S – 300 tipli havadan müdafiə qurğularının pulunun alınmasına baxmayaraq, 2015-ci ilə qədər İrana verilməməsi, bir daha yuxarıda qeyd etdiklərimizi təsdiqləyir. Rusiyanın öz iqtisadiyyatını böyütməsi üçün yeni modern sənayeyə, yeni modern sənaye üçün isə külli miqdarda maliyyə vəsaitinə ehtiyacı vardır. Bu vəsaitə ABŞ kapitalına Rusiya ərazisində geniş imkanlar açmaqla nail olmaq mümkündür. Bütün bunlar Rusiyanın gələcəkdə də ABŞ-ın hədəf seçəcəyi ölkələri "qorumaqla" özünə siyasi, iqtisadi divident əldə etməyə çalışacağını və bu istiqamətdə fəaliyyətini davam etdirəcəyini göstərir. Çin İranın yaxın dostu kimi çıxış etsə də bu yalnız real şərtlərin diktəsindən yaranmış vəziyyətdir. İrana qarşı embarqolara "veto" verərək etiraz edən Çin bunu öz iqtisadyatını ucuz neftlə təmin etmək üçün edir. Çin özünün neftə olan ehtiyacından İranda ABŞ-ın möhkəmlənməsini arzu etmədiyi halda, Rusiya ABŞ-ın Yaxın Şərqdə möhkəmlənməsinə müqavimət göstərir. XXI əsrin ikinci onilliyində İranın nüvə məsələsi hələ də öz həllini tapmamışdır.

İran xalqı nüvə enerjisindən istifadə etmək və ondan yararlanmağı özünün təbii haqqı sayır. Qərb dövlətlərinin buna qarşı tutduqları mövqe İran daxilində bütün qüvvələri birləşdirən ciddi faktora çevrilir.

2013-cü ilin iyununda Həsən Ruhani İranın prezidenti seçildi. Bundan sonra ölkənin nüvə məsələsi ilə İran Ali Milli Təhlükəsizlik Şurası deyil, İran Xarici İşlər Nazirliyi məşğul olacaq. “Altılıq” ölkələri ilə müzakirə aparacaq İran nümayəndə heyətinə 2014-cü ildən İİR xarici işlər naziri Məhəmməd Cavad Zərif rəhbərlik edir.

2011-ci ildən dünyada “Ərəb baharı” kimi tanınan proseslər ABŞ-ı artıq problemlərdən – yəni anti ABŞ davrana biləcək dövlətlərin müqavimətindən sığortaladı. Bununla belə ABŞ-ın regiondakı planlarına müqavimət göstərən İran Rusiyanın siyasi dəstəyindən yararlanaraq, Suriyadakı vətəndaş müharibəsində təşəbbüsü ələ ala bildi. Hizbullahın hərbi qələbələri ABŞ-ı İranla danışıqlara məcbur etdi. ABŞ Yaxın Şərqdə güclənən İran amilini nəzərə alaraq, nüvə danışıqlarına mane olmadı. “Altılıq” ölkələri ilə İran arasında yenidən uranın zənginləşdirilməsinə dair danışıqlar başlandı. Uzun sürən danışıqlardan sonra 2015-ci ilin aprelin 2-də İsveçrədə İran və “altılıq” ölkələri arasında ilkin razılıq əldə olundu. Razılaşma İranın qarşıdakı 10-15 il ərzində nüvə fəaliyyətindən imtina etməsi, ölkənin nüvə mərkəzlərini beynəlxalq müşahidə üçün açıq elan etməsi və bunun müqabilində İrana qarşı sanksiyaların ləğvini nəzərdə tutur. Lakin nə ABŞ Konqresi, nə də Məclise – Şuraye – İslam bu razılaşmanı ratifikasiya etmədi.

Eyni zamanda rəsmilər əksər detalların razılaşdırıldığını, yalnız bəzi detalların qaldığını deyirlər. Lakin əslində vəziyyət göründüyündən də xeyli mürəkkəbdir. Çünki ortada hər iki tərəfi narazı salan və hələlik üzərində ortaq məxrəcə gəlməyin mümkün olmadığı məqamlar qalır. İran parlamentindəkimühafizəkarlar ABŞ-ın yekun anlaşma ilə bağlı irəli sürdüyü şərtlərin qəbuledilməz olduğunu iddia edirlər.

2015-ci ilin iyun ayında İran parlamentində ölkənin nüvə hüquqlarını qoruyan qanun müzakirəyə çıxarılıb və 199 səslə qəbul olunub. Mühafizəkarlar iddia edirlər ki, hökumət, xüsusən də xarici işlər naziri Cavad Zərif bu məsələdə Qərbə qarşı xeyli dərəcədə güzəştli davranır. ABŞ yekun sənədə iki xüsusi maddə salmaq istəyir ki, bu da ciddi narazılıq doğurub. İran mühafizəkarlarını qəzəbləndirən əsas şərtlərdən biri beynəlxalq ekspertlərin İranın hərbi hissələrini, daha doğrusu raket hissələrini yoxlamaq və mütəmadi monitorinqini aparmaqdır. İkinci narazılıq doğuran şərt İranın nüvə sənayesində çalışanların beynəlxalq ekspertlər tərəfindən müsahibəyə cəlb

olunmasıdır. Mühafizəkarlar bunu nüvə istintaqı adlandırırlar. Yekun sənədin əsas məsələlərindən biri də İrana qarşı sanksiyaların hansı qaydada ləğv olunması ilə bağlıdır. 2 aprel anlaşmasından sonra İran rəsmiləri bəyan edib ki, ABŞ sanksiyaları anlaşma qüvvəyə mindikdən sonra tamamilə aradan qaldıracaq. Ancaq ABŞ hökuməti sanksiyaları mərhələli şəkildə qaldırılacağını bəyan edib. Maraqlıdır ki, indi İran xarici işlər naziri də etiraf edir ki, sanksiyaların müvəqqəti ləğvi ilə bağlı anlaşma olub. Rəsmi Tehran bunu ilkin etapda sanksiyaların ləğv olunması və ölkə iqtisadiyyatının dirçəldilməsi cəhdi ilə izah edir. Lakin bu arqumentlər Həsən Ruhani və Cavad Zərifin müxaliflərini qane etmir.

Mühafizəkar qanad hesab edir ki, ABŞ-la anlaşma İslam Respublikasının imicini zədələyəcək, müsəlman dünyasında etibarını azaldacaq, digər tərəfdən hazırda Yaxın Şərqdə ABŞ-İran maraqları ciddi şəkildə toqquşur. Mühafizəkarlar ABŞ-ın İraq və Suriyada İran maraqları ilə savaşdığını, bu mənada böyük sülhün mümkünsüz olduğunu, hökumətin apardığı danışıqlar prosesinin isə daha çox daxili siyasətə hesablandığını iddia edirlər. 2015-ci ilin martında Məşhəd şəhərində Novruz bayramı münasibətiylə xalqa müraciət edən Xamneyi İran ilə ABŞ arasındakı nüvə müzakirələrinə dair bəyanatlar verib. Xamneyi ABŞ liderlərinin İran ilə razılıq əldə edəcəyi təqdirdə, sanksiyaların mərhələli şəkildə aradan qaldırılmasını qəbul etməyəcəklərini, bunun ABŞ-ın hiyləsi olacağını vurğulayıb: "Amerikalılar "Biz İranla müqavilə imzalayacağıq və onların hərəkətlərini müşahidə edəcəyik, daha sonra sanksiyaları ləğv edəcəyik", - deyirlər. Bu ABŞ-ın hiyləsidir. Biz bunu qəbul etməyəcəyik".Ali dini lider vurğulayıb ki, 1979-cu il noyabrın 4-də ABŞ-ın İrandakı səfirliyini ələ keçirən gənclər əslində casusluq yuvası olan bu səfirliyin həqiqi mahiyyətini kəşf edərək dünyaya nümayiş etdirdilər: "Həmin gün bizim gənclərimiz ABŞ səfirliyini casusluq yuvası adlandırdılar. Bu gün üç onilliyin keçməsindən sonra ABŞ-ın müttəfiqləri olan Avropa ölkələrindəki səfirlikləri də casusluq yuvası adlandırılır. Deməli, bizim gənclərimiz zamanı 30 il əvvəl qabaqlayıblar. Həmçinin təcrübə göstərib ki, ABŞ-a etimad göstərən hər bir xalq və dövlət, hətta onun müttəfiqləri belə zərbəyə məruz qalacaq. Əgər bu gün dünyada ədalətli bir rəy-

sorğusu həyata keçirilərsə, dünya xalqlarının ABŞ-a baxışı qədər heç bir dövlətə mövqeyi mənfi olmayacaq”.

2015-ci ilin iyul ayının 14-də Vyanada İranla “altılıq” (BMT TŞ daimi üzvləri və Almaniya) ölkələri arasında yekun saziş imzalandı. Bu sənədə əsasən İranın nüvə proqramından imtina etməsi qarşılığında beynəlxalq sanksiyaların ləğvi nəzərdə tutulur. Lakin ABŞ-da bu müqavilənin əleyhinə olan qüvvələr (Respublikaçılar) Konqresdə bu sənədin ratifikasiya olunmasına mane olurlar. İranda da mühafizəkar qüvvələr bu razılaşmanın İranın milli maraqlarına zərbə vuracağını bildirirlər. Qərbi Avropa dövlətləri isə bu razılaşmadan yararlanaraq İranda artıq bir sıra sahələrdə fəaliyyət göstərmək üçün müqavilələr imzalamağa başlamışlar. Böyük Britaniya Tehranda öz səfirliyini yenidən açmışdır. ABŞ-la münasibətlərin yumşalmasında isə ciddi irəliləyiş əldə olunmamışdır. İran ABŞ tərəfindən tətbiq olunan sanksiyaların ləğvini tələb edir. ABŞ isə İrana qarşı yalnız tələblərlə çıxış edərək, sanksiyaların ləğvini müzakirə etməyə tələsmir.

## Suriya

Suriyada vəziyyətin mürəkkəbləşməsinə xarici müdaxilələrin təsiri ciddi əhəmiyyətə malik olsa da, bu müdaxilələrin yerli bazası olmadan təsir gücü də bir o qədər əhəmiyyətli olmazdı. Az qala bütün dünya Suriyada artıq müharibənin sona çatdırılmasını gözləsə də bunun üçün şərait ya demək olar ki, mövcud dyildir, ya da ki, Suriyada müharibənin olmaması Suriyanın mövcud olmaması şəraitində mümkündür. Belə ki, Rusiyanın Bəşər Əsədə havadan verdiyi dəstək hətta orta mənzilli qanadlı rakelərlə hərbi köməyi rəsmi Dəməşqin qanayan yarasını sarımaq üçün kifayət etmədi. Müharibənin uzanması Bəşər hökümətinin və Əsəd ordusunun əleyhinə işlədi, İŞİD-in təcrübələnməsinə və Əsəd ordusunbun bütün diversiya istiqamətlərini əlinin içi kimi bilməsinə, hökümət qoşunlarının dislokasiya nöqtələrinin əzbər tanımasına şərait və imkan yaratdı. İŞİD bütün itkilərinə rəğmən hökümət qoşunlarına elə bir cidi zərbə endirdi ki, indi hətta Putinin dəstəyi də hökümət qoşunlarının irəliləməsinə təkan verə bilmədi. Çünki olduqca böyükl itki vermiş Əsəd ordusu irəliləmək üçün təkcə havadan deyil, həm də qurudan dəstəyə

ehtiyac duyurdu. Xüsusiylə müharibənin əvvəllərində Azazda, Hələbdə, Homsda, elə Dəşqin özündə hökümət qoşunlarına vurulan qəfil və ağır zərbələr, Bəşər Əsədi hazırlıqsız şəkildə haqlamışdı. Hətta müxtəlif vaxtlarda İrana qaçdığı deyilsə də, Əsəd Dəməşqi tərk etmədiyini bildirdi. Yalnız, 2013-cü ildən Hizbullahın və İran birliklərinin təcili döyüş meydanlarına atılması ilə anti-əsəd qüvvələrin hücumunun qarşısı alındı. İŞİD gizlənmək üçün bütün ərazini artıq çoxdan öyrənmiş və relyefdən istifadə etməklə uğurlu müdafiə istehkamları qura bilmişdi. Bununla belə İŞİD-in irəliləməsi də artıq mümkün deyildi. Çünki havadan aldığı zərbələr nəticəsində onun ön hissələri ilə təminat hisələri arasında kommunikasiya sarsılmışdı. Irəliləyə bilməsə də oturuşmuş müdafiə sərgiləyə bilmişdi. Bu müdafiə İŞİD-in güclü olmasından çox Əsəd ordusunun zəif olması ilə bağlı idi. Bundan əlavə İŞİD digər cəbhələrdə xüsusiylə kürdlərlə toqquşmalarda gözləmədiyi müqavimətlə rastlaşması, uğursuz əməliyyatlarda böyük miqyasda itkilər verməsi, İslam dövlətini öz resurslarını qorumaq haqqında fikirləşməyə vadar etdi. Peşmərgəyə hətta Almaniyanın açıq yardımı, müxtəlif çaplı və müxtəlif təyinatlı silahların verilməsi, İŞİD hücumlarının kəsərini ciddi ölçüdə azalda bildi.

Rusiyaya görə Bəşər Əsədin hakimiyyətdən getməsi o halda mümkündür ki, "terrorçuların siyahısı" qəbul olunsun və onlara qarşı amansız mübarizə elan edilsin. Belə ki, Əsədə müxalif olan dünyəvi qüvvələr sırasında Azad Suriya Ordusunun bu yaxınlarda verdiyi bəyanata görə Putinlə danışıqlara hazır olduqlarını, lakin Əsədin hakimiyyətdən getməsi tələblərindən geri çəkilməyəcəklərini bildirmişdilər. Putin isə onların danışıqlarda iştirakını mümkün sayır. Bir şərtlə ki, Rusiya üçün "terrorçu" adlanan hər kəs onlar üçün də eyni qaydada terrorçu olmalıdır. BU o deməkdir ki, əgər Azad Suriya Ordusu indiyə qədər ABŞ-la münasibət saxlayırdısa, bundan sonra yalnız Rusiya ilə əlaqələrə malik olacaq, digər qüvvələr isə İŞİD, CəbHət əl Nusra, Ceyşül İslam, Ceyşül Şam və s. kimi bu tipli ABŞ dəstəkli qüvvələr danışıqlara yaxın buraxılmayacaq. Deməli ya Suriyada ABŞ-ın dəstək verdiyi qüvvələr olmayacaq, ya da Suriyada rusların nəzarət altına aldıqları ərazilərdə tamamiylə ayrıca federativ dövlət bərqərar olacaq. Lakin bu yaranacaq dövlət İŞİD-lə qəti qələbəyə qədər müharibəni davam etdirəcək. Rusiyaya meyl etməkdə maraqlı görünüən qüvvələrdən

biri də kürdlərdir. Xüsusiylə PYD və YPG kimi tanınan birliklər. Bu qüvvələr əsasən Suriyanın şimalında Türkiyə ilə sərhəd boyu zolaqda Rojava adlı bələdiyyə-federasiyasına malik dövlət qurmuşdular. Rusiya kürdlərin amerikalılara meyllənməsinin qarşısını almaq üçün çox güman ki, kürdlərin avtonomiyasına toxunmayacağını, hətta rəsmi qəbul edə biləcəyini mümkün hesab edirdi. PYD və YPG üçün isə onsuz da Bərzani kimi pro-amerikan kapitalist qəhrəmandansa elə Rusiya kimi İŞİD-lə qəti mübarizə əzmində olan qüvvəyə məyl etməsi məqbul görünürdü. Bununla belə Türkiyə bu dövlətin mövcudluğuna qısqanclıqla yanaşırdı. Türkiyənin mövqeyi isə artıq çoxdan Putin üçün əhəmiyyət daşımır. MDB ölkələrindən bazarlardan çıxarmağa başladığı Türkiyəni Putin artıq qaz şantajı ilə küncə sıxır. Türkiyənin parçalanması onsuz da mümkün göründüyü bu son dövrlərdə kürdlərə verilən dəstəyin yalnız İraq ərazisindəki, pro-amerikan Bərzani ilə ziddiyyətli keçəcəyi sezilir. Çünki İraq şiə hökuməti ilə problemləri İranın da xoşuna gəlmir. Heydər Abadi Bərzani ilə açıq nota dilində danışmaqdan çəkinmir, əksinə Bərzani əvvəlki sərt cavablarını xeyli məhdudlaşdırmışdı. Çünki artıq meydanda İran döyüşçüləri fəaliyyət göstərirdi. Hər yerdə SEPAH-ın xəfiyyələri, Heydər Abadi əleyhinə danışanları "neytrallaşdırmaqla" məşğul idilər. İranın müdafiəsini təşkil etdiyi şəhərlərə isə İŞİD hətta gözünün ucula da baxmadı. Sülymaniyyə hadisələri buna sübutdur. Şəhər yaxınlığına qədər irəliləyən İŞİD şəhərə tərəf irəliləmədi və Bağdada tərəf istiqamətini dəyişdi. Lakin burada da uğursuzluğa düçar oldu. Bundan sonra İŞİD yalnız Ənbar vilayətində möhkəmlənməyə girişdi. Bu da onunla izah olunur ki, ərazisinin böyüklüyünə baxmayaraq, Ənbar az məskunlaşmış səhralardan ibarətdir. Demək olar ki, əhali sünnilərdən təşkil olunmuşdur. Suriyada İŞİD-in və digər sünni qruplaşmaların məhvi o deməkdir ki, Qətər, Səudiyyə Ərəbistanı, BƏƏ olduqca böyük itkiylə üzləşəcəklər. Bu itki isə onların təsirinin azalması demək idi. Belə olan halda ABŞ Yaxın Şərqdə təsir rıçaqlarını itirə bilərdi. Nəzərə alsaq ki, ilk dəfə fantom seriyasından olan F-35 tipli təyyarələrin ABŞ-dan kənara satılması baş verdi, deməli ABŞ özü üçün cidi təhlükə hiss etmişdi. Bu təyyarələr İsrailin təhlükəsizliyini qoruyacaq. Lakin aydın məsələdir ki, bu təyyarələr Rusiya əleyhinə regiona göndərilirdi.

Suriyada isə ərəblərin, kürdlərin və digər enik qrupların məskunlaşdığı federasiya mümkündür. Lakin kim zəmanət verə bilər ki, sünni ərəb digər etnosların üzərinə hücum çəkməyəcək?!...Bunun üçün yeganə zəmanət həmin sünni ərəblərin ABŞ-la mövcud əlaqələrini darmadağın etməkdir. Bu isə ABŞ-ı təbii ki, razı salmayacaqdı. Deməli, müharibə kimin təşəbbüskar olmasından asılı olmayaraq, davam edəcəkdi. Suriyanın parçalanması mümkündür. Hətta bu prosesdə Türkiyənin də parçalanması gözlənilir. Çünki Türkiyənin mövqeyində dəyişiklik etmək üçün, PKK-nı akivləşdirən İran, eləcə də Putinin dəyirmanına su tökmüş olacaq. Nəzərə alsaq ki, PKK son dövrlərdə Bərzanidən narazı idi. Eləcə də PYD və YPG qüvvələri Bərzaninin lazımi dəstək vermədiyini, hətta Türkiyə təyyarələrinin PKK-nı bombalamasına müqavimət göstərmədiyini bildirirdilər. Bütün bunlar mürəkkəb vəziyyət yaratdı. Çünki Bərzani son dövrlər Almaniyadan ciddi yardımlar alırdı. Almaniya isə Rusiyadan birbaşa qaz alan yeganə AB ölkəsidir. Sanksiyalardan sonra Ukraynada razılığa can atan Angela Merkel bu məsələdə yalnız ABŞ-la razılaşa bilmir. Çünki ABŞ nə olursa olsun Ukraynanı və bütün post-Sovet ərazisini Rusiya təsirindən qoparmağa çalışır. Almaniya isə həm iqtisadi maraqlarını, həm də miqrasiya sahəsində təhlükəsizliyini qorumağa çalışır. ABŞ bu barədə Almaniyaya kredit maliyə sanksiyaları ilə təzyiq göstərə bilər. Lakin AB-nin monolit qüvvə kimi çıxış etdiyi halda ABŞ-ın təsiri azala bilər. Rusiya ilə münasibətlərin yaxşılaşacağı təqdirdə isə ABŞ tamamiylə ofsaytda qala bilər. Məhz buna görə də İngiltərə kimi casus dövlətlərin hesabına ABŞ AB-nin monolitliyini əngəlləyir.

Türkiyədəki hadisələr isə parçalanma ehtimalını gücləndirirdi. Çünki miqrasiya axınına səbəb olan müharibənin dayandırılması, Rusiya hesabına baş verərsə Almaniya hətta Putinin maraqları üçün Türkiyənin parçalanmasına razıdır. Ərdoğan Almaniya ilə çoxdandır ki, qarşıdurma vəziyyətində yaşayır. Almaniyadakı türk miqrantların assimilyasiyasını reallaşdırmaq üçün Türkiyə təsirinin dayandırılması vacibdir. Bunun üçün isə Ərdoğanın daxildəki parçalanmaya başının qarışması lazım idi. Bu da öz növbəsində Almaniyaya miqrant axınlarının Türkiyədə qalmasına yardım edə bilər. Türklərin bu seçkilərdə koalision hökümətlə üz-üzə qalacağı təqdirdə siyasi böhran davam edəcək. Bu böhran prezidenti məcbur edəcək ki, bütün

səlahiyyələri öz əlinə alsın. Parlamenti ofsayta itələsin. Bundan narazı olan qüvvələr isə bütün sosial bazasını küçələrə tökəcək və prezident diktaturasının qarşısını almağa, prezident diktaturasına etiraz etməyə, buna bütün gücləriylə müqavimət göstərməyə çalışacaqlar. Belə olan təqdirdə isə Türkiyə daxilindəki vətəndaş müharibəsi mümkün görünür.

## Üfüqdə görünən

*İslam sivilzasiyası yeni düşmən olacaqdır*

*M.Teçer*

ABŞ-ın Yaxın və Orta Şərqlə bağlı planları II dünya müharibəsindən sonra aktual olsa da, yalnız XXI əsrin əvvəllərində prioritetlik qazandı. Dünya üzərində şəriksiz hökmranlıq ehtirası ABŞ-ı Yaxın və Orta Şərqə istiqamətləndirdi. XX əsrin 60 – 70-ci illərindən başlayaraq, Yaxın və Orta Şərqin tam nəzarətə götürülməsi, digər imperialistlərin üzünə birdəfəlik bağlanması ABŞ üçün prinsipial məsələyə çevrildi. Sovet İttifaqı ilə mübarizədə əhəmiyyətli üstünlük, öz müttəfiqləri – AB ölkələrini təzyiq altında saxlamaq imkanı vacib idi. Digər beynəlxalq aktorları zəngin resurslardan və satış bazarlarından uzaqlaşdırmaq ABŞ-ın monopolyar dünya siyasətinin əsas prinsipidir. XX əsrdə Sovet İttifaqı ilə təhlükəli qarşıdurma nəhayət ki, 1991-ci ildə başa çatdı. 1991-ci ildə SSRİ-nin süqutu ilə bipolyar sistemin sonu, ABŞ-ın dominantlıq təşkil etdiyi unipolyar sistemin isə başlanğıcı qoyulmuş oldu. Dünyanın bütün regionlarında baş verən hadisələr unipolyar sistemin dominant qüvvəsi kimi ABŞ-ı yaxından maraqlandırır. Bu dominantlığı saxlamaq üçün ABŞ bütün regionlarda özünəməxsus maraq və mənafelərini dəstəkləyən xarici siyasət konsepsiyasına malikdir. ABŞ Yaxın və Orta Şərqə çoxdan planlaşdırdığı total müdaxiləni reallaşdırmaq imkanı qazandı. İlk öncə regiondakı müttəfiqlərini hazır vəziyyətə gətirən ABŞ nəhayət 2000-ci illərdə açıq müdaxiləyə start verdi. Dünya dövlətlərinin çarəsiz baxışları qarşısında ABŞ heç bir BMT qətnaməsini diqqətə almadı. 2001-ci ildə Əfqanıstanın, 2003-cü ildə İraqın işğalı ilə başlayan müdaxilə 2010-cu illərdə "ərəb baharı" ilə davam etdi. Tunisdə, Əlcəzairdə, Mərakeşdə, Misirdə, Liviyada, Suriyada, Yəməndə, Bəhreyndə eyni vaxtda kütləvi ixtişaşlar, hakimiyyət çevrilişləri, vətəndaş müharibəsi başlandı. ABŞ-a qarşı etiraz edə biləcək

dövlət kimi Rusiya post – sovet ölkələrində "narıncı", "məxməri", "qızılgül" inqilablarıyla məşğul idi. Rusiya meylli hökümətlər hakimiyyətdən devrilirdilər.

"Böyük Orta Şərq Layihəsi" Mərakeşdən Pakistana, Türkiyədən Sudana qədər böyük bir coğrafiyada yeni bir siyasi mənzərə yaradılmasına istiqamətli geopolitik bir layihədir. ABŞ-ın 43-cü prezidenti oğul Corc Buşun 2003-cü ildə irəli sürdüyü "Böyük Orta Şərq" anlayışı, ABŞ-ın "beynəlxalq terror" adlandırdığı düşmənlə mübarizəyə, Orta Asiyadan Körfəz bölgəsinə qədər uzanan neft ehtiyatları üzərində nəzarətə, yeni super güc mərkəzlərini (Çin, Rusiya və Hindistan) təsirsiz hala gətirərək islam dünyasında nüfuz sahibi olmağa istiqamətlənib. ABŞ Yaxın və Orta Şərqdə hələ ki, siyasi hazırlıq görməklə məşğuldur. Böyük Orta Şərq birliyinin yaranması və tamamiylə pro – amerikan quruma çevrilməsi üçün "köhnə" sayılan, "siyasi sərfəli olmayan" nə varsa hamısının fiziki məhvi reallaşdırılır. Lakin amerikalıların nəzərdə tutduğu region çoxfaktorlu mürəkkəb sosial – siyasi dizayna malikdir. ABŞ artıq nəzərdə tutduğu planların reallaşmasına qarşı ciddi maneəylə toqquşmuşdur. Regionda ciddi təsir rıçaqlarına malik İran bu müqavimətin mərkəzində dayanır. Vaxtiylə SSRİ siyasi dairələri İranın CENTO-ya girməsini öz mövqelərinin Orta Şərqdə itirilməsi kimi qəbul edirdilər. Bu amil Yaxın Şərqdə sonrakı onilliklərdə ABŞ-ın üstünlüyünü təmin etdi. Bu üstünlüyün nisbi olması isə ciddi problemlərin qaynağı olurdu. Uzun müddət ABŞ-a problem yaradan Nasirin liberal Ənvər Sədatla əvəzlənməsi Misirin nəzarətə alınması ilə nəticələnsə də, Orta Şərqdə Liviya və Suriya kimi antipot dövlətlər mövcud idi. ABŞ-ın Orta Şərqdə kifayət qədər nəzarətinin olmadığını görən Türkiyə kimi öz müttəfiqi olan dövlətlərdə nəinki solçular hakimiyyətə gəlir, hətta NATO daxilində Türkiyə - Yunanıstan qarşıdurması baş verdi. ABŞ-ın bütün təzyiqlərinə baxmayaraq Türkiyə Kipr adasından qoşunlarını çıxarmadı.

Yaxın və Orta Şərq qədim sivilizasiyanın və hər üç monoateist dinin beşiyi, təbii resurslarla zəngin bir regiondur. ABŞ region ölkələrinə hərbi təhlükəsizlik vəd edərək regionun təbii resurslarını digər dövlətlərdən daha ucuz əldə edir. "Demokratik dəyərlər" kontekstindən çıxış edən Səudiyə Ərəbistanında bunu görməyə niyyətli deyil. Əksinə monarxiyanın hökm sürməsinə çalışır, çünki təbii

resursların xalqa nisbətdə monarxdan daha sərfəli əldə etməyin mümkünlüyünü daha yaxşı anlayır. ABŞ-ın regiondakı müttəfiqlərindən biri olan Səudiyə Ərəbistanı ilə əlaqələrinin əsasında iki dəyişməz faktor dayanıb:

1) Neft və Körfəzin təhlükəsizliyi;

2) Əs-Səud kral ailəsinin təhlükəsizliyi.

Səudiyə Ərəbistanı öz neftini ABŞ "təhlükəsizlik çətiri" altında krallığı xarici hədələrdən qorumaq naminə istifadə edir. Bu münasibətlər ABŞ-da müxtəlif prezidentlərin hakimiyyəti dövrlərində bəzən sərin, bəzən isti münasibətlərə çevrilsə də, ümumilikdə ABŞ-ı regiona daxil olduğu "qapılar"dan biri məhz Səudiyə Ərəbistanıdır.

İran Qərblə münasibətlərin çoxfaktorlu əsaslara söykəndiyi tarixi təcrübəyə malikdir. İranın əhəmiyyətli geostrateji mövqeyi Avropa dövlətlərinin hələ ilkin imperialist planlarında yer almasına səbəb oldu. İran nəinki geopolitik mövqeyi, həm də daxili bazarı və nəhayət XX əsrin əvvəllərində burada zəngin korbohidrogen yataqlarının kəşfi ilə Qərbin nəzərlərini özünə cəlb etmişdir. 2010-cu ildə Konqresə daxil olan hərbi və kəşfiyyat hesabatlarına İran hərbi strategiyasının əsas məqsədi yalnız öz sərhədlərini istənilən təhlükə və hədədən qorumaqdır. İran qonşu dövlətlərdəki stabilliyi pozmaqla məşğuldur və bu yolla ətraf ölkələrdə, xüsusilə də İraq və Əfqanıstanda öz təsirini artırmağa çalışır. ABŞ bundan çox narahatdır. Maraqlıdır ki, İran qonşu dövlətlərdə nüfuzunu artırma cəhdləri destabilizasiya adlandırıldığı halda, ABŞ-ın qonşu olmayan dövlətlərdə nüfuzunu artırma və yaxud müxtəlif vasitələrlə regiona müdaxiləsi hesabatda "stabillik" yaratma cəhdi kimi qələmə verilir. Deməli, ABŞ üçün stabillik yalnız öz kontroluna bərabərdir. Yaxın və Orta Şərq regionunda İran liderliyə can atır. Buna isə öz sənayesinin, xüsusilə nüvə sənayesinin, və iqtisadiyyatının inkişafı ilə nail olmaq istəyir. ABŞ İranın uranın zənginləşdirilməsi sənayesinin inkişafına cəhdlərini əslində nüvə silahının hazırlamasına cəhdi adlandırır. İrana qarşı bir sıra sanksiyalar tətbiq edir, eyni zamanda müttəfiqlərini də bu tipli sanksiyalar tətbiq etməyə dəvət edir. İran isə öz növbəsində regionda nüvə tarazlığının pozulmasını iddia edir. Regionda yalnız İsrailin nüvə silahına malik olmasını ədalətli hesab etmir. ABŞ Dövlət Departamenti

İranı dünyada "terrorizmin ən aktiv sponsoru" hesab edir. ABŞ rəsmiləri bildirirlər ki, İran əsasən İraq, Əfqanıstan və Livanda bir sıra terrorist qruplaşmanı maliyyə vəsaiti, silah, təlim və sığınacaqla təmin edir və beləliklə beynəlxalq ictimaiyyətin təhlükəsizliyini pozur. ABŞ iddia edir ki, İran İslam Respublikası kütləvi qırğın silahlarını hərbçilərə və ya silahlı dəstələrə transfer edə bilər. İran liderləri isə bunu inkar edərək, nüvə enerjisini yalnız sülhməramlı məqsədlərlə istifadə edəcəklərində israr edirlər. 2002-ci ildə İran prezident C.Buş tərəfindən İraq və Şimali Koreya kimi "şər oxu" ölkəsi elan edildi. 2005-ci ildə prezident seçkilərində qələbə qazanmış M.Əhmədinejad İranın nüvə enerjisindən istifadə hüququ üzərində təkid etmiş, hətta İrana hərbi müdaxilə məsələsi gündəmə gəlsə də rəsmi Tehran özünün nuklear proqramından əl çəkməyəcəyini bildirmişdi. Türkiyə, İsrail və Səudiyə Ərəbistanı ilə müsbət hesab edilə biləcək münasibətlər qurmaqla ABŞ regiona nəzarəti öz əlində saxlayır. Bu üç dövlətdən heç birinin İranla münasibətləri qənaətbəxş deyildir. İran İsrail dövlətinin varlığını tanımır, hər vəchlə bunu açıq-aşkar bildirir və İsraili xəritədən tamamilə silməklə hədələyir. İsrailin Fələstin ərazisində süni bir dövlət qurduğunu iddia edir. ABŞ-ı da İsrail dövlətinin bu torpaqlarda qurulmasına hərtərəfli dəstəkdə günahlandırır. 2011-ci ildən Suriyada baş verənlər əslində iki qütb arasındakı mübarizədir. Belə ki, qütblərdən biri ABŞ və Türkiyə də daxil olmaqla, onun müttəfiqləridir ki, onlar Suriya prezidentini qeyri-demokratik idarəetmədə günahlandıraraq, xalqın tələblərini haqlı hesab edərək, prezident Bəşər Əsədin hakimiyyətdən getməsini istəyirlər. Digər qütb isə İran və ABŞ-ı özünə rəqib görən dövlətlərdir ki, onlar da Suriyada rejim və hakimiyyət dəyişikliyini dəstəkləmirlər. Bəşər Əsəd də sələfi kimi İrana arxalanır. Regionda ABŞ-ın nüfuzunun artmasından narahat olan və bunu öz nüfuzuna zərbə olaraq görən dövlətlərdən biri də SSRİ-nin varisi olan Rusiyadır. Rusiya hal-hazırda Yaxın və Orta Şərq regionunda ABŞ-ı əvəzləmək siyasəti yeritmir, amma V.Putin ABŞ xarici siyasətini tənqid edir və digər dövlətləri də ABŞ hegemonluğuna və unipolyarlığa qarşı yönləndirir. Ümumilikdə Rusiya özünün əvvəlki nüfuzunu və gücünü geri qaytarmaq istəyir və dünya miqyasında ABŞ-ın nüfuzunun azalması, Rusiyanın isə əksinə nüfuzunun artması istiqamətində fəaliyyət göstərir. O səbəbdən Rusiya ABŞ-ın münasibətlərinin pis

olduğu region dövlətləri ilə yaxın münasibətlər qurur. İran və Suriya ilə Rusiyanın münasibətləri çox yaxşıdır. 2008-ci ildən başlayaraq, rəsmi Moskva Körfəz Əməkdaşlıq Şurası dövlətləri, həmçinin Yəmənlə qənaətbəxş münasibətlər qurmuş və bu ölkələri silah və sursatla təmin edən bir nömrəli dövlətdir. İranla olan münasibətlərə gəlincə, vaxtilə şah hakimiyyəti dövründə İran daha çox pro-amerikan siyasət yürüdürdüsə, İslam inqilabından sonra inqilab hökuməti "nə Şərq, nə Qərb" siyasəti yürütməyə başlamışdı. Bu gün isə Rusiya və İranın yaxınlaşması müşahidə olunur ki, buna da iki dövlətin maraqlarının üst-üstə düşməsi səbəb olmuşdur. Bu maraq da ABŞ-ın öz hegemonluğunu regionda yürütməsinə mane olmaqdan ibarətdir. ABŞ-ın Yaxın və Orta Şərqdə problemlərinin yarandığını görən Rusiya dərhal Şərqi Avropada və Qafqazda itirdiyi mövqeləri geri qaytarmağa girişdi. 2008-ci ildə Gürcüstana endirilmiş zərbələr, 2014-cü ildə Ukraynada təkrarlandı. Ukraynanın tamamiylə itiriləcəyini görən V.Putin hakimiyyəti qonşu dövlətin ərazisində ABŞ-ın möhkəmlənməsinin qarşısını almaq naminə vətəndaş müharibəsinə şərait yaratdı. Təbii resurslarına, əlverişli coğrafi mövqeyinə görə cazibədar region kimi Yaxın və Orta Şərq bu gün unipolyar beynəlxalq sistemin dominant qüvvəsi olan ABŞ-ın, eləcə də onunla qlobal liderlik uğrunda mübarizə əzmi göstərən Rusiya, Çin, həmçinin Avropanın güclü dövlətlərinin mübarizə meydanıdır. Rusiyanın ABŞ-la qarşıdurmasından AB dövlətləri daha çox yararlanmaq məqsədi güdsələr də, bəzən ziyan da çəkirlər. Yaxın və Orta Şərqdə Rusiyaya qarşı nüfuz uğrunda mübarizədə Qərb ölkələri İranla münasibətləri bərpa etmək məcburiyyəti hiss etdi. 2015-ci ilin iyul ayının 14-də İranın uranın zənginləşdirilməsiylə bağlı əldə olunmuş Yekun sazişin nəticələrini proqnozlaşdırmaq çətin olsa da, qeyd etmək lazımdır ki, bu sazişin gələcəkdəki perspektivi İsrail – ABŞ, İran – ABŞ, İran – Rusiya münasibətlərinin inkişafından asılı olacaqdır. İranın Yaxın və Orta Şərqdə nüfuzunun daha da artacağı şübhəsizdir.

Nəticə kimi deyək ki, İİR-in müqavimətini hərbi üsullarla qırmaq cəhdi regionda böyük müharibəyə gətirib çıxaracaqdır. İran öz təsir rıçaqları ilə Türkiyə, Ərəbistan, xüsusiylə İsrail üçün ciddi təhlükədir. İsrail öz mövcudluğunu zərbə altına qoya bilər. ABŞ Yaxın və Orta Şərqdə nəzərdə tutduğu planları həyata keçirmək üçün

regiondakı güclü dövlətlərin rəyini nəzərə almalıdır. Lakin ABŞ birmənalı şəkildə imperialist xarakterli təkliflər edir ki, bu da sonda ABŞ-ın regiondakı bütün mövqelərini itirməsiylə nəticələnəcək.

Dissertasiyanın ilk fəslində tanış olduğumuz "Böyük Orta ŞƏrq" layihəsinin konseptual əsasları müxtəlif dövlət sənədlərində, dövlət xadimlərinin siyasi strateji prioritetlərində ifadə olunması ilə tanış olduq. Lakin, ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, bu strateji məqsədlər birtərəfli şəkildə nəzərdə tutulması bir çox şübhəli məqamlara yol açır

- Əvvəla bu layihənin İslam coğrafiyasında həyata keçirlməsində İslam ölkələrinin iştirakı və razılığı nəzərə alınmamışdır.
- ABŞ İslam ölkələrində nüfuzunun genişlənməsini sərt şəkildə müdaxilə hesabına reallaşdırmaq istədiyi elə məhz rəsmi Vaşinqtonun siyasi ritorikasında da öz əksini tapır.
- ABŞ rəsmilərinin, hətta prezident Corc Buşun dilindən söylənilən nitqlərdə Yaxın və Orta Şərqə müdaxilə etmək üçün "Tanrının tapşırı" ilə hərəkət edəcəklərini deməsi sadəcə bəraət xarakteri daşıyırdı.
- ABŞ rəsmi sənədlərində (Milli Təhlükəsizlik Strategiyası) Yaxın və Orta Şərqdəki əsas dəniz boğazlarının tam ələ keçirilməsi qeyd edilmişdir. Bu da sadəcə bütün dünya iqtisadiyyatına nəzarət etmək imkanları açacaqdır.
- İslam dini daxilində müxtəlif qruplaşmalar arasında qanlı toqquşmaları təşviq etmək, bunun üçün münbit şərait yaratmaq hətta müsəlman arasında hansı ideologiyanın məqbul olması fikrini dayatmaq (mülayim İslam) yerli xalqların kapitalizmə uyğun gəlməyən təfəkkür tərzlərini məhv etmək hədəfi daşıyır.

Yuxarıdakıları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, İslam coğrafiyasının nəinki iqtisadi, eyni zamanda ideoloji nöqteyi-nəzərdən neoliberal qlobal bazara uyğun bir şəkildə yenidən qurulması nəzərdə tutulmuşdur. İslam ölkələrində istehlakçı təfəkkür tərzinin formalaşması, möhkəmlənməsi neoliberal bazar kimi tam rekonstruksiyası bu xalqların həyatına xarici müdaxiləni qaçılmaz edir. Çünki, ABŞ-ın bu regiona müdaxiləsi digər dövlətlərin də operativ cavab vermək üçün dərhal döyüş vəziyyətinə gətirdi. Rusiya ilə aralarında olan ziddiyyət

region xalqlarının taleyini də təhlükəyə atmışdır. Belə ki, Yaxın Şərqdə razılığa gələ bilməyən ABŞ və Rusiya rəsmi dairələri İslam ölkələrindəki konfliktin və xalqların əziyyət çəkməsinin başlıca səbəbləridirlər. Məhz bu qüvvələrin xarici müdaxiləsi yerli silah alverçilərinin nüfuzunu artırmış, terror qruplaşmalarının fəaliyyətinə münbit şərait yaratmışdır. Regionda ayrı-ayrı cəbhələrə bölünmüş qruplaşmaların hərəsinin öz xarici havadarı mövcuddur. Yaxın Şərq xalqları mövcud şəraitdən xilas yolunu yalnız birlikdə fəaliyyətdə axtarmalıdırlar. Yalnız regionun yerli xalqları bu problemlərin hansı dioloqlarla sona çatdırılmasını anlayırlar. Buna görə də yerli ölkələr xüsusən körfəz ölkələri xaricdən diqtə edilən şəkildə hamiyyətdə olan bəzi ərəb dövlətlərinin başçılarının neytrallaşdırılmasını reallaşdırmalıdırlar. Lakin müasir dövrdə istifadə müddəti bitmiş metodlarla xarici müdaxiləyə müqavimət göstərmək olduqca çətindir. Buna görə də İslam ölkələrinin inkişafı naminə, birlikdə hərəkət tmək azdır. Digər ölkələrdən istifadə etmək Xarici müdaxilə zorkalıq və dağıntılarla müşayiət olunur ki, bu da öz növbəsində yerli xalqların əsrlərlə yaratdıqları, maddi mədəniyyət abidələrinin məhvinə, yüz minlərlə insanın tələf olmasına səbəb olur. Kütləvi aclıq halları, vətəndaş müharibəsi, qanlı terror aktları, geniş ərazilərdə uzurpativ şəraitdən qaçan əhali geridə dağıntı və boş xarabalıqlar buraxır. Humanitar böhran yalnız qonşu ölkələri deyil, eyniylə həm də Avropanı təhdid edir. Böyük insan axınları, humanitar böhranın nə qədər böyük miqyas aldığını gözlər önünə sərir. ABŞ-ın bu açıq və sərt şəkildə müdaxiləsi, İslam ölkələrindəki təbii sərvətlərin tam nəzarətə götürülməsi, bütöv bir bazar formasında yenidən təşkil edilməsi məqsədi daşıyan bu strategiya qlobal həcmdə kataklizmlərə səbəb ola bilər. ABŞ dövlət xadimlərinin öz dillərindən qeyd etdikləri kimi region ölkələrinin sərhədlərinin dəyişdirilməsi yerli xalqlardan yalnız neoliberal istehlakçı təfəkkürlü insan yaratmaq məqsədini təsdiq edir. Bu da beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş əməkdaşlıq prinsiplərinin, dövlətlərin daxili işinə qarışmaq və açıq şəkildə xarici müdaxilə üçün ideoloji zəmin hazırlamaq deməkdir. Məhz elə buna görə də ABŞ-ın siyasi planları region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Bu da rəsmi Vaşinqtonun region ölkələri arasında münasibətlərə qərəzli müdaxilə etmək bəhanəsi verdi. “Ərəb baharı” adlanan hadisələrdə vəziyyəti nəzarətə almaq bəhanəsiylə açıq

şəkildə ayrıseçkilik nümayiş etdirməsi zənnimizcə düzgün qənaətə gəldiyimizdən xəbər verir.

Regionun maraqlı qüvvələr tərəfindən stabilləşməsinin qarşısı alındığını desək yanılmarıq. Çünki, fövqəl dövlətlərin biri digərini sıxışdırıb, regiondan çıxardığı zaman digər dövlət bütün diqqətini həmin ərazilərdə stabilliyin böyük ölçülərdə pozulmasına çalışır. Bu da region ölkələri arasında mövcud olan mübahisəli məsələlərin yeniləri ilə daha da böyüməsi və yüksək gərginlik vəziyyətinə çatdırılmasına şərait yaradır. Yaxın və Orta Şərqin gələcək perspektivdə böhrandan stabilliyə keçməsi daha şansı hər gün daha da azalır. Bu böhranlı vəziyyət regionda mübarizə aparan qüvvələrin tamamiylə sarsıdılmasından sonra baş verə bilər ki, burada da xarici amil yeni sualların yaranmasına gətirib çıxarır. Belə ki, regiondakı konfliktlərin inkişafına məhz xarici təkan verərici qüvvələrin dəstəyi imkan yaradır. Düşünmək olar ki, İslam coğrafiyasının fövqəldövlətlər arasında nüfuz zonalarına ayırmaqla böhran səngiyə bilər. Lakin yuxarıda qeyd etdiyimiz kimi ABŞ üçün artıq bu tipli bölgülər prioritet sayılmır. Həm C.Buşun (oğul), həm də həm də Kondaliza Rays, Nikolas Pyorl, Dik Çeniy və digər dövlət xadimləri "Böyük Orta Şərq" layihəsində heç bir alternativ qüvvə ilə razılaşmaya gəlməyəcəklərini dönə-dönə qeyd etmişlər. C.Buş hətta "Tanrının tapşırığı" kimi qiymətləndirdiyi bu müdaxiləni ABŞ üçün bütöv bazar kimi formalaşdırılmasını dəflərlə dilə gətirmişdir. Hətta Bzejinski qeyd edirdi ki, Avrasiyanın kontinental hissəsinin nəzarətdə saxlanılması üçün ən vacib məsələ onu ənənəvi olaraq, əhatəyə almaq, bütün çıxışlarını bağlamaq lazımdır. Buradan da belə nəticəyə gəlmək olar ki, Yaxın və Orta Şərqdə alternativsiz tam neoliberal bazar formalaşdırdıqdan sonra MDB məkanına xüsən Şərqi Avropanın slavyan ölkələrinə ABŞ-ın qəti şəkildə müdaxiləsini nəzərdə tutur.

Deməli ABŞ hər cür böhrana baxmayaraq, İslam coğrafiyasında heç bir qüvvəylə nüfuz razılşamasına getmək niyyətində olmadığını nümayiş etdirir. Belə şəraitdə ABŞ-a müqavimət göstərən qüvvələrin resurslarını qarşıdurmalara tükəndirdikdən sonra hansı vasitələrə əl atacaqları maraqlıdır. Rusiya özünün bütün potensialını Suriyada ABŞ üçün alternativ enerji koridorunun açılmasına mane olacaq. Bu heç kimdə şübhə oyatmır. Bütün sanksiyalara rəğmən Aralıq dənizinin

sahillərində ABŞ-ın möhkəmlənməsinə icazə vermək niyyətində deyil. Hətta resurslarını tükədərsə, regionda daxili konfliktlərin böyüməsinə təkan verərək, ABŞ-ıən dəstəklədiyi hökümətlərə qarşı dolayı şəkildə əməliyyatlara başlayacaq. Bu mənada Çin də ABŞ-ın İslam coğrafiyasında, neft yataqları üzərində tam nəzarətinə qarşı Rusiyanı dəstəkləyir.

Beləliklə bir daha geopolitik nəzəriyyələrdən də bildiyimiz kimi Kontinent Avrasiyanın kənar xəttlərini bağlamaq bütün bu proseslərin ana xəttini təşkil edir. Geopolitik nəzəriyyələrin də dediyi kimi dəniz dövlətlərinin qurunun bütün çıxışlarını ələ keçirməklə qurunu tam mühasirəyə almaq onu oyundan kənar vəziyyətə salmaq niyyəti həyati vacib məsələ kimi bu gün gündəmdədir. Lakin C.Buşun 2002-ci ildə Vest-Point hərbi məktəbində müdavimlər qarşısında çıxışı zamanı dediyi sözlər məsələnin daha da uzaq hədəflərindən xəbər verirdi. Belə ki, C.Buş öz çıxışında qeyd edirdi , mühasirəyə almaq, düşməni nəfəs almağa qoymamaq bütün bunlar əladır amma kifayət deyildir. Biz gərək düşmənin evinə girək və onu orda məhv edək, vəziyyəti tam nəzarətə götürək.

Buradan çıxan nəticə budur ki, ABŞ bütün İslam dünyasını istehlakçı neoliberal qlobal bazara tamamiylə birləşdirmək üçün ən radikal addımları da atacaq. Lakin bu cür sərt müdaxilənin dünya kapitalist sisteminin elə həmin liberal dəyərləri üçün də təhlükə törətdiyi üzə çıxdı.

1. Əvvəla neft yataqlarının tamamiylə itirilməsi və əsas dəniz boğazlarının tutulması Rusiya və Çin tərəfindən real təhlükə kimi qiymətləndirildi. Regionda ABŞ-a müqavimət göstərən İranın simasında özünə müttəfiq tapan Rusiya hakimiyyəti İslam coğrafiyasında davam edən vətəndaş müharibəsinə daxil oldu. Bununla da qanlı toqquşmalar daha şiddətli hal aldı.

2. Avropaya axın edən miqrantların qarşısında iqtisadi balansı, ictimai sabitliyi təmin edə bilməkdə çətinlik çəkən Almaniya, Fransa, İngiltərə, Niderland artıq AB-nin gələcək taleyini müzakirəyə çıxarırlar.

3. Miqrant axınları eyni zamanda Avropada liberal dəyərləi də sarsıtmaq təhlükəsi yaratmışdır.

4. Avropada yaranmış böhran ABŞ üçün Rusiyaya qarşı müttəfiq itkisi ola bilər ki, bu da AB-nin dağılması şəraitində mümkündür. Böhran isə bu inteqrasiyanın iqtisadi əsaslarını sarsıdır. İngiltərənin inteqrasiyadan çıxması ilə məsələnin ciddi olduğu artıq hər kəs üçün aydındır. ABŞ bu vəziyyətin dərinləşməməsi üçün kütləvi miqrasiyanın qarşısını almağa məcburdur. Son dövrlər İrakda, Suriyada İŞİD-in nəzarətindən azad olan şəhərləri xüsusi qeyd etmək lazımdır. Lakin burada da problem ondadır ki, antiterror əməliyyatları Ruusiya və ABŞ arasında dərin inamsızlıq şəraitində davam edir. Məhz bu amil antiterror əməliyyatlarının effektini azaltmış olur.

Beləliklə ümumiləşdirsək Yaxın və Orta Şərqin taleyində yaxın perspektivdə sabitlik dövrünün olması şansının az olduğunu görə bilərik. Yeni – yeni yaranacaq dövlətlər hətta situasiyanı bir az da mürəkkəb şəkilə salacaqlar. Bunun üçün nəticədən gəldiyimiz qənaət aşağıdakılardan ibarət ola bilər:

1. Türkiyə və İranın simasında güclü təzyiq qrupunu formalaşdırmaq;
2. Bu qrupun nüfuzunu Körfəz ölkələrində möhkəmləndirməklə, ərəb ölkələri arasında böhranları səngitmək;
3. Rusiyanın simasında regiondan kənardan gələn dəstəyi yalnız digər xaici qüvvənin müdaxiləsini neytrallaşdırmaq məqsədiylə istifadə etmək;
4. Türkiyə və İranın ümumi maraqlarını dəqiqləşdirmək və ümumi hərəkət planı qurmaq;
5. Bu hərəkət planına uyğun olaraq Türkiyə və İran arasında etibarlı birliyin daha da genişləndirilməsinə çalışmaq, İraq, Əfqanıstan, Oman və digər İslam ölkələrini bu birlik ətrafında əlaqələndirimiş şəkildə birləşdirmək;
6. Separat danışıqlardan birmənalı şəkildə imtina etmək;
7. Suriyada stabillik yaradılana qədər siyasi hakimiyyətin taleyi ilə bağlı müzakirələrə məhdudiyyət qoymaq;
8. Regiondan kənar qüvvələrin regionda həddindən artıq möhkəmlənməsinə bu birliyin gücündən istifadə edərək buna imkan verməmək;
9. Birlik şəklində fəaliyyətdən yayınan dövlətlərin xarici qüvvələri regiona dəvət etməsinə, gətirməsinə imkan yaratmamaq;

10. İslam ölkələri arasında nifaqın böyüməməsi üçün Türkiyə və İranın ciddi nəzarətinin reallaşmasını həyata keçirmək;

11. Bütün terrorçu qruplaşmalara qarşı mübarizədə siyasi iradə ortaya qoymaq;

12. Heç bir xarici təklif hesabına birlikdən kənar addım atmamaq;

Yuxarıda göstərilən təkliflərin mahiyyəti ümumi nəticənin elmi ümumiləşdirilməsindən doğmuşdur. Çıxarılan nəticəyə əssaslanır. Bununla belə İslam ölkələri arasında inteqrasiyanın gücləndirilməsi üçün ciddi maneələrin olmasını da nəzərə almaq lazımdır. Məhz buna görə bir – birinə qarşı münasibətdə həssaslıq nümayiş etdirməli olan İslam ölkələri regiondakı vəziyyəti nəzərə alaraq aralarındakı mübahisəli məsələləri kənara qoymağa məcburdurlar. Çünki bu dinamik proseslər onların gələcək taleyini həll edə bilər. Gedən proseslərə operativ cavab vermək qabiliyyəti inkişaf etdirilməlidir.

Azərbaycan hökümətinin dəqiqliklə işləyib hazırladığı balanslı xarici siyasət modelini praktik əhəmiyyəti baxımından nümunə hesab etmək olar. Azərbaycanın uğurla davam etdirdiyi xarici siyasət ölkədə stabil inkişafı təmin etmişdir. Həm ABŞ, Avropa, həm də İKT ölkələrinin xüsusi maraq və rəğbətini qazanmış Azərbaycan özünün tolerant ənənələri və eləcə də uzaqgörən siyasi strategiyası ilə İslam dünyasında dünyəviləşmə modeli ola bilər. İslam coğrafiyasında baş verən qanlı hadisələrin əvəzinə həm dini, həm mədəni, həm iqtisadi, həm də siyasi sahədə islahların aparılmasını dinc yollarla həyata keçirilməsi mümkün idi. Region ölkələrinin aralarındakı mübahisələrə soyuqqanlılıq və təmkinlilik nümayiş etdirməsi, xarici qüvvələrin regiona dərin nüfuz etməsini və region ölkələri arasında münasibətlərə müdaxilə etməsini ümumi dəyərlər ətrafında birləşib qarşısını almaq lazım idi.

# ƏDƏBİYYAT

## Azərbaycan dilində

Ağacan H.A. İmam. Bakı: Nurlar, 2008, 382 s.

Altınbay O.A. İnqilab tarixə İran İslam dövlətini qazandırdı / İşığa doğru. İran İslam İnqilabının 30-cu il dönümünə həsr olunmuş xüsusi buraxılış. Bakı: Kosər nəşriyyatı, 2009, № 8, s.13-17

Babayev Y.M. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Bakı: Nurlan, 2007, 128s.

Diba F.Q. Mənim qızım Fərəh. Bakı: Adiloğlu, 2005, 60 s.

Fətişoğlu R.F. İran İslam İnqilabının dünya müsəlmanlarının şüurunun formalaşmasında rolu / İşığa doğru. İran İslam İnqilabının 31-ci ildönümünə həsr olunmuş xüsusi buraxılış. Bakı: Kosər nəşriyyatı, 2010, № 9, s.68-76

Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq – Qərb, 2007, 344 s.

Əjdəri D.B. Fars körfəzi – bütün dövrlər üçün bir ad / Hikmət – elmi araşdırmalar toplusu. Bakı: Kosər nəşriyyatı, 2011, № 18, s.133 – 138

Əlibəyli H.C., Səfərli. Q.Ə. Tarixin dörd günü. Tehran: Azərbaycan Respublikasının İrandakı Səfirliyi, 1994, 166 s.

Əmrahov Mais. Böyük İpək Yolu. Bakı: Mütərcim- 2011, 93 s.

Əzğədi H.R. Qloballaşma tarixin sonu və Mehdilik / Hikmət – elmi araşdırmalar toplusu. Bakı: Kosər nəşriyyatı, 2009, № 15, s. 60-65

Həsənov Əli. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı – 2011, 438 s.

Hüseynov H.B., Hüseynov T.B. Qərb – Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, 442 s.

Hüseyni S.C. Qədir – Xum vaqiəsi tarixin zirvəsində / İşığa doğru. İran İslam İnqilabının 30-cu il dönümünə həsr olunmuş xüsusi buraxılış. Bakı: Kosər nəşriyyatı, 2009, № 8, s.81-89

"İran İslam Respublikasının Konstitusiyası". Tehran: Beynəlxalq ALHODA nəşriyyatı, 2010, 90 s.

İsmayılov R.İ., Axundova N.Ç. Asiya və Afrika Ölkələrinin Tarixi (1945-2000). Bakı: Adiloğlu, 2005, 406 s.

Kamrani M.İ. İran – İraq müharibəsinin gizli məqamları. / İşığa doğru. İran İslam İnqilabının 30-cu il dönümünə həsr olunmuş xüsusi buraxılış. Bakı: Kosər nəşriyyatı, 2009, № 8, s.137-150

Məmmədov Novruz. Xarici siyasət: Reallıqlar və Gələcəyə baxış. Bakı –2013 264 s.

Muhəmmədi S.İ. İran "Sarı Piroq" istehsalında özünü təmin etməyə başladı / İşığa doğru. İran İslam İnqilabının 30-cu il dönümünə həsr olunmuş xüsusi buraxılış. Bakı: Kosər nəşriyyatı, 2010, № 10, s.178-183

Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar / bur. məsul Mehdiyev R. Ə. 13-cü kitab: dekabr, 1994- iyun, 1995. Bakı: Azərnəşr, 1997, 488 s.

Pəhləvi F.D. Xatirələr. Bakı: Adiloğlu, 2007, s. 420

Tarix-i Qezelbaşan. Tərcümə və Şərhlər M. Ə. Məhəmmədinindir. Bakı: Azərbaycan nəşriyyatı, 1993, 48 s.

**Rus dilində**

Агаев С.Л. Иран в прошлом и настоящем. М.: Наука, 1981, 261 с.

Агаев С.Л. Иран между прошлым и будущим: События, люди, идеи. М.: Политиздат, 1987, 319 с.

Агаев С.Л. Иран: рождение республики. М.: Политиздат, 1984 год, 336 с.

Алибейли Г.Д. Иран и сопредельные страны Востока 1946-1978. М.: Наука, 1989, 255 с.

Ближний Восток взорван. На очереди Центральная Азия / "Свободная пресса", 4 noyabr 2015

Верещагин В.В. Повести. Очерки. Воспоминания. М.: Сов. Россия, 1990. 677 с.

В России и Центральной Азии опасается вербовщиков "Исламского государства" / "Вестник Кавказа", 19 sentyabr 2015

ДАИШ может перебраться в Афганистан / "Вестник Кавказа", 11 dekabr 2015

Джаванбахи С.Б. Факторы развития исламской цивилизации / Иран – Наме. Алматы: Издательство Национальной Библиотеки Республики Казахстан, 2009, №1(9), с.255-268

Гумилёв Л.Н. - Древние тюрки. VI-VIII вв. Москва: Наука, 1967. - 560с.

Гумилев Л.Н. Эфталиты и их соседи в IV веке // ВДИ. 1959 No 1. 600С.

Ду́гин А. Г. Основы Геополитики. М.: Арктогея, 2000, 459 с.

Ду́гин А. Г. Ось Москва – Тегеран: реальности и возможности геополитики / Современный Иран. М.: Коровий вал, 2011, №2, с. 162-169

Иванов М.С. История Ирана. М.: Издательство МГУ, 1977, 497 с.

Лукоянов А.К. Исламская революция: Очерки иранского опыта 1978 – 2009. М.: Издательство Институт востоковедения РАН, 2010, 329 с.

Муттахари Д.М. Краткий Экскурс по Нахдж – ул – балага / Иран – Наме. Алматы: Издательство Национальной Библиотеки Республики Казахстан, 2010, №2(14) с.5-57

Шан Юэ. Очерки истории Китая. М., 1959. 400 С

Сирийский кризис несет угрозы стабильности Центральной Азии и Кавказу / "Вестник Кавказа", 7 oktyabr 2015

İngilis dilində

Friedman G. The Geopolitics of Iran: Holding the Center of a Mountain Fortress. Austin: Strategic Forecasting Inc., 2009, 10 p.

Friedman L. From Beirut to Jerusalem. New York: Farrar – Straus & Giroux, 2012, 541 pp.

Lesser I., Beyond Suspicion Rethinking US – Turkish Relations. Washington: Woodrow Wilson International Center for Scholars, 2007, 110 p.

Lewis B. The Middle East: A Brief History of the Last 2000 Years. New York: Scribner, 1997, 448 p.

Mansfield P. A History of the Middle East: Fourth Edition. New York: Penguin Books, 2013, 567 pp.

Stephen F. Turkey Rediscovers the Middle East / Foreign Affairs. Washington: Published by Council on Foreign Relations, 2007, v. 86, № 4, pp. 103-114

Stockbauer B. Rebuilding America's Defense's and the Project for the New American Century. “Antiwar” (USA), Atherton – California, 2003, 18 June

"The National Security Strategy of the United States of America". Washington D.C.: The White House, 2002, 35 p.

Walker J. Learning Strategic Depth Implications of Turkey's New Foreign Policy Doctrine / Insight Turkey. v. 9, 2007, № 3, pp. 77 – 99

**Alman dilində**

Böhme J. Kleine Geschichte des israelisch – palästinensischen Konflikts. Schwalbach: Wochenschau Verlag, 2008, 144 p.

Johannsen M. Der Nahost-Konflikt. Wiesbaden: Verlag für Sozialwissenschaften, 2011, 175 p.

Friedrich Engels: Der Ursprung der Familie, des Privateigenthums und des Staats.Im Anschluss an L. H. Morgan's Forschungen. Schweizerische Genossenschaftsbuchdruckerei, Hottingen-Zürich 1884 (z. T. auch ‚Verlags-Magazin', Zürich 1884) 204 s.

Mathias R., Ulrich J. Studie zur Beteiligung der mittelosteuropäischen EU-Mitgliedstaaten am Forschungsrahmenprogramm: Analyse, Bewertung, Empfehlungen. Leipzig: BMBF Verlag, 2012, 281 p.

Pott M. Schuld und Sühne im gelobten Land, Israels Sonderolle im Schutz der westlichen Welt. Köln: Kiepenheuer & Witsch, 2002, 225 pp.

**Türk dilində**

Ali V. Devrim sonrası İran – ABD ilişkiləri. Ankara: Ankara Üniversitesi basımı, 2011, 109 s.

Altuğ Y. Terörün anatomisi. İstanbul: Altın kitaplar basımevi, 1995, 223 s.

Amin S. Liberal virus: sürekli savaş ve dünya'nın amerikanlaştırılması. Ankara: Maki Basın Yayın, 2004, 275 s.

Aras B. Filistin – İsrail Barış Süreci ve Türkiye. İstanbul: Bağlam Yayıncılık, 1997, 172 s.

Beyza T. Büyük Ortadoğu Projesi. Sivas: Cümhuriyyet Üniversitesi basımı, 2006, 191 s.

Bıyıklı A. Avrupa Birliğinin Akdeniz ve Ortadoğu ülkelerine: yönelik demokrasi ve istikrar politikalari. Konya: Selçuk Üniversitesi basımı, 2006, 120 s.

Dilek K. İranın Orta Asya Politikaları. Ankara: Tasarım-Basın, 2010, 101 s.

Direzinci A. 1990-2004 yillari arasında Türkiye ile Ortadoğu ülkelerinin ekonomik ilişkileri. Gaziantep: Gaziantep Üniversitesi basımı, 2005, 167 s.

Erceylan M. Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Üniversitesi basımı, 2007, 134 s.

Evcioğlu K. ABD-nin Büyük Ortadoğu Projesi. Baykənt: Alfa – Kaos – Omeqa – Tapınak, 2005, 478 s.

Filiz Ş. İslam ve Felsefe. İstanbul: Say Yayınları, 2014, 432 s.

Gordon T. Mossad gizli tarihi. İstanbul: Koridor yayıncılık, 2005, 472 s.

İzzeti İ. İran ve Bölge Jeopolitiği. İstanbul: Küre Yayınları, 2005, 344 s.

Kaynak M. Büyük ortadoğu projesi ve Türkiye üzerine stratejik analizler, İstanbul: Truva yayınları, 2008, 224 s.

Kaynak M., Gurses E. Büyük Ortadoğu Projesi. İstanbul: Profil Yayıncılık, 2004, 160 s.

Kumeyr Y. İslam Felsefesinin Kaynakları. İstanbul: Dergah Yayınları, 2015, 150 s.

Orçun Ş. 1990-2000 yillari arasinda Turkiyenin Ortadogu politikası ve ABD-nin rolu. İstanbul: Marmara Üniversitesi basımı, 2006, 125 s.

Parlar S. Ortadoğu vaat edilmiş topraklar. İstanbul: Yar yayınları, 2002, 97 s.

Primakov Y. Rusların Gözüyle Ortadoğu. İstanbul: Timaş yayınları, 2009, 400 s.

Sümer G. Amerikan Dış Politikasının Kökenleri ve Amerikan Dış Politik Kültürü. Ankara: Maltepe Üniversitesi basımı, 2008, 149 s.

Yiğit D. Avrupa Birliği'nin Akdeniz politikasının gelişimi. Ankara, Ankara Üniversitesi basımı, 2008, 181 s.

## İnternet resursları

ABD ambargolar ve AB ekonomik fikirleri

http://www.scribd.com/ABD-Ambargolar-ve-BOran-AB-Ekonomik-Fkileri

BOP Projesi

http://www.youtube.com/watch?v=ZUW-Tdz3AqO

İmam Mehdi

http://www.kitablar.com/details.php?book_id= 1096

Vilayəti – Fəqih nəzəriyyəsinə bir baxış

http://gunahkar-bende.ucoz.net/load/etiqat/vilaytifqih nzriyysinbirbaxis/6

Büyük Orta Doğu projesinin yeni görünümü

http://newtimes.az/tr/experts/155

Tüm yönleriyle Büyük Ortadoğu Projesi

https://www.youtube.com/watch?v=UtEd

Эрдоган о своей роли в претворении американского проека

https://www.youtube.com/watch7vHiArCGvA--FY

Стратагемы: Великий Ближний Восток

https://www.youtube.eom/watch7vH:fC5cPCc_Qg

Власть факта. Ближний восток.

https://www.youtube.com/watch7vHzSfdgUn2Iw

İranın "Qafqazda 17 şəhər" strategiyası

http://www.yeninefes.net/7pH3367

Холодная война: Ирак и Иран

http://www.youtube.com/watch?v=BiynpiONHJA

Уэсли Кларк генерал армии США

http://www.youtube.com/watch?v=L2VwBG2He9o

Middle East : İran

https://www.cia.gov/library/publications/the-world-factbook/geos/ir.html

Doğu Perinçek

http://www.aydinlikgazete.com/yazarlar/dogu-perincek.html

Ahmet Davutoğlu'nu Dişişleri Bakani Yapan Tarihi Sirri Açikliyoruz

http://www.odatv.com/n.php?n=ahmet-davutoglunu-disisleri-bakani-yapan-tarih-sirri-acikliyoruz-0406091200

Büyük Orta Doğu Projesi Ve Türkiye

Http://Www.Yenimakale.Com/Buyuk-Ortadogu-Projesi-Ve-Turkiye.Html

Delta Force. Операция "Орлиный Коготь"

http://airsoft.od.ua/index.php/airsoft-forum/viewtopic.php?f=98&.tH4602

Провал операции "Орлиный коготь". Иран 1979 год.

https://www.youtube.com/watch7vHBrdg5KUW8r8

Banu Avar – Sevr'den BOP'a TÜRKİYE

https:/ www.youtube.com/watch?v=OfUPOSB-nZc

Project for the New American Century. Statement of Principles

http://web.archive.org/web/20070810113753/www.newamericancentury.org/statementofprinciples.htm

The project for the new american century

http://web.archive.org/web/20070811202256/http://www.newamericancentury.org/aboutpnac.htm

Mərkəzi Asiyada terror təhlükəsi

http://newtimes.az/az/geopolitics/4129/

Böyük İpək Yolu III-XIII əsrlərdə

http://www.gumilev-center.az/boyuk-ip-k-yolu-iii-xiii-srl-rd/

Великий Шелковый путь - Города, страны и история Шелкового пути.

http://www.asia-travel.uz/uzbekistan/articles/great-silk-road/

http://www.bloombergview.com/articles/2016-01-05/obama-s-middle-east-balancing-act-tilts-toward-iran

## Mündəricat

Ön söz əvəzi..................................................................6
Sivilizaiyanın yaranması Freydo-Marksist konsepsiya....................................13
Əmək bölgüsü və ticarətin yaranması xalqları formalaşdırdı.......................17
Monoteizm-Reformator..................29
Dövlətin cəmiyyətə münasibəti prizmasından iki cür tarixi-siyasi fəlsəfə...............36
Geopolitik uyğunsuzluq, mənəvi apatiya radikallaşmanın əsas mənbəyidir......38
Ticarət kapitalizmi şərtləndirdi...........41
Kapitalizmin yaranması......................41
Sənayeləşmə............. 43
Təhsilin genişlənməsi.........44
Demos kratos, liberal demokratiya, xüsusi mülkiyyət...........45
Neo marksizmus təhsil.......45
Milli dövlət...........46
Qafqaz xalqları – assimilyasiya unifikasiya problemi......46
Böyük Orta Şərq Proyekti..............57
İslam qövmlərinin və qonşularının arzuları................83
İran: İnqilabın mistikası................103
İran: Şiri – Xurşid...............................................120
Şiə dövləti və “Böyük Orta Şərq Layihəsi”.............133
“Şeytani-Bozorg” – Böyük Şeytan şiəliyə qarşı...........141
İran, “Köhnə Qitə” və Yankilər.................159
Suriya..................173
Üfüqdə görünən..............177
ƏDƏBİYYAT........188

